# Tofiq Mehdi



# Dünya necədir, O necə işləyir?

=========================================

***HISSƏ İ.*** YARADICI AĞIL (KREATIV INTELLEKT) FƏLSƏFƏSININ ƏSAS BAXIŞLARI

Yeni *Yaradıcı ağıl* fəlsəfəsi
Cəmiyyət və insan anlayışı
Evolyusiya
Bəşəriyyərin sistem qanunları
Kapitalizmin tənqidi
Yaxşı cəmiyyət axtarışı

-----------------------------------------------------------------------------------

***HİSSƏ İİ.*** İİİ DÜNYA - *RUHLAR, FORMALAR, SURƏTLƏR, BOŞLUQ* DÜNYASI - HAQQINDA NƏZƏRİYYƏ

**Mistik dindən elmi dinə doğru**
**Dinlərin yaranması**
**Ruhlar proroklar vəhylər**
**Tanrı və allah nədir**
**Uğurun səbəbi**
**Dinlərin evolyusiyası və gələcəyi**







Rasional cəmiyyət uğrunda İctimai Birliyin nəşri. 2011, Mart

**Müəllif haqda.**
Tofiq Mehdi futuroloqdur və Dünya Gələcək Araşdırmaları Federasiyasının (www.wfsf.org) üzvüdür. O 5 texniki ixtira etmiş, 2000 - 2008 illərdə Rasional Cəmiyyət nəzəriyyəsini, özünün *Yaradıcı ağıl* adlı fəlsəfə sistemini; gələcəyin yeni elmi görmə metodunu yaratmışdır. Dünyanın yeni fiziki və fəlsəfi təsvirini vermişdir; görünməz və material dünyaların vahid nəzəriyyəsini yaratmışdır, tanrının uydurulmuş dini anlayışı əvəzinə tanrının elmi konsepsiyasını yaratmışdır. Ruhi aləm haqda böyük nəzəriyyə yaratmışdır. Azərbaycanın gələcəyini araşdırmış və onun missiyasını, məqsədlərini müəyyən etmiş; 55 strategiyasını hazırlamışdır. Bu biliklərin hamısı onun əvvəlki üç kitabında təsvir olunmuşdur: "Həqiqətə pəncərə" və "Rasional Cəmiyyətə Doğru" və "Uzundıraz, ağlıgöək padşah və müdrik alimin dastanı". Onlarla Axundov kitabxanasında həm kağız nəşri, həm internetdən (www.anl.az) elektron versiyada tanış ola bilərsiniz.

Bu kitabın heç bir hissəsi müəllifin yazılı razılığı olmadan
surətləri çıxarıla, nəşr edilə, satıla bilməz. Digər əsərlərdə istifadə edildikdə bu kitaba istinad edilməlidir.

**Dünya necədir, O necə işləyir? İ və İİ hissələr. Tofiq Mehdi**
Elmi publisistik kitab. İ hissədə Yeni *Yaradıcı Zəka* fəlsəfəsi, cəmiyyət və insan anlayışı, evolyusiya, bəşəriyyətin sistem qanunları, kapitalizmin tənqidi, yaxşı cəmiyyət axtarışı; İİ hissədə mistik dindən elmi dinə doğru, kosmoqoniya, ruhi dünya, proroklar, vəhylər, qəribə hadisələr, dinlərin evolyusiyası, gələcək və ruhi varlıqlar, tanrı nədir sualları işıqlandırılır.
Kitab başa düşənlər və anlamaq istəyənlər üçündür.

Müəllif hüquqları © Tofiq Mehdi. 2011
Bütün hüquqlar qorunur.
Kitabın nüsxələrini almaq üçün müəllifə sifariş verilə bilər.
Çap edilib: 18.03. 2011. Format 60x84 1/16. Həcmi 15,5 ç.v.
Tiraj 50 nüsxə.
Email: tofigmehdi@yahoo.com Tel (99470) 744 68 41 və 4776539

Üz qabığındakı şəkillərə izahat: bizim qalaktikanın-dünyanın fiziki modeli; kəsikdə görünüşü; tetraedr – dünyanın, şeylərin və hadisələrin yaranışı və dəyişiliyinin "tetraedr hüceyrə" modeli . Müəllifi özüm.

*Rasional Cəmiyyət Uğrunda* ictimai birliyin nəşri. Bakı. 2011. Mart

Rasionallıq prinsipi:
Hər şeyin müəyyən məkanda
və zamanda daha yaxşısı var.
Tofiq Mehdi

DÜNYA NECƏDIR (nədir), O NECƏ IŞLƏYIR ?

İ HİSSƏ

# Yaradıcı ağıl (Kreativ intellekt) fəlsəfəsinin əsas baxışları

KİTABIN TƏRKİBİ


Müəllifin kitaba giriş sözü .................................................. 5

1. Yaradıcı ağıl (Kreativ intellekt) fəlsəfəsinin əsas müddəaları .................................. 17
Yaradıcı ağıl (Kreativ intellekt) fəlsəfəsinin əsas fəlsəfi anlayışları .................................................. 19
Zaman anlayışı .................................................. 24

1.2 Yaradıcı ağıl (Kreativ intellekt) fəlsəfəsinin mövcudiyyətin quruluşu və dəyişməsi haqqında nəzəriyyəsi .................................................. 33
Bütöv kainat–kosmos.
1.*Material*, 2. *keçid* və
3. *forma-surət-ruhi-boşluq* dünyalar .................................. 43

1.3 Material dünya və onun evolyusiyası ............................ 45
Material Dünyanın universal qanunları ....................... 49
Material dünyanın ümumi prinsipləri .......................... 55
Suallara cavablar .................................................. 58

2. Gələcəyin araşdırılması(futurologiya) ............................ 63

Determinizm yoxsa azadlıq? ........................................... 66
Gələcəyin nəzəriyyəsi...................................................... 70
Həyatın tetraedr hüceyrəsi................................................ 74
Gələcəyi görmənin əsaslandığı mülahizələr.................... 76
Gələcəyə doğru hərəkət necə formada baş verir?............ 97
Gələcəyin müəyyən edilməsində səhvlər ........................ 106
Yaradıcılıq,  Ixtiraetmə.................................................... 107
İstinad mənbələri ............................................................ 114

***Müəllifin giriş sözü.***

Bu oxuduğunuz *Yaradıcı ağıl (Kreativ intellekt) fəlsəfəsinin əsas baxışları* adlı kitab **Dünya Necədir, O Necə Işləyir?** adlı 4 hissəli bütöv kitabın İ hissəsidir. Maliyyə çətinliyi ilə əlaqədar olaraq mən onu ayrı - ayrı nəşr etmək qərarına gəldim. Bütövlükdə bu kitab beynəlxalq ingilis dilli bəşəriyyət üçün nəzərdə tutulmuşdur. Bu kitab heç bir dini, milli və siyasi mülahizələr ilə məhdudlaşmamış, azad fikirlərdən ibarətdir. Bu kitabı insanlara və xalqlara yaxşılıq etmək məqsədilə yazmışam. Lakin onlaran heç nə ummuram. İmkanlar yarandıqda ingilis dilində bu kitabı nəşr etmək mənim birinci məqsədimdir.

Bu kitabı yazmaqda məqsədim bəşəriyyətə və hər bir insana, hər bir millətə bəzi həqiqətləri açmaq və onların öz icmalarını, ailələrini cəmiyyətlərini və onların həyatında böyük rol oynayan qlobal bəşər sistemini səmərələşdirmələrində kömək etməkdir. Çünki elə bizə yaxın olan öz ailəmizi yaxşı qurmasaq, həyat yoldaşımızı düzgün seçməsək və öz həyat yoldaşımızla, uşaqlarla, nənə və babalarla, öz tayfamızla, öz kəndimiz, şəhərimiz, ölkəmizin cəmiyyəti ilə düzgün münasibətlər qurmasaq, bütövlük əldə etməsək, ümumi və şəxsi strategiyaları düz seçməsək, inkişafın, idarənin, iqtisadiyyatın, mədəniyyətin düzgün modellərini, ümumi istiqamətə yönəlmiş fəaliyyət seçməsək, biz uzun müddətli dayanıqlıq – normal inkişaf və uğurlu gələcəyi olan həyat əldə edə bilmərik. Biz inkişaf edə, özümüzü qoruya bilmərik, uğursuzluğa düçar olarıq, məhv olub gedərik.

Habelə mən son dövrdə dünyada baş verən bəzi hadisələrə qiymət verməyi də lazım bildim. Belə ki, məhz hadisələrin qiymətləndirilməsi çox vacibdir, hansı ki çox vaxt səhvlər, illuziyalar olur. Digər tərəfdən, hər sosial qrup çalışır öz mənafelərindən qiymət versin və təkcə öz həyatını, fəaliyyətini yaxşılaşdırmaq üçün planlar qursun. Belə baxışda bütün qalan insanlar, təbiət, ehtiyatlar ancaq vasitə kimi istifadə edilir, hər şey qurban verilir və onların da qayğısı çəkilmir. Əldə edilən nəticələrin, məhsulların, gəlirlərin daha böyük hissəsi hansı ki bərabər əməklə əldə edilmişdir, təşkilatçı, kapital sahibi tərəfindən şəxsən mənimsənilir. Və bununla ədalətsizlik başlanır. Muzdlu nə qədər səmərəli və çox içləsə də son nəticədə gəlirin böyük hissəsini sahibkar götürəcək, o isə yalnız minimal və daha aşağı yaşayış səviyyəsinə malik olacaq. Təbiət və iqtisadiyyat yalnız bir qrup insanların varlanmasına yönəldilir, çoxları isə ac və kasıb yaşayır. Belə reallıq bütövlükdə bəşəriyyətin və ya ölkə daxilində əhalinin əksəriyyətinin mənafelərinə ziddir. Belə ki, hər

ölkədə güclü qruplar öz təşkilatları ilə öz mənafelərini aktiv olaraq qoruyursa, qanun və sərəncamlarla onun yaxşı olmasını təmin edirsə, böyük əhali çoxluğunun mənafeyini kim qoruyacaqdır? Bu çoxluğa çox az hallarda mitinqlər, nümayişlər, tətillər keçirməkdən ibarət etiraz imkanı, əksər hallarda heç bir etiraz imkanları verilməmişdir.

Maraqlıdır, dövlətlər cəmiyyəti düçar etdikiləri keyfiyyətsiz həyatın həqiqi səbəblərini tapıb düzəltməyə çalışmırlar, çünki bunun özlərinin fəaliyyəti nəticəsi olduğunu bilirlər. Əksinə onlar bu yazıq həyatı maskalayır, ictimai sistemin yaxşı olduğu haqda nəzəriyyələr uydururlar. Bunları dövlət liderləri və dövlətə tabe olan sosial elmlər edirlər. Bu elmlər həqiqəti tapmaq deyil, yalan uydurmaqla, bütün tarixi saxtalaşdırmaqla, mifik məqsədlər uydurmaqla, dövlətin siyasətini tərifləməklə, eyiblərini gizlətməklə, dövlət liderlərinin sitayiş kultunu yaratmaqla, onların yeganə rəhbər olmaqları haqda təbliğatla, onlara kitab yazmaqla məşğul olurlar.

Dövlətlərin hakim vəzifələrini tutanlar heç cürə şəxsi mənafesini ictimai mənafeyə qurban vermirlər, şəxsi mənafe onların birinci məqsədidir. Buna sübut sovet dövlətinin dağılması dövrü və yaranan müstəqil ölkələrdə gedən proseslərdir. Həmin rəhbərlər hansı ki əhalinin ən şüurlu , nümunəvi əxlaqi kommunist insanı hesab edilirdi, bütün respublikalarda torpağı və digər gəlirli yerləri öz əllərinə keçirtdilər, öz xeyirləri üçün istehsalı, sənayeni, elmi, texnikanı, təhsili məhv etdilər və ölkələrini Qərb və ABŞ üçün xammal və bazara çevirdilər, xalqdan soruşmadan və razılıq almadan ölkəni mafioz kapitalist quruluşuna keçirtdilər, özləri də böyük tacir monopolistlərə çevrildilər. Bu fakt gösərir ki, dövlət vəzifəsi tutan insan (nazir, prezident, bütün məmurlar, deputat, yerli icra başçıları) nə qədər öz vətəninə, öz xalqına qarşı düşmən ola bilər? Bütün müstəqillik ideyaları və fəaliyyətləri arxasında güclü hegemon siyasi qüvvələrin şəxsi varlanması üçün azadlıq əldə etməsi məqsədi dururdu. (Əslində xalqlara müstəqillik deyil, daha optimal, rasional birlik qurmaq lazım idi. Məgər belə bir birlik –Avropa İttifaqı yaxşı sübut deyil?).

Bir Qafqaz respublikası, burada bir jurnalist rəsmi məhkəmə tərəfindən səhv hesab edilən hansısa ifadələr işlətdiyinə görə həbs olunmuşdur, digəri ABŞ-n İrana hücum edəcəyi halda nə olacağı haqda proqnoz verdiyi üçün həbs olmuşdur və cinayətkar hesab edilir. Lakin ölkəni ağır vəziyyətə salan, öz şəxsi mənfəətini güdərək ölkənin böyük bir hissəsinin işğal olunmasına imkan vermiş, lazımı tədbirlər və təşkilati iş göməmiş, elmi, texnikanı, institutları, istehsalı, təhsili, səhiyyəni məhv edən, insanları çətin vəziyyətə salan və emiqrant edən və intihar etməyə məcbur edən idarə strukturu eynilə cinayətkardır və

həbs olunmalıdır. Lakin hanı belə qanun? Həmin cinayətkar dövlət bu qanunu biləraəkdən özü qəbul etməmişdir. Bəs deputatlar? Axı onlar xalqı təmsil edirlər? Buradan belə nəticə çıxır ki, məhz təmsil etmirlər, özlərini, öz bisneslərini, öz gəlirlərini təmsil edirlər. Bu həqiqətləri xalqlar bilməlidir və nəticə çıxartmalıdır. Demək olar ki, bir qrupu çıxmaqla, bütün dövlətlər qəddar, istismarçı, ədalətsizliyi qoruyan funksiynı icra edirlər. Niyə ? Çünki onlar bütün xalqın deyil, bir qrup kapitalistin yaratdığı və xalqı isə aldadaraq öz nümayəndələrini deputatlığa və dövlət vəzifələrinə təyin etmiş dövlətdir. Bu kitabda irəli sürülən rasional cəmiyyət ideyası məhz bu vəziyyəti -təkbaşçılığın yaratdığı eyibləri ləğv etməkdir. Bunun üçün elə təkbaşçılığın özünü ləğv etməkdir. İnsanları məmurlardan, siyasi strukturun özbaşınalığından xilas etməkdir. Əgər bəşər sistemində kasıb və ya inkişaf etməkdə olan dövlətlər olmasaydı, qabaqcıl kapitaist dövlətlər bankrot olardı. Onların əsas gəlirləri məhz bu dövlətlərdən gəlir.

Nə üçün biz istədiyimiz qədər, arzu olunan dərəcədə kamil deyilik? Əlbəttə əgər biz yaşaya biliriksə, demək, buna lazım olan kamilliyə malikik. Lakin necə yaşayırıq və ya nə qədər insan yaxşı, nə qədər pis yaşayır sualını verəndə bizim ağlımız aşkar edir ki, biz xeyli az dərəcədə kamilik. Bizim kamilliyimiz məhz bizim guya özümüzün "qurduğumuz" ictimai iqtisadi sistem tərəfindən məhdudlaşdırlmışdır. Nə qədər biz, hansı qrupda oluruqsa olaq, çalışsaq da sistem bundan artıq kamilləşməyə imkan verməyəcək. Biz hansı məqsədlərimiz üzrə təkmilləşməliyik və məqsədimiz nə olmalıdır? Çünki biz həyatda əvvəl məqsəd seçirik, sonra onu həyata keçirmək üçün materiallar, zaman, yer, vasitələr, alətlər, biliklər, tədbirlər, dəyərlər, üsullar, maddi imkanlar, pul, vaxt seçirik. Biz sistem daxilində bir tərkib elementi olduğumuz üçün bu sistemin verdiyi həddə qədər kamilləşə bilərik. Hər birimizin yaşadığımız ictimai sistemlər isə həddən artıq müxəlif olduğu kimi müxtəlif də kamilləşmək üçün sərhədləri vardır ki, biz o sərhədləri keçə bilmərik. Deməli, biz birinci növbədə sistemin kamillik sərhədlərini tələb olunana qədər artırmalı, hamıya optimal həyat verəcək dərəcədə onu yenidən qurmalıyıq. Bu çox təbiidir ki, nə Şərqin insanın özünün kamilləşməsi məsləhəti, nə Qərbin ağa-qul təməl strukturunun qalması şərti ilə sistemin ağalara verdiyi imkanların sərhədlərinin artırılması, qullara (muzdlu işçilərə) isə şüurları manipulyasiya edilərək həyat imkanlarının cüzi artırılması bəşəriyyətin əsas problemini -hamı üçün optimal həyat yaradılmasını həll etməmişdir. Insan nə qədər çox kamilləşə bilsə də- bu təlim və tərbiyə ilə mümkündür - sistem nadan ( rüşvətxor, məmur özbaşınalığı, rəhbər diktaturası, qanunsuzluq, ikiüzlülük) qalarsa bu faydasız olacaqdır

insan da həmin nadan sistemin tələb etdiyi nadan insana (rüşvət verənə, aldadana, dələduza, əxlaqı pozana) çevriləcəkdir. Bu postulatı mənim gördüyüm sosialist və yeni mafioz kapitalizm sistemi sübut edir. Demək, şərqin və qərbin bu təklifləri kafi, ağıllı və səmərəli deyildir. *Hamı üçün xoş həyat və ədalət* şüarı bütün filosof və sosioloqların yaradıcılıq məqsədi, adi insanların, dövlətlərin, təşkilatların, icmaların isə fəaliyyət planı olmalıdır. Hələ tarixdə bu problemi Marks, Engels və Lenindən başqa belə praktiki həllini irəli sürən olmamışdır. *Tarix ayrı- ayrı qrupların, sosial təbəqələrin yalnız özləri üçün bu ehtiycın başa düşülməsi və mübarizəsi və nəticədə hakimiyyətdə özünə yer eləməsi, yalnız özü üçün çalışması, qalan əhalinin isə vasitə kimi istifadə edilməsi tarixi olmuşdur*. Nəticədə insan tarixinin mahiyyəti dəyişməmişdir. Bu mahiyyət ağalar və qullar; idarə edənlər və idarə olunanlar; istismar edənlər və istismar olunanlar; işləyənlər və yeyənlər; təbiətin sahibkarları və muzdlular - əkslikləri formasında eyni qalmışdır.

Bu əks cütlüklərdən yalnız idarə olunanlar və idarə edənlər qruplarını birləşdirməklə, müəllif bütün tərəflər arasında optimal harmoniya yaranacaqı, ədalətin və xoşbəxtliyin hamı üçün əldə edilə biləcəyinə inanır. Bu birləşmənin sirrini elə indi də aça bilərəm – idarə olunan və idarə edən statusların ikisi də ləğv olunur, əvəzində özünü idarə edən cəmiyyət, təşkilat, kollektiv yaranır, dövlət və cəmiyyət birləşir, eyni olur. Yəni hər kəs həm idarə edir, qanun verir, həm də həmin qanun və idarə qərarının icracısı - idarə olunan olur. İştirak etmək istəməyənlər isə iştirak edənlərin qərar və qanunlarını avtomatik qəbul edir, onlara demək, inanır. Lakin hamı üçün imkanlar açıqdır.

Bizi Homo sapiensimus - ağıllı adamlar adlandırırlar. Biz "nə olar - olar" deyib keçmişdən bizə nə öyrətmişlər, təkcə onlarla gələcəyə gedə bilmərik, keçmişə əməl etsək, keçmiş modellərlə, paradiqmalarla, etalonlarla yaşasaq elə keçmişdə qalarıq. Bu zaman biz təbiətlə, elə "qeyri – biz" mühitilə böyük ziddiyyət təşkil edən davranış seçmiş olarıq. Təbiət, bütün kainat, cəmiyyətin digər sahələri, qonşular daim evolyusiyada, dəyişməkdə, təkmilləşməkdə olduğu halda bizim keçmişlə yaşamağımıza heç bir əsas yoxdur. Biz yalnız irəliyə, bütün dünya ilə birlikdə evolyusiya edərək irəliyə getməliyik. İnkişafa, yeni insan birliyinə, qlobal birliyə mane olan bütün nəzəriyyələri, eynilə millətçi, qəsbkar nəzəriyyələri, ermənilərin yenidən torpaqları bölmək çağırışlarını, dini göstərişləri, bütün buxovları rədd etməliyik. Biz keçmişin fəaliyyət və bilik təcrübəsi ilə gələcəyin tələblərini və ağlımızı birləşdirməklə bizi geri çəkən problemlərdən xilas olmalıyıq. Biz gözləməməliyik ki, gələcək bizə hansı problemlər yaradacaq ki,

onun araşdıraq və həll etməyə çalışaq. Biz millətçilərin istədiyi kimi əraziləri yenidən bölmək deyil, əraziləri birləşdirməklə inkişaf yolunu seçməliyik.

Biz məhz dünyanın inkişaf üsulunu yaxşı dərk edib, yəni aparıcı trendləri, inkişaf xəttinin üzərində gələcəkdə gözlənilən və ya arzu etdiyimiz yaxşı, uğurlu nöqtələrini fasiləsiz tapmalı, oraya cığır salmalıyıq, yəni strategiya qurub, fəaliyyətimizi planlaşdırmalıyıq, yaxşı gələcək üçün yarışmalıyıq. Lakin biz bilməliyik ki, bütün material və canlı dünya obyektləri öz üstün xassələri və potensiallarına görə qarşılqlı əlaqədə olaraq üstünlərin saldığı yol ilə, yaratdığı qayda ilə yaşamağa məcbur olur. İnsan cəmiyyətində isə əlavə olaraq axmaqların (habelə var- dövlət hərislərinin, biliksizlərin, zəiflərin, mənəviyyatı aşağı olanların), hiyləgərlərin tələsinə uyması və onların mənafeyinə işləməsi baş verir. **Lakin ağıla malik insan və onun cəmiyyəti üçün bu həyat üsulu qəbul edilməzdir.**

İnsan cəmiyyəində bütün inkişaf trendləri, baxışlar, qaydalar, adətlər güclü adamlar, qruplar (siyasi, iqtisadi, texniki, dini) tərəfindən yaradılmış və cəmiyyətə düzgün yol adı ilə sırınmışdır. Məsələn, *liberal kapitalizm* ideologiyası və fəaliyyəti varlı kapitalistlər tərəfindən yaradılmış və şüurlara faydalı metod kimi yeridilmişdir. lakin bu metod bəşəriyyəıti fəlakətə gətirdi, istismarı artırdı və qanuniləşdirdi, təbiəti korladı, yalnız müftəxor kapitalistlərə və məmurlara faydalı oldu. *Konsumerizm* yenə də monopolist kapitalistlər tərəfindən uydurulmuş və həyata keçirilmişdir. Nəticəsi: böhranlar yaratmış, kasıb və inkişaf eməkdə olan dövlətlər hesabına güclü kapitalist dövlətlərdə kapitalist sinfinin yaxşı həyatı əldə edilmişdir, təbiətin ehtiyatları sürətlə belə xalqların həyatına sərf edilmişdir və tükənməyə az qalmışdır, təbiətə böyük zərər vurulmuşdur. Bir fırıldaqçı modelyer tərəfindən yaradılmış *beli kəsik şalvarlrarın reklamı ilə* bütün ağılsız qadınlar – qızlar dünyası 2007 ildən bəri belə şalvar almış və geymişdir. Nəticədə fırıldaqçı modelyer və firmalar xeyli pul qazanmış, qadınların isə fiquru korlanmış, hərəkətin rahatlığı pozulmuş, çanaq sümükləri deformasiyaya uğramış və uşaq doğması çətinləşmişdir. *İnsan hüquqları və demokratiya* təbliğatı da məhz həmin məqsədlər üçün deyil, dünyanı parçalamaq və yenidən bölmək, kapitalist elitanın mənafeyi məqsədilə yaradılmışdır. Bu ideyalarla SSSR dağıdılmış, lakin ona daxil olan xalqlar hələ də 20 ildir insan hüquqları və demokratiya görməmişlər, bütün ictimai əmlak, torpaq 15-20% varlıv ə keçmiş partiya elitasının əlinə keçmiş, həyat çətinləşmişdir. İstənilən qədər misallar göstərmək olar ki, bu günkü bütün ideyalar, şüarlar xalqlara, təbiətə xeyirli deyil, yalnız və

yalnız hakim varlı kapitalist elitaya xeyirlidir. Dünyada keçirilən bütün konfranslar, sammitlər, görüşlərin məqsədi bu elitanın necə dünyanı və xalqları istismar etmək, öz gəlirini necə artırmaq, bunun üçün istismarçı qüvvələrin qruplar formasında birləşməsi, dünyanı və xalqları istismar zonalarına bölmək, özlərinin təhlükəsizliyini qorumaqdır. Bəşəriyyətin və ölkələrin idarəsinin belə qruplar, krallar, diktatorlar, prezidentlər formasında idarə üsulu qaldıqca hamı birlikdə məhvə sürüklənir və bütün məhkəmələr də onlara mənsub olduğu üçün onları ittiham etməyə bir dənə də məhkəmə yoxdur. Ümumiyyətlə dövlətlərin daxili məsuliyyəti: insanların həyatını pisləşdirmək, səhv idarə etmək, diskriminasiyaya yol vermək; habelə beynəlxalq və təbiət qarşısında məsuliyyəti - başqa ölkələri dağıtmaq, zəiflətmək, parçalamaq, konflikt yaratmaq, sudan məhrum etmək, təbiəti korlamaq haqda qadağanlar konstitusiyalarda, qanunlarda BMT nizamnaməsi və qərarlarında göstərilməmişdir və yaxud forma üçün edilmişdir. BMT ümumiyyətlə öz funksiyasını tam icra etmək qabiliyyətinə malik deyildir - əsas funksiyası dünyanı 5 güclü dövlət tərəfindən razılıqla, dalaşmadan istismar etmək alətidir. Biz görürük ki, bütün bəşəriyyətin, hər ölkənin bütün əhalisinin, bütün təbiətin qayğısına qalan, onun qorunmasına yaxşı həyatına xidmət edən bir təşkilat, dövlət yoxdur. Səbəb our ki, hər ölkədə siyasi siniflər, partiyalar hakimiyətdədir və onların da marağı yalnız özləridir, qalan hər şey onlar üçün vasitədir. Hələ ki dünyada qruplar, siniflər, partiyalar, tək diktatorlar hakimiyətdə qalacaqdır, bu belə olacaqdır. Ona görə də təbiəti, yer planetini və insanlığı xilas etmək üçün təcili belə hakim idarə etmək üsulundan imtina etməli və hamının iştirak edə biləcəyi kollektiv idarə və qanun vermə üsuluna keçmək lazımdır. Bu barədə müəllif öz rasional cəmiyyət nəzəriyyəsində ətraflı bəhs edir.

Beləliklə insanların, cəmiyyətin və bütövlükdə bəşəriyyətin obyektiv strategiyalara, obyektiv biliklərə ehtiyacı vardır. Bu strategiyalar yalnız müstəqil, heç bir istisadi, siyasi qrupun təsiri olmadığı azad elm tərəfindən yaradıla bilər. Belə bir elm müəllifin irəli sürdüyü *rasional cəmiyyət* konsepsiyasını reallaşdırmaq vasitəsilə əldə edilə bilər.

İnsanlar bilməlidirlər ki, onların malik olduqları statuslar, həyat şəraiti, inkişaf səviyyəsi, idarə qabiliyyəti nəyin nəticəsidir. Nə üçün bəziləri varlı, bəziləri kasıbdır? Hansı quruluş sistemi, hansı qüvvələr, hansı dünya baxışlar, adətlər, ənənələr, onların həyatında, uğur və uğursuzluqlarında müəyyən edici rol oynayır və necə oynayır? Dinc şəraitdə, zorakılıq olmadan, aldatmadan arzu edilən və hamı üçün xoşbəxt həyat necə qurula bilər? Diqqətlə baxılsa mövcud

cəmiyyətlərdə görərik ki, məhz bir sinfə üstün imkanlar yaradılmışdır, yerdə qalanlara isə belə imkanlar yaradılmamışdır və təsadüf deyildir ki, kimlərə imkanlar yaradılmışsa elə onlar və onların nümayəndələri hakimiyyətdədir.

Böyük dərəcədə bu imkanlar:

1) *mən və cəmiyyət, mən və ailə, qardaş, bacı; biz və özgələr; biz və dövlət; biz və bəşəriyyə*t münasibətlərinin səlahiyyətindədir;

2) mən, biz necəyik?- sualının cavabındadır və

3) cəmiyyət-dövlət, kollektiv, idarə, təşkilat necə qurulmuşdur sualının cavabından asılıdır. Bu 3 qrup amillərin qarşılıqlı nəticəsi 4-cü amildir -həyatdır, bizim mövcud vəziyyətimizdir.

İnsanlar həyata öz qarınlarının toxluğu ilə, şəxsi problemlərinin olmaması ilə qiymət verməməlidirlər, bu həddən artıq subyektivdir. Çox ağıllı insanlar, hansı ki yaşadıqları sistemin müəyyən imkanları nəticəsində varlı olmuşlar, başa düşürlər ki, təkcə onların yaxşı həyatı hamı üçün həyatın yaxşı olması demək deyil. Əgər cəmiyyət quruluşu 20-30% əhaliyə yaxşı həyat bəxş etmişsə və siz bunlardan birisinizsə, digər 70% əhali belə cəmiyyəti yaxşı cəmiyyət saymır. Belə ədalətsiz və razılaşdırılmamış proporsiyaların nəticəsində daxil olduğunuz 20% əhali daim digər 80% əhali tərəfindən təhlükədə yaşamağa, əmlakı oğurlanmağa, yandırılmağa, ailə üzvləri öldürülməyə, nifrətə məhkumdur. Niyə? Çünki sizlər daim siyasi iqtisadi dominantlığınıza görə məhz həmin 80%-in kasıb qalmasına, imkanlardan məhrum olmasına, sizlər tərəfindən istismar olunmağa, qul kimi istifadə etməyə səbəbsiniz. Məsələ orasındadır ki, bu konkret quruluş məhz bu parametrləri əldə etmək üçün qurulmuşdur, ondan artıq nəticə - digər 80%-ə də yaxşı həyat verməyə sadəcə qabil deyil. Bunun üçün başqa sosial konstruksiya lazımdır. Qurulmuş ictimai sistemlər isə daimi siyasi sistem, yəni bir qrupun ağalığı və öz sinfinə imkanlar yaratması, başqalarını diskriminasiya etməsi olduğu üçün yalnız hakim sinfə üstünlüklər verir. Ona görə də insanlar malik olduqları ictimai sistemi dəyişməli, onun hamıya imkanlar verə bilməsi üçün, habelə ağılla, səmərəli işləməsi üçün yenidən layihə etməlidirlər. Bəs buna kim mane olur? Cavab budur ki, məhz həmin bu sistemdən üstün xeyir alan 20-30% həmvətənimiz və ya həmplanet üzvlərimiz buna qarşıdır. Niyə? Axı bizim mənəvi dəyərlərimiz ədalətə çağırır. Lakin reallıqda həmin qrup məhz müxtəlif sofistik izahlarla öz üstün xeyirlərini əsaslandırır, qurduqları dövləti, iqtisadi sistemi, dəyərləri yeganə düzgün elan edirlər, cəmiyyəti istsmar etməkdən əl çəkmirlər. Lakin onların fikirləri qalan 70-80% insan üçün düz deyildir. Cəmiyyətin bütün üzvlərinə eyni imkanlardan istifadə etməklə yaşamaq imkanı verməyən

ictimai, iqtisadi sistem, nəzəriyyələr, baxışlar o cəmiyyət üçün səhvdir, cinayətdir.

Bizim fərdi həyatımız və inkişafımız- elmi tədqiqatlar göstərir ki - 1) həm özümüzdən, həm də 2) bizim yaşadığımız ictimai, iqtisadi, siyasi və bioloji, təbiət mühitindən asılıdır. Mühit, populyar mənada allah imkan verməsə biz əxlaqa əməl edərək heç nə edə bilmərik- biz həyatın dibinə - dilənçiliyə düşə bilərik. Əxlaqı pozduqda isə belə mühitdə yalnız çox cüzi miqdarda adamlar, tədqiqatlara görə 15-20% insanlar optimal və daha varlı həyata sahib ola bilər. Bu ictimai sistemin maksimum verə biləcəyi səviyyədir. Açıq cəmiyyətlərdə isə başqa xalqların hesabına varlıların miqdarı 40%-ə qədər ola bilər. Bizim özümüzdən asılı olan gələcəyimiz, bizim fəaliyyətimizdən, şəxsi potensialımızdan, biliklərimizdən, dəyərlərimizdən, adətlərimizdən və dünyanı necə dərk etməyimizdən –ümumi fəlsəfi baxışlarımızdan - bütövlükdə mədəniyyətimizdən asılıdır.

İnsan cəmiyyətləri daim iki kənar - demokratiya və tiraniya sərhədləri ilə məhdudlaşdırılmış inkişaf yolu ilə getmişlər. Bu sərhədlərin arasında monarxiya, prezident monarxiyası, prezident despotizmi, respublika, aristokratiya, oliqarxiya, və onların müxtəlif kombinasiyaları yaranmışdır. Lakin keçmiş belə tarix səmərəli və rasional (ağılauyğun) olmamışdır və indiki onların müxtəlif kombinasiyası, müxtəlif proporsiyası da elədir. Onların heç biri yaxşı deyildir. Platon və Polibiydən başlayan qüvvədə olan belə bir *polity* - hüquqi konstruksiya (dövlət) insanların idarədə iştirakı miqdarı və pulunun miqdarı parametrinə görə yaradılmışdır. Bu baxışı rədd edərək yeni era üçün yeni baxış qəbul etməliyik. Belə yeni baxış idarənin iki əks: *nadanlıq* və *ağıllılıq* kriteriyaları və ya sərhədləri əsasında konstruksiya edilməsinə əsaslanır. Hətta digər cüt kriteriyalar da əlavə edə bilərik: a) *təklərin (bir neçə adamın) yaxşı həyatı*, b) *çoxların – hamının yaxşı həyatı* .

Kitabda dünyanın və cəmiyyətin konstruksiyası, strukturu, ümumi prinsipləri, xassələri əvvəl qısa müəyyən edilir və insan və cəmiyyət haqda baxışlar və onun daxilində isə *insan və cəmiyyət necə yaxşı konstruksiya edilə və insan xoşbəxt yaşaya bilər* sualına cavab axtarılır və verilir.

Kitabda dünyanın fundamental prinsipləri təsvir edilir və dünyanın quruluşunun yeni strukuru, yeni *zaman, keçid* və *surətlər - xəyalar –ruhlar* dünyası, *rasional cəmiyyət* anlayışları yaradılır. Yeni materiya anlayışı təklif edilir və onun sərhədləri müəyyən edilir. İndiyədək hər şeyə səhvən materiya deyilirdi. Dünya necə işləyir

sualına cavab verilir. Bir çox mövcud baxışlar tənqid edilir və şübhə altına alınır.

Bu kitabda mən qəsdən abstrakt terminlər, abstrakt fəlsəfi anlayışlar işlətmirəm. Sadə cümlələrlə məhz həyatın faktlarına istinad edərək mən öz fikirlərimi çatdırmağa çalışmışam. Qeyd etməliyəm ki, müasir fəlsəfə elmi xeyli dərəcədə mücərəd terminlərlə doldurulmuş onu başa düşməyi çətinləşdirmişdir.Tarixin həqiqi filosofları ölmüş, onların yerinə bir neçəsini çıxmaqla, əsasən çılız, anlamayan, əzbərçi formal filosoflar gəlmişdir. Səbəb nədir? Səbəb odur ki, xeyli biliksiz adamlar fəlsəfəyə gəlmiş və mücərrəd terminlərlə danışaraq özlərinin nəyisə bilməklərini göstərmək istəyirlər. Onların yazdıqları fəlsəfə deyil, yalnız filosoflardan köçürülmüş şparqalkadır, ona örə də cansız və real həyatla əlaqəsi yoxdur. Belə yarımçıq filosoflar heç özləri də öz dediklərini başa düşmürlər. Abstarkt fəlsəfədən praktiki, asan təsvir olunan və həyatda tətbiq oluna bilən, yaradıcılıq, həyat davranış instruksiyası funksiyasını icra edən yaradıcı fəlsəfəyə keçid zəruridir. Qoy tək- tək bəzi yerlərdə meydana çıxan həqiqi filosoflar bu məsələni həll etsinlər. Yeni fəlsəfə yaratsınlar ki, hamı onu stolüstü kitab kimi həvəslə evdə saxlasın və gündə oxusun. Ona görə bu yeni fəlsəfəni *yaradıcı ağıl* fəlsəfəsi adlandırıram və bu kitabda elə bunu təsvir edirəm. Quranı, Bibliyanı deyil, məhz bu fəlsəfəni oxusun. Məhz bu prinsiplə kitabda mən öz konstruktor ağlımla formulə etdiyim yeni *Yaradıcı ağıl (Kreativ intellekt) fəlsəfəsini* təsvir etmişəm. Budur, universitet tələbəsi evə gəlir və fəlsəfədən kəsildiyini deyir. Izah edir ki, o heç nə başa düşmür, müəllim isə hər tələbədən 3 qiyməti üçün 70$ pul tələb edir. Məgər müəllim bir şey öyrətmişdirmi ki, indi imtahan götürür? Bu hadisənin mahiyyəi odur ki, təhsil sistemi sadə dildə elementar fəlsəfi anlayışları izah edə bilmir, təlim verə bilmir və məqsəd bilik öyrətmək deyil, rüşvət almaqdır. Uşaqda nə günah var, günah nadan təhsil sistemindədir ki, o da öz növbəsində siyasi sistemin (hakim sülalənin və ondan asılı varlı sinfin) nəticəsi və onun mənafeyinə uyğundur.

Dünyanın ümumi prinsipini klassik fəlsəfə müəyyən abstrakt və natamam, primitiv formada izah edir. O deyir: “dünyada əksliklərin mübarizəsi dünya inkişafının mahiyyətini təşkil edir” və ya “bütün dünya hərəkətinin mənbəyi ziddiyyətlərdir”. Belə demək hələ heç nə demək deyil. Belə demək dinlərin - “hər şeyi allah yaradıb və hər işi, hər hadisəni allah edir, buna qarışmaq olmaz” – fikri ilə ekvivalentdir. Belə yarımçıq baxış nəticələr haqda, gələcək haqda, inkişafın istiqamətləri və onu insan (cəmiyyət) tərəfindən yönəltməyin mümkünlüyü haqda heç nə deyə bilmir. Ziddiyyət anlayışını onlar

hələ tam yarada bilməmişlər, hansı ki iki obyekt arasındakı münasibətlərin yalnız müəyyən dövrdə olan bir halıdır. Qalan hallarda orada ziddiyyət yoxdur- müvazinətləşmiş – harmoniyalaşmış hal vardır. Müasir bütün tarix ərzində toplanmış və ifadə edilmiş, lakin mənim fikrimcə kal adlandırıla bilən bu fəlsəfənnin ümumi baxışına görə "dünya belə gəlib, belə gedəcək", yəni "daim əksliklər mübarizədə olacaq və gələcək naməlum, çox variantlı qalacaq, onların mübarizəsi nəticəsi istənilən ola bilər". Başqa sözlə insan əzabları əbədi qalacaq, varlılıq, kasıblıq, istismar, kapitalizm əbədi qalacaq. Mövcud fəlsəfə mafioz kapitalizmin pulu ilə tərtib edilmiş saxta və kapitalizmi əsaslandıran, cəmiyətin gözünə kül üfürən, həqiqəti gizlədən belənçi çizmaqaradır. Mən siz oxuculara təklif edirəm ki, belə elmdən uzaq və həqiqəti anlamayan, reallığı düzgün qiymətləndirə bilməyən abstrakt söz yığınından ibarət fəlsəfəni bir kənara atasınız, hansı ki filosofların özlərindən başqa heç kim onların abstrakt və insanlığa faydasız yazılarını başa düşmür. Bu fəlsəfə, yəni tarixdə indiyədək yaradılmış fəlsəfə ölüdür. Hələ heç kimə, heç bir cəmiyyətə doğru yolu göstərə bilməmişdir, heç kim ondan bir fayda ala bilməmişdir. Yeri gəlmişkən qeyd edim ki, mənim məqsədim bu kitabda praktiki, işləyən, problem həll edən, strategiya quran, qərarlar, həllər hazırlaya bilən, aydın yazılmış, öyrənilə və başa düşülə bilən yeni obyektiv yaradıcı fəlsəfəni yaratmaqdır. Heç olmasa bu işi başlamaqdır. İnsanlığın yeni ağıllı nəzəriyyəçi və praktiki elmlərinin nümayəndələri – sosioloq- mühəndis –fizik- riyaziyatçı –iqtisadçı- bioloq- konstruktor – filosof- kontrukorları bu işi davam etdirəcəklər. Onlar bu günkü faydasız və yalnız dövlətin və diktatorların səhv siyasətini və strategiyalarını əsaslandıran və həqiqəti gizlədən və saxtalaşdıran filosof deyil, bütün qeyd etdiyim elmləri və bacarıqları bilən yeni praktiki *filosof- konstruktor* olacaqlar.

Kitab siz oxucuların dünyabaxışlarını xeyli dəyişəcək, yeni düşüncələrə səbəb olacaqdır, dünyanı dərk etməyi xeyli dərinləşdirəcəkdir. Sizi diskusiyaya və əksini sübut etməyə maraqlandıracaqdır və nəticədə biz birlikdə yaxın gələcəyin kəşvlərinə xeyli yaxınlaşacağıq.

Y*axşı cəmiyyət* necə layihələndirilə, necə qurula bilər sualları araşdırılır. Belə cəmiyyətdə hansı keyfiyyətdə insan lazımdır, bu cəmiyyətin ağıllı insanının konsepsiyası, ağıllı həyat tərzi, ağıllı davranış və əxlaq kodeksi təsvir olunur. Bunun üçün əvvəl dünyada nə baş verir, bizim indiki yaşadığımız ictimai iqtisadi sistemlər necədir, hansı eyiblərə malikdir, sonra dünya haqda hansı biliklərə malikik suallarına qısa nəzər yetirilir. Dünyanın yaranışı, dərki məsələsi

yenidən gündəliyə gətirilir, dinlər və onların rolları, tarixi evolyusiyası qısa təsvir edilərək dünyanın neçə hissədən ibarət olması, tanrı anlayışı araşdırlır. Sonra davranış üçün müxtəlif məsləhətlər verilir.

Mənim məqsədim seçdiyim mövzu üzrə mövcud baxışların hamısını toplayıb analiz etmək deyil. Buna mənim fiziki gücüm çatmazdı. Mənim məqsədim özümün gördüym faktları öz ağlım və metodumla analiz etmək və sizə nəticəsi haqda məlumat verməkdir. Lakin mən ən populyar ideyalara, asan əldə edə bildiyim mənbələrə az miqdarda istinadlar etmişəm, bunsuz düşünürəm ki, kitabın aydınlığı çətin olardı. Dünyaya öz baxışlarımı irəli sürmək və əsaslandırmaq mənim məqsədim olmuşdur. Ən böyük məqsədim isə bəşəriyyətə və xalqlara xilas olma yolunu göstərmək, onun gözəl, alternativ inkişaf yolu olduğunu ona xəbər verməkdir. Belə ki onun xəbəri yoxdur. İnsanlar hakim varlı hiyləgər qəddar sinif elitası tərəfindən qoyun sürüsü kimi sürülür, otarılır, sağılır, yunu qırxılır, mülkiyyətçi tərəfindən onlardan lazımı fayda alınır. Həmin sinif öz xeyri üçün xalqları, cəmiyyətləri, millətləri bir- birinin üstünə salır, vuruşdurur, istismar edir, müti etmək üçün əzir, cüzi yaşama imkanları verir, daim özündən asılı edir. Sonra da din vasitəsilə insanların qulağına deyir: “bunu allah edir”. Beləliklə dinlər və siyasi hakimiyət birləşərək bəşəriyyəti qul halında saxlayır, vasitə kimi istifadə edir, bunu başa düşməmək üçün onu küt, anlamaz etməyə çalışır.

Həyatım boyu daim hiss etmişəm ki, mənim missiyam var. Mən müqavimət göstərsəm də tale məni çox ağır sınaqlara məcbur etdi və mən əlacsız qalıb öyrənməyə və missiyamı icra etməyə məcbur oldum. Mən 3 kitab yazmışam, dünyaya yeni baxış, yeni cəmiyyət nəzəriyyəsi yaratmışam. Hazırda mən bəşəriyyətin yeni erasının başlanğıc toxumunu düzəltməklə məşğulam və bu mənim özümdən asılı deyil. Bilin ki, mən buna dünyanın aparıcı talesi tərəfindən – ümumi inkişaf xətti tərəfindən məcbur edilirəm, həm ruhi dünya, həm fiziki dünya reallığı birlikdə məni məcbur edir. Bizdə, azərbaycanda bir zərb məsəl vardır -“islanmışın yağışdan nə qorxusu”. Mən artıq bu yol ilə gedirəm, məni siyasi, dini qurumlar, onların diktaturası qorxutmur. Mən onların nadanlığını və ikiüzlülüyünü daim görürəm, mən onlara gülürəm, siz də dünyanın mənasını, nə baş verdiyini öyrənsəniz, siz də güləcəksiniz. (Bu kitabı diqqətlə oxusanız çox asanlıqla dünyanı və ətraf mühiti- nə baş verdiyini başa düşəcəksiniz). Bəşəriyyətin xilası qısa ifadə etsəm, məhz onlardan xilas olmaqdadır. Biri insanların fiziki gücünün ağasıdır, digəri şüurunun, ağlının. Görəsən onlardan başqa cəmiyyətdə daha çox yalan danışan və aldatmaqla (istismarla) yaşayan digər siniflər, yaxud qruplar varmı? Çox qısa vaxtda düşünərək daha

üç sinif: dəllal, tacir  və kapital mülkiyyətçilərini aşkar edirik ki, birlikdə bu beş sinif: siyasi məmurlar, ruhanilər, dəllallar, tacirlər, kapitalist mülkiyyətçilər cəmiyyətin istismarı hesabına yaşayır və yer planetinin də təbiətini korlayan, ehtiyatlarını sürətlə istifadə edib qurtaran rolunu oynayırlar. Lakin onlar siyasi sitisadi sistem tərəfindən onlara yazılmış bu rollarını oynamağa məhkumdurlar. Mən onların bir çoxu ilə söhbət etmişəm, onların hamısı bu mənfur rolu oynamaqdan narazıdır. Onlar etiraf edilər ki, onlar sosialist sistemində 8 saatlıq işləyib evə gəlməyi daha üstün tutardılar. Belə ki onların indiki rolunda "bir dəfə sən aldadırsan, bir dəfə də səni aldadırlar. Pul çox toplaya bilsən də, sən pulun quluna çevrilirsən, insanlığı itirirsən, dərdin daha da artır, bu pul mənəvi itgilərini kompensasiya etmir ".

İnsanlarda elə bir təbii –bioloji ədalət prinsipi var ki, heç bir halda bu baxışı onlar unutmurlar, bu əsas xarakter dəyişmir, onlar istənilən ictimai sistemin rolunu oynayanda ədalətsizlik etdiklərini aşkar edə bilirlər. Lakin öz istəməkləri ilə deyil, sistemin məcburiyyətilə bunu edirlər. Deməк, bəşəriyyət obyektiv olaraq elə bir ictimai iqtisadi quruluşda yaşamaq istəyir ki, heç kəs sistemin onu məcbur etdiyi öz səhv əməlinə görə daxilində xəcalət çəkməsin, bu sistem təbii olaraq onların optimal ağıllı insana xas olan keyfiyyətlərini saxlamağa imkan versin, siyasi sistemin insanda yaratdığı nadan xassələrdən təmizlənsin, ədalətlə yaşatsın. Belə bir ictimai sistem qəbilə, ibtidai icma dövründə olmuşdur, lakin siyasətin meydana gəlməsilə ictimai sistemlər insanların təbii insan xarakterinə və təbii həyat tərzinə heç vaxt uyğun olmamışdır. Siyasi sistemdə (dövlətdə) insanlar olmaq istədikləri kimi deyil, maska geyərək sistemin (hakim sinfin) məcbur etdiyi kimi olmağa məcbur olmuşlar. Siyasi sistemlər daim insanları əzmiş, onları azad nəfəs almağa qoymamışdır. Ona görə də insanlarda ən pis süni xarakterlər, davranışlar, hiyləgərlik, qəsbkarlıq, müftəxorluq, qəddarlıq, rüşvətxorluq, satqınlıq, xəyanət, yaltaqlıq, dələduzluq xassələri yaranmışdır. Mən mövcud ağılsız və nadan quruluş  əvəzinə tam etibarlı yeni konstruksiya təklif etmişəm: həm yeni rasional idarəetmə, həm rasional həyat tərzi, həm də yeni dünyabaxış və mövcudiyyətin tam nəzəriyyəsini. Hansi ki burada cəmiyyətdə nə siyasi struktura- Marksın sözü ilə desək, bir qrupun digəri üzərində zorakılıq, istismar, əzmə alətinə,  nə də dini dünyabaxış uydurmalarına yer yoxdur. Mən bəşəriyyətə xidmət edirəm və bununla özümü xoşbəxt hiss edirəm. Bütün yollar bəşəriyyətin indi başlayan yeni erasına – gələcək təbiət və insanlıq qarşısında məsuliyyətə cavab verəcək **ağıl erasına** aparır. Ağıl, məhz kollektiv ağıl bəşəriyyəti xilas edəcəkdir;

həm fərdi, həm icma həyat tərzini, mədəniyyəti, həm davranşları, həm cəmiyyət qanunlarını və idarəetməni əhatə edəcəkdir.

Material dünyanın ümumi mahiyyəti haqda bu kitabda, hissə İ - də, habelə böyük miqdarda müxtəlif elmi kitablarda- fizika, biologiya, astronomiyada və s. geniş məlumat verilmişdir. Kitabın İİ hissəsində ruhi dünya haqda, İİİ hissədə mövcud cəmiyyətlərdə nə baş verir, İV hissədə gələcəyin cəmiyyəti-rasional cəmiyyət haqda söhbət aparılır. Bu kitabda dünyanın və hadisələrin dərk edilməsi *Yaradıcı Zəka (Kreativ intellekt) fəlsəfi* baxışları ilə və tənqidi realizm metodu ilə edilir və qiymətləndirilir. Kitabda bütün təsvir, izahatlar və yeni təkliflər müəllifin özünün formulə etdiyi fəlsəfənin baxışlarına əsaslanır.

## HİSSƏ İ. Yaradıcı ağıl (Kreativ intellekt) fəlsəfəsinin əsas müddəaları

Bu kitabda bütün fikirlər Yaradıcı ağıl (Kreativ intellekt) fəlsəfəsinin mövqeyindən irəli sürülür. Bu fəlsəfi baxışları və ondan irəli gələn bütün törəmə nəzəriyyələri və aksiom və prinsipləri müəllif özü öz ağlı ilə yaratmış və formulə etmişdir. Müəllif hesab edir ki, indiyədək yaradılmış fəlsəfələr müəyən dərəcədə təsvir edici, ümumiləşdirici, subyektiv qiymətləndirici və əsasən siyasi qüvvələrin mövqeyini əks etdirmiş və cəmiyyət üçün abstrakt dildə yaradılmışdır. Bu fəlsəfələr istifadə üçün yam yararsızdır. Onları oxuyaraq heç nə yaratmaq və bu günün reallığı haqda obyektiv mülahizə söyləmək olmaz, nə də gələcək haqda bir fikir söləmək olmaz. Onların əksəriyyəti söz oyunudur və reallığı maskalamaq üçün irəli sürülmüşdür. Ənənəvi fəlsəfələr bir lokal aləmi qəbul edir, digərini qəbul etməkdən imtina edir. Ona görə də onların heç biri reallığa bütöv – holistik baxış yarada bimirlər, ona gərə də yarımçıq sübyektiv fikirlər yığınıdırlar. Müəllifin təklf etdiyi bu fəlsəfə isə bütün reallıq, nə var, hamısını əhatə edir və dünyanı 3 bütöv avtonom dünyadan ibarət olduğunu irəli sürür: 1. materiyal; 2.keçid və 3. ruhlar, formalar, boşluq. İnsan düşüncəsi qarşısında bütün reallığı açır və bu dünyaları izah edir, insanın gözünü açır, onun özünü və ətraf dünyanı yaxşı anlamağa və düzgün həyat yolu seçməyinə kömək edir. Müəllif gənc intellektuallara məhz bu yeni *Yaradıcı ağıl fəlsəfəsi* istiqamətində işləmələrini təklif edir. Yalnız bu fəlsəfə praktiki məsələləri həll etməyə, izah etməyə, gələcəyi görməyə, insan həyatını yaxşılaşdırmağa, ağıllı həyat tərzi seçməyə kömək edəcəkdir. Onun məqsədi budur.

Bu hissədə təsvir edilən müddəaların hamısını müəllif özü məntiqi və düşüncəsi ilə formalaşdırmışdır və mövcud rəsmi neorasionalizm baxışları ilə asılı və onların surəti deyildir. Lakin mümkündür ki, hansısa baxış üst - üstə düşür, bu halda bu o deməkdeyildir ki, müəllif mövcud baxışları sadəcə köçürmüşdür. Mən hələ rəsmi neorasionalizmin nə dediyi haqda oxumamışam. Çünki məqsədim bütün fəlsəfi nəzəriyyələri araşdırmaq deyildir, yalnız öz baxışlarımı irəli sürməkdir. Bu baxışlar orijinal yazılmış tekstdir. Müqayisəli analizi digər mütəfəkkirlərin öhdəsinə buraxıram.

**Ümumi mülahizələr**

*Yaradıcı ağıl* (Kreativ intellekt) fəlsəfəsi intuisiya ilə münasibətdə ağılı (idrakı) birinci yerdə - həlledici qəbul edir. Hesab edir ki, intuisiya müxtəlif mənbələrdən gələ bilər, habelə görünməz və bu və ya digər dərəcədə yaxşı və pis ruhlardan, emosiyalardan qaynaqlana bilər. Bu səbəbə görə istənilən intuisiya- vəhy adlandırılan xəbər alma ağıl vasitəsilə analiz edilməli, ağıla əsasən davranış seçilməlidir.

Yaradıcı ağıl (Kreativ intellekt) fəlsəfəsi digər nəzəriyyələrdən onu fərqləndiən, ən əsas anlayışları olan ***ağıl (idrak)***, **rasional**, *yəni ağıllı, ağla uyğun, məntiqi, səmərəli , kamil, optimal, məqsədəuyğun, sərfəli, ağıl və məntiq ilə əsaslandırılmış, effektiv mənalarında;* ***rasionallıq,*** yəni - *kamillik, optimallıq, səmərəlilik* mənalarında; *rasionallaşdırma (təkmilləşdirmə)* və oxşar terminlər ilə işləyir, elmi fəaliyyət sahələrini əhatə edir. Dünyaya, hadisələrə yeni rasional baxış formalaşdırır, gerçəkliyin necəliyini və fəaliyyətini, dəyişiliklərini maksimum əks etdirən həqiqi biliklər yaradır. İnsanların həyatını rasional fəlsəfi baxışlar və izahlarla, elm və onun tətbiqi olan texnika; rasionallıq prinsipi, rasional davranışlar vasitəsilə yaxşılaşdırmaq (rasionallaşdırmaq) məqsədi güdür.

Yeni *Yaradıcı ağıl* fəlsəfəsi mövcud olan bütün dünyaları dərk etməyin ağıl vasitəsilə mümkün olduğunu bildirir, lakin bunun fasiləsiz proses olduğunu hesab edir və təbiət və cəmiyyətin həyatının hər bir sahəsinə aid xüsusi bilik, rəylər formalaşdırır. Klassik rasionalizmdən fərqli olaraq *yeni Yaradıcı ağıl* hesab edir ki ağıl - hisslər, duyğularla əldə edilmiş məlumatlar, tarixi təcrübə, eksperiment, düşüncə, intuisiya əsasında təfəkkür prosesinin son mərhələsidir. Fasiləsiz, yeni məlumatlar, hisslər, müşahidələr, eksperimentlər, müqayisələr, ümumiləşdirmələr və analiz əsasında həmin bilikləri, rəyləri təkmilləşdirir. Biliklərin reallığa uyğun olmasına çalışır.

## Yaradıcı ağıl (Kreativ intellekt) fəlsəfəsinin əsas fəlsəfi anlayışları

### Ağıl

***Yaradıcı ağıl*** Neorasionalizmdən fərqli olaraq onun əsas anlayışı olaqn **ağılı** keçmişdə hesab edildiyi kimi *hisslərə, duyğulara, intuisiyaya, təcrübəyə, tarixə* zidd hesab etmir, əksinə qəbul edir ki ağıl onlardan qidalanır və daim səmərələşir. Dünya haqda məlumat müşahidə, eksperiment nəticəsində duyğu üzvləri vasitəsilə alınaraq, qavrama üsulu ilə insan beynində əks olunur. Bu əks 2 formada: a) hisslər (emosialar), b) biliklər formasında şüurun məhsulu kimi yaddaşa ötürülür. **Ağıl** insanın təbiətdən və tədqiqat obyektindən məlumatın alınması, emal edilməsi prosesində həmin məlumatları qiymətləndirmə, müəyyən məqsədə uyğun seçmə, qruplaşdırma, onlardan sübut olunmuş biliklər-teorem, qanun, sxem yaratma, optimal qərar, layihə, metod hazırlamaq, davranış seçə bilmək qabiliyyətidir. Bunları kim yaxşı bacarsa ona ağıllı adam, az bacarsa az ağıllı adam, bacarmasa ağılsız adam deyirlər. Düzgün davranış və strategiya seçə bilməyən adam da o sahədə ağılsız hesab edilir.
**İdrak** (epistomologiya, теория познания) dünyanı və axtarılan məsələni anlama prosesidir. İdrakın fəaliyyətinin xarici məhsulu elmdir, yaradılmış nəzəriyyələr, layihələr, qərarlar, planlardır, uyğun davranışlardır. Daxili məhsulu isə ağıldır (yəni qərar vermə qabiliyətidir) ki, yalnız insan beynində yerləşir.

### İntuisiya.

İnsanın həyatında ağıl və intuisiyanın qismən fərqli mənbələri var və fərqli iş prosesinə malikdir. Əgər *ağıl* hisslər, obrazlar və sözlərlə ifadə olunmuş faktlar, məlumatlarla əməliyyat aparırsa və müəyyən bir mülahizə, qərar yaradırsa, *intuisiya* üçün hesablamağa, çoxlu məlumatlara ehtiyac yoxdur. Görmək, eşitmək, hətta kiçik bir baxış kifayət edir. İntuisiyanın özü də üç pilləyə bölünür: 1) adi intuisiya-gündəlik həyatda, yaradıcılıqda, təhlükəli və gərgin momentlərdə özünü göstərir, belə intuisiya heyvanlara da xasdır; 2) modellər vasitəsilə işləyən intuisiya, hansı ki oxşarlıq, ahəng (harmoniya) və xaos qanunları ilə izah olunur; bu qrup da müxtəlif qollara ayrılır: münəccimlər - astroloqlar, baxıcılar, falçılar (kofe, daş atma, kart və s); 3) daha dərin intuisiya - dünyanı dərk etməkdə yüksək kamilliyə çatmış adamlarda, hansı ki bütün dünya tarixini bir anda təsəvvür edə bilər və ya yer kürəsində (bir ərazidə) nə baş verdiyini tam qavraya, əhatə edə bilər. Belə adamlara bəzən prorok; müəllim (Çində); budda, bodhisatva (Hindistanda) deyirlər. Belə adamlar daim hər əsrdə

doğulurlar. Belə güman etmək olar ki, intuisiya insanın 6-cı qabiliyyətidir, bütün heyvanlara və insanlara xasdır. İnsandan danışsaq, daim onun özündən asılı olmayaraq, beyinin gizli işi nəticəsi kimi formalaşır.

**Rasionallıq prinsipi**: *Hər şeyin müəyyən məkanda və zamanda daha yaxşısı var*. Hər şey deyəndə insan, xarakter, xasiyyət, gözəllik, nəzəriyyə, maddi obyekt, layihə, kitab, metod, bilik, bina, qurğu, ixtira və s. nəzərdə tutulur. Yaxşı sözü isə ağıllılığı, səmərəlilyi, gözəlliyi etibarlılığı, faydalılığı, qənaətcilliyi, gələcəkdə də davamlı faydalı olması, daha çox adama faydalı olması, daha çox adamın mənafeyinə uyğun olması, keyfiyyət parametrlərinin üstün olması və s. nəzərdə tutulur.

**Keyfiyyət**

Keyfiyyət şeylərin başqa şeylərlə əlaqədə xassəsini ifadə edir. Şeylər bir əbədi keyfiyyətə malik deyillər. Onlar nə yaxşıdır, nə pis; nə gözəldir, nə çirkin; nə böyükdür, nə kiçik. Onların bütün keyfiyyət xassələri ətraf mühitə görə uyğun əks reaksiya olduğu üçün , demək, daimi deyil. Ona görə də şeyləri təsvir etmək üçün 1. Onların yerləşdiyi mühiti, yəni hansı mühitdə - məkan və zamanda və çoxluqda, kombinasiyada, reallıqlar içində yerləşməsi **hökmən göstərilməlidir; 2.** Onların bu ya digər keyfiyyətinin dərəcəsini göstərmək lazımdır. Bunun üçün hökmən bütün standart ümumi, həmin şeyin sinfi üçün keyfiyyətləri (mənfi və müsbət, vacib ya qeyri -vacib, daimi, ya qismən, qısa-uzun dövrdə olmaqla növlərə bölməklə) siyahısını göstərmək, sonra isə hər birinin dərəcəsini göstərmək lazımdır.

**Həqiqət**

*Yaradıcı ağılın* həqiqət haqda mövqeyi belədir. Həqiqətlər əbədi və nisbidir, bütün mühit elementləri dəyişdiyi üçün onları əks etdirən biliklər- həqiqətlər də dəyişir. Dəişməyən yalnız bir həqiqətdir - dünyanın vahidliyi, bütövlüyü, çoxluqdan ibarət olması. Ehkamlar, yəni dəyişməz biliklər yoxdur və qəbul edilmir. Həqiqətlər fərziyyələr vasitəsilə öyrənilir. Həqiqət- gerçəkliyin bir obyektinin və ya hamısının insan fikrində düzgün əksi və təsfiri yalnız konkret zamana, məkana və çoxluğun vəziyyət situasiyasına aid olur, bu zonadan kənarda həmin bilik həqiqət deyil.

**İnsan.**

İnsan Yer planetinin canlı sakinləri içərisində ən yüksək ağıla malik olaraq dünyaya münasibətdə onu dərk etməyə - anlamağa çalışan varlıqdır. Onun beynində yaranmış şüuru, ağlı, psixikası konkret dərkedici, qəbuledici, analizedici, idarəedici sistem kimi onu kompleks

mühitdə (material, obrazlar və şəxsi dünyasında, habelə ailə, kollektiv, icmada) rasional yaşatmaq funksiyasını icra edir. İnsan material və obrazlar (görünməyən) dünyanı yalnız şəxsi dünyası: məlumatları, ağılı və düşüncə tərzi, məntiqi, dünyabaxışları (hansı ki öz beynində onu qurur) vasitəsilə başa düşür və münasibətə girir.

***Çoxluq.***

Müəyyən əlaqələr və bağlarla birləşmiş və hissələri birgə fəaliyyət göstərən birlik çoxluq adlanır. Hər bir baxılan obyekt çoxluqdur, müxtəlif elementlərin əlaqəli kombinasiyasıdır. Çoxluğun tərkibi cisim və şeylər, canlı və cansız elementlər, təsirlər və sahələrin ayrıca kombinasiyası və qarışıq kombinasiyası ola bilər. Çoxluq ada malik obyektlərdir. Çoxluğun sinonim sözləri sistem, tam, bütövlük, ümumi, mühit,.

***Tək.*** Çoxluğu təşkil edən hissədir. Tək, ən kiçik masştabda müxtəlif keyfiyyətlərin ölçü vahidləri ola bilər, cismin vahid təşkiledici hissələri mikronla, nanometrlə ölçülə bilər, bütün maddi və görünməyən varlığın əsasında tək zərrəciklər durmuşdur.

***Ümumi və xüsusi.*** Əgər xassə (əlamət, xüsusiyyət, tərkib, fərqli cəhət) bir necə təkə aiddirsə bu xassə həmin təklər üçün ümumi olur. Xüsusi isə yalnız bir təkə aid xassəyə deyilir. Müqayisə etmək üçün başqaları yoxdursa onda xüsusi olmur.

***Şeylərin və hissələrin xassələri:***

Hər şey dünya strukturunda ikili xassə daşıyır:

- hər şey həm təsir edəndir, həm təsir edilədir
- hər şey həm başlanğıcdır, həm sondur
- hər şey həm idarə edəndir, həm idarə ediləndir
- həm elədir, bir görünüşə rola görə, həm elə deyil, digər görünüşə, rola görə
- hər şey həm səbəb, həm nəticədir.
- hər şey həm yaradılan (mühit tərəfindən ) həm yaradandır (mühit elementi olaraq)
- hər şey ən azı iki şeyi birləşdirən əlaqə vasitəsidir. Məsələn, keçmişi və gələcəyi
- dayanıqlı hər şey ümumi mühitin (çoxluğun) bir hissəsi olaraq, özü də kiçik mühitdir (çoxluqdur)

***Mahiyyət.*** Mahiyyət çoxluğun digər çoxluğa münasibətdə daşıdığı roldur – mənadır. Baxılan çoxluğu –obyekti nə qədər çox mühit əhatə edirsə, yəni o nə qədər çox sistemlə əlaqədədirsə, o qədər də çox mahiyyətə malikdir. Hər bir şeyin mahiyyəti daxil olduğu mühitlərin tələblərinə uyğun olaraq müxtəlifdir. Mahiyyət əbədi deyil. Başqa mühitə nəzərən obyekt digər mahiyyətə malikdir. Praktikada şeylərin

ümumi bütün mahiyyətindən deyil, xüsusi mahiyyətindən istifadə edirlər.

***Mühit***. Xüsusi mənada hər hansı bir müstəqil yaşaya (qala) bilən çoxluq içində konkret seçilib baxılan şeyə nəzərən qalan hər şey, təsir, hərəkət mühit adlanır. Həmin şey bütün digər qalan çoxluqla birlikdə mühitdir. Mühit hər şeyi yaradan anadır. Mühit çoxluqdur - sistemdir. Hər bir hadisə və şeyin özü də mühit hesab oluna bilər və yalnız mühit (ondan başqa qalan hər bir mühit kompleksi) daxilində ola bilər. Mühit rolu oynayan elementin və ya çoxluğun ümumi təsirilə *iki şeyin qarşılıqlı əlaqəsi nəticəsində üçüncü elementın yaranması üsulu ilə **yaranış** prosesi baş verir*. Hər yeni yaranan elementin mühitə əlavə olunması, yəni mühitin tərkib hissəsinə çevrilməsilə mühitin forma, miqdarı və xassələri, getdikcə müərəkkəbləşir - yaradıcı xassələri və qabiliyyəti genişlənir. Mühitin iki daha yaxın hissəsinin qarşılıqlı əlaqələrilə (yəni ən azı iki elementinin) yeni varlıq növü yaranır. Bu mühitin özünün özünü doğması və ya özünü özündən yaratması kimi anlana bilər. Mühitin özü burada iki element arasındakı qarşılıqlı təsirə nəzərən, ikinci yaradıcı təsir edir və kənar yaradıcı- allaha ehtiyac yoxur. Növlərin çoxalması prosesi nəticəsində ilk maddə atomunun yaranması və sonrakı maddələrin atom və molekullarının yaranması, maddələrin konkret cisim formaları əldə etməsi baş verir. Cansız aləmdən canlı aləmin yaranması və təbii evolyusiyası baş verir. Həm cansız, həm canlı aləmdə yeni yaranan forma, struktur və çoxluqlar mühitdə yalnız dayanıqlı avtonom bütövlük əldə etdikdə yaşaya bilirlər, etmədikdə qala bilmirlər. Mühit isə müxtəlif avtonom mühitlər – sistemlər çoxluğundan ibarət olur. Hər mühitdə isə yalnız spesifik, yəni həmin mühitdə bütövlüyünü saxlaya bilənlər yaşayır. Canlı aləm üçün bu prinsipə Darvinin aşkar etdiyi təbii seçmə və adaptasiya qanunu deyilir, yəni bunun mənası odur ki, yalnız uyğun olanlar, uyğunlaşa bilənlər və güclülər yaşayır, qalan növlər məhv olur. Mühit konkret real sistemlər və ya, başqa sözlə, çoxluqlardan ibarətdir.

Hər şey eyni zamanda və həyatı boyu içində olduğu mühit sistemlərinin dəyişilən qaydada təyin etdiyi müxtəlif rolları oynayır. Mühit özünü özündən (öz-hissələrindən) yaradan, çoxalan, müxtəlifləşən xassələrinə, habelə hər bir mühit hissəsi və hər yeni yaranan mühit hissəsi belə xassələrə malikdir

***Səbəb və nəticə.*** Şey və hadisələrin hər vəziyyətini səbəb, sonrakı vəziyyətini isə nəticə hesab etmək olar. Hər şey və onun hər vəziyyəti həm səbəbdir-yeni vəziyyət üçün, həm nəticədir-keçmiş vəziyyətin davamı kimi. *Nəticə:* varlıq (nəticə) yalnız mühitin iştirakı ilə ən azı iki şeyin qarşılıqlı əlaqəsi məhsulu ola bilər. Məhz bu **<u>üçlük</u>** tanrı

rolunu oynayır və *nəticə*-məhsul alınır, həmin nəticə isə yenə də başqa elementlə əlaqədə mühitin iştirakı ilə yeni məhsul(vəziyyət, nəticə) yaranmasına səbəb olur başqa mistik tanrı yoxdur. Beləliklə daim reallığın davamiyyəti baş verir. Nəticənin başqa üsulla əldə edilməsi məlum deyil. Hər nəticə yeni sistemdir.

***Zərurət.*** Şeylərin, proseslərin hər əvvəlki vəziyyətindən sonra yalnız bir nəticə - vəziyyət olur. Buna zərurət deyilir. Qanunauyğunluqların təsiri altında şeylərin- çoxluqların qarşılıqlı əlaqəsi nəticəsində meydana gələn hər bir hadisə və yeni çoxluq zərurətdir. Zərurət obyektivdir.

***Təsadüf*** isə subyektiv rəy olaraq insanın xəbəri olmadığı və ya anlaya bilmədiyi vəziyyətlərdir - səbəblərdir, nəticələrdir. Reallıqda təsadüf yoxdur.

**Qəfil hadisələr.** Qəfil hadisələr kompleks sistemlərdə hər hansı bir iştirakçının, əsasən üst sistemlərdə, böyük trendlərdə öz davranışının sol ya sağ həddini müəyyən səbəblər nəticəsində keçməsidir ki, bu da alt sistemin müvazinətini qəfildən pozur. Bunlara misal qəfil partlayış, yanğın, günəşin istilik şüalandırmasının artması, qətl, güllə ilə ölüm, avtomobil, təyyarə qəzaları, tufan, zəlzələ, vulkan, insanda psixi partlayış və s. Bu zaman səlis və planlı, tarixi, bioloji, təbii evolyusiya tempi pozulur. Nəticədə sistem və onun hər elementi (yer planeti və ya onun bir zonası, cəmiyyət, ailə, dövlət, hər ailə və cəmiyyət üzvü və s.) yenidən səlis dəyişilk həyat xəttinə doğrü tarazlaşmağa başlayır. Belə ki hər bir şeyin iki sərhədd arasında baş verən səlis həyat xətti vardır. Bu xətt heç vaxt düz xətt deyildir.

Qəfil hadisələr çox əhəmiyyətli təsirə malikdir və daim öyrənilməli, nəzərə alınmalıdır. Qəfil hadisələr bir çox digər fəlsəfə nəzəriyyələrində təsadüfi hadisələr hesab edilir, hansı ki biz qəbul etmirik. Hesab edirik ki, qəfil hadisələr zəruri olaraq onun daxil olduğu yaxud aid olduğu tale xəttinin yaxud obyektlərin davranışında zəruri, məntiqi, səbəb - nəticə ilə müəyən edilmiş hərəkətdir, lakin digər obyektlərdə - və digər tale xətlərində adətən fərdi tale xətti ilə yaşayan kiçik obyekt və proseslər üçün bu hadisə gözlənilmir, yəni qəfil hadisə kimi qəbul edilir. Buradan belə nəticə çıxır ki, insanın gələcəyi fərdi nəzəri tale xətti ilə mühitdə baş verə biləcək qəfil hadisələrin ehtimalına görə birlikdə konstruksiya edilməlidir. Qəfil hadisələr hökmən nəzərə alnmalıdır.Yəni hər şeyin və insanın başına gələnlər onların fərdi həyat xətti ilə böyük trendin və qəfil hadisələrin birgə işi nəticəsidir.

**Zaman anlayışı**

Gələcəyi bilmək, zamanın nə olduğunu bilməyi tələb edir. Hesab edirəm ki, zamanın nə olduğu, necə olduğu haqda mülahizələrə hələ son qoymaq tezdir. Biz zamanı növlərə ayırmalıyıq: hissəciklərin, tək hidrogen atomunun zamanı və elementlərin kombinasiyasından yaranan böyük cisimlərin: günəş, ulduz, planetlərin, yerin, yerdəkin varlıqların zamanını. Başqa sözlə elektron (tezlik və amplituda ilə ölçülən işıq, radio dalğaların) zamanla, material ( göy cisimləri) zamanını ayırmalıyıq. Biz yer planetinin fırlanması dövrü ilə hər bir obyektin zamanını bu ölçü ilə ölçürük. Məgər biz düz edirik? Biz işimizin xeyri üçün belə edirik. Lakin bunu edərkən dünyanı səhv anlayırıq, elə bilirik ki, dünya bu zamanla dəyişir. Zamanı başa düşmək üçün hesab etməliyik ki, o yalnız hərəkətlə meydana çıxır. Buradan belə nəticə alınır ki, hər şey yaşayaraq, mövcud olaraq öz zamanını yaradır, hansı istiqamətə dəyişirsə o istiqamətə də öz zamanını yaradır. Demək, kordinatlar oxu çəkdikdə zamanla hərəkəti eyni ox üzərində göstərmək lazımdır. Vahid dünya zamanı yoxdur, o güman edildiyi kimi axmır, əksinə haradasa dayanmışdır, haradasa pulsasiya edir. Dünya zamanı əslində durmuş, axmayan bir andır. Lakin o pulsasiya edir, belə ki konkret dünyanın mərkəzində (bir konkret mərkəz yoxdur) donmuş andır, mərkəzdən uzaqlaşdıqca dalğanın uzunluğu və amplitudası artır, yəni periferiyada zaman meydana gəlir, proseslər getməyə başlayır. Pulsasiya da 4 vəziyyətdən ibarətdir: 1)ən yüksək enerji atılması yaxud ən böyük mexaniki açılma, hərəkət və 2) ən kiçik enerji şüalandırması yaxud ən kiçik ölçüyə malik olmaq və bu vəziyyətlər arasındakı iki ən orta vəziyyət (cəmi 4 vəziyyət). Dünyanı isə ümumi bir dünya hesab etmək düzgün deyildir. Belə ki, biz ancaq avtonom dünyalardan danışa bilərik ki, o da hər bir avtonom yaşayan qalaktikanın, ulduzların, günəşin və yerin özüdür. Hətta qalaktika da bilavasitə bizə ciddi təsir etmir, ən yaxşısı biz öz avtonom günəş və onun planetləri dünyası ilə işimizi qururuq. Biz deyə bilmərik ki A 40 il yaşadı, C 85 il yaşadı, D obyekti 120 il yaşadı. Belə ki onları müqayisə etmək- eyni zamanla ölçmək düz deyildir. Deyərdim ki eyni zamanlılıq ümumiyyətlə yoxdur. Lakin biz zamanı yerin günəş ətrfında fırlanması ilə ölçürük (bunu dəqiq göstərən elektron saat ixtira edilmişdir) həmin saatla hadisələrin eyni zamanda olanlarını eyni zamanlı adlandırırıq. Zaman da real dünya kimi və ondan meydana çıxaraq ağac kimi bitə - bitə konkret şeyin həyatına paralel və nəticəsi kimi davam edir. Bir istiqmətə davam edir, digərində dayanıb, yaxud sürəti başqadır. Zaman ayrıca mövcud deyil, yalnız evolyusiya edən materiyanın: cisimlər,

canlılar, mikro dünya üzvlərinin - atom, molekul və hissəciklərin (yalnız dəyişən-pulsasiya edən zərrəciklərin) həyatında meydana çıxır və yalnız uyğun olaraq onların mərhələlərinin davamiyyətinin ölçüsüdür. Yalnız *materiya – hərəkət* adlı varlıqdan danışmaq olar. Hər şeyi *materiya-hərəkət* cütlüyü formasında qəbul etmək lazımdır. Şey isə həndəsi fiqur kimi tutduğu fərdi məkana malikdir. Şey deyəndə maddə və məkan (forması) birlikdə başa düşülməlidir. Bunu başa düşmək üçün təsəvvür edin ki, hadisələr- ağacın budaqları, yarpağı, meyvəsi müxtəlif zamanlarda meydana gəlir. Onlar, məsələn, yarpaqlama prosesi eyni zamanlı görsənir. Lakin əslində kainat – zaman ağacının budaqları və yarpaqları müxtəlif zamanlıdır. Belə bir *zaman – dünya* ağacında təsəvvür edin ki, bir tərəfə zaman artıb gedir, digər bir yerdə isə zaman dayanıb-budaq yoxdur, yaxud sürət azalıb - dəyişilik yoxdur. Yəni kainatın və lokal dünyaların inkişafı "Paskal qanununa görə qapalı həcmdəki maye və qaza bir deşikdən daxilə edilən təzyiq bərabər paylanır" modelinə və ya "bitki və ağacların yerdən suyu çəkməklə eyni zamanda bütün budaqlarına yayılması - eyni zamanda budaqların bitməsi" modeli kimi deyil.

Düşünürəm ki, ən çox real material zamanın meydana çıxması ancaq spiral qalakatikalarda baş verir. Çünki burada mexaniki fırlanma hərəkəti belə *material* zamanı yaradır. Spiralın qollarında zaman uzun, mərkəzinə yaxınlaşdıqca isə yavaşıma, mərkəzdə isə material zaman yox olur, burada yəqin ki, zərrəciklərin zamanı meydana gəlir, hansı ki əbədilik, zamanın olmaması təəsüratını yaradır.

Zamanın prosesdən və ya material hadisədən ayrı, öz - özünə ayrıca mövcud olmasının düşünmək üçün əsas yoxdur. Habelə zamanı, kosmosun hər bir cismi, yerdəki hər şey üçün eyni bir vahid istiqamətli abstrakt qəbul etmək üçün elə bir sübut yoxdur. Çünki zamanı yaradan məhz materiyanın (konkret şeyin,cismin, canlının) dəyişilik ardıcıllığıdır. Dəyişilik yoxsa, demək, zaman da yoxdur. Yerdəki bizim fəaliyyətimizdə işlətdiyimiz zaman sözünü yer zamanı sözü ilə əvəz etmək lazımdır. Yəni zaman konkretdir, ümumi, hər şey üçün eyni deyil, hansısa obyektə bağlıdır. Məsələn İslamın zamanı ayın yer ətrafında dövrü ilə ölçməsi heç bir məntiqə uyğun deyildir, əgər biz ayın üzərində yaşasaydıq bu normal olardı. Lakin yerin üzərində yaşadığımız üçün bütün ölçüləri aparmaq üçün biz yer zamanından istifadə etməliyik, çünki yerin hərəkətilə biz bütün ritmləri eyni alırıq (kürənin eyni yerlərində) Makro dəyişilik hansı istiqamətə gedirsə, həmin zaman da həmin dəyişilk ilə yaranır və o istiqamətdə gedir. Hər şeyin öz xüsusi zamanı olması nəzəri olaraq aşkar olunur. Hər şeyin dəyişilik və zamanının istiqaməti irəliyədir, lakin hamısı eyni bir

istiqamətli deyil. Yəni ümumi zamandan danışmaq məntiqi deyil, ümumi zamandan danışsaq gərək bir neçə şeyin orta cəmi zamanını qrafiki toplayaq. Güman ki, böyük məsafəli dəyişiliklər uzun zamanı, sürətli dəyişilklər qısa zamanı yaradır. Bu mövqe yaranışın və ya hadisələrin strukturu sxemində təsvir olunur (şəkil 1-10). Mövcud nəzəriyyələr, məsələn, Wendell Bellin təsvirində (1, səh140-141 ), zamanın ümumi bir istiqamətli və ümumi olmasını qəbul edir ki, biz bundan imtina edirik.

Doktor İmanov Həmidin mövqeyi zaman haqda bizim mövqe ilə qismən uyğun səslənir. O sosial zaman haqda qeyd edir ki, sosial zaman ilk başlanğıcını bəşəriyyətin ilk təşəkkülündən götürür; bioloji, planetar, kosmik zamandan fərqli olaraq sosial zaman qeyri - bərabər axır.. (2, səh.147). Qeyd edirəm ki, sosial zamanın xarakteristikasını müəllif düzgün verir. Əlavə etməliuəm ki, zamanın axmasından danışmaq olmaz, o su deyil axsın, bizim sosial zaman bizimlə birgə generasiya olunur, bundan başqa bizim öz şəxsi zamanımız da var. Həmin müəllifin dediyi planetar, bioloji, kosmik, zaman da qeyri - bərabərdir və vahid bütöv zaman deyildir. Hər obyektin öz və digər göy cisimlərindən asılı olmayan şəxsi zamanı var.

Deyərdim ki, əgər qalaktikanın mərkəzinə yaxın bir oxşar digər bir yer planeti varsa, onda orada zaman bizim yer zamanından çox uzun ola bilər, əgər biz 70 -120 yer ili yaşayırıqsa həmin planetin adamları 500, 1000 yer ili yaşaya bilərlər.

**Boşluq (fiziki vakuum).**

Boşluq ona deyilir ki, onun daxilində heç bir material obyekt olmasın. Əgər boşluqda hər hansı bir material obyekt və ya ruhi obyekt yerləşmişsə onda belə boşluq qatışıqlı boşluq adlanır. Lakin boşluq enerjisi sıfır ətrafında rəqs edən mühitdir və ondan müxtəlif növ zərrəciklər yarana bilər. Xüsusi nisbilik nəzəriyyəsi məkan və zamanı əlaqələndirir və materiyanın məkanı və zamanı yaratdığı ideyasını irəli sürür. Mənim əsaslarım vardır ki bildirəm ki, materiya öz məkanını zamanını eyni anda yaratmır və mövcud olduqca (zərrəciklər titrəyir - pulsasiya edir) nəticə kimi fərdi zamanını yaradır. Zərrəciyin mahiyyəti boşluq zərrələrinin və ya "damcılarının" xüsusi, hələ bilmədiyimiz üsulla təşkilidir-strukturlaşması və dayanıqlı vəziyyt almasıdır. Deməli, xüsusi nisbilik nəzəriyyəsi yalnız eyni cinsli mühit olan formalaşmış zərrəciklərin ümumi məkanı (boşluqda tutduğu yeri) və zamanı haqqındadır. Bəs formalaşmamış – yəni hələ zərrəciklərə çevrilməmiş boşluq fəzası nə olsun? Həmin boşluq, yəni materiyanın olmadığı boşluq həmişə əbədi var. Lakin həmin boşluqda zaman yoxdur, o donmuşdur, çünki evolyusiya edən materiya və ya digər

ondan yaranan obyektlər yoxdur. Bu baxışa belə fakt sübut ola bilər ki, müasir astronomiya deyir ki, qalaktikalar işıq sürətindən də sürətlə bir birindən uzaqlaşırlar. Əgər boşluq olmasaydı hara onlar uzaqlaşardı? Onların uzaqlaşma hərəkəti ilə boşalmış boşluqda ki məkan və zaman yaranmır- çünki onu yaradan materiya yoxdur. Demək, boşluq əvvəldən var və əbədidir, materiya da böyük trend (materiyadan boşluğa və əksinə çevrilmə) və kiçik trend dalğaları üzrə daim siklik çevrilmələrə məruz qalaraq əbədi mövcudur. Boşluğun olmasını Yunan filosofu Demokrit, Budda Qautama doğru olaraq aşkar etmişlər. Biz aşkar görürük ki şeylərin olmasından əvvəl boşluğun olması lazımdır. Fizikanın dəqiq rəyinə görə məhz boşluqdan bütün material varlıqlar ardıcıl törənə bilər

**Enerji.** Enerji də daim əbədidir. Enerji şevirici vasitədir, yəni materiyanın boşluğa və əksinə çevrilməsi üçün vasitədir. Əslində materiya anlayışına nisbətən enerjinin saxlanması, çevrilməsi və əbədiliyi prinsipini üstün qəbul etmək və *materiya və boşluğu enerjinin iki kənar formaları* kimi qəbul etmək daha doğru olardı.

***Məkan***

*Məkan materiya formalarının- maddənin, qazların, mayelərin və plazmanın və onlardan əmələ gələn cisim və digər varlıqların tutduğu fəzadan və sərbəst boşluqdan ibarətdir. Maddəyə aid olan məkan yalnız həmin maddədən asılıdır və onun mövcudluğu ilə bərabər mövcud olur və onun ölçü parametrləri materiyanın xassələrilə tam əlaqədar və asılı və ondan doğandır.*

Nisbilik nəzəriyyəsi göstərir ki, kainatdan kənar və ya materiyadan kənar zaman və məkan mövcud deyil, yəni Eynşteynin sözlərinə görə bütün cisimləri – materiyanı ləğv etsək, yerdə məkan və zaman qalmayacaqdır (2, səh 144). Materiyal şeylər yarandıqda özlərinin fərdi zamanı və məkanını yaradırlar. Bu fikir qəbul olunur. Mənim fikrimcə doğrudan da onlar öz zamanlarını və öz məkanlarını - nə qədər yayılırsa, nə qədər həcmə maliksə, o qədər yaradırlar. Lakin kainat təkcə material dünyadan ibarət deyildir. Burada fiziki və texniki vakuum, habelə materiya olmayan sahələr, yükü və kütləsi olmayan zərrəciklər, surətlər, formalar, ruhlar da vardır. Mənim fikrimcə material məkan və boşluq kombinasiyası əbədidir, material cisimləri, habelə atom və molekulları, atomun tərkib elementlərini proton, neytron, elektronu ləğv etsək, boşluq, keçid zərrəcikləri və digər sakinlər qalacaqdır. Materiya boşluqdan formalaşmış ilk toxumlardan - boşlüq konfiqurasiyalarından - zərrəciklərdən əmələ gələrək hərəkət - pulsasiya edir və öz zamanını yaradır. Material zərrəciklərin meydana gəlməsinə qədər isə qeyri material müxtəlif zərrəciklərin formaları

məkandan (enerjiyə malik boşluqdan) yaranır (bunun necə, nəyə görə olmasını bilmirik) və evolyusiya edərək onlardan nəhayət, maddə zərrəcikləri (elektron, proton, neytron) meydana çıxır. Maddə zərrəciklərinin meydana çıxması üçün xüsusi şərait, temperatur, sıxlıq, təzyiq lazımdır. Bu şərait isə fluktuasiya nəticəsində 4 qarşılıqlı təsir qüvvəsinin işi nəticəsində kütləsi, yükü olmayan ilk boşluq hüceyrələrinin - "toxum" zərrəciklərin fluktuasiyası –sıxlaşması-seyrəlməsi nəticəsində kütləsi və bəzən yükü olan zərrəciklərin yaranmasına gətirir. Sonrakı evolyusiya nəticəsində materiya - əvvəl onun öz tərkib hissələri olan zərrəcikləri (proton, elektron, neytron), sonra atom, molekullar - meydana çıxır. Bu, sıxlaşmış ulduzların partlaması və onlarda istilik, sıxlıq, təzyiq şəraitində gedən çevrilmələr nəticəsində baş verir. Bu ssenaridə böyük partlayışa ehtiyac yoxdur. Və onu heç kim və heç nə görməmişdir. Onu yaratmaq üçün heç bir qüvvə böyük – sonsuz əraziyə dağılmış zərrəcikləri və ya cisimləri bir yerə toplaya bilməz. Bu ola bilsəydi, spiral qalaktikaların cisimləri ani olaraq mərkəzə toplanıb patlayardı. Bu baş vermir, çünki mümkün deyil. Digər tərəfdən fizikanın öz -işıq sürətindən daha sürətli qarşılıqlı təsirlərin mövcud ola bilməməsi qanunu kainatın $10^{10}$ parsek məsafəyə yayılmış cisim və zərrəciklərini bir anda bir yerə toplaya bilməsini rədd edir. Bu fakt sübut edir ki, *bir böyük partlayış* sadəcə uydurmadır.

Ümumi nisbilik nəzəriyyəsinin aşkar etdiyi məkanın əyriliyi də (bu sözü həmin nəzəriyyənin elan etdiyi kimi **fəza –zamanın əyriliyi** kimi adlandırmaq olmaz) yalnız eyni cinsli bərabər yayılmış materiyaya aiddir. Lakin təbiətin hər yerində fəzanı əyə bilən bərabər yayılmış və lazımı sıxlıqda materiya yoxdur, yalnız ulduzlarda bu var-deməli, onların ətrafında məkanın əyriliyi ola bilər. Bu zonadan kənarda isə məkan əyri-lobaçevski fəzası deyil – evklid fəzasıdır.

### *İlkin material dünyanın yaranışı necə olmuşdur?*

Kainatın müəyyən zonasında və zamanın olmadığı (dayanmış) dövründə daimi olan boşluqda boşluğun fluktuasiyası və sahəsinin rəqsi hadisəsi altında **xarici** güclü elektromaqnit mənbəyin **təsiri** nəticəsində boşluğun xüsusi formalaşması üsulu ilə ilkin boşluq hüceyrələri - keçid zərrəcikləri meydana çıxır. Professor Murquzovun öz kitabında təcrübələrlə izah etdiyi kimi enerji elə boşluqda daim var və sıfır ətrafında rəqs edir, burada daim olan virtual zərrəciklər güclü sahədə real zərrəciklərə çevrilə bilər (3, səh.158). Məkan və zaman anlayışından çıxan nəticəyə görə bizim dünyanın yerləşdiyi kainat bir böyük partlayışla yaranmamışdır.

**Xarici təsirin** zəruriliyi amilinə görə belə mülahizə söyləmək olar ki, deməк, **ilk** yaranış heç vaxt olmamışdır.Yəni ilk yaranışdan əvvəl xarici təsirin özü yaranmalıydı – mövcud olmalıydı. lakin bu yox idi. Bizim indi hesab etdiyimiz material dünya yarandıqda hökmən kainatın digər yerində - qonşuluqda artıq şüa -enerji mənbəyi - hazır maddi dünya cisimləri və ya güclü elektromaqnit sahəsi olmuşdur. Demək, kainat başlanğıcı və sonu olmayan və zamanla fərqli (eyni zamanlı olmayan) avtonom dünyaların yaranması və yenə də boşluğa çevrilməsi (qara deşiklər vasitəsilə və ya digər üsulla) və qonşu dünyaların təsirilə yenidən yaranması prosesidir. Demək, *biri hamı üçün hamı biri üçün* prinsipi əbədi universal prinsipdir, həm kosmosda, həm yerdə, həm insanlar, heyvanlar üçün.

İlahiyə əsaslanan dinlərin nəzərdə tutduğu allah (ruh) isə lazımı enerjiyə malik deyildir ki, boşluqdan ilk yaranış elementlərini yaratsın. Yaranışın sxemində gördük ki mühit, yəni xarici təsir 4 vacib amilin içərisində yerləşir. Bu sxem-*həyatın tetraedr hüceyrəsi* həm ilk yaranışın, həm sonrakı bütün yaranışların ümumi prinsipidir. Əgər həmin dinlər **xarici təsiri** allah hesab edirlərsə bu obyekt güclü elektromaqnit şüalanma mənbəyi olmalıydı ki, heç nəyin olmadığı boşluqdan ilkin hissəcikləri yaratsın. Lakin bu obyektin adı allah deyil, öz adı var, bu - yüksək enerjili elektromaqnit şüa mənbəyidir, başqa sözlə qonşuluqda olan xarici təsir mənbəyidir. Bu məntiqlə də belə dinlərin manipulyasiyasına, söz oyunlarına və ruhanilərin həmin uydurduqları allahdan özləri üçün xeyirli göstəriş uydurmalarına son qoyulur.

Digər maraqlı mülahizə budur ki, hər bir avtonom material dünya öz siklik hərəkətində maddədən qeyri - maddəyə, yəni enerji daşıyan boşluğa, sonra isə yenidən maddəyə çevrilir. Hər spesifik dünyanın hamısı birdən, eyni zamanda deyil, bir - bir, müxtəlif zamanlarda bu sikli yaşayır. Belə bir siklik dəyişilmə bütün maddi dünya varlıqları üçün müşahidə edilir. **Yəni hər şey iki ən kənar vəziyyətlərə düşməklə yaşayır**, lakin adları dəyişir, yaşadıqda isə iki ən kənar hədlər arasında dəyişərək yaşayır. Ona görə şeylərə baxanda onların gah bir tərəfdəki həddə (yaxşıya, qalxmağa), gah digər tərəfə (pisə, yenməyə) istiqamətli hərəkətini görürük. Lakin bu iki sərhəd şeyin olduğu çoxluqların təsiri və onlarla uyğunlaşma nəticəsində, özü də dəyişəndir, yəni düzgün sinusa oxşamır. Yalnız xarici təsirə məruz qala bilməyən elektomaqit dalğaları, (məs. işıq dalğaları) düzgün sinusa oxşayır - stabil tezliyə, dalğa uzunlğuna və amplitudaya malikdir.

Sonrakı evolyusiyada – həyəcanlanma, fluktuasiya, rezonans və s. proseslər nəticəsində boşluqdan (həm fiziki, həm texniki) yükü və

kütləsi olan (habelə kütləsi olmayan) zərrəciklər yaranır (boşluqdakı enerji kütləyə çevrilir) və 4 qarşılıqlı əlaqə qüvvələri işə düşür. Sonrakı evolyusiya davam edir, böyük materiya topaları meydana çıxır, onlardan ulduzlar – günəşlər yaranır və partlayır, adi sadə maddə, sonra isə bütün kimyəvi elemenlər yaranır. Kainatın topalar olmayan yerində isə boşluq və seyrək zərrəciklər, sahələr qalır. Dünyanın yaranışı və davamiyyətində həlledici cəhət odur ki, dünyalar müxtəlif zamanlarda yaranır və evolyusiya edir, bu zaman yeni yaranış prosesləri gedən yerdə köhnə yaranışlar mühit kimi iştirak edir. Bir böyük partlayışın olması qəti olaraq heç bir məntiqlə və qanunla mümkün deyil. Bu, bütün dünya hadisələrinin olma qanununa - eynizamanlı olmaması qanunua, relikt şüalanmasının müxtəlif növlü olması faktına, işıq sürətindən böyük sürətlə bütün qalaktikaların bir yerdə bir anda bir kürəyə toplana bilməməsi qanununa ziddir.

**Şeylərin məkanı** dayanıqlı - avtonom yaşaya bilən şeylərin yaşadığı dövrdə ən uzaq nöqtələri arasında qalan həndəsi fiqurun tutduğu yerdir. Bu məkanda şeylərin bütün xassələri, sahəsi yerləşir.

**Kosmik məkan.** Kosmik məkan bütün kainatın yerləşdiyi məkandır. Bu məkan fiziki və texniki vakuumdan- boşluqdan, zərrəciklərdən, ionlardan, sahələrdən və maddə və plazma halında göy cisimlərindən ibarətdir.

**Materiya.**

Baxığımız fiziki aləm daxilində nəyi materiya; nəyi qeyri - materya adlandırmaq məsələsi hələ həll dilməyib. Beləliklə materiya və qeyri - materiya və "heç nə" nədir? Bu anlayışları müəyyən edib bir - birindən fərqləndirsək insanlar arasındakı idealizm ilə materializm arasındakı mübahisəni də həll etmiş olarıq.

Materiyanın indiyədək verilmiş tərifləri qənaətbaxş deyildir. Məsələn, ən yaxşı hesab olunan Marksın tərifinə görə materiya bizim hiss üzvlərimizdən asılı olmadan duyğularımızda surəti alınan, duyğularımızda verilən obyektiv reallıqdır ( 4, səh 265). Bu anlayışda duyğularımızda surəti alınmayan və duyğularımızda olmayan şeylərin materiya olmaması nəticəsi çıxır. Halbuki, belə şeylər çoxdur, görmədiyimiz cisimlər, təbiətin zonaları, görünməyən işıq dalğaları kənarda qalır. Habelə dostluq, humanizm, nifrət, xeyirxahlıq kimi anlayışların da hansı ki duyğularımızda ola bilər və obyektiv reallıqdır materiya sayılmasına səbəb ola bilər.

İlk materiya anlayışı Siseron tərəfindən (50 il e.ə.) yunan Hyle sözünü latın dilinə tərcmə edərkən fəlsəfəyə daxil edilmişdir Bu anlayış Platon və Aristotelin (340 il e.ə.) əsərlərində yaradılmışdır. Onların fikrincə materiya maddi şeylərin əsasını təşkil edir ki,

formasız, keyfiyyətsiz substansiya (əsas, ilkin maddə) hesab edilir, forma ilə birləşdikdə yaxud bir formaya salındıqda konkret şeyə çevrilir (5). Bu anlayış mənim fikrimcə dəqiq deyildir, yəni onların hesab etdiyi materiya forma ilə heç vaxt birləşmir, o eləəgər varsa forma ilə birlikdədir, yəni ölçüləri, tutduğu yer və s. Sonralar və hazırda sahəni də materiyaya aid etmişlər. Halbuki sahə maddi şeylərin əsası deyildir, yalnız şeylərin törəmə xassəsidir. Sahədə, qeyd edildiyi kimi, maddə zərrəcikləri və sonrakı evolyusiyada zərrəciklərdən maddə - atom, molekul və cisimlər yarana bilər.

Klassik materiya anlayışı sanki indi xeyli köhnəlmiş və dünyanın yeni nəzəriyyəsinə uyğun gəlmir. Ona görə də dünyanın əsasını materiya deyil, enerji hesab etmək daha obyektiv səslənir. Materiyanı isə enerjinin şevrilmələrində bir mərhələ kimi qəbul etmək olar. Beləliklə daha düzgün belə qəbul etmək olardı: Materiya və xalis enerji (materiya olmadan) varlığın bir xətt üzrə dəyişən iki ən kənar formasıdır. Materiya və xalis enerji boşluqda mövcud olur. Materiya böşluqda özünə məkan tutur, həndəsi ölçüləri olan həcmə malik olur. Boşluq olmasaydı materiya və ondan yaranan şeylər harada yerləşə bilərdi?

*Beləliklə materiyanın yeni anlayışı.*

Materiya duyğularımızdan asılı olmadan, lakin hər hansı bir duyğular, cihazlar, ölçmə hesablama metodları ilə aşkarlana bilən yalnız mövcud olan cisimlər, maddə və maddə birləşmələri və maddənin molekulları, atomları, ionlarıdır. Başqa sözlə materiya yaxud maddə kombinasiyaya malik çoxluqdur, yəni müəyyən qayda ilə birləşmis tərkib hissələrinə malikdir.

Daha qısa, hesab edə bilərik ki, *materiya* çoxluğun maddə (bərk, qaz, maye), atom, ionlar və plazma formasında ölçüləri, kütləsi, parametrləri olan obyektiv dayanıqlı (saniyədən çox) real növüdür.

Bu mənada maddi obyektlərin zəruri surətdə malik olduğu sahələr materiyanın xassəsidir, lakin onları bilavasitə materiya saymaq düzgün deyildir. Bu hər hansı materiyaya mənsub olan törəmə sahələr, yaxud süni surətdə yaradılan sahələr digər materiyanın yaranmasında vasitə rolu oynayır. Yəni sahələr materiyanın yaranmasına qədər olan bir evolyusiya pilləsidir. Ona görə də sahələri materiyaya qədərki keçid obyektləri saymaq daha düzgündür.

Daha yaxşı olardı ki, ilk atomdan (protondan-hidrogen atomundan) sonrakı bütün maddi yaranışları materiya sayaq. Bu atoma qədərki yaranışları isə materiyaya - maddi aləmə keçid dünyasının elementləri sayaq. Yəni indiyə qədər maddə zərrəciyi sayılan elektron, proton, neytron da olmaqla bütün aşkar edilmiş 350 zərrəciyi

materiyaya keçid elementləri sayaq. Protonu materiya saymağa əsasımız var çünki bu konkret madədir-hidrogen atomdur. Lakin elektron və neytronu materiya saymağa əsasımız azdır və bu məsələni fiziklərin öhdəsinə buraxıram. Bəs keçid elemenləri yaxud dünyası daha aydın nə deməkdir? Keçid elementləri məhz boşluqdan xüsusi şəraitdə yarandığı üçün onları Boşluqdan materiyal dünyaya evolyusiya prosesində *orta mərhələ məhsulları* hesab etmək olar.

*Materiya energetik intensivliyi və tezliyi sıfır və ya çox olan boşluqdan müəyyən gücdə olan və təsir edən sahə vasitəsilə yaranmış ilkin atomu yaradan zərrəciklərdən, onların müəyən temperatur, sıxlıq, təzyiq, kütlə toplanması şəraiti ilə - zərrəciklər- plazma- atom-molekul- adi maddə-cisim- canlı cisim xətti ilə yaranır və nəhayət, öz tarixində təbii fiziki proseslər vasitəsilə yenidən parçalanma yolu ilə boşluğa çevrilir*. Bu təqribən 10-15 milyard il çəkir. Bunu materiyanın - varlığın böyük tarixi sikli adlandırıram. Materiyadan törənmiş müxtəlif kombinasiyalar, cisim və canlılar isə hər biri öz kiçik fərdi həyat siklinə malikdir: yaranma - böyümə - kiçilmə (zəifləmə) və kombinasiyanın dağılması. Materiyanın əbədiliyini də bir zonada materiyanın parçalanıb boşluğa çerilməsi, digər zonada isə yenidən yaranması və ya öz orta həyat prosesində olması kimi başa düşmək lazımdır. Yəni konkret baxılan materiya (bina, cisimlər, yer, ay və s.) əbədi deyil, o keçid məhsularına, hansı ki materiya deyil, sonra isə boşluğa çevriləcəkdir

**Sahə.** Sahə materiya deyildir, lakin materiyanın yaratdığı və ya ondan onun fəaliyyəti ilə törənən xassənin daşıyıcısıdır. Sahə - **fiziki** sahə hansı ki 4 növ: foton (işıq üçün), qluyon (nüvə sahəsi üçün), qraviton (cazibə sahəsi üçün), Pi-mezon (elektrostatik sahə üçün) zərrəciklərindən və **bioloji, torsion (**hələ tam müəyən deyildir) sahə növlərindən ibarətdir. Sahə materiyanın yaranması üçün mühit rolunu oynayır. Materiyanın əmələ gətirən fundamental zərrəciklər məhz güclü enerjili sahənin istiqamətlənmiş təsirilə energetik boşluqdan - vakuumdan yaranır, maddədən isə böyük artan enerji verməklə maddənin atomlara, sonra nüvə və elektronlara, daha sonra isə nüvənin bölünməsilə yaranır, enerjinin artırılması ilə ən sonda yenidən boşluq – vakuum əldə edirik. Nyuton nəzəriyyəsi sahənin qapanmasını və təsirinin sonlu olduğunu deyir, Eynşteyn nəzəriyyəsi sahənin hüdudsuz əraziyə yayılmasını deyir. Yəni, məsələn, günəşin və ya yerin sahəsi bütün kainata sonsuz məsafəyə yayılır. Bu iki nəzəriyyədəki ziddiyyətlər və gerçəkliyin izahında doğurduğu şübhələr gələcəkdə həqiqətin tapılması ilə qurtaracaqdır. Eynşteyinin tənliklərini reviziya etməyə və əlavə tənliklər qoşmağa ehtiyac vardır.

**Materiyaya keçid – aralıq aləm varlıqları.** Bu qrup varlıqlar bilavasitə maddə deyil, lakin onlardan materiyanın tərkib hissələri olan zərrəciklər: proton, elektron, neytron generasiya olunur, yaxud onlardan bilavasitə müəyyən sahədə çevrilirlər və ya yaranırlar. Habelə burada müxtəlif bioloji, torsion, qravitasiya, elektromaqnit, elektrostatik sahələr yerləşir. Bu sahələrin zərrəcikləri əsasən sükunət kütləsi olmayan sahə zərrəcikləridir: foton, qraviton, qluyon və p-mezon. Daha geniş, bax səh. 43.

**Varlıq anlayışı.** Varlıq anlayışı material, keçid və forma- surət-ruhlar dünyalarını əhatə edir. Bunlar hamısı mövcud olanlardır. Varlığın sinonimi mövcudiyyətdir.

**Reallıq**. Reallıq hər cürə və növ varlığı və onlar arasındakı münasibətləri, onların evolyusiyasını, yəni varlığın iştirak etdiyi bütün hadisələri ifadə edir. Hadisələr isə varlığın olması və mühitlə münasibətlərini əks etdirən və müəyyən məqsədlərin əldə edilməsinə yönəlmiş, başlanğıcı və sonu olan bitmiş hərəkət kompleksləridir ki, burada müxtəlif varlıqlar iştirak edir. Reallığın sinonimi gerçəklik və mövcudiyyədir.

# İ. Yaradıcı ağıl (Kreativ intellekt) fəlsəfəsinin mövcudiyyətin quruluşu və dəyişməsi haqqında nəzəriyyəsi

### *Tarixə qısa nəzər*

Görünən hər bir əşyanın, cismin, bitki və heyvanların nədən ibarət olması qədim dövrlərdən insanı maraqlandırmışdır. Bu haqda Levkippin, Demokritin və Lukresinin fikirləri həqiqətə yaxındır. Onlar deyirdi ki, şeylər bölünməz hissəciklərdən - atomlardan ibarətdir (6, səh.70-71). Oxşar fikirləri Hindistan, Çin mütəfəkkirləri də bir - birindən xəbəri olmadan bölüşürdü. Sonrakı elm də bu atom terminini qəbul etdi və 20 –ci əsrdə məlum oldu ki, atom bölünür və bölünməz olan atom deyil, ondan da kiçik elementar hssəciklərdir. Bu haqda b.e.ə. 600 ildə yaşamış Pifaqorun təlimi də qiymətlidir. Pifaqor deyirdi: "dünya – hər şey rəqəmlərlə ifadə olunan saydan (Число) ibarətdir". Bu hər iki filosofun fikri mahiyyətcə elə eyni mənalıdır. Pifaqor əlavə olaraq yazırdı ki, səslər, işıq da rəqəmlərdən ibarətdir ; harmoniya – rəqəmlərin kombinasiyasıdır. Miqdar təklərin birliyidir. Tək, vahidlik, bir, bütün varlığın əsasında durub. Səs, işıq və maddələrin əsası təklərin çoxluğudur (5). Pifaqorun fikirlərini Mendeleyevin kimyəvi elementlər cədvəli sübut etdi.

Müasir kvant nəzəriyyəsi işığın dalğa olması və eyni zamanda bölünməz elementar zərrəciklərdən -fotonlardan olduğunu müəyyən

etdi. Atomun bölünməsi və nüvə tədqiqatları da sübut etdi ki, materiyanın əsasında maddələr üçün: zərrəciklər, *nuklon (proton, neytron birliyi),elektron, pozitron, neytrino, mezon, və s.* hissəciklər durur. Elektromaqnit sahəsi foton, qravitasiya sahəsi qraviton, nüvə sahəsi qluyon və pi -mezon adlı zərrəciklərdən ibarətdir. Varlığın əsasında sayı 350 olan zərrəciklər durur. Bəzi zərrəciklər digərinə çevrilə bilir və bəziləri yeni zərrəciklərə bölünə bilir, bəziləri bölünmür. (3, səh. 151-202).

Fizikanın qanunları, habelə müəyyən etdi ki, hər şey nisbi müvazinətdədir, yəni daim eyni və əbədi qalan müvazinətdə deyil. Riyazi dildə bu o deməkdir ki, əgər cisim sükunətdə və ya bərabərsürətli hərəkətdədirsə ona təsir edən qüvvələrin cəmi sıfra bərabərdir. Eynşteynin Nisbilik qanunu bildirdi ki, sükunət və bərabərsürətli hərəkət də nisbidir, universal zaman və məkanda bunu müəyyən etmək üçün bir üsul və qayda yoxdur. Təsir əks təsirə bərabərdir (Nyutonun qanunu). **Hər şey stabil və sərfəli vəziyyətdə olmaqa - ən az enerji itirməyə çalışır** - bunu hər şeyin universal və çox faydalı qanunu - *rasionallıq qanunu* və ya *həyatın əsas qanunu* hesab etmək olar.

Kainatı və onun tərkib elementlərinin - Göy cisimlərini, habelə Yeri, onun üstündəki bitkiləri, heyvanları, qaya, torpağı, insanları - hər şeyi müşahidə və analiz etdikdə onların vahid hissəciklərdən, vahid element atomlarından və onların müxtəlif kombinasiyalarından ibarət olduğunu aşkar edirik. Onların eynilə, ümumi: olmaq və dəyişmək prinsiplərini müşahidə edirik.

Bu bölmədə biz bu prinsipləri - daha doğrusu, universal dünya qanunlarını konkret olaraq təsvir edəcəyik. Bu qanunlara, şübhəsiz, fizikanın qanunları da daxildir.

## Kainat – kosmos.

Kainat və ya kosmos dayanıqlı və dayanıqsız hissələrdən olan mövcudiyyətin ən böyük məkanıdır. Kainatın özü isə boşluqda yerləşmişdir. Kainatın tərkibi ulduzlar, ulduz birlikləri – qalaktikalar, boşluq, sahələr, zərrəciklər, işıq, dalğalardan ibarətdir. ***Kainat*** bütün varlıqların əmələ gəldiyi ümumi böyük mühitidir, kainat həm varlıqdır (nəticədir), həm mühitdir (yaradandır), lakin kainatın hər yeri yaradan deyil, yalnız onun tərkib hissələri olan ulduzlarda və yaradıcı kompleksə malik sahələrdə yaradıcılıq baş verir. Kainat çoxluq olaraq məkan və davamlılıq (zaman) xassəsinə; hissələrinin sistem quruluşuna

və zəruri, hələlik məlum olan 4 növ qüvvədən (nüvə, zəif, elektomanit, qravitasiya) ibarət qarşılıqlı təsir əlaqələrinə malikdir..

Bizim kainatın bütöv nəzəriyyəsini hələ bitmiş hesab etmək olmaz. Çünki Kainatın yaranması modellərindən daha çox ehtimallısı olan böyük partlayış nəzəriyyəsi partlayışa qədər nə olmuşdur sualına cavab vermir. Və dünyanın da tarixini uydurulmuş böyük partlayışdan bu günə qədər hesablayır. Hansı ki mənim fikrimcə bu yalnız dünya tarixinin bir fraqmentini əks etdirir və bir böyük partlayış olmamışdır.

**Kainatın ümumi nəzəriyyəsi aşağıdakı məntiqi şərtlərə cavab verməlidir:**

1. Kainat özünü nizamlayan sistem olmalıdır.
2. Son olmadan başlanğıc ola bilməz; başlanğıc hər hansı bir sondan başlaya bilər.
3. Kainatın başlanğıcı varsa, sonu da, olmalıdır; başlanğıc yoxsa, sonu da yoxdur. Lakin kainatın ayrı-ayrı tərkib hissələrinin, formalarının başlanğıcı və sonu olması dəqiq sübut olunmuş faktdır.
4. Kainatın nəzəriyyəsi onda olan maddələrin və hissəciklərin bütöv çevrilməsini, yəni ən son iki bir birinə əks vəziyyətini əks etdirməlidir. Bu kainatdakı elementlərin, Yerin, hər şeyin inkişaf modelidir.
5. Kainat bütövlükdə onun hissələrindən birinə oxşamalıdır.
6. Bir bütöv kainat deyil, müxtəlif kainatlar çoxluğunu qəbul etsək, daha doğru olar .
6. Heç nəyin itməməsi prinsipi, saxlanma qanunları təmin olmalıdır.
7. Əgər dünya heç nədən yarana bilərdisə, deməli, heç nəyə çevrilə bilməlidir. Bunun necə baş verəcəyi prosesi müəyyən edilməlidir. Bu məsələ həll edilə bilməzsə, kainatın heç nədən yaradılması ideyası qəbul oluna bilməz. “Heç nə”ümumiyyətlə yoxdur. Kainatın bütövlükdə və ya onun hissələrinin bir kiçik maddi kütlədən və ya zərrəciklər toplusundan yaranması ssenarisi yerdə müşahidə edilən kiçik toxumdan böyük sistemin və ya kiçik hadisədən böyük hadisənin yaranmasına oxşar olaraq yazıla bilər. Lakin dəqiq qəbul etməliyik ki, burada heç nə öz - özünə ətraf mühitlə əlaqədə olmadan və ondan istifadə etmədən böyüyə, arta bilməz.
8. Kainat və istənilən maddi varlıq müxtəlif vahid tərkib elementlərin müxtəlif kombinasiyasından ibarət olaraq tam yaşama sikli - sistemin formalaşması - böyüməsi - pik vəziyyəti – azalması, zəifləməsi və digər vəziyyətə keçməsi - siklini yaşamalıdır.

9. Maddənin elementar hissəciklərə, radiodalğalara və digər naməlum və məlum dalğalara, işığa və sonradan yenə maddəyə çevrilməsi fasiləsiz prosesdir.
10. Kainatın genişlənməsi əbədi proses deyildir. Çünki təbiətdə heç bir proses bir istiqamətli və bir formalı deyil. Belə **bir** istiqamətli dəyişiliklər yalnız sonlu dəyişilklər ola bilər. Kainat isə sonsuz prosesdir. Genişlənmə tarixin və məkanın bir fraqmenti ola bilər. Digər tərəfdən ***hər bir şey iki kənar tam əks mahiyyət daşıyan vəziyyət arasında dəyişir*** qanununa görə kainat əbədi genişlənə bilməz, maddənin miqdarı həmişə eyni qala bilməz, bir dövrdə azala, sonrakı dövrdə arta bilər.

Kainat heç nəyə çevrilə bilərsə, yenidən yaranmaq üçün hansı səbəb – təsir onu yarada bilər? Bu suallara cavab verilməlidir. Bu sualın cavabını dünyadan kənarda deyil, kainatın öz içində axtarmaq lazımdır, çünki biz hər bir təbiət hadisəsinin, gördüyümüz hər bir canlının, etdiyimiz hər bir əməlin, yaratdığımız hər şeyin səbəbini onun öz daxilində və mühitlə əlaqələrində olduğunu görürük. Maddənin itməməsi, lakin enerjiyə çevrilməsi qanunu mövcuddur. Hələki, bir şeyin heç nəyə çevrilməsi müşahidə olmamaışdır. Nəyə "Heç nə" deyirik və ya dindarlar nəyə deyir? Dərin araşdırdıqda heç nəyin də heç nə olması yox, yenə də bir şey olmasını, lakin görünməməsini fərz edə bilərik. Adətən və keçmiş primitiv ağıl axı görünməyən şeyləri heç nə hesab etmişdir. Belə ki, səs dalğaları , rentgen şüaları, bioloji şüalar, elektromaqnit sahəsi, radio – dalğalar görünmür.

Kainatın ümumi modeli mövcud real göy cisimlərinin və ya yerdəki modellərdən birinə oxşayacaq. Kainatı Nyutonun cazibə-qanunu işıq surətindən aşağı sürətlərdə və Eynşteynin kəşv etdiyi ümumi qravital nisbilik (işıq surətindən böyük sürətlərdə) qanunu idarə edir. Ümumi qanuna görə hər şey bir vəziyyətindən digər vəziyyətə keçir, şeyləri təşkil edən fundamental materiya itmir, lakin çevrilərək qeyri -material formaya, yəqin ki enerji formasına (boşluqda) düşür, hamısı birdən deyil, zaman-zaman. Hər bir şeyin konkret vəziyyətinin başlanğıcı və sonundan danışmaq olar. Fasiləsiz qoca ulduzlar yanıb sönür və parçalanır, yeni ulduzlar heç nədən deyil, olan maddələrdən, materiallardan yaranır. Ulduzlar kütlələrindən asılı olaraq dəyişərək, ya ağ cırtdana, ya neytron ulduza, ya qara deşiklərə çevrilir (7 ).

Bu mənada bizim Günəşin 3 milyard ildən sonra ağ cırtdana çevriləcəyi fərz olunur. Həyatın əmələ gəlməsi isə Yerin yaranması ilə lazımi mühitin formalaşması və lazımı hədlərə çatmasından sonra

başladı. Lazımı torpaq, hava, su, küləklər, lazımı amin turşuları yaranandan sonra istiliyin təsirilə həyatın yaranması mümkün oldu. Elm katalizator rolunda ildırımı, radiasiyanı, küləkləri, temperaturun siklik dəyişməsini xüsusi qeyd edir.

**Dünya.**

Dünya kainata nisbətən kiçik ölçülərə malikdir, yəni kainatın lokal hissəsidir. Dünyalar çoxdur. Hesab edirik ki, dünya kainatda avtonom yaşaya bilən maddənin müxtəlif formalarını əhatə edən və müəyən qüvvələr vasitəsilə bütöv halda qala bilən hissəciklər çoxluğudur. Hər qalaktika, hər ulduz, hər qarşılıqlı əlaqədə olan ulduz sistemi və ya cisimlər sistemi, hər planet bir dünyadır. Dünyalar daxilində də müəyyən ərazilərdə izolyasiya olunmuş, digər sahələrlə əlaqələri məhdud, daha çox daxili qaydası ilə özü - özünü idarə edən və bütöv saxlayan kiçik dünyalar mövcuddur.

Gerçəklik hər bir şəxsə onun öz şüuru vasitəsilə dərk edib qəbul etdiyi, yalnız onun şüurunda müəyyən etdiyi spesifik şəxsi maddi dünya kimi görünür. Ona görə insanların sayına görə hədsiz miqdarda dünyalar təsəvvür olunur- hər şəxs dünyanın özünəməxsus olan obrazına malikdir. Bu görüntü - şəxsi dünya gerçək dünyalar ilə az və çox dərəcədə uyğundur. Və insan onun hamısının deyil, az bir hissəsinin təsvirinə - obrazına, həyatı haqda biliklərə malikdir.

Kainatın **bizə aid hissəsində** böyük ulduzun axırıncı böyük partlayışından sonra elementar hissəciklərin soyuması və qarşılıqlı təsirilə maddənin yaranması və inkişafı dövrü başladı. Materiyanın müxtəlif formalarının və material düyanın müxtəlif mərhələ və çevrilmələrindən, qarşılıqlı təsirlərindən sonra bizim qalaktika, Günəş sistemi, Yer planeti yarandı. Hələ qara deşiklərin işinin bütün nəticəsi haqda dəqiq bir fikir yoxdur. Buraya cəzb olunan ulduzlar emal edilərək enerjisi sıfır ətrafında rəqs edən boşluğa çevrilir, yoxsa onun fırlanma oxu vasitəsilə zərrəcikərə çevrilərək hiperbola əyrisi ilə atılır və oxun əks uclarında yeni qalaktikanın yaranması baş verir? Axırıncı düzdürsə, digər bir ssenaridə bizim qalaktikanın digər qalaktikadan bu üsulla yaranması ehtimal edilə bilər. Bizim qalaktika və günəş sistemimizin və yerin yaranması nəhəng ulduzun partlaması nəticəsi də ola bilərdi. Relikt şüalanmasının bu gün kəşv edilən müxtəlifliyi və bir böyük partlayışın mümkün olmaması mülahizəsi bunu deməyə əsas verir.

Nəhayət, Yer yarandı və burada materiyanın yeni inkişaf mərhələsi başladı və davam edir. Bütün analiz göstərir ki, şeylər məhz

birləşmə yolu ilə vahid tərkib elementlərindən əmələ gəlir. Hər şey ilkin bölünməz və bölünən hissəciklərin sonrakı müxtəlif kombinasiyalarının kombinasiyalarından ibarətdir. Hər şey məhz birləşmədir. Hər şey çoxluqdur. Digər tərəfdən, hər bir şey tək deyil, hər bir şey çoxluğun içindədir. Hər bir şey bütöv müəyyən zaman ərzində dayanıqlı olan bir bütöv quruluşdur. Başqa sözlə, hər şey sistemdir. Sistem sözü bütövlüyü, onun qarşılıqlı asılı və bir - birinə bağlanan hissələrdən ibarət olması mənasını verir.

**Yaranan yeni kombinasiyaların (sistemlərin) və ya varlıqların təsnifatı:**

1) Zamana görə əvvəl və sonra əmələ gələn növlər,
2) Ayrıca avtonom coğrafi ərazi-fəza-məkanlarda əmələ gələn növlər,
3) Müxtəlif zamanlarda yaranan sistemlərin birləşməsilə yeni kombinasiyası-yeni növlər,
4) Müxtəlif zamanlarda və müxtəlif məkanlarda yaranan sistemlərin kombinasiyası-yeni növlər,
5) Bir ərazidə yaranan sistemlərin və ya onların elementlərinin yeni kombinasiyaları,
6) İnsanın məqsədli fəaliyyətilə müxtəlif fiziki - kimyəvi - bioloji xassələrin, hərəkət növlərinin və materialların, formaların kombinasiyası ilə yaranan obyektlər, ixtiralar, səmərələşdirmələr,
7) Katalizatorlar, vasitəçilər köməyilə yaranan yeni obyektlər.

Hər şey zamana görə, müxtəlif zamanlarda (əvvəl ya sonra) və müxtəlif mühitlərdə yarandığına görə, həm müəyyən, lakin fərqli potensiala – gücə, həcmə, enerjiyə, ölçüyə və s. malikdir və bununla belə hər bir şey hökmən bir çoxluğun üzvüdür və çoxluq daxilində onlar arasında bu potensialın kəmiyyət və keyfiyyətinə uyğun olaraq əlaqələri var.

***Bütöv reallığın - varlıq aləminin və ya mövcudiyyətin tərkib üzvləri***

Kainatın, görsənən və görsənməyən şeylərin, əşya və cisimlərin müxtəlif baxışlardan ümumi strukturu təsvir edilmişdir. Materializm dünyanı qaz , maye , bərk və plazma halda olan maddəyə və sahəyə bölür və yalnız bunlarla işləyir. Halbuki bunlar bütün reallığı əks etdirmir.

Beləliklə, *reallığın* aşağıdakı daha aydın iearaxik pillələr üzrə *bölümünü* təklif edirəm:

1. İlk başlanğıc pillə boşluq.

2. 350 zərrəciklər elektron, proton, neytron, yüngül və ağır neytrino, nuklon, kvark, antineytrino, qraviton, antiqraviton, pozitron, antipozitron və digərləri: məlum və naməlum
3. Zərrəciklərdən yaranan dalğalar(şüalar): radio, işıq, rengten və s.
4. Atomu əmələ gətirən zərrəciklər: proton, neytron, elektron. Atom və maddə: qaz, bərk, maye və plazma halında
5. Maddənin və zərrəciyin yaratdığı sahə: Nüvə, elektromaqnit, qravitasiya, elektrostatik, torsion,
6. Canlı materiya (bitki və heyvanlar, insanlar; böyümə-artma xassələrinə malik vahid hüceyrələrdən xüsusi qaydada təşkil olunur).
7. Bioloji sahə - canlı materiya, canlı hüceyrə tərəfindən yaranır.
8. İnsandan, habelə heyvandan və ya kollektiv fəaliyyətdən (yığıncaq, məclis, oyun və s.) ayrılan onun olduğu formada xəyalının və prosesin *forma – surəti*
9. Bütün cisim və canlıların, təbiət mənzərəsinin *forma - surətləri*
10. Canlılardan: bitki, heyvan və insandan yaranan *xüsusi surət-ruhlar*

*Forma –Surət anlayışının izahı*

Varlığın 8 və 9-10 cu növü və ya pilləsi *forma- surət* daha az öyrənildiyindən və çox mübahisəli olduğundan bu kitabda onun faktlara əsaslanmış bəzi natamam təsvirini verirəm. Energetik forma –surət analayışı şərtidir. Bu anlayışın tarixi sinonimləri hələ 2500 il əvvəl Hindistan, Çin fəlsəfəsində məlum olan *İncə materiya* və yaxud *incə dünya* anlayışıdır. Digər oxşar anlayışlar Orta Şərq dinlərinin təsvir etdiyi ruhlar, mələklər, şeytanlar, cinlər, Allahlar, ilahi qüvvələr, gözə görünməzlərdir. Elmin öyrənmədiyi və buna görə qəbul etmədiyi, lakin obyektiv reallıqdır. İlk forma anlayışı, güman ki Platona məxsusdur. Ondan sonra meydana gələn xristian apologetləri də bu anlayışı qəbul edirlər. Məsələn, Foma Akvinski hesab edirdi ki, materiya formasız ola bilməz, lakin forma materiyasız ola bilər (6, səh.137). Materializmin meydana gəlməsindən bu günə qədər materialist filosoflar bu fikri qəbul etmirlər. Həqiqətin tapılması dövrü gəlmişdir. Mübahisəyə səbəb onların şeyləri qarşıdırması və birinin dediyini digəri başa düşməməsdir. Materialistlər deyir ki, material dünya ruhi dünyadan, şüurdan əvvəl mövcuddur və şüur, ideya, ruh ondan yaranır. İdealistlər isə deyir ki, şüur, ruh, forma əbədidir və bunlardan materiya yaranır. Məsələnin çox asan həlli vardır. Həqiqət odur ki: 1) material dünya, 2) keçid dünyası və 3) xəyallar-forma-

surətlər, naməlum enerjisiz sahələr, ruhlar dünyası ayrıca bir - birinə təsir etmədən eyni zamanda mövcuddur. (Bu barədə səhifə 21 -də *Bütöv kainat – kosmos. Material, keçid və surət- forma- ruhlar dünyaları* bölməsində izahat verilir).

Material və keçid dünyası daim spiral qalaktikaların mərkəzlərində, ulduzlarda müəyyən faza çevrilmələrində, məsələn, onların partlayışlarında br - birinə çevrilir. Forma- surətlər - ruhlar dünyası da boşluqda yerləşir və onlardan hər hansı bir zərrəcik və ya atom, maddə alınması haqda heç bir fakt yoxdur. Forma- surət-ruh dünyasında zaman yoxdur, çünki orada evolyusiya yoxdur. Zaman yalnız keçid və material dünyalarda meydana çıxır. Daha ümumi fokusdan baxdıqda əslində keçmiş, indi və gələcək yoxdur və hamısı bir axının yerində pulsasiya etməsidir, bir məkandan digərinə keçdikdə biz hələ keçmişin gəlmədiyini və ya indinin olmadığını görə bilərik. Istənilən dünyada biz bilə bilməyəcəyik ki, biz indidəyik, yoxsa keçmişdə və ya gələcəkdə. Bir ağac təsəvvür edin elə bilin ki, bu material dünyadır, onun budaqları bütün istiqamətlərə gedir, bəzi yerlərdə irəliyə, bəzi yerlərdə geriyə,bir tərəfə budaq uzundur digər tərəfə qısa, hər budaq maddi dünyanın bir hissəsinin məxsusi zaman və hərəkət-dəyişiliklərini əks etdirir. Hər budağın öz zamanı var. Siz təsəvvür edə biləcəksiniz ki, hər şeyin (budaqların) irəli getdiyini görsək də budaqların böyümə istiqamətinə görə ağacın harasındasa zaman gələcəkdədir, hardasa keçmişdədir, hardasa indidir.

Platon deyəndə ki ruhlar, formalar əvvəldən vardır. Elm ona gülürdü. Bu düzdür, çünki biz yaşadığımız dünyada əvvəlki varlıqlardan, habelə əvvəlki böyük sikldən törənmiş belə ruhlar, forma – surətlər vardır.. Əlbəttə bunların haradan olmasını Platon bilə bilməzdi. Lakin bunlardan bir cismin yaxud canlının yaranması haqda sübutlar yoxdur. Platon materialistlərin başa düşdüyü formanı, yəni şeyin xarici konfiqurasiyasını, ölçülərini nəzərdə tutmur. Ona görə onu səhv başa düşürlər. O şeylərin xəyali surətlərini nəzərdə tutur ki, onları gözlə görmək olur və fotoqrafiya ilə şəklini çəkmək olur. Lakin əks proses - bu surətlərin cismə keçməsi və ona forma verməsi, canlandırması sübutlarına malik deyilik. Bu formalar, məsələn, insan, təyyarə, heyvan, təbiət fraqmenti görünür, adi halda enerji daşımır və ya fiziklərin dediyi kimi sıfırıncı energetik səviyyədə olurlar, lakin müəyyən hallarda enerji əldə etdikdə aşkar görünürlər. Keçmişdən bu günə gələn insan, heyvan, təbiət, hadisə fraqmentləri, panoramaları (yalnız hərəkətli surət-forma kimi) müşahidə edilmişdir.

*Forma –surət* varlıq növünün aşağıdakı əlamətləri müşahidə edilmişdir:

1. İnsan və qismən heyvan öləndən sonra ayrılması güman edilir və insanlar olan məkanlarda, yerdə, fəzada olması, insanın xasiyyətlərini daşıdığı müşahidə edilir.
2. Habelə ölmədən də insan və ya bir qrup insanların səslə və emosiyalarla müşahidə edilən birgə fəaliyyətindən sonra (sevinc, kədər, qırğın) hadisənin, surətin baş verdiyi ərazidə, məkanda yerə, divara həkk olaraq bəzən görünməsi müşahidə edilir. Belə tək və kompleks hadisənin xəyalının uçaraq uzaqda onunla əlaqəsi olmayan insanlara görsənməsi baş verir.
3. Heyvanlardan yaranan forma - xəyallar spesifik ağaclar (məsələn, zoğal, ağcaqovaq) ətrafında reallaşır və itir; heyvanın tipik davranışını və formasını əks etdirirlər. (Qədim Misirdə pişiyə sitayış təsadüfi deyildi)
4. Çox zaman insan formasında, bədənsiz, lakın forma kimi aşkar olaraq aqressiv və ya xoş davranış göstərirlər.
5. Fiziki qüvvə təsiri edirlər, insanı boğmaq və ağırlıqla - qüvvə ilə fiziki təsir etməsi qabiliyyəti var.
6. Sözlə, fikir və emosiyalarla əlaqəsi var.
7. İnsanı səslə, adı ilə çağırmaları mümkündür;
8. Bu bəzən, çox incə yaşıl – göy rəngə oxşayan işıqlı ğörünüb-itən maddə formasında görsənir. (yenə də yalnız bəzi adamlara)
9. Habelə yeni tikilən mənzildə, meşədə müxtəlif belə forma surətlərin reallaşması baş vermişdir; güman etmək olar ki, onlar əsasən konkret gözünə görsənən insanın keyfiyyət və xassələrilə əlaqədardır.

Qısa deyilsə, ***Forma- surət*** – canlı materiyadan (insan və heyvanlardan) yaranan müxtəlif formalarda reallaşan yaşıl işıq və ya konkret canlı formasında aşkar olan, müəyyən müddət ömrü olan, həmin canlıların xasiyyətini daşıyan, bəzən qısa zamanda müşahidə edilən və itən real varlıqdır. Yaşıl-ağ incə işığa bənzər növü idarə edilməzdir. İnsan ilə kontakta girərək söz işlətmədən ideyalar, məlumatlar, tapşııqlar verə bilər. İnsana və heyvana oxşar növləri isə oxşadığı canlının xarakterinə malikdir. İdarə edilə bilir. Elm tərəfindən öyrənilməmişdir.

Elmin kənarda durmasına görə müxtəlif dini idealist cərəyanlar, dini təlimlər, şarlatanlar, falçılar bu mövzunu aktiv istismar edir, şəxsi qazanc və siyasət və insanların şüuru üzərində hökmranlıq vasitəsi kimi istifadə edirlər. Məsələnin müəmmalığı və hər adam üçün deyil, ancaq müəyyən parametrli adamlar üçün aşkar olması və qorxu ilə

əlaqədar olması, elmi, onu öyrənməkdən saxlayır. Bu isə bəşəriyyətin effektiv quruluşu və idarə olunmasına, insanların müxtəlif inanc qruplarına bölünməsinə, nəticədə dünyada sülhün yaranmasına xeyli mane olur. Bu belə olur ki, məsələni mistikləşdirən və bütün insanların düzgün anlamasından onu yayındıran qüvvələr məhz bu məsələni vasitə edərək, şüurlara səhv izahatlar yeridərək, insanları bir - birinə düşmən ideoloji hissələrə ayırır. Niyə? – başqasının və ya başqa millət, qəbilə, etnosların fərqli, pis, düşmən obrazını yratmaq və zorakılıq, diskriminasiya etmək üçün əsas yaratmaq məqsədilə. Hər siyasi – dini qrup bu görünməz varlıqlardan birinə öz dilində Allah (xuda, qod, boq, odin və s.) adı verərək özünün guya ondan aldığı müstəsna səlahiyyətlərini elan edir; insanları onların Allah tərəfindən vəhylə (yəni intuisiya ilə) verilən sözünə, ideyasına, ağlına tabe olması və idarə hakimiyyətinə və maddi rifah halının daha üstün təmin etməyə məcbur edirlər. Yaradıcı neorasionalist fəlsəfə nəzəriyyəsi dini xadimlər tərəfindən irəli sürülən bu uydurma iddiaları rədd edir və onların əsassızlığını sübut edir (bax hissə İ və İİ).

Energetik forma - surət dini spekulyasiya mənbəyidir. 21-ci əsr bu haqda düzgün neorasionalist nəzəriyyənin yaradılması və bu hadisədən sui - istifadə edən dinlərin və dələduzların əsil sifətini açacaqdır. Habelə özünü qəsdən və ya yanılaraq Allahın vəkilləri, nümayəndəsi, oğlu, qızı adlandıran və bəşəriyyəti dini baxışlarına görə hissələrə bölüb insanları özlərinə tabe olmağa çalışan və bir-birinə düşmən edən ruhani insanların mahiyyətini açacaqdır. Bu kitabda mən bu istiqamətdə bir addım atmışam, digər addımları siz oxucular atacaqsınız. Bəzi faktlardan belə nəticə çıxır ki, hər şey, hər varlıq, cisim, canlı heyvan, quş, ağaclar, bitkilər, günəş ulduzlar, habelə təbiətin müəyyən anında və ya dövründə, bəlkə də həmişə, onun hadisələr panoramı, obrazı həmin şeylərin xəyali surətləri də eyni zamanda olur və dəyişilik baş verəndən sonra da qalır. Sanki bütün dünya və onun tərkib hissələri və dəyişiliklər *kino* kimi yazılır, bu obrazlar müəyyən şəraitdə insan gözünə (ən yüksək anlama, analiz etmə xassələri olduğu üçün) görünən olur. Ola bilər ki, Platon forma deyəndə bu xəyal surətləri nəzərdə tutmuşdur və ya Bibliya "hələ yer üzü su idi, allahın ruhu suyun üzərilə gəzirdi" fikrini irəli sürəndə həmin bu xəyal surəti nəzərdə tutmuşdur (bilmədən). Fizika elmləri doktoru pofessor Novikov kainatın evolyusiyası haqda yazır: "bütün ulduzların güzgü surətləri mövcudur və əslində göydə boş sahə yoxdur, hər yer ulduz və onların forma- surətlərilə doludur. Biz göyə baxarkən bütöv parlaq işıq görməliydik, lakin həmin ulduz və surətlər görünmə horizontundan hədsiz uzaq olduqları üçün biz onları

ğörmürük" (7, səh. 91-92). Fizika elmi dünyanı başa düşmək üçün kifayət qədər bilik verir.

## *Bütöv kainat – kosmos. Material, keçid və surət – forma - ruhlar dünyaları*

Mövcudiyyətin tərkib hissələrini müəyyən etdikdən sonra mövcudiyyəti (kainatı, kosmosu, reallığı) aşağıdakı 3 böyük dünya formasında təsnifini təklif edirəm. Belə bölüm ona görə lazımdır ki, hər dünya spesifikdir, bir-birindən fərqlidir və onları ayrıca qrup (çoxluq) formasında öyrənmək və başa düşmək daha sərfəlidir.

1. **Maddi fiziki dünya.** Maddədən əmələ gələrək canlı, cansız və sosial səviyyələri əhatə edir. Buraya atom və atomdan sonrakı yaranışlar aiddir. Atomu yaradan proton, elektron və neytronun maddəyə yaxud maddə yarımfabrikatlarına aid edilib - edilməməsi məsələsini fiziklərin və gələcək filosofların öhdəsinə buraxıram.
2. **Keçid dünyası** (maddəyə keçid dünyası). Atoma qədərki hissəciklər.Tərkibi: mümkündür ki atomun əmələ gəldiyi tərkib hissələri olan proton, elektron və neytron olmaqla aşkar edilmiş bütün 350 zərrəciklər, fiziki vakuum; maddəyə çevrilməmiş hissəciklər və onların sahələri. Dalğa və kürəvi formalı çoxluqlardan –zərrəciklərdən əmələ gələn dünya material dünyadan (material dünyanın kütləsi bütün kainatın cəmi 3%-idir, daha çox həcmə və kütləyə malikdir (7 ).
3. **Surət – forma, ruhlar, boşluq dünyası.** Tərkibi: a) *insan ruhları*; b) *heyvanların ruhları;* c) *bitkilərin ruhu;* d) *maddi cisimlərin, habelə göy cisimlərinin qeyri- material surətləri, formaları, anti – cisim, düzxətlə yayılmayan - özünə qapanmış " buludvarı", torsion, habelə maddə və hissəcik kimi öz yaradıcı mənbəyindən ayrılmış müstəqil qala bilən sahələr*. Bu dünya axirət və ya ölümdən sonrakı dünya deyil. Burada habelə enerjisi sabit olmayan və ya sabit qala bilən forma, xəyallar, surətlər, obrazlar yerləşir. Bu dünyanın məlumat daşıyıcı xassəsi olması fərz edilir.

Hər bir lokal dünyanın çoxluqları avtonom mövcuddur. Bu üç dünya arasında asılılıq və ya tabelik əlaqəsi müəyyən deyil. Maddi və keçid dünyası bir-birinə çevrilirlər. Mümkündür ki, göstərilən 3-cü dünyanın sakinləri əbədidir, burada zaman yoxdur, çünki evolyusiya getmir. Güman etmək olar ki, müəyən idealist dini nəzəriyyələr allah, dünya zəkası və ağlı deyəndə bu 3-cü dünyanı nəzərdə tuturlar (ancaq özləri bunu bilmirlər) . Bu 3-cü dünyadan, hansı ki bütöv məlumata malikdir, ruhlar (onların bütün növləri) bu məlumatları insanlara ötürə bilir. Maraqlıdır, buradakı ayrı-ayrı forma- surətlər, məlumat

“buludları” və ruhlar məlumatı bir - birinə necə ötürürlər. Lakin insan bu hər bir dünyaların hər üçündən də intuisiya vasitəsilə məlumat, ideya ala bilir. Məlumat almağın daha asan yolu 3 –cü dünyadan almaqdır. Biz eyni zamanda hər üç dünyanın daxilindəyik, başqa sözlə bu dünyalar müəyyən sərhədlə bir- birindən ayrılmamışdır və çox hallarda onlar bir yerdədirlər. Gələcəyin nəzəriyyəsində izah etdiyim kimi, bu prosesdə - həmin 3 –cü dünya aləmində insan ruhu güman ki, əhəmiyyətli rol daşıyır. Adi həyatda olduğu kimi ruhlar da (insan şüurunun surət –kopiyaları) insan kimi real məlumatı ətraf mühitdən və ya olduqları aləmdən spesifik hələ gizli qalan oxuma mexanizmi ilə oxuyurlar, onu dadlar, iylər, rənglər, emosiyalar formasında hiss edirlər və insanın başa düşəcəyi tekstlərə çevirirlər. Ağıllı heyvanların da ruhlarının oxşar fəaliyyəti mümkündür.

Material dünyanın, habelə keçid dünyasının quruluşu və qanunları, prinsipləri kitabın bu hissəsində baxılır. Surətlər-ruhi dünya II hissədə baxılır.

### *Material Dünyanın ümumi fəlsəfi mənası.*

Material dünya çoxluqdan ibarət olaraq ierarxik qaydada avtonom yaşaya bilən çoxluqlara (ən azı bir parametrinə görə avtonom bütöv qala bilən) bölünə bilən, hər çoxluq üst və alt çoxluqlarla əlaqədə və asılılıqda olaraq, hər çoxluq özü qarşılıqlı asılı əlaqəli olan hissələrdən ibarət olaraq, uzun zamanlı obyektlərin, hissə və çoxluqun doğulması, böyümə və sonra zəyifləməsi, ölməsi - tam forma və mahiyyətini dəyişməsi mərhələlərindən; qısa zamanlı obyektlərin isə ani və keçid mərhələsi olmayan olmaq - olmamaq seriyasından ibarət həyat sikli, əbədi olmaq prosesidir, davamiyyətdir. Kombinasiyanın yaranması ilə hər bir çoxluqdan ibarət varlığın tərkibində hökmən iki əks mahiyyət, keyfiyyət yaranır və ya bu mahiyyətlə varlıq meydana gəlir ki, bu da onu yaşadan – dayanıqlı və davamlı edən səbəbdir. Hər avtonom çoxluq-dünya makro sikldə, yəni olmaq - olmamaq dövrü milyardlarla yer ili çəkən həyat yaşayır. Böyük avtonom dünyanın tərkib hissələri isə mikrosiklik hərəkətlə yaşayır, yəni onun hissələri daha qısa zamanda yaşayır və böyük dünyanın bir siklində kiçik hissələrin yüzlərlə milyonlarla sikli baş verir. Hər bir dünya və onun hissələri struktur və formasının, mahiyyətinin və mənasının iki ən kənar vəziyyəti arasında olaraq, iki əks hədlər arasında rəqs edərək yaşayır. Yaşama prosesi hər şeyin olmağına qarşı zəruri olan maneəni dəf etməkdir ki, manelər olmasa şeylər, zərrəciklər, atomlar, cisim və canlılar yaşaya bilməz.

## Material dünya və onun evolyusiyası

Yunan Filosofu Platon formalar anlayışını yaratmışdı, o hesab edirdi ki, dünyada əbədi formalar vardır və onlar materiya ilə birləşdikdə həmin cismi, canlını və s. yaradır. Müasir müşahidələr göstərir ki, bədənsiz formaların olması mümkün hadisədir. Müəllifin şəxsi müşahidələri vardır. Lakin bu formalar məhz evolyusiya prosesində material cisim və canlıların yaranmasından sonra meydana gələ bilər. Formaların özünün də nə olması böyük məsələdir. Onların nə qədər həyat yaşaması, əbədi olması, yaxud hansı şəraitdə məhv olması, evolyusiya edib - etməməsi, enerjiyə malik olub – olmaması, necə, nə vaxt və kimə görünməsi; necə görünməz olması, başqaları ilə əlaqələrini bilmək lazımdır. Günəş sisteminin *olma, məhv olma, və yenidən yaranma siklində* yerlə birgə spiral qalaktikanın mərkəzinə çatmaqla məhv olub hissəciklərə parçalanması zamanı formaların da məhv olması, yaxud qalması ehtimalı haqda biliklərə malik deyilik. Əgər bu formaların qalmasını fərz etsək, onda biz formaları, insan ruhlarının əbədi qalmasını qəbul etməliyik. Bu qərar üçün biz heç bir sübuta malik deyilik. Biz tədqiqatımızda belə aşkar etmişik ki, yaradılış üçün zəruri, azı 4 amil olmalıdır: ən azı *iki varlıq, uyğun xassələr, əlaqə* və *mühit* . Şeylərin yaranmasında hər hansı bir ruhun iştirakının olmasını müşahidə etmirik. Əgər ruhlar iştirak edə bilsəydi, biz dualarla ruhları, habelə həmin müqəddəs sayılan ruhu çağırar (bu mümkündür) və problemlərimizi, müharibə və xəstəlikləri, aclığı, tikinti və istehsalı onların vasitəsilə həll edərdik. Bəs onlar hansı rolu daşıyırlar, nəyə lazımdırlar? Belə formaların maddəyə, cisimlərə və bitkilərə keçməsi müşahidə edilməkdən uzaq hadisədir. Lakin məntiqin köməyi ilə bütün cisimlərə, bitki və canlılara hər hansı bir formanın (fiziki-həndəsi deyil, mahiyyət, xarakter) keçə bilməsini fərz etmək olar. Belə ki, mənəvi, etik, psixi xassələr daşıyan formaların insana və ya heyvanlara keçməsi haqda faktlar vardır. Müəllif şəxsən şərti olaraq cin və ya şeytan adlanan ruhun keçdiyi qadından 20 il ərzində xeyli zərər görmüşdür və özünün yaratdığı böyük elmi analitik metodun köməyi ilə bu faktı aşkar etmiş və xilas olmuşdur. Qeyd etməliyəm ki, şeytan ruhu daşıyan insandan xilas olmaq nadir hadisələrdəndir. İsus Xristosun insandan və donuzdan “cin” adlandırılan belə formanı çıxartması uydurma deyil, mümkün hadisədir.

Bütün aləmin təsnifatından ğörünür ki, 1-ci qrup-material aləm 2-cü keçid aləmdən (fiziki xassələrə malik müxtəlif dayanıqlı və dayanıqsız hissəciklər, fotonlar, plazma, fiziki vakuum, kvantlar) yaranır və evolyusiya edir, yəni yeni kombinasiyalar əmələ gətirir və

sayı çoxalır. 3- cü - qeyri material aləm (cisim, bitki, heyvan, insan bədənsiz formaları-görüntüləri; ölçülə bilməyən, enerjisi sıfır ətrafında rəqs edən sahələr və rezonans zərrəcikləri, gölgələr, müxtəlif platon formaları və boşluq) 1 və 2-ci aləmlərin son çevrilib düşdüyü yerdir, yəni vəziyyətidir, hamısı birdən deyil, müxtəlif zamanlarda, bəzi lokal zonalarda. Biz müşahidə edirik ki, 2-ci və 3-cü aləmlər birinci material aləm obyektlərinə adətən təsir etmir. Belə bir qanun aşkar edirik ki, yaradan yaratdığının işinə daha qarışmır. Elmi dillə desək, yəni yaradıcı situasiya hansı ki qeyd etdiyimiz kimi konkret amillərə malikdir, öz yaratdığının işlərinə qatışmır. Yaratmaq onun məqsədi deyildir, lakin fəaliyyət nəticəsidir, yəni özünü yaşatmaq üçün funksiyasıdır. Yaranma prosesi nəticəsində yaranan obyektlər potensiallarından asılı olaraq dayanıqlı strukturlara malik olurlar (çalışırlar) və avtomatik iearanxik əlaqəli birliklər yaranır. Aləmdə hər bir obyekt potensial gücünə, zəruri və uyğun xassələrinə görə həmin birliklərdə mövcud olma *yerləri* tuturlar. Yalnız şüurlu canlılar, məsələn, heyvan və insanlar öz yaratdığına qayğı çəkir. Cisimlər aləmində və yaxud daha böyük fərqli aləmlərdə: material, xəyallar və keçid dünyalarında belə qayğı yoxdur. Nadir istisnalar vardır, lakin hələ bunlar da şübhəlidir. Material aləm obyektləri daim evolyusiya edir və eynilə daxil olduqları böyük obyektlər kimi kiçik zamanlı siklik hərəkət halında (doğulma, böyümə, yenmə, sonra ölmə) olurlar. Məhz material aləmdə şeylər ierarxik və dayanıqlı strukturda olurlar, yəni biri digərinə daxil olur, hər biri üst obyektlər tərəfindən idarə olunur, özləri isə hər biri daha kiçik obyektlərdən ibarət olaraq onları idarə edir.

Material dünya keçid dünyası elementlərindən, material formaya tam keçməmiş zərrəciklərdən dörd növ fiziki qarşılıqlı təsir qüvvələri vasitəsilə yaranır, idarə olunur və evolyusiya edir. Bu qüvvələr bunladır : - *Güclü nüvə qüvvələri, Elektromaqnit qüvvələri, Zəyif – radioaktiv parçalanma qüvvələri və Qravitasiya - cəzbetmə və itələmə qüvvələridir* (7, səh.184 ).

Bu 4 təsir qüvvəsinin əmələ gəlmə səbəbi hissəciklərin xassələri və hissəciklərdən yaranmış kombinasiya strukurunun (məsələn, nüvənin) güclü xassəsi durur. Canlılarda isə əlavə olaraq yeni 4: *bioloji-kimyəvi, psixi, mental, ruhi özünü tənzimedən* qüvvələr (və ya sahələr, funksiyalar təsirlər) meydana çıxır ki, bunlar cansız təbiətdə yoxdur. Ən sadə canlılarda daha az təsir qüvvələri olur, məsələn, soxulcanlarda təkcə bioloji kimyəvi və psixi təsir qüvvəsini ehtimal etmək olar. Bu 4 və qeyd edilən ümumi 4 fiziki başlanğıc əsas xassələr bütün insan və

cəmiyyətdə, habelə bir qrup heyvanlarda gedən proseslərin, dəyişiliklərin səbəbi və yaradıcısıdır.

Hər bir şey tək deyil, müəyyən çoxluğun içindədir. Bu çoxluğun içində olmaq anından başlayaraq dərhal qarşılıqlı təsir əlaqələri işə düşür və hər şey öz yerini alır – çoxluğun bütövlüyünü təmin edən – onu belə saxlayan, idarə edən *Böyük Qayda* yaranır. Böyük qayda çoxluq üzvlərinin ierarxik tabeçilik - asılılıq strukturundan; üzvlərin çoxluqla və biri- birilə əlaqə qaydasından; hər üzvə spesifik rol təyinatından; hər üzvün xüsusi forma və yaşama üsulndan ibarətdir. Birliyi, bütövlüyü və dayanıqlığı saxlayan bu böyük qaydanın fəaliyyəti üçün hökmən müəyyən enerji sərf olunur, həm atomlarda, həm cisimlər, həm canlılar aləmində, həm də ailədə, cəmiyyətdə, təşkilatlarda. Dünya, habelə onun istənilən hissəsi yaranan andan həmin çoxluq bütün istiqamətlərdə öz inkişafını davam etdirir. Əvvəl daha sərfəli bir, ya bir neçə istiqamət meydana çıxır-bu istiqamət üzrə inkişaf sona çatandan sonra yeni istiqamət meydana çıxır və s. Həmişə yalnız bir üstün istiqamət lider olur. Dünya ağacı daim bitir.

Qarşılıqlı qravitasiya təsirləri göy cisimlərinin strukturunu yaradır; elektromaqnit, nüvə və zəif qüvvələr cisimlərin forma və davranışını müəyyənləşdirir. Hansı ki yalnız onların aid olduğu çoxluq daxilində işləyir.

Maraqlıdır ki, *dünya da, qaydası da eyni zamanda yaranır*. Dünya böyüdükcə müxtəlifləşdikcə, qayda da genişlənir, daha kiçik detalları əhatə edir ki, heç bir cəhd-hərəkət idarəsiz, müstəqil olmur. Ən ümumi prinsiplər konkret varlıqlarda: cisimlərdə, canlılarda, maye və qazlarda, elektrik və işıq hadisələrində spesifik formaya düşür. Yer planeti təbii olaraq müxtəlif meteorlardan, kosmik tozlardan, ulduzlardan atılmış maddələrdən formlaşaraq böyüyür və qravitasiya qanunu nəticəsində Günəş ətrafında konkret vəziyyəti (məsafəsi), fırlanma sürəti və öz oxu ətrafında fırlanma sürəti, oxunun vəziyyəti müəyyən olunur. Paralel olaraq Yerin evolyusiyası onun daxilində və səthində fasiləsiz yeniliklər gətirir, canlı sistem yaranması ilə və inkişafı ilə onların yaşama qanunları yaranır. Hər bir mühit - temperatur, təzyiq, kütlə, ərazi - çoxluğu - üçün *ümumi qaydanın* formalaşmasına uyğun konkret dövr lazım gəlir.

Cansız cisimlər üçün qayda eyni, ani zamanda yaranırdısa, canlı təbiət üçün qayda gecikməklə, illərlə yaranırdı. Onun bütün konkret qanunları - fiziki, kimyəvi, bioloji və s. formalaşırdı. Nəticədə çoxluq daxilində, yəni dünyada hər şeyin öz yeri, öz durduğu pillə,

ierarxiya - onun tabe olduğu, başqa sözlə, asılı olduğu obyektlər və ona tabe olan, ondan asılı obyektlər var. Heç bir şey özbaşına deyil, çoxluğun müəyyən etdiyi şəraitdə qaydada yaşamalıdır. Başqa sözlə, heç vaxt, heç nə öz potensialını dəyişmədən bu qanunu poza bilməz, başqa mövqeyə keçə bilməz. Həm kosmosun sakinləri, həm yer cisimləri, həm canlılar, həm atom daxili zərrəciklər, habelə insan. Formalaşan böyük qayda horizontal paralellərlə bölünmüş hər bir ierarxiya pilləsində və meridianlarla ayrılmış xətlərin kəsişmə nöqtələri olan qəfəslər üçün hüquq və vəzifələr(rollar) təyin edir ki, həmin qəfəsləri tutan obyektlər bunu icra etməklə orada yaşaya bilərlər. Əgər biri icra etməsə, şübhəsiz, o, həmin çoxluqdan çıxmağa məcbur olacaq. Cisimlər dünyasında bu öz - özünə ola bilmədiyi üçün qaydanı icra etməmək mümkün deyil. Beləliklə, hər şey yerinə görə sistemin ona verdiyi hüquq və vəzifələri icra etməli; imkanlar və qadağanlar, hərəkətlər çərçivəsində yaşamağa məhkumdur.

Bu böyük qayda, başqa sözlə, hər bir təkin çoxluq icində yaşaması, mövcud olması qanunlarıdır. Böyük qayda təbiətdə, eynilə, cəmiyyətdə hər bir cismin və insanın yerini, statusunu, vəziyyətini və gələcəyini müəyyən edir. Bu böyük qaydanı dərk etmək insana yaratmaq, inkişaf etmək, öncədən görmə imkanları verir. İnsanlar, cəmiyyətlər, dövlətlər bilməlidir ki, onların yalnız fikirləri bərabər ola bilər, lakin onlar hökmən ieararxik sistemin üzvləridir; kiçiklər böyüklərin əksinə davrana bilməzlər və böyükləri hökmən eşitməlidirlər. Hər biri öz yerinin rolunu dəqiq oynamalıdır. Bu yerdə hər hansı xalqın durmasının fərqi yoxdur istənilən xalq müəyyən yerdə dursa onun rolunu oynamalıdır. *Yəni xalqlar, millətlər özləri heç nədə nə daha kiçiyə qarşı, nə özünə bərabərə qarşı, nə böyüyə qarşı günahkar deyillər. Günah onların müxtəlif potensiallara malik olmsıdır ki, biri digərinə tabe olmalı, eşitməlidir*. Və hər biri hökmən bir blokda birləşərək nəhayət, yer planeti avtonom bloklar birliyi yaranmalıdır. Bu blokları isə çalışıb bərabər gücdə yaratmaq lazımdır. Bu mənada bu günkü BMT nəzəri cəhətdən səhv qurulmuş təşkilatdır, əslində o hegemon 5 dövlətin dalaşmadan dünyanı istismar etmək və onun hesabına yaşamaq təşkilatıdır.

Elmin vəzifəsi məhz konkret çoxluqların mənasını, onun əmələ gəlməsi, təkin onun daxilində yaşaya bilməsi şərtlərini –qanunları və əlaqələrini öyrənib sözlə ifadə etmək və insana bu çoxluq daxilində effektiv yaşamağı başa salmaqdır. Habelə insanın yeni çoxluqlar: bütöv yaşaya bilən yeni qurğular, metodlar, bitkilər, canlılar, təşkilat

quruluşları, cəmiyyət quruluşu, dövlət mexanizmi və s. yaratmasına kömək etməkdir.

***Material Dünyanın universal qanunları.***
***Dünya və varlıq haqda.***

**1. *Material dünyanın birinci* -şeylərin nə və nədən ola bilməsi - *qanunu*.**
*Bütün şeylər, kainat elementləri bütöv – tam olaraq sistemik quruluşa malik olaraq və zəruriyyətlə konkret - spesifik mühit daxilində olaraq bölünməz və bölünən elementar hissəciklərin müəyyən qayda ilə ierarxik asılı olan pilləvarı kombinasiyalarından - çoxluqlardan ibarətdir. Hər şey müxtəlif zərrəcik və hissələrin avtonom kombinasiyalarının kombinasiyasından ibarətdir.*
Hər pillə hissəsi alt pillələrə bölünür; hər pillə hissəsi avtonom bütövlüyə malik olaraq və bütövlüyünü müəyyən zaman ərzində saxlaya bilən zəruri sayda hissələrdən ibarətdir.
**2. *Tamlıq və ya tarazlıq qanunu*.** Hər şey və ya hər bir bütün tam hərəkətdə, mühitdə, mühitlə əlaqədə olmaqla yaşaya bilər. *Tamlıq və müvazinətləşmə formulu:* $\sum N \pm \Delta P = 0$ Hissələrin fəaliyyətinin qaşılıqlı təsirlərinin ümumi cəmi sıfra bərabər olması hissələrin qarşılıqlı asılı əlaqədə olmasını əks etdirir. Bu eyni zamanda dəyişiliklər, olma qanunudur. Hissələrin (tərkib elementlərinin) fəaliyyətlərinin qarşılıqlı tarazlaşması nəticəsində əlavə effekt - potensialın artması, durğunluq və ya azalması, başqa sözlə, inkişaf – artım, durğunluq və ya geriləmə - azalma hadisəsi baş verir - ($\Delta P$). $\sum N$ – Nyuton yaxud Eynştein sistemindən asılı olaraq təsir qüvvələrini, yaxud enerjiləri, və ya impulsların cəmini ifadə edir.
Şeylərdə tarazlaşma prosesinə klassik fəlsəfədə *əksliklərin vəhdəti və mübarizəsi qanunu* deyilir. Lakin bu klassik və primitiv ifadədə mühit nəzərə alınmır və nə əldə edilir sualına cavab verilmir və belə ifadə həqiqəti də əks etdirmir və praktiki tətbiq imkanları vermir.
**3. *Yaranma qanunu*.** Mühit elemenetlərinin qarşılqlı əlaqəsi nəticəsində yeni elementlər (növlər) yaranır. Hər yeni yaranan şey mühitə daxil olaraq, onu yeniləşdirir və mühitdə yeni keyfiyyət yaradır. O şeylər yaranır ki, orada – mühitdə zəruri elementlərin, amillərin, hərəkətlərin, fiziki - kimyəvi şəraitin bir zamanda, bir yerdə toplaşması baş verir. Yaranan şey yalnız orada olan və iştirak edən elementlərdən formalaşır və avtonom bütövlüyünü saxlayaraq yaşaya bilmək qabiliyyətinə malik olmalıdır. Ona görə təsadüfi deyil, konkretdir, müəyyəndir, yəni həmin anda yalnız həmin yaranan şey

yarana bilər, digəri yarana bilməz. Başqasının yaranması üçün digər kompleks şərait və elementlər lazımdır. Növlər, hissələr çoxaldıqca bir - biri ilə zəruri əlaqədə, asılılıqda çoxalır; yəni hər yaranan olduğu mühitdən istifadə edərək yaşamağa məcburdur, birinin yaşama forması, fəaliyyəti digərinin zəruri həyat tələbi olur. Biri digərinə xidmət etmiş olur. Özü - özünü idarə edən, qayğı göstərən, nizamlayan sistem yaranır.(arılar gülləri tozlayır, otları ot yeyənlər yeyir, onları da ət yeyənlər yeyir, zirəklər başqasınıdan istifadə edir, ağıllılar idarə edir, zəiflər idarə olunur.) Yaranma *təkrarlar və yeniləşmələr* üsulu ilə artır. Bu, hamısı üst sistemin (mühitin) *xeyirli* təsiri nəticəsində olur. Əks zərərli təsir başlayarkən sistem məhvə doğru – növlərin azalması, yalnız dözümlülərin müəyyən qədər çox yaşaması, nəhayət, dözüm hədləri keçildikdə həyatın sönməsi- cansız təbiətə çevrilmə və sonrakı dəyişiliklər başlayacaqdır.
**Yaranışın yaranma sxemi belədir:** ən azı *iki şey, mühitin* iştirakı ilə qarşılıqlı *əlaqəyə* girərək *yeni məhsul* yaranır. (əlavə bax səh 28; hissə II,)
**4. *Eynizamanlılığın olmaması qanunu.*** Dünyanın əsas qanunlarından biri hadisələrin ardıcıllığında *təsir və əks təsir* hərəkətlərinin, parçalanma və birləşmə ; generasiya və anhilyasiya; doğulma və məhv olma hadisələrinin bir - birinə nəzərən sürüşməsi yaxud gecikməsidir, simmetriyada zamana görə asimmetriyanın yaranmasıdır. Hansı ki nəticədə dəyişiliklərə ehiyac yaranır, yeni sikl başlayır. Zamana görə sürüşmə - eynizamanlılığın olmaması nəticəsində ikinci əks proses - əks təsir artıq yeni mühitdə baş verməli olur və bu mühit dəyişilyi səbəbinə görə bu iki əks hərəkətin nəticəsi sıfır, neytrallaşma deyil, hadisələr axınında yenilik yaradır. Bu yenilik ya azalma, ya artmadır. Məsələn, bizim daxil olduğumuz material dünyanın yaranma başlanğıcında maddə - antimaddə yaranışı prosesində, soyuma nəticəsində anhilyasiya etməmiş - maddə yaranıb qalmışdır ki, bu günkü material dünya elə bu prosesin nəticəsidir.
***5.Təsadüflərin olmaması qanunu.*** Misal**.** Maddənin, qalaktikaların yaranışında bəzi fzika alimləri göstərirlər ki, maddənin yaranması təsadüf olmuşdur, əgər maddə və antimaddə anhilyasiya etsəydi, yəni bir- birini yox etsəydi, indi heç bir material dünya olmayacadı. Lakin Yaradıcl Zəka mövqesi bildirir ki, burada heç bir təsadüf yoxdur. Bu misalda ilkin maddə və ondan törənən maddi dünya yaranmaya bilməzdi. Çünki soyuma prosesində hökmən temperaturun aşağı düşməsilə yaranmış maddə zərrəcikləri artıq soyuq mühitdə antimaddə ilə anhilyasiya edə bilməzdilər. Sonrakı prosesdə isə daha soyuq mühitdə nə maddə, nə antimaddə yarana bilmədi. Demək, material

dünyanın gah bu yerdə, gah digər yerdə eynivaxtlı olmadan daim yaranması və boşluğa çevrilməsi əbədi prosesdir. Ümumi halda maddi dünya daim kainatda qalan dünyadır, eynilə keçid və forma -surət-ruhlar dünyası.

***5. Hissələr, şeylər arasında əlaqələrin səbəbi:***

Bütövlüyün səbəbi şeylərin tərkib hissələrinin konkret mühitdə bir -birilə əlaqə ilə bağlanmasıdır. Bağlanmanın, əlaqələrin səbəbi şeylərin uyğun xassələrinin olmasıdır. *Bu, cisimlər üçün cazibə və itələmə qüvvələri, nüvə qüvvələri, zəif və elektromaqnit qüvvələrdir; bitkilər, heyvanlar və insanlar üçün isə* yeni 4: *bioloji-kimyəvi, psixi, mental, ruhi* qüvvələr (və ya sahələr, təsirlər) meydana çıxır ki, bunlar cansız təbiətdə yoxdur. Bioloji canlılıqdan doğan eyni növlük effekti - burada ya birləşmə ya düşmənçilik meydana gəlir; qohumluq qayğısı, mənafe və maraqların ümumiliyi xassələri meydana çıxır. Hər şey digəri ilə oxşar və digərinə yarayan xassəsi olduqda əlaqədə olur. Xassələrin müxtəlifliyinə və gücünə görə əlaqələr müxtəlif növdə və gücdə olur. Bütövlükdə bu 8 xassə canlı və cansız dünyada (bitki, heyvan və quşlar, cisimlər) gedən proseslərin, dəyişiliklərin səbəbi və yaradıcısıdır.

***6. Hərəkətin, dəyişiliklərin səbəbi:***

*Kombinasiyaların(şeylərin) olma şərti, yəni hərəkətin səbəbi onların konkret mühit daxilində dayanıqlı vəziyyətdə, daxili təsir edən " +" və " – " qüvvələrin bir- birilə və ətraf mühitlə(yəni daxil olduğu kombinasiyalarla) münasibətdə müvazinətdə olması - tarazlaşmasıdır, yəni cəminin sıfır olmasıdır.* Müvazinətin səbəbi dayanıqlı vəziyyəti əldə etmək – ola bilmək məqsədidir. Lakin şeylər ideal müvazinətə heç vaxt çatmırlar.

Digər tərəfdən, hərəkətə səbəb hər kombinasiyanın (yəni şeyin) müxtəlif zamanlarda müxtəlif sürətlərdə yaranması və müvazinətin bir parametrdə əldə edilməsi prosesində, digər parametrdə fasiləsiz pozulmasıdır. Habelə fluktuasiya hadisəsidir, yəni proseslərin orta vəziyyətdən daim ya bu, ya digər tərəfə kənara çıxmasıdır (hədlərə malik olmasıdır). İnsan və heyvanlarda və onların cəmiyyətində isə hərəkətin səbəbi həm dayanıqlı vəziyyət əldə etməkdən əlavə şüurun olması ilə, həm də indi və gələcəkdə də üstünlüyə malik olmaq, daha yaxşı olmaq məqsədidir. Hərəkətin növləri mexaniki: yerdəyişmə, dalğa, kimyəvi, elektrik, maqnit, elektromaqnit rəqs , bioloji, sosial.

***7. Hərəkətin istiqaməti***

Konkret obyektin hərəkətinin istiqaməti öz ola bilmək xassəsini (canlılarda məqsədini) ödəmək və ətraf mühitin tələblərini ödəməkdir,

yəni o, eyni bir hərəkət vasitəsilə həm özünün varlığını saxlayır, həm xarici mühitin (tələblərini yerinə yetirərək) tərkib hissəsi rolunu oynayır. Bu hərəkəti etmədikdə (canlılar, elə cisimlər də) obyekt daxil olduğu sistemlə əlaqəsini ititir; staqnasiya, zəifləmə, ölmə dövrünə keçir; başqa güclü sistemin elementi olmağa məcbur olur.

**8.** ***Varlıqların, cisimlərin həyat forması.***

*Hər konkret mühitdə yalnız onun imkan verdiyi varlıq, şey yarana bilər. Hər yaranmış şey yalnız həmin mühitdə olduğu formada ola bilər.* Hər şey konkret mühitdə olaraq orada ala biləcəyi, qabil ola biləcəyi ən mümkün səmərəli həyat formasını alır. Uzun müddətli və uzun yol keçə ilən həyat yalnız siklik dəyişən həyat, hərəkət, vəziyyət ola bilər. Bu:, dairəvi, fırlanma, dalğa, sinusoid, spiral (arximed və adi növlər), rəqsi, ziqzaq tipli hərəkət, dəyişilik ola bilər.

**Hər şey doğulma, böyümə, yüksək pik həddi, qocalma-zəifləmə, ölmə öz strukturunun dağılması- digər şeylərə çevrilmə prosesindədir.** *Hər yeni şey təkrarlar və ya yeni kombinasiyalar formasında yaranır.*

Bəzi məkanlarda mühitin eyni qalması – yəni çox zəif dəyişməsi dəyişiklərin sürətinin yavaşıması və dayanmasına səbəb olur. Cansız təbiət cisimləri və buz mühitində donmuş şeylər belədir. Sosial sistemlərdə mühit dini və ya diktatura rejimi tərəfindən dəyişməz saxlandıqda, orada inkişaf zəifləyir və dayanır, sistem məhvə doğru gedir.

**9.** ***Üst üstün sistem alt sistemi müəyyən edir və onu idarə edir***

Mühit içində bir sistem, yəni şeyləri əhatə edən sistemlərdən (hansı ki şey onların elementidir) hər konkret zamanda biri ( digər zamanda başqası) üstün təsir edir və baxılan şeyin xarakterini və fəaliyyət istiqamətini üstün təyin edir - yönəldir. Bu, dünyada həmişə istiqamətlənmiş hadisələr, dəyişiliklər yaradır. Yəni heç vaxt xaos olmur.

**10.** ***Hər vəziyyətdə şeylərdə üstün həlledici keyfiyyət olur.***

Şeyin daxil olduğu çoxluqda onun vəziyyəti onda olan bir keyfiyyətin, mahiyyətin, xassənin üstünlüyü, həllediciliyi ilə xarakterizə olunur. Bu üstün istiqamət məhz şeyə təsir edən sistemlər içərisində olan üstün sistemin – üstün təsiri nəticəsidir. Bu üstün element şeyin bütün mahiyyətini müəyyən edici və yeni sistem bağlarının yaradıcısı və qoruyucusudur, lakin üstün həlledici keyfiyyət yalnız konkret bir elementlə əlaqədə meydana çıxır. Digər elementlə əlaqədə digər keyfiyyət üstün rolu daşıyır. Yəni şeylər mühit dəyişdikcə və ya müxtəlif mühitlərə qarşı müxtəlif adekvat keyfiyyət nümayiş etdirirlər.

**11.** ***Şeylər ancaq cüt əlaqələr formasında yaşaya bilər***. Bunun ən vacibi şey - mühit əlaqələridir. Əlaqələr olmadıqda şey məhv olar. Mühit elementin – hissənin ola biləcəyi yaşaya biləcəyi evdir. Təkcə neytrino və məyyən az miqdarda zərrəciklər üçün üçün mühit (əlaqələr) vacib deyil.

***12.*** *Hər yeni yaranan varlığın tərkibi və ona uyğun yaşama qanunu eyni zamanda meydana çıxır.* Bu mühitin imkanları çərçivəsində baş verir.

***13.*** *Hər şeyin malik olduğu quruluşun, keyfiyyətin, xassələrin səbəbi onun bu və ya digər elementlər çoxluğu olmasıdır.* Bu çoxluq müxtəlif hissələr, formalar, ölçülər, hissələrin yerləşməsi, əlaqə bağları - rabitələri, hərəkətlərdən-bütöv strukurdan ibarətdir. Şeyləri təşkil edən elementlərin miqdarı və proporsiyaları, forma və yerləşmə qaydası, şeyin keyfiyyətini, xassələrini müəyyən edir. Şeyin eyni ümumi keyfiyyəti onun tərkibinin və formasının yeni fərqli dəyişilmiş kombinasiyası ilə də əldə edilə bilər. Yəni alternativ kombinasiyalarla eyni keyfiyyəti, xassəni əldə etmək olar. Müxtəlif elementlərdən toplanmış kombinasiya, elementin xassəsindən fərqli xassəyə malik olur; eyni elementlərdən toplanmış kombinasiyanın bir xassəsi onun elementində də olur ki, bu da rabitəni həyata keçirir. Sadədən mürəkkəbə doğru növlərin yaranması prosesində hər yeni əlavə olunan element, forma - ölçülər, səthlər, kombinasiya qaydası, fəaliyyət ardıcıllığı, şeydə yeni xassə yaradır. Başqa sözlə, bu yeni hissədir, yeni varlıqdır.

***14.*** *Hər bir şeyin və ya çoxluğun hissələrinin miqdarı, forması, ölçüləri və konstruksiyası ilə ümumi keyfiyyəti – xassəsi arasında tam uyğunluq var.* Klassik fəlsəfədə buna kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişiliklərinə keçmə qanunu deyilir. Bu klassik formula daha primitiv ifadədir. Əslində bu daha düzgün belə ifadə olunmalıdır: *Kəmiyyətin, bütün ölçülərin, hissələrin yerləşmə qaydasının və əlaqə üsulunun, prosesin ardıcıllığının dəyişmələri şeyin yeni keyfiyyətinə səbəb olur.*

***14.1*** *Hər baxılan cisim və şey, qurğu, təşkilat onu təşkil edən hissələrin zidd xassələrinin (müxtəlif xassələr və keyfiyyətlərinin) bir yerdə həll olunduğu, barışdırıldığı, razılaşdırıldığı yerdir. Belə ki hər şey öz keyfiyyətini saxlayır, lakin hamısı birlikdə konkret qoyulan məqsədi icra edir.* Aforizmlərlə deyilsə, “nə şiş yanır nə kabab”; “həm qoyunlar sağ qalır, həm canavarlar tox olur”.

***14.2*** *Heç bir şey əbədi deyil. Hər şey dəyişiliyə və məhv olmağa – formasını və mahiyyətini dəyişməyə-yox olmağa məhkumdur.*

***Ümumi Tamlıq qanunundan çıxan digər prinsiplər - asılılıqlar:***

**15**. *Makrodünyada düzxətli hərəkət formasında dəyişiklik yoxdur.* Real dəyişiliklər ancaq əyri xətt üzrə ola bilər. Əyri xətlər düz xətlərdən ibarətdir. Düz xətlər iki yaxın nöqtələr arasındakı keçiddir.

***16.*** *Mühit elementi mühitlə əlaqədə forma və yaşama üsulu seçir.* Hər şeyin, hadisənin, prosesin, vəziyyətin dayanıqlı olma dövrü – şərtləri var.

***17.*** *Cansız sistemlərdə mühitin eyni olduğu şəraitdə şeylərdə dəyişiliklər tezliklə stabilləşir-hər şey öz yerini alır*. Canlı sistemlərdə mühit qismən eyni qaldıqda şeylərdə stabillik tez əldə edilir və kritik hədlər tez yaxınlaşır. İnsan sosial sistemlərində elementlərin (fərdlərin şüurunun) inkişafı, mühiti idarə edənlərin isə onu eyni saxlamağa çalışması (zorakılıq) nəticəsində mühitə "nifrət" yaranır və mühitin dəyişilməsinə ehtiyac yaranır. Bu inqilab və toqquşmalarla ictimai sistemin - mühitin dəyişilməsini təmin edir.

***18.*** *Hər şey bütöv və ya çoxluq kimi qəbul edilərək hansısa böyük sistemin (sistemlərin) elementi kimi baxıla bilər*

***19***. *Canlı və cansız dünyada hadisələr və dəyişiliklər sinusoid xətti üzrə dəyişir.* Bu, düzgün –elektromaqnit dalğalarında, və digər hallarda qeyri -düzgün sinusoidə oxşar ola bilər.

***20***. *Şeylər və hadisələr kənar vəziyyətləri arasında, kənar hədlərlə sərhədlənmiş orta vəziyyətdə olurlar* (adi vəziyyətdə). Bu bir növ rəqqasın sol və sağ kənar vəziyyətlərinə oxşayır. Başqa sözlə, şeylərin vəziyyəti orta vəziyyət ətrafında rəqsdir: artma (yaxşılaşma) və azalma (pisləşmə) istiqamətlərində, gah bir, gah digər istiqamətdə dəyişilmə.

***21***. *Şeylər fasiləsiz dəyişməkdədir; dəyişiliklərin səbəbi xarici(xarici mühit) və daxili (daxili sistem elementlərinin qarşılıqlı əlaqələri) təsirlərdir*. Nəticədə, əldə edilmiş müvazinət fasiləsiz pozulur. Bu təsirlər nəticəsində şeylər dəyişərək fasiləsiz yeni müvazinətli vəziyyətlər, parametr və xarakteristika alır.

***22***. *Əkslik cütləri, şeylərin bütövlük və möhkəmlik şərtidir, zəruri xassəsidir*. Hər bir eyni işarəli, xarakterli bir çoxluğu sistemdən ayırıb təkbaşına qoysaq bu eyni cinsli şey iki əks qiymətli hissələrə bölünəcək. Məsələn, sistemdə 10 ədəd yaxşı adamları toplayıb müstəqil başqa yerdə fəaliyyətə buraxsaq, bu 10 adam zidd olan iki qrupa ayrılacaq.

***23.*** *Hər yeni yaranan varlıq, mühit fasiləsiz yeniləşdiyinə görə əlavə olaraq dəyişən mühitə uyğunlaşma və onun tələbinə, şəraitinə uyğun yaşamağa məhkumdur.*

***24.*** *Kiçik potensiallılar böyük potensiallıların idarəedici təsiri altındadır.*

**25.** *Hər şey şeylərin içində tutduğu mövqeyə görə üst sistemlər tərəfindən idarə olunur, özü isə alt sistemlərə idarəedici təsir edir.*
**26.** *Azadlıq anlayışı yalnız hissdir, nisbidir, heç nə, heç vaxt azad deyil.* İnsan üçün azadlıq hissi, onun istəyib könüllü edə bildiyi, şübhəsiz, mühitin imkan verdiyi fəaliyyətlərdir. Onun istəməsini də mühit yaradır. Hər bir belə fəaliyyət azadlıq hisslərinin növləridir. İstəməyib, mühitin məcburiyyəti ilə etdyini dərk edən adam isə məcburiyyət hissi keçirir, o azad olmadığını hiss edir. Şeylərin azad olmaması şərti şeylərin olma şərtidir.
*27. Hər şeyin dəyişikliyi təsadüfi deyil, müəyyən – zəruri yerə istiqamətlənmiş və ona təsir edən təsirlərin məqsədinə uyğun hərəkətdir (əks təsirdir).* Həmişə zamanın hər bir dövründə obyektdə fərqli üstün istiqamət, konkret məna, istiqamətlənmiş dəyişiliklər olur. Bu mühitlə qarşılıqlı təsirlərin nəticəsidir.
**28.** *Şeylərin bütövlük və dayanıqlılıq (olmaq) xassəsi nəticəsində insanda keyfiyyətlərin bir- birini kompensasiya etməsilə ən böyük keyfiyyət ən alçaq keyfiyyətlə tarazlaşır.* İnsan keyfiyyətlərinin cəmi nəzəri olaraq sıfırdır, yəni müvazinətdədir. Əgər bir keyfiyyət nə qədər azdırsa, digər əks keyfiyyət o qədər çoxdur. İnsanda böyüklük, insanilık, var - dövlətlilik, hakimlik, ağalıq, alicənablıq, sevgi, keyfiyyətləri ona əks olan keyfiyyətlər ilə kompensasiya təşkil edir. Ən böyük filosof ən çətin günlər keçirən insan ola bilər. Siyasi sistemdə ən böyük vəzifə tutan ən qəddardır, ən hiyləgərdir, əxlaqa əməl etməyəndir. Çətinlik, kəskin duyulan ehtiyaclar beynin yaxşı işləməsinə, daha dərin dərk etmə üçün səbəbdir.

**Dünyanın ən ümumi prinsipləri**

*1. **Rasionallıq prinsipi.*** Hər şeyin, cismin, canlının olma forması müəyyən sərhədlərdə onun üçün ən rasional olma formasıdır. *Hər bir varlıq olduğu mühitdə daha rasional formada olmağa, rasional üsulla yaşamağa çalışır.* Müxtəlif mühitlərdə həmin varlığın müxtəlif və fərqli rasional forma və davranışlarını görə bilərik. Rasionallıq ən sərfəli yaşama - olma üsuludur, formasıdır. Rasional formanı və yaşama üsulunu hər şey öz potensialına və mühitin verdiyi imkanlara görə seçir və mühit dəyişdikcə, bu olma formasını və yaşama üsulunu uyğun dəyişdirir - səmərələşdirir (bacardığı hədlərə qədər). Cansız təbiətdə bu, sürətlə - qismən, ani olursa, canlı sistemlərdə bu, zaman ərzində uzun proses kimi baş verir. Xüsusilə, insanda şüur və ağılın olması rasional forma və davranışa həm kömək edir, həm zərər verir. Adətlər, ənənələr, keçmiş inanclar, stereotip düşüncə, ictimai quruluş

formalaşır və rasional seçimə, səmərələşməyə mane olur. Nəticədə insan tarix ərzində həmişə bu və digər səhvi edir. Bunun qarşısını almaq üçün - həmişə rasional davranış seçmək üçün insanlar futuroloji araşdırmalardan, xüsusi şəxsi məsləhətdən istifadə etməlidir. Əgər soruşsalar ki, ən qısa formada dünyanı, şeyləri idarə edən, dəyişiliklərin səbəbi nədir. Buna cavab olaraq demək olar ki , *Hər şeyi, dünyan, dəyişilikləri rasionallıq prinsipi idarə edir.Yəni şeylər, varlıqlar: cisim, insan və heyvanlar - hər şey həmişə daha yaxşı formada olmağa, daha yaxşı yaşamağa çalışırlar - imkanlar axtarırlar.* Onların belə çalışmağı mühiti dəyişdirir və nəticədə mühitdə yeni imkan açılan kimi onlar bu imkandan istifadə edirlər və yeni rasional formanı və davranışı qəbul edirlər.

2. ***Səbəbiyyət prinsipi.*** Hər bir yaranış, hadisə yalnız zəruri amillər, şərait olduqda baş verə bilər. Bu prinsip səbəbiyyəti əks etdirir, yəni hər şeyin yaranma, olma səbəbi var. Lakin İnsandan və heyvanlardan başqa heç bir belə yaradıcı kompleks nə yaratması haqda əlavə olaraq şüurlu məqsəd qoymur. Canlıların nəsil artırma yaradıcılığı təkcə bioloji proqramla-funksiya ilə müəyyən edilir, hansı ki özləri bunu dərk etmirlər. Yalnız insan bioloji tələbatdan(instiktdən) əlavə nəsil artırmanı məqədlə edə bilər

3. ***Hər bir canlı varlıqın məqsədi yaşamaqdır***, lakin onlar bunu məqsəd kimi qarşıya qoymurlar. H*əyat, yəni fəaliyyət və hərəkət yaşamaq üçün çalışmaqdır*. Yaşamaq üçün fəaliyyətin səbəbi ehtiyacları ödəmək, yaşamağa mane olan qüvvələrə qarşı durmaqdır, onları ləğv etməkdir. Mane olan qüvvələr olmasa həyat olmaz. Cəmiyyətdə mane olan amillər, problemlər dərk edilməsə, aşkar olunmasa inkişaf (potensialın artımı) olmaz. Hər bir şeyə mühitdən qüvvələr təsir edir, bu həmin şeyin elə formada olması üçün zəruri şərtdir. Sizə, ona görə, təsir edən əks qüvvələri, mane olanları sevmək lazımdır, bu nə qədər ağır olsa da. Mane təsirləri olmasa heç şey yaşaya, qala bilməz.

4. ***Səlis, fasiləsiz dəyişiliklərin zəruriliyi.*** Hər bir varlıq, insan, cəmiyyət, quruluş, fəaliyyət, maddi istehsal, cisim eyni biri - birindən geri qalmadan dəyişməli, paralel inkişaf etməlidir. Süni olaraq dəyişiliyə mane olmaq, gecikdirmək, bir hissənin dəyişiliyini sürətləndirmək, digərini nəzərdən atmaq səhvdir və pis nəticələrə səbəb olacaqdır.

5. **Optimal vəziyyətin əldə edilməsinə doğru hərəkət.** Hər bir canlı və cansız dayanıqlı, rahat, sakit, müvazinətdə olmağa çalışır. Hər bir bir mikro və makro element – canlılar, cansız cisimlər ən az enerji itirməyə çalışır- bu optimal olmaq deməkdir.

**6. Harmoniya prinsipi.** Hər bir tamda (cisimdə, canlıda, qurğuda, bitkidə, heyvanda və s.) hissələri, habelə onların ailəsi, icma və cəmiyyət üzvləri arasında harmoniya-uyğunluq vardır ki, onların qarşılıqlı əlaqələri-birgə fəaliyyəti nəticəsində tamın ümumi keyfiyyəti üzə çıxır. Ümumi keyfiyyəti – xassəni əvvəldən təyin etməklə tamın hissələrinin seçilməsi və bir - birinə uyğunlaşdırlması, formalaşadırılması – harmoniya əldə edilə bilər. Yəni harmoniya hissələr arasında elə bir asılı uyğun zəruri bir - birinə və ümumi nəticə xassəsinə (keyfiyyətə) zidd olmayan fəaliyyətdir və ya hissələrin elə kəmiyyət və keyfiyyət proporsiyasıdır ki, onların hər biri razı qalır və ümumi xassə (keyfiyyət) əldə edilir. Harmoniya prinsipi yeni ixtiralar, yaradıcılıq, konstruksiya etmə üçün metoddur.
7**. Avtonomluq prinsipi.** Hər bir cisim, atom, şey digəri ilə əlaqəyə girdikdə öz avtonom olmaq formasını və yaşamaq üsulunu saxlayır. Bu prinsipi insan yeni obyektlər qurğu və təşkilatlar yaratdıqda pozmamalıdır. Elə edilməlidir ki, hər bir material və şey, insan necə adi şəraitdə qala bilirsə, elə də qala bilsin, hətta lazımı şərait yaradılmalıdır. Əgər şey, canlı öz xassəsini saxlamırsa, onda ondan qurulan obyekt (qurğu, təşkilat, sosial idarə) işləyə bilməyəcək.
**8. Əlavə keyfiyyət və ya fayda prinsipi** . Hər iki və daha çox elementi birləşdirdikdə və ya riyazi topladıqda əlavə xassələr yaranır.
**9. Müvazinətləşmə - tarazlanma prinsipi.** Mikrodünyada əks işarəli qüvvələrin birliyi – tarazlanması, makrodünyada isə əks işarəli təsirlərin müvazinətləşməsi - tarazlanması prinsipi mövcuddur. Canlı dünyada (heyvan və insan dünyasında) isə tarazlanma dinc qarşılıqlı müəyyənləşmədən əlavə həm də mübarizə-zorakılığın uzun prosesi vasitəsilə olur.
**10. Hər yeni kombinasiyalar yeni keyfiyyətlər yaradır**. Yəni hissələrin formaları, yerləşmə strukturu, zamana görə müxtəlif hərəkətləri və hərəkətsizlikləri və onların müxtəlif ardıcıllığı, kəmiyyətlərin dəyişiliyi yeni şey, yeni keyfiyyətlər, xassələr yaradır. Təkcə kəmiyyət dəyişiliyi yox, məkanda və ayrıca zamanda da yeni kominasiyalar yeni keyfiyyət yaradır.
**11**. **Şeylərin iki vəziyyətlilik və ya iki kənar sərhədlər arasında olma (rəqsi) həyat qanunu.** Kainatın avtonom dünyaları və hər cisim, canlının elə iki kənar tam əks sərhədləri yaxud hədləri vardır ki, onlar daim bir vəziyyətdən (həddən) digərinə doğru, sonra isə əksinə dəyişilirlər. Bu fasiləsiz davam edir. Başqa sözlə zərrəciklərin dalğa xassəsinə oxşar olaraq hər şeyin həyatı dalğa formasında iki vəziyyət arasında dəyişir. Məhz bu keyfiyyət əbədiliyi, davamlılığı təmin edir. Misallar: xaosdan nizamlılığa və əksinə hərəkət; qeyri müvazinətli

vəziyyətdən müvazinətə və sonra əksinə hərəkət; sıxılma -genişlənmə - sıxılma; boşluqdan maddəyə sonra yenə boşluğa çevrilmə; cəmiyyətdə diktaturadan – demokratiyaya, sonra diktaturaya hərəkətlər.
**12. Simmetriya prinsipi.** Bu tarazlaşma – tamlığın əldə olunması prosesində cisim və əşyaların aldığı simmetrik forma və uğradığı simmetrik hadisələrdir.

## Mühüm suallara yeni Yaradıcı ağıl (Kreativ intellekt) fəlsəfəsinin cavabları

**Sual.** *Ruhun materyaya münasibəti necədir?*
**Cavab**. Ruh adlandırılan müasir baxışlar hələ dəqiq və aydın deyldir, ona görə əvvəl onun nə olmasını müəyyən etmək lazımdır. Ümumi formada ruhu hər bir canlının xüsusi bir enerjiyə malik daşıyıcıda həkk olunmuş və ayrıca qala bilən mahiyyəti, canı hesab etmək olar. Daha konkret, ruhu canlının beynində və bütün bədənində həkk olunmuş ümumi mahiyyəti -ağıl və bioloji, elektromaqnit keyfiyyəti hesab etmək olar ki, bu da bir oboloçka kimi canlını əhatə edir, görsənə bilir. Belə konkret ruhu dini addan fərqləndirmək və ona daha aydın, başqa ad vermək lazımdır. Ruh anlayışı dünyanın yaranışı və necə olması məsələsi ilə əlaqədardır. Dünyanı yalnız bir dəfə böyük partlayış başlanğıcı ilə yaranmasını qəbul etsək, onda canlılar əvvəldən yaranmadığı üçün deməliyik ki, *canlı ruhu* əvvəldən heç vaxt mövcud ola bilməzdi. O yalnız evolyusiya nəticəsində yaranan material canlı varlıqlardan (bitki, heyvan, insan) törənir, lakin həmin varlıq məhv olduqda bu bir görünməz sahə formasında qalır. Sonra çox mümkündür ki, bu sahələr hansısa maddi cisimlərə, təbiətə, daha ehtimalla suya hopur və yox olur, enerjisini itirir və yaxud sıfır tezlikdə fiziki sahə kimi qalır, bəzən enerji aldıqda aktivləşir . Habelə mümkündür ki, ruhlar enerji daşımır, lakin müəyyən sahədir və ona görə də evolyusiya etmir, yəni əbədidir. Yeni yaranışlar baş verdikdə həmin yaranan canlıda yeni ruh yetişməyə, formalaşmağa başlayır. Yalnız insan və digər yüksək inkişaf etmiş heyvanlarda ayrıca qalan ruh həmin canlıya bəzən girə və əlaqədə ola, gözünə görsənə, müəyyən yaxşı və pis təsir edə bilər. Buna da xeyli sübutlar var.

Digər tərəfdən maddi cisimlərin də, göy cisimlərinin surətlərinin - ola bilər bu hansısa, kvant sahəsində yerləşmiş həmin cismin formasıdır-mahiyyətidir –ola bilməsi böyük ehtimaldır, buna da çoxlu faktlar vardır. Maddi cisimlərin də belə formalarını *cisim ruhu* adlandırmaq olar. Lakin əgər kosmosu- təbiəti spiral qalaktikalar vasitəsilə fasiləsiz yaranma və məhv olma-digər formalara, lap elə

boşluğa çevrilmə prosesi kimi qəbul etsək, onda mümkündür ki, qeyd edilən ruh formaları, başqa sözlə *energetik forma strukturlar* az miqdarda qalır və yaxud hamısı bütün varlıqla birlikdə məhv olur. Onlar hədsiz çox ola bilməzlər, çünki fasiləsiz enerjini itirməyə doğru sönürlər, öz enerjilərini təbiətə verirlər. Spiral qalaktikanın mərkəzində heç bir ruh xilas ola bilməz. Lakin onlar mümkündür ki, işıq sürəti ilə təhlükəsiz yerlərə şüurlu deyil, təsadüfən gedib qala bilərlər. Yəni hələ Zərdüştün və Bibliya peyğəmbərlərinin düşündüyü kimi yer yaranmadan əvvəl ruh – yəni keçmiş dünyadan qalma hansısa ruh sərbəst gəzə bilərdi.
Lakin ruhun su ilə kontaktı onun məhvinə səbəb olduğu üçün o suyun deyil, quru yerdə gəzə bilərdi, əgər var idisə.
Elə güman etmək olar ki, həmin konkret ruh ilk və sonrakı canlıların yaranışında iştirak edə bilərdi. Lakin buna bir dənə də fakt yoxdur və qəbul edilə bilməz. Deyilən fərziyyələr barədə tədqiqat işi aparmaq lazımdır.

**Sual.** *Varlığın dərinliklərində fövqəltəbii qüvvələr mövcuddurmu?*
**Cavab.** Fövqəltəbii qüvvələr yoxdur. Yalnız hamısı təbiidir, izah edilə biləndir. **Şeytan** teist dinlərin uydurduğu personajdır. Ayrıca bir şeytan adlı varlıq yoxdur. Şeytan sadəcə mənfi xassə kimi hər bir varlığın daxilində müsbət xassənin əksinə olan bir xassədir, zəruri keyfiyyətdir. Atomlarda da mənfi və müsbət yüklər bərabərdir; insanda da mənfi(şeytan) və müsbət(xeyirxah) xarakter bərabərdir, lakin bəzi adamları şeytan xarakter idarə edir, bəzilərini xeyirxah xarakter idarə edir. Bunun səbəbi budur ki, bu ya digər xarakter mühitlə əlaqədə daha çox aktivləşir, nəticədə insan ya şeytan, ya xeyirxah olur. Şeytani xarakter- mənfi qüvvə olmasa heç nə mövcud ola bilməz. Şeytan ruh növü rolunda insana daxil ola bilər və onu daim səhv yola sürükləyə bilər, lakin insanın bundan xəbəri olmaz. **Cin** eynilə insandan ayrılmış ruh növüdür ki, müəyyən xüsusi qabiliyyətlərə malikdir, şüurludur və bunu evolyusiya vasitəsilə edir, gözə görsənə bilər, hava ilə hərəkət edə bilər. Onların insan surət- forma dəstələri, ailəsi kimi birlikləri, məclisləri, konsertləri müşahidə edilmişdir. Onların bütün hərəkətləri fikir - söz formulası və onun gücü ilə uzaqdan insan şüuruna təsir etməklə olur. Buddizmin və teosofiyanın izahı – ruhların evolyusiya etməsi, ağıllanması, təmizlənməsi - güman ki, doğru ola bilər. Bu fikri davam edərək, güman etmək olar ki, bütün növ canlılardan- insan və heyvanlardan ayrılmış formaların mahiyyəti qarşılıqlı əlaqədə olaraq elə formalı canlı xəyalı-forması yarada bilər ki, hələ onlar yer üzündə olmamışdır. Belə qəribə, sintez olunmuş əcayib forma surətlər (cin,

şeytan adı ilə) müşahiə edilmişdir, nəinki tək adam, hətta kollektiv tərəfindən. Bu fakt onların halluniyasiya deyil, real olmasını sübut edir.Tanrı haqda bax hissə İİ .

**Sual.** D*ünya sonludur, yaxud sonsuz?*

**Cavab:** dünya avtonom sikllərdən- yaranma və məhv olma-yeni formalara, hissələrə parçalanma və yenidən yaranma- ibarət ardıcıl davam edən bir prosesdir ki, bu prosesin sonu yoxdur. Bu məntiqə görə dünya və ya bütöv kainat (dünyalar çoxluğu) tək bir böyük partlayışla yarana bilməzdi. Hər siklin öz başlanğıcı və sonu var. Onları uc - uca hər bir istiqamətdə birləşdirsək, sonsuz ümumi sistem alarıq. Demək dünya ümumi sonsuz prosesdir, yalnız ayrıca bütöv dayanıqlı yaranışlar arasındakı proseslər sonludur ki, bir varlıq, bir vəziyyət digəri ilə əvəz olunur.

**Sual .** *Kainat hansı istiqamətdə hərəkətdədir?*

**Cavab .** Ümumi kainat çox müxtəlif formalı dünyalardan ibarət olraq hər biri müxtəlif istiqamətdə hərəkətdə, və müxtəlif evolyusiya səviyyəsindədir. Bizim kainat - spiral qalaktikamız konkret hərəkətdədir, spiral boyu mərkəzə hərəkət və hissəcikərə parçalanma, sonra boşluğa çevrilmə və oxlar boy yenidən kainatın yeni yaranışının başlanması prosesindədir. Spiral qalaktikalar sonsuz çevrilmə motorlarıdır, onun hərəkəti heç vaxt dayanmayacaq, qollarına isə yeni ulduzlar cəlb olunub onu daim yaşadacaqdır. Yalnız onların gəlişi qurtarsa, bu spiralın sonu gələr, lakin bu qurtarmaz- təkrarlanan bir prosesdir.

**Sual.** *Kainatın əbədi hərəkətində bir məqsəd varmı?*

**Cavab.** Xeyr, kimdir ona məqsəd qoyan? O olmaq üçün hərəkətdədir, onun hərəkəti olmaq vasitəsidir. Onun hissə və elementlərinin öz daxili 4 xassəsi – qanunu onu olmağa məcbur edir. Hərəkətin səbəbi mikroaləmdə 4 təbiii fiziki qüvvə olmaqla yaranan iki ümumi əks qüvvənin balanslaşmağa çalışması və makro aləmdə də eyni 4 qüvvənin təsirilə yaşama qaydasının daim yaranması və saxlanması, qaydasızlıq yaradan hadisələrin- daimi bu ya digər yerdə partlayışların olması - arxasınca tarazlanmaq prosesinin olmasıdır. Nə qədər ki, tam tarazlıq yoxdur, daim hərəkət olacaqdır, çünki daim onu pozan hadisələr olur. Mikroaləmdə tarazlığın əldə edilməsi ilə onu pozan - an üst - üstə düşür. Makroaləmdə kainat avtonom kainatlar-qalaktikalar, ulduzlar, planetlər formasındadır və daim tarazlığın pozulması səbəbilə o hərəkətdədir. Yerin günəş ətrafında fırlanmasında onu daim daxilə cəlb edən qüvvə onu xaricə çəkən qüvvə ilə tarazlaşır. Burada tarazlığın pozulması və bərpası eyni zamanda baş verir, ona görə də fırlanır. Elektrik motorlarında isə konstruktorun hiyləsi ilə

qaçan maqnit sahəsi yaradılmışdır və onun arxasınca rotor fırlanır, onunla tarazlaşmaq üçün.

**Sual.** H*ansı istiqamətə və hansı qanunlara əsasən bəşər tarixi hərəkət edir və onun əsas mahiyyəti nədir?*

**Cavab.** Bəşər tarixi kamilləşmək üçün daha yaxşı forma və yaşamaq əldə etmək üçün davam edir. İlk dövrlərdən ayrı və əlaqəsiz formadan miqdarca çoxalmağa və əlaqələrin artmasına uyğun olaraq bu əlaqələri nizamlamaq üçün onlar uyğun normalar, üsullar yaradırlar, təkmilləşdirirlər. Yer üzündə adamların, millətlərin sıxlığı artdıqca, yer tam dolduqca, güclər artdıqca onlar arasında dominantlıq və hegemonluq qanunu işə düşür. Getdikcə, konfliktlər, müharibələr, ədalətin pozğunluqları baş verməsilə, ədalət, düzgünlük, bərabərlik, qaydalılıq anlayışları yaranır və bu prinsiplər daha çox tələb olunur. Bəşəriyyət vahid dövlət qurmağa doğru gedir. Prosesdə idarəedici qüvvələr hər bir dövlətdə cəmiyyətin varlı və güclü sinifləridir ki, idarə vəzifələri konstruksiya edib, müxtəlif üsullarla onu ələ keçirirlər və idarə olunanlar hesabına yaşamağa başlayırlar, qanunları da belə yazırlar. Nəticədə böyük çoxluq- kasıblar və sadə insanlar - ilə azlıq : varlılar və məmur qrupu arasında daim mübarizə baş verir. Bu mübarizədə məqsəd iqtisadiyyatda, sosial vəziyyətdə, yaradıcılıqda, hüquqlarda, həyat imkanlarında bərabərlik, ədalət əldə etməkdir. Hansı ki məhz idarə edənlər dikriminasiyaya yol verərək bu nemətləri sadə çoxluğa vermirlər-özləri mənimsəyirlər. Yəni zaman keçdikcə mübarizə nəticəsində imkanlar, yaşayış səviyyəsi bərabərləşir, ədalət bərqərar olur. Müasir dövrdə dünyanı əhatə edən və özünü gözdən salmış kapitalizm sisteminin varlılar - kapitalistlər hakimiyyəti bəşəriyyəti saldığı problemlərdən xilas etməyəcək. Bunu yalnız elmin siyasi hakimiyyətdən azad olması, savadlılığın, elmi biliklərin kütləvi təbliği və şüurluluğun artması sayəsində böyük xalq kütlələri hakimiyyətləri dəyişməklə, kollektiv idarə tətbiq etməklə edə bilər. Lakin buna qarşı böyük kapitalist və onların siyasi qüvvələri durmuşdur. Marksın dövründə kapitalizmin iyrənc metodlarını və zərərini görərək vicdanlı varlı sinfin nümayəndələri məhz bu problemi həll etmək üçün nəzəriyyələr qurdular və nəticədə sosializm sistemini yaratdılar, bu - xilas oldu. Lakin sosializmi anlamayan, köhnələrin yerinə gələn dələduz 10-70 il sonrakı yeni rəhbərlər demokratiyadan imtina edərək şəxsi diktatura strukturu qurdular, bundan da xarici kapitalist mühit istifadə edərək, yer kürəsinin böyük hissəsində sosializmi ləğv etməyə nail oldular. Nə üçün? - öz gəlirlərini artırmaq, daha çox varlanmaq, harın yaşamaq, azad istismar etmək üçün. Yenidən yeni quruluşun, yeni sivilizasiyanın - rasional sosializm

(rasional cəmiyyət) qurulması ehiyacı yaranmışdır, hansı ki onu yaratmaq üçün yenə də vicdanlı varlı sinfin nümayəndələrinin pulları, mesenatlığı, xeyriyyəçiliyi lazımdır.

***Yaradıcı ağılın dünya haqda nəzəriyyəsinin faydası.***

Bu nəzəriyyə Kainat, maddi, keçid və forma- surətlər-ruhlar dünyası; rasional cəmiyyət (quruluşu, idarəetməsi, həyat tərzi, əxlaqı) nəzəriyyəsi, rasional insan, gələcəyin nəzəriyyəsi bölmələrindən ibarətdir. Bütövlükdə müəllifin irəli sürdüyü və formulə elədiyi bu yeni Yaradıcı Ağıl fəlsəfi baxışları insan, cəmiyyət, biznes və ictimai təşkilatların həyat və fəaliyyəti üçün aşağıdakı çox faydalı praktik imkanlar yaradır:

1. Şeylərin, bitki və cisimləin, insanların, hadisələrin formulalar vasitəsilə yazıla bilməsi (11)
2. Mühitin, şeylərin, cəmiyyətin dərk edilməsi və gələcəyinin proqnozlarının verilməsi
3. Hər insanın və icmanın, dövlətin, biznesin öz gələcəyini dərk edərək öz yerini və aid olduğu çoxluğun -ailə, qəbilə, kənd, şəhər icması, cəmiyyət, dövlət-təyin etdiyi rolu düzgün tapması, özünü düzgün - rasional idarə etməsi, rasional davranış seçməsi
4. Sağlam həyat seçməsinə stimul alması
5. Rasional həyat və fəaliyyət seçməsinə stimul alması
6. Əxlaqı və mədəni davranış üçün stimul alması
7. Əməkdaşlığın və başqa insanı sevməyin zəruri olmasını anlaya bilməsi
8. Hər bir insanın, cəmiyyətin digər insanın və cəmiyyətin özü kimi yaşama hüququnun olmasını dərk etməsi
9. Sülh və razılaşmalar, qarşılıqlı anlama yolu ilə yaşaması
10. Rasional dünya konfederativ dövlətinin yaradılması zərurətinin dərk edilməsi
11. Keçmişdən gələn konfliktlər və ərazi davasından, səhədlərdən imtina etmək və bütün yer planetində hər kəsə azad yaşama yeri seçmək hüququ verilməsinin zəruriliyinin dərki

***Yaradıcı ağıl (Kreativ intellekt) dünyabaxış fəlsəfəsinin qəbul etmədiyi ideyalar.***

1) atomun yarandığı zərrəciklərin şüurlu olması,
2) fövqaladə - təbiətdən və kainatdan kənar qüvvələrin olması,

3) Tanrının ruh olması və adamlarla söhbət etməsi,
4) yaradanın qeyri - müəyyən Tanrı olması,
5) əxlaqın qeyri - müəyyən Tanrı tərəfindən yaradılması
6) dünya quruluşunun və qanunlarının, bütün varlığın, insanların qeyri - müəyyən Tanrı tərəfindən qəfildən yaradılması,
7) bəzi insanların qeyri - müəyyən Tanrı tərəfindən peyğəmbər seçilərək, onlara öldürmək, genosid, dağıtmaq yolu ilə ictimai sistem qurmaq və onun özünə tabeçiliyini yaratmaq əmrinin verilməsi,
8) energetik forma - xəyallara, surətlərə mələk, cin, şeytan, allah adının verilməsi,
9) insanın günahkar doğulması və cənnətə və ya cəhənnəmə gedəcəyi,
10) Tanrının dünyadan kənarda olması və mələklərdən qulluqçuları olması

Qeyd : *Yaradıcı ağıl* fəlsəfəsi ruhi aləm -Tanrı və görünməz varlıqlar haqda yeni nəzəriyyə irəli sürür (bax hissə İİ).

## GƏLƏCƏYIN ARAŞDIRILMASI (futurologiya)

### *Dünya necə idarə olunur?*

Hər bir avtonom dünyanın, habelə cismin, canlının məqsədi olmaqdır və rahat olmaqdır. Rahat olmaq üçün o, ona ətrafdan edilən maneyə qarşı davranmağa-müəyyən hərəkət etməyə məcburdur. Şeyin hərəkətinin səbəbi elə budur, yəni şeyin bu ya digər davranışı xarici mühitin təsirilə baş verir. Demək, xarici mühit, yaxud çoxluq şeyi – təki idarə edir. **Lakin şeyi bir idarə** edən yoxdur. İdarə qərarını asılı sistemlərin kollektiv iştirakı ilə bir üstün sistem verir. Baxılan istənilən sistemdə bütün üzvlərin hərəkətləri əlaqəli-asılıdır. Sistem hansı parametrləri təyin etmişsə yalnız həmin parametrlər daxilində hər üzv azadlığa malikdir. Sistemin, məsələn, sosial sistemin təyin etdiyi davranışlar, statuslar, rollar, kasıblıq və varlılıq və digər proporsiyalar konkretdir, əvvəlcədən ümumi sosial sistem tərəfindən təyin edilmişdir (dövlətin qanunu olsa da, olmasa da; dövlətin fəaliyyətindən asılı olmadan).

Mifoloji təsəvvürlərə və irrasional fəlsəfi təlimlərə görə dünyanı və insanların həyatını *Tale (судбa)* idarə edir. Talenin qeyri - məntiqi və dərk edilə bilinməyən *əvvəldən müəyyən olunma* olması fərz edilir. Qədim yunan inanclarına görə baş Tanrı olan Zevsin və Femidanın üç

qızı tale ilahiləridir: Kloto həyat – tale kəndirini toxuyur, Laxesis taleni – bu kəndiri adamlar arasında bölür, Atropos təyin edilmiş zaman həyat kəndirini kəsir (5).

Astrologiya isə insanın xarakterini, temperamentini, davranışını, gələcəyini - talesini göydə, ulduzların vəziyyətlərinin müəyyən etdiyini qəbul edir.

Xristanlıq tale ideyasını Allahın əvvəldən görməsinə inancla əvəz etdi. Sonralar, eynilə, İslam ruhaniləri də əvvəldən təyin edilməni Allahın adına yazdılar (5 ).

*Stoisizm* baxışlarına görə Dünya *Tale* tərəfindən idarə olunur. Bu nəzəriyyənin əsasını qoyanlardan Zenonun (336-264 b.e.ə.) fikrincə TALE idarəedici və hakimlik edici başlanğıc, eyni zamanda dünyanın idrakı, dünyada bütün varlığın qanunudur. Bu dünya idrakına uyğun olaraq «*olan olmuşdur, olan olur, olacaq isə olacaqdır*». Zenonun fikrincə, tale bütün dünya səbəblərinin biri - birilə bağlanması deməkdir, bunu bağlayan isə alın yazısı - fələkdir. (5 )

Göründüyü kimi, lap qədimdən insanlar hadisələr arasında bir əlaqə, bir qayda müşahidə etmişlər, lakin bu qaydanı müxtəlif cür təsəvvür və təsvir etmişlər. Biz görürük ki, qədim dövrdən bəri bir çox filosoflar və dini ruhanilər reallığı gördüklərini, lakin məhz dərin bilikləri çatmadığından onu sehrli, əfsanəvi, dərk olunmaz ilahi qüvvələr tərəfindən idarə edildiyini qəbul etmişlər. Real həyat müxtəlif cür dərk edilmişdir.

Zenonun yazdığına görə TALE - dünyanın *təbii və ümumi qanunudur* və bununla bərabər ilahi xarakter və məna daşıyır. Zenonun taleyə verdiyi bu xüsusiyyət Yaradıcı Ağıl *nəzəriyyəsinin* dünyanın quruluşu və dəyişiliklərinin vahid qanunu ilə müəyyən dərəcədə səsləşir. Lakin Yaradıcı ağıla görə, tale naməlum və sirli, dünyadan kənardakı *ilahi* qüvvə deyil, dünyanın öz içindədir, öz daxili qanunauyğunluğudur.

Dünyanın Yaradıcı ağıl fəlsəfi anlayışına görə talenin tərifi:

*Tale - dünyadakı varlıqların, şeylərin dünya asılılıq və qarşılıqlı təsirləri əks etdirən dünya formuluna uyğun olaraq* $\sum N \pm \Delta P = 0$ *şeylərin yaranma və dəyişilikləri ardıcıllığını əks etdirən - dəyişiliklər xəttidir. Tək və çoxun münasibətləri nəticəsində təkin spesifik potensialı ilə və çoxluğun xarakteri ilə müəyən edilən həyat xətti - Tale xəttidir*. Ona görə də tale hər şey və hər canlı üçün müxtəlifdir. Yəni məhz fərqli potensiallar olanda fərqli talelər meydana çıxır, məsələn,

adamların potensialı eyni olsaydı, eyni bir çoxluq daxilində onların talesi eyni olardı. Oxşar potensialı olanlar üçün (eyni çoxluqda) və oxşar çoxluqlar üçün fərdlərin taleləri də oxşardır.

Vahid dünya tamlıq qanunua görə, hansı ki deyir: ”heç nə heç nədən yaranmır; hər şey momentin həm horizontal zaman xəttində, həm vertikal zaman xəttində (keçmiş, indi, gələcək) tam – bütöv olmaqa və qalmağa çalışır, yəni tarazlaşır və hər şey digər sistemlərin elementi olaraq zəruri *dəyişiliklər xəttinə - taleyə* malik olur. Bu xətt – tale məhz, özbaşına yox, şeyin daxil olduğu sistemlərin elementi rolunu oynamaq məcburiyyəti - vahid qanun üzrə, başqa sözlə, təklə, fərd ilə sistemin münasibətləri nəticəsi kimi formalaşır.

Tale nəticələr xəttidir, gələcəkdə olan hələ reallaşmamış xətt isə nəticələrin olacağı xətdir, hər nöqtəsi konkret sistemlərin, hadisələrin, insanın (cisim və digər şeylərin) iştirakı ilə qarşılıqlı təsirləri nəticəsidir. Lakin bu xətt enli xətdir, xəttin yan sərhədləri arasında qalan sahə alternativlər zonasıdır ki, konkret nəticə (vəziyyət) bu aradakı konkret və məlum nöqtələrdən biri olacaqdır. Bu sərhədlər məhz spesifik şeyin *ola biləcəyi vəziyyətlərini olmayacaq vəziyyətlərdən* dəqiq ayırır. Hər şeyin - insanın, cismin, qurğunun taleyi – məhz belə konkret enli xətt formasında yaranışdan var və hələ gələcək gəlmədən gələcəyə uzanmış xətdir. Lakin zaman yaxınlaşdıqca bu xətt nazilməyə başlayır və *İndi* baş verdikdə artıq bu, xəttin eni içərisində bir nöqtə olur. Beləliklə keçmiş artıq enli xəttdən qalmış nazik, lakin yaxından baxdıqda ziq-zaqa oxşar, uzaqdan baxdıqda isə nazik xəttə oxşayır. *Bu hadisə cəhrədə yunun əyrilməsinə çox oxşayır - yun topası qeyri - müəyyən hədsiz varianları olan (lakin sayıla bilən) gələcəkdir. lakin zamanla bu yun topası getdikcə nazilir və nazik xəttə - ipə çevrilir – konkret tale xətti yaradır.* Zaman nə qədər uzaq gələcəkdədirsə, xətt o qədər qalındır. Nəzəri olaraq dəyişiliklər, şeyin öz iştirakı ilə qanunauyğun şəkildə müəyyən istiqamətə (hər dövrdə-trenddə və ya axında istiqamətlər dəyişilir) gedirsə, demək, həmin şeyin şüurlu fəaliyətilə lazımı gələcək - tale qurmaq olar. Taleni həm elmi analiz yolu ilə, həm intuisiya yolu ilə demək mümkündür. Tale anlayışından və taleni demək imkanlarından bir çox adamlar biznes qurmuşlar. Onların əksəriyyəti məhz yalan tale söyləməklə, onu düzəltmək üçün aldadıb pul alırlar.

Lakin taleni dəyişmək mümkün deyil. Mənim şəxsi təcrübələrimdə taleni və yaxud baş verməli olan hadisəni dəyişmək mümkün olmamışdır. *Hadisələrin və insanın gələcəyinin arzu edilən istiqamətdə olması üçün taleni dəyişmək deyil - bu heç vaxt mümkün ola bilməz-*

*taleni hələ xeyli əvvəldən yazmaq lazımdır ki, zaman yaxınlaşdıqca, o dəyişməz zərurətə çevrilsin.*

Hegelin *Dünya ruhu* anlayışından imtina etmək hələ tezdir. Onun nə demək istədiyini mən başa düşürəm. Hər hansı bir hadisənin baş verib verməməsi, məsələn, insanın başına müəyyən hadisənin hansı zamanda gəlməsi yaxud gəlməməsi, material planlardan, fəaliyyətlərdən başqa şeylərin, hadisələrin ideyalar, formalar-surətlər aləmində *asılılıq-uyğunluq-harmoniya* qanununa da (dünya ruhuna) uyğun olmalıdır. Əgər uyğun olmasa və bu hadisə tələb edilməsə siz nə qədər çalışsanız da heç nə əldə etməyəcəksiniz. Ona görə də planlar, məqsədlər seçəndə və icra edəndə elə əvvəldən və daim onun vaxtını, yerini, formasını, iştirakçıları, məqsədi ümumi axınla (harmoniya) korrektə etmək lazımdır, yəni hər ağıla gələn işi, hər yaxşı görsənən işi etmək olmaz! Bunu isə ağılla analizdən çox, intuisiya ilə etmək daha düzgün olardı. Əlavə: bax, hissə İİ

*Tale* - potensiallar, keçmiş tarix, mühit, təkin daxil olduğu çoxluq, tamlıq-müvazinət qanunu ilə və xarici təsirlər və reaksiyalar əsasında müəyyənləşir. Rasional Cəmiyyət Uğrunda İctimai Birlikdə (Azərbycan) mənim tərəfimdən tale qurmaq proqramı yaradılmışdır. Burada hər insana diaqnostika və analiz vasitəsilə spesifik arzu olunan məqsəd üçün tale yolu konstruksiya edilir.

***Determinizm, yoxsa Azadlıq?***

Taksiyə minən intuitiv insan hiss edir ki, maşın qəza törədəcək və insanlar öləcək. Buna görə də maşını tərk edir. Başqaları həmin maşına minib gedirlər. Sonrakı maşına minib gedən həmin adam doğrudan da həmin maşının aşdığını və sərnişinlərin öldüyünü görür. Bu və ya digər intuisiyalar nə üçün düz çıxır? Burada heç də təsadüf yoxdur. Bunlar hamısı irəli sürülən nəzəriyyə ilə izah olunur, çünki bütün şüurlu varlıqlar, insan və müxtəlif heyvanlar tamamilə ətraf mühitlə eyni taktda yaşayaraq hadisələrin məhz ümumi qarşılıqlı oyununu əvvəlcədən hiss etmə qabiliyyətinə malikdirlər. Deyərdim ki, heç fövqaladə qüvvə axtarmağa da ehtiyac yoxdur. Hər şey, hər səbəb şeylərin bütün xassələri və birgə yaşaması-əlaqələri nəticəsidir. Maşın misalından bu tezis meydana çıxır: *Hadisələr içində aparıcı, baxılan mühit prosesləri içində onun vacib onurğasını daşıyan hadisələr vardır və ondan asılı və onun "oduna yanan yaş" da vardır ki, bu yaşın başına gələn məhz uzunmüddətli planda deyil, yəni məhz xeyli əvvəldən bu ana bu formada planlaşdırılan hadisə deyil. Lakin bu "yaşın" başına gələcək hadisənin forma və zamanı onun başına*

*gəlməli hadisələr içindədir və özündən deyil, kənar obyektlərin davranışından asılıdır.* (Ümumi nəzəriyyəyə görə şeyin sonrakı vəziyyəti onun öz daxili fəaliyyəti və ətraf mühitin təsirinin birgə görüşü nəticəsidir. Bu görüşdə hansı tərəf- özü və ya mühit -üstünlüyə maliksə nəticəni də o tərəf müəyyən edir. Bu baxılan misal o haldır ki, burada həlledici rolu ətraf mühit daşıyır). Yəni bu "yaş" əgər bilsə, iştirakdan imtina edərək xilas ola bilər. Əgər ona xilas olmaq yazılmışsa. Əgər yazılmamışsa birincidən xilas olsa da yeni başqa bir hadisə ilə əlaqədə bu iş onun başına gələcəkdir. Məsələn, Özbəkistaın Paxtakor komandası 1980 - cı illərdə təyyarə qəzasında tam xilas olsa da, onlar səyahəti davam edərək digər bir qəzada - avtomobil qəzasında hamısı öldü. Yəni bütün hadisələr zərurətlə baş verir, lakin onların bəzisi zamana görə gec və ya tez, habelə situasiyadan asılı olaraq və əsas hadisənin ikinci dərəcəli iştirakçısı olaraq baş verir. Yəni bir qism hadisələr vacib və vaxtında, aparıcı hadisə kimi baş verir; bəziləri isə onlardan **asılı** olaraq baş verir. Gördüyümüz kimi yalnız insan ağlı və ya intuisiyası onu aparıcı, baş verməli hadisələrdə (trendlərdə) iştirakdan və orada zərərə düşməkdən xilas edə bilər. İnsan, ondan *asılı olmayan* hadisələri kənara qoysaq, heç olmasa, ondan *asılı* hadisələrin baş verməsini əvvəlki davranışı ilə idarə edərsə, hazırlaşarsa, qarşısını alarsa xeyli uğursuzluqlardan xilas olar. Bu mülahizənin sübutu budur ki, dünya-ətraf mühit proseslərinin gələcəkdə baş verməsində insan (habelə hər şey) özü də öz potensiyalı (gücü, ağlı, biliyi, tərbiyəsi, əxlaqı, sağlamlığı, keşmişi və s .) ilə iştirak edir. Bədbəxt hadisələrdən qorunmağın, problemlərdən uzaq olmağın digər metodu insan tarixində qurban kəsmək, xeyriyyəçilik, dualar - özünütəlqin olmuşdur. Bu üsulla insan şüuru ətraf aləmlə harmonik əlaqəyə girir və onu hiss edir, sonra düzgün davranış seçir. Bunlar hamısı insanın ətraf mühitlə münasibətdə psixi rahatlığına, yaxşı olacağına əminliyinə, özünə inama səbəb olur, hansı ki çox vacibdir. Belə ki bir baxışa görə insanın özündən asılı olan problemlərə düşməsinin səbəbi onun psixi əhvalının müvazinətinin pozulmasıdır. Bunu bilmək bədbəxtliklərdən qorunmaq üçün şüurun, mənəvi durumun saz, rahat saxlanmasını bizə məsləhət görür. Yəni biz bu metodları öyrənməli və daim icra etməliyik.

Bu müzakirədən belə nəticə çıxır ki, insan uğurlu seçim etmək üçün o, diqqətlə mühiti öyrənməli, aparıcı, həll edici trendləri – hadisələr xəttini ( tale xətlərini) müəyyən etməli və sonra özünü dərk edərək öz yerini və rolunu bu trenddə müəyyən etməlidir. **Yəni uğur müəyyən dərəcədə insanın öz əlindədir.**

Dünya hadisələrinin tam bir - birilə əlaqədə və asılılıqda olması, hər şeyin müəyyən səbəblə baş verməsi, əvvəldən müəyyən edilmə, bəşəriyyətin və fəlsəfənin əbədi məsələsini - **azadlığın** olub- olmaması sualını yaradır.

İnsan və hər bir digər şey - canlı və ya cansız varlıqlar - hamısı eyni qanuna - **çoxluğun təklər üçün müəyyən etdiyi forma və həyat qanununa tabedir** və çoxluq içində yaşamağa məhkumdur. Təklər çoxluğun – yəni dünyanın bir hissəsidir, habelə ierarxik pillələrdən ibarət olan müxtəlif çoxluqların (üst və alt sistemlərin) hissəsidir. Başqa sözlə, insan çox məchullu tənliklər sistemini ödəyən - hansı ki hər birinin və hamısının təsir qüvvələrinin ümumi nəticəsi sıfıra bərabərdir - məchullarından biridir. Məhz bu məchul - konkret potensial, parametrlər və davranışdır. Bir az kənara çıxsan dərhal ümumi harmoniyanın ritmin pozğunluğu-uğursuzluq olacaq. Eynilə, hər şey belədir. Bu məchullardan hər birinin qiyməti digərlərindən asılı olaraq müəyyən edilir. Digər tərəfdən, məchulların fasiləsiz dəyişilən qiymətlərində hər biri digərindən asılı dəyişir, lakin balans, yəni cəmlərin sıfıra bərabər olması qalır. Üst sistemlərin dəyişməsi zəruri olaraq alt sistemləri üst sistemin dəyişməsinə uyğun dəyişdirir. Bu fikirlər təbii müşahidələrdir, reallıqdır.

İnsanın özünü azad və ya qeyri- azad (maneələr qarşısında durduğu) hissləri var.

Buddist monaxı və ya Sufi dərvişi bütün dünyəvi çalışmaq, işləmək, həzz almaq, yaxşı yaşamaq məqsədlərindən özünü uzaqlaşdıraraq həyatın imkan verdiyi ən az nemətlərlə kifayətlənir, meditasiya ilə, dualar, ibadət ilə gününü keçirir, özünü azad hiss edir. Onun üçün fərqi yoxdur, hansı siyasi rejimdə yaşayır və cəmiyyət necə idarə olunur. Həyat nemətləri uğrunda çalışan, zəhmət çəkən insan müxtəlif maneələrə rast gəlir, özünü *azad hiss etmir*.

Bilik sahibi olmayan və yaşama vasitələrinə malik olan və daha çox zəngin həyat məqsədləri qoymayan insan özünü azad hiss edir. Eyni şəraitdə yaşayan, lakin daha artıq yaxşı həyat məqsədləri qoyan, daha çox əldə etməyə çalışan maneələrə rast gəlir və özünü azad hiss etmir. Böyük bilik sahibi olan insan öz qabiliyyətini tətbiq etməyə imkanlar görmədikdə ictimai sistemi analiz etməyə başlayır və onun diktatura olduğunu, effektsiz idarə və qanunlar olduğunu aşkar edir, özünü azad hiss etmir.

Deməli, 1. Azadlıq yalnız insan hissidir. Azadlıq hissi subyektivdir. Imkanlardan artıq məqsədlər qoyulduqda azadlığın olmaması hissi yaranır. 3. Mühit haqda biliklərə malik olmaq azadlığın olmaması (hədlərinin olması) hissini yaradır. Məhz bu səbəbə görə dövlətlər

insanların biliklərinin az olmasına, məlumatsız qalmasına çalışırlar. Çünki bilik, insanın özünün azad olmamasını, yəni davranışının hədləri olduğunu dərk etməyə kömək edir və ictimai sistemin səmərələşdirilməsi üçün ideyalar yaranmasına, siyasətdə iştirak etməyə səbəb olur. Azadlıq hissi və mühitin məcburiyyəti eyni hadisənin müxtəlif adıdır. *Mühitin sərhədlərini anlayana qədər insan özünü azad hiss edir.*

**Tərif:** *Azadlıq, insanın onun daxili aləmi, dünyagörüşü, yaşama üsulu ilə uyğun olmayan buna görə də onu daim sıxan / məhdudlaşdıran hissi yaradan mühitdən çıxıb xilas olmasıdır.* Başqa sözlə Azadlıq, insanın daxili aləmi, dünyagörüşü və yaşama üsulu ilə uyğun olan, onun arzu və istəkləri ilə tam uyğun sərhədlərə malik olan mühitin olması, başa düşülməsi, qəbul edilməsidir.

Rüşvət alan adam rüşvət alına bilməyən yerə düşsə, bu onun üçün sıxıcı yerdir, o, azadlığını bu mühitdən çıxmaqda görür. Yaşadığı dövlət insanın rahat, normal həyatına mane olursa, bu da sıxıcıdır, insan özünü azad hiss etmir, buradan xilas olmaq insanın azadlığıdır; oğru bandası üzvü üçün onun olduğu banda azadlıqdır, onu düzgün bir cəmiyyətə qoysaq, bu onun üçün azadlığın məhdudlaşması /qeyri - azad yer olacaq. Buradan çıxmaq onun üçün azadlıq olacaq.

Dünya qanununa görə hər bir tək, məsələn, insan özünün potensialına görə müəyyən yer tutur və həmin yerin imkanları çərçivəsində başqa elementlər –ətraf sosial, ictimai, siyasi, təbii mühitlərlə qarşılıqlı əlaqə şərtində həmin yerində qala, yaşaya bilər. (Mikrodünyada da belədir - hər zərrəcik və ya atom adlı kombinasiyada tərkib hissələri belə mövcud olurlar). Bu onun fəaliyyətsizliyini imkansız edir, əgər o dayansa, sistemdən çıxardılacaqdır, onun yerini digər potensiallı adam gəlib tutacaqdır. Eyni zamanda, onun hərəkətləri sistemin verdiyi imkanlar, istiqamət, seçim daxilindədir. Konkret seçim isə konkret imkanlarla – rəqiblər, güclər və zəifliklər, reallıq insanın öz potensialının necəliyi ilə - müəyyənləşir.

Demək, insan hər istədiyini, mühit imkan verməsə edə bilməz. Konkret zaman ərzində onun hərəkətləri - seçimi sonludur - alternativlər var, sayıla bilər, konkret momentdə isə seçimi birdir. Buradan belə nəticə çıxır ki, insanın potensialı – gücü, imkanları, biliyi və s. ətraf mühitin imkanlarına bərabər və artıq olduqda insan həmin işi azad olaraq edə bilər. Demək, insanın ictimai piramidada tutduğu yer onun potensialına bərabər olur. (İnsanın potensialı dedikdə həm material, həm mənəvi – ağlının hədlərini birlikdə nəzərdə tutmaq lazımdır). Bu yer insanın azadlıq yeridir. Yəni insanın statusu onun

potensialına bərabədirsə o azaddır (özünü azad his edir). *Azadlıq insan üçün özünü və ətrafı dərk edərək həmin çərçivədə könüllü hərəkətindən doğan razılıq hissidir.*

Azadlığın sərhədləri və dərəcəsi var. İnsan buna görə də heç vaxt azad deyil, o yaşadığı ictimai və təbiət mühitinin ona qoyduğu tələblərlə hesablaşmağa məcburdur. Azadlıq digər ətraf mühit elementləri –qonşular ilə məhdudlaşır. O şey azadddır ki, o mühitin ona verdiyi yerdə – qaydada konfliktsiz dura –yaşaya bilir. İnsanın biliyinin artması onun azadlıq dərəcəsini artırır. İnsan üçün azadlıq ancaq şəxsi hissdir- yəni edə biləcəyi hərəkətləri sərbəst etmə qabiliyyətini dərk etməkdir. Bir adam o birisinin qeyri - azad olmasını deməsi düz ola bilməz. O insan ki, hələ özünün azad olmamasını dərk etməmişsə, o özünü azad sayacaqdır.

Bir şeyin azadlığı, digər şeyin azadlığı ilə məhdudlaşır, yəni azadlıq və məhdudluq asılı cüt anlayışlardır. Bir hadisə bir şey üşün azadlıqdır, digər şey üıün məhdudluqdur. Cəmiyyət daxilində insanın bilik və məlumatları çoxalaraq sistemin onun fəaliyyətinə maneələrini dərk edənə qədər insan azaddır. Mane görəndən sonra o öz qeyri - azadlığını aşkar edir, yəni dərk edir.

**Nəticə:** *azadlıq subyektiv və şəxsi hissdir*. Şeylər azadlıq və məcburiyyətin birliyidir. Şeylərin olması azadlıqın və ətraf mühitin məcburiyyəti nəticəsidir. Əgər birini görmək istəməsək, digərini görəcəyik. İnsanın bilmədikləri sahəni səviyyələr – qatlar şəklində ayırsaq, bu qatları insanı məhdudlaşdıran qatlar və ya *azadlıq qatları* adlandırmaq olar. Təbii maraq nəticəsində insanın bilikləri artdıqca naməlumluq məlumluğa çevrilir.

*Dünyanı - ətrafı dərk etmək, idrak- ağıl azadlığın dərəcəsini artırır*. İnsan təkamül edərək, qeyri - müəyyənlikləri bir - bir açır, müəyyən edir. Lakin növbəti qeyri - müəyyənlik qatı hələ qalır, bu hələ ki, insanın azadlığını müvəqqəti məhdudlaşdırır. Hər bir qeyri - müəyyənlik açılandan sonra insanın azadlığı o qədər genişlənir.

## GƏLƏCƏYIN NƏZƏRIYYƏSI

*Giriş.*

Gələcəyi görmə metodları, Futurologiya metodları, proqnozlaşdırma, yaradıcılıq metodları, ixtiraetmə - kəşv etmə metodları, problem həll etmə, konstruksiya-etmə eyni bir yaradıcılıq prosesinin müxtəlif sahələrdə işlədilən adlarıdır.

Gələcəyi görmə və yaradıcılıq qabiliyyətləri nəinki insanda, habelə heyvanlarda da onlara lazım olan dərəcədə özünü göstərir.

*Gələcəyi görmə nə deməkdir?* Gələcəyi görmə hər hansı bir üsulla verilmiş məkanda və müəyyən gələcək zamanda olacaq hadisəni, reallığı əvvəldən bilməkdir. Bu məsələni həll etmək üçün *gələcək nədir?* sualına cavab verməliyik .
Gələcəyi görmək üçün dünyanın necə qurulduğunu bilmək lazımdır. Dünya haqda olduqca müxtəlif və hətta bir - birini inkar edən nəzəriyyələr vardır. Gələcəyi görmə elmi şüurun öyrənilməsi, psixologiya, iqtisadiyyat, sosiologiya, fizika, təbiət və ümumi gerçəkliyi analiz edən, qanunauyğunluqlar tapan fəlsəfə elmlərinə əsaslanır. Gələcəyi görmək üçün yalnız rasionalist nəzəriyyələr: Yaradıcı ağıl (Kreativ intellekt) elmi dünyagörüş nəzəriyyəsi, pozitivizm, post - positivizm, tənqidi realizm, elmi realizm, mexanist və materialist nəzəriyyələr imkan və metodlar verir. Futuroloqlar əsasən bu baxışlardan hər hansı birinin prinsiplərindən istifadə edirlər. Professor Wendell Bellin (1, s. 221) fikrincə, Tənqidi Realizm, hansı ki post-post pozitivizm nəzəriyyəsinin bü günkü adıdır, gələcəyi görmək üçün daha yaxşı yarayır. Bu nəzəriyyənin əsas fərqi odur ki, o hadısələrə tənqidi yanaşaraq reallıq haqda biliyin təqribi olmasını hesab edir. Dini və idealist nəzəriyyələr isə gələcəyi görməyin mümkün olmadığını deyərək bu haqda heç bir metod təklif etmirlər.

W. Bellin yazdığı *Gələcəyin Əsasları* kitabı bu elm haqda qiymətli tədqiqat əsəridir. Bell müxtəlif müəlliflərin nəticələrini ümumiləşdirərək yazır: "modernist, post – modernist nəzəriyyələr dünyanı dərk edilməz, həqiqətin olmadığını, gələcəyin formalaşmasında tarixin heç bir rolu olmadığını, biliyin əsası olmadığını, sübutların mənasız olmasını, heç bir dəyər sisteminin yaxşı olmadığını, həm həqiqətin, həm yaxşının insanın uydurması olduğu ideyalarını söyləyirlər". Bell daha sonra Rosenaunun fikrinə diqqəti cəlb edir: keçən əsrin 60-80-ci illərində Heideqqer, Nitşe, yaxınlarda isə, Derrida, Foukaultın əsərlərindən ruhlanan pozitivizmə qarşı birləşmiş modernist və post modernist "dağıdıcı" adlanan alimlər bildirirdilər ki, "söz ifadələrinin reallıqla əlaqəsi yoxdur, heç bir səbəblik prinsipi yoxdur, deteminizm, obyektivizm, rasionallıq, məsuliyyət, həqiqət yoxdur". Onların fikrincə, "obyektiv kerçəkliyi sübut edən heç bir əsas yoxdur; biz hər hansı bir şeyi bilməkdən və başa düşməkdən imtina etməliyik; mənəvi norma – amil yoxdur; bir dəyər sistemi digərindən yaxşı deyil" (1, səh. 203). Nəticədə onlar praktiki olaraq gələcəyin necə olacağı haqda heç bir metod yaratmamışlar və gələcəyin bilinməz olmasını hesab edirlər.

Maraqlıdır, insan həyatının heç bir problemini həll etməyən, pessimist əhval yayan və insanlara yol göstərə bilməyən bu

nəzəriyyələr nəyə lazımdır? Məsələ orasındadır ki, modernizm və post modernizm mədəniyyətdə, incəsənətdə və arxitekturada çox inqilabi dəyişiliklər etsə də, fəlsəfədə bu cərəyan reallığa qarşı katolik modernist dini nəzəriyyəsinin davamıdır (5 ). Bu nəzəriyyələr müxtəlif reallıqların, müxtəlif həqiqətlərin olmasını, dəqiq biliklərin olmamasını deyərək və digər anlayışlardan istifadə edərək dini idealist fəlsəfə üçün baza yaratmaq məqsədi güdürlər. Yəni onlar müasir savadlı dünyada dini dünyagörüşü əsaslandırmaq və insanlara dini uydurmaları həqiqət kimi təqdim etmək məqsədi güdürlər. Pozitivist və post- pozitivist, modernist və post - modernizm cərəyanlarının dediyi mülahizələrin səbəbinə dünyanın quruluşu haqda Yaradıcı ağıl (Kreativ intellekt) təlimi aydınlıq gətirir. Məsələ burasındadır ki, hər iki cərəyanın dediyi fikir - əgər yerini və aid olduğu mühiti nəzərə alsaq – düzgün görsənir. Əgər pozitivistlər bir konkret məkan - zaman mühitində müşahidə edilən qanunauyğunluğu, həqiqəti görürlərsə və bunu təsdiq edirlərsə, modernistlər bu həqiqətləri digər sahələrdə də görmək istəyirlər, lakin - təbii ki , görmürlər və həqiqətlərin - obyektiv reallığın olmadığını - deyirlər. Bu məntiqidir, məsələn, suyun xassələrinin onu əmələ gətirən hidrogen və oksigendə də axtarmaq niyə lazımdır? 2000 il bundan əvəlki dünyagörüşün bu gündə də düzgün olmasını nə üçün təbliğ etmək lazımdır? Axı belə deyil.

Ümumi dünya haqda Yaradıcı ağıl (Kreativ intellekt) nəzəriyyəsi deyir ki, hər konkret zaman və mühitdə, şeydə, reallıqda yalnız ona aid həqiqət, prinsiplər, əlamətlər vardır. Məlumdur ki "Həqiqət, prinsip, qanun" ifadələri insanın verdiyi qiymətlərdir, izah və təsvirlərdir, hansı ki həqiqət də, yalan da ola bilər. Obyektiv reallıq isə asılı olmadan mövcuddur. Hər şeyə yalnız üst və alt sistemlərin ümumi təsirləri, ritmi və qanunları təsir edir. Hər şey isə özlüyündə nəticə olaraq, əlavə əsas prinsiplərdən **törəmə** fərqli daxili qanunlara, prinsiplərə, xassələrə də malikdir. Oxşar obyektlərdə oxşar prinsiplər və fərqli prinsiplər var. Hər şey fasiləsiz dəyişdiyi üçün, onlar hər zamanda-mühitdə yeni xassələrə, əlamətlərə, yeni dəyərə malikdir. Bu mülahizələr icazə vermir ki, həqiqətin olmadığını, dəqiq biliyin olmadığını deyəsən. Nisbi olmasından danışmaq olar. Əgər ifadə edilmiş bilik əsasında bir şey yaratmaq və ondan faydalı istifadə etmək mümkündürsə, bu, biliyin düz və faydalı olduğunu sübut edir. O şey yalandır ki, onun heç yerdə bir xeyiri və istifadəsi yoxdur, heç bir əlaqədə aşkar edilə bilmir. Həqiqətlər var, lakin hər biri öz zamanında, mühitində, şəraitindədir. Şey haqda bilik və həqiqi təsvir məhz həmin zamana, vəziyyətə aiddir. Modernist və bütün anti pozitivistlər məhz bu

prinsipləri qarışdırır, həqiqətin olmadığını və s. deyirlər. Yəni bu cərəyan subyektiv və səhv anlamanın, həqiqətin sərhədlərinin nəzərə alınmaması nəticəsidir. Hər şeyi eyni ölçü ilə ölçməyin nəticəsidir.

**Gələcəyi görmənin mümkünlüyü dünyanın konstruksiyasından çıxır.** Bu konstruksiya müəyən qaydalarla qurulmuş, daha dəqiqi 4 fiziki xassələrin nəticəsi olmaqla qaydalı xarakterə malikdir. Bəzi məsələlərdə göy cisimlərinin hərəkəti və vəziyyətlərini, peyklərin Marsa uçub geri qayıtmasını, yağışın yağmasını və s. əvvəldən deyə bilirik. Əgər biz gələcəyi hər bir məsələdə necə olacağını deyə bilmiriksə, bu o deməkdir ki, biz lazımı qabiliyətlərə və anlamaya hələ malik deyilik. Bir çox futuristlər məyusluqla bildirirlər ki, gələcəyi bilmək mümkün deyil. Mən isə deyirəm mümkündür. Ona görə mümkündür ki , dünya hadisələri və varlıqları qaydalılığa: trendlərə, istiqamətlərə, fərdi taleyə, baş vermə, olma şərtlərinə malikdir. Ümumi zərurətlər içərisində hər şey öz talesinə (fərdi yaşama proqramına) malikdir. Hər şey, hər hadisə iki prosesin iştirakçısı olur, həm mühitin zərurətini (baş trend dalğa xəttini) icra edir, həm fərdi həyatını icra edir. Yəni hər şey iki tənlikdə iştirak edən məchuldur. Bu məchulun necə olmasını tapmaq elə gələcəyi görməkdir. Bunun üçün gələcəyin nəzəriyyəsini irəli sürürəm.

Kainat və dünyalar haqda biliklərdə müxtəlif başadüşmələr olduğu üçün, onları düzgün başa düşmək üçün növlərə - qruplara ayırmaq düz olardı.

***Biliklərin qrupları.***

Bütün düzünə və əksinə fikirləri nəzərə alaraq, biliklərin həqiqət kimi qəbul edilən ifadə formalarını aid olduğu yerə, zamana, sahəyə, dəqiqlik dərəcəsinə görə qruplara bölək :

1. Dəyişməz əbədi həqiqətlər. Nümunə: “müxtəlif forma və keyfiyyətlərə malik hissələr zəruri mühit təsirilə, onları bağlaya biləcək ümümi əlaqə ilə birləşərək, yeni şeyi yaradır və bu birləşmənin forması, quruluşu, hissələrin proporsiyası həmin şeyin xassəsini, mahiyyətini əmələ gətirir ” bu aksiomanı heç cür inkar etmək mümkün deyil. Bu əbədi həqiqətdir.
2. Xüsusi zaman və fəzada olan şeylərin və hadisələrin xassələrinə aid biliklər. Bunlar digər zaman və fəzada və mühitdə olan hadisə və şeylərin xassələrindən fərqlidir.
3. Gec dəyişən, sərhədləri olan asılı həqiqətlər. Misal: “Yer Günəş ətrafına zəruri balans pozulana qədər fırlanacaqdır”.

3. Daha tez dəyişən həqiqətlər- prinsiplər var. Hər həqiqətin sərhədləri, olma şərti var.
4. Sübutları az olan həqiqətlər.
5. Nisbi həqiqətlər, biliklər. Bunlar ancaq tez dəyşən mühitdə vəziyyət təsvirləridir.
6. Subyektiv fikirlər, biliklər. Yalnız şəxsi baxışla həqiqət kimi qəbul edilir. Başqa zaman və şəraitdə sübut ( təkrar ) olunmur.
7. Fərziyyələr . Bunlar hələ sübut olunmamışdır.

**Yaranış necə baş verir? Həyatın tetraedr hüceyrəsi .**

Yeni hər hansı şey (keçmiş, indi və gələcəkdə) onu yaradan tərkib elementlərindən, əlaqəyə girən obyektlərdən və mühitdən tam asılıdır. Demək cismi, maddəni, canlını, insanı – hər hansı şeyi anlamaq üçün onu təşkil edən iearxiya üzrə ( pillələrlə) tərkib hissələrini və mühit rolunu oynayan elementləri seçmək (müəyyən etmək) lazımdır. Bunu tetraedr şəklində təsəvvür etmək olar: iki təpə - iki element, üçüncü təpə mühit, dördüncü təpə nəticə - yeni varlıq deməkdir. Buna *Tetraedr qanunu* demək olar (şəkil.1 və 2). Bu elə yaranışın qanunudur.

Göründüyü kimi, yaranışın bu ilk asılılıq və olma qanununda böyük məna vardır. Bu şəkillə şeylərin yaranması və *elementləri, mühit, nəticə* ilə əlaqəni düzgün təsəvvür etmək olar. Nəzəri nəticə olaraq şeylərə baxanda onları başa düşmək üçün şeyi göstərilən hər bir amili əks etdirən 4 hissəyə ayırsaq, biz düzgün hərəkət eləmiş olarıq. Əgər 4 –cü element son nəticədirsə , qalan 3 elementdən ikisi yaradılan şey üçün xammal – element, biri isə parametlərlə təsvir edilən mühitdir.

Sxemə görə hər yeni yaranışda əvvəl yarananlar mühit, onlar içində isə ikisi qarşılıqlı əlaqədə yeni yaranışa səbəb olurlar. Beləliklə, sonsuz müxtəlif obyektlər, müxtəlif xassələr, formalar, məzmunlar alınacaqdır. Həm mühitin evolyusiyası, həm onun daxilindəki varlıqlar evolyusiya edəcəkdir. Nəticədə, tetraedrlərin kip toplusuna oxşayan bütün dünya, yəni zəncirvari –tetraedrin dörd təpəsi –istiqaməti ilə birləşmiş bütöv birlik alınır. Hansı ki, həm yaradıcı mühit, həm yaranış materialı, həm yaranışlar öz içindədir.




Şəkil 1. Həyatın tetraedr hüceyrəsi.



Şəkil 2. Tetraedr hüceyrələrdən qurulmuş çoxluq (hər hansı bir şey)

Kənar ələ, kənardan qarışmağa ehtiyac yoxdur.

Mühitin necəliyindən asılı olaraq 3-cü element – yeni şey yaranır. Göründüyü kimi ilkin elementlər (1) və (2) , Mühit (3) və nəticə (4) bir - birindən fərqlidir, lakin qanunauyğunluq asılılığına malikdir. Göstərilən *tetraedr* fiquru yaradılışın simvolu, modeli , ilk “hüceyrəsi”

hesab edilə bilər. Belə “hüceyrədən” əmələ gələn böyük sistemlər artıq 4 elementli hüceyrənin dərəcələri miqdarından ibarətdir, (yəni $4^n$) əgər bu sistemdə birinci elementi mühit və dəyişməz qəbul etsək, onda yaradılan sistem $3^n$ olar (yəni 3, 9, 27, 81....) sırası üzrə elementli nümunələrdən olar. Lakin evolyusiya hər elementin vacib olaraq inkişafını (müxtəlifləşməsini) tələb etmir, yəni 4 elementli hüceyrə sistemində mümkündür ki, eyni zamanda biri, ikisi , üçü yaxud dördü də evoyusiyaya qoşulsun, yeni obyektlər (çoxluqlar) yaransın, digər elementlər isə evolyusiyanı dayandırsın, bir az sonra başlasın. Bu zaman evoyusiya yalnız həmin elementlər üzrə və digər sistemlərin elementləri ilə qarşılıqlı əlaqəsi ilə gedəcək. Nəticədə biz tetraedrlərdən düzəldilmiş müxtəlif həndəsi təsəvvür edilən fiqurlar: şar, böyük tetraedr, xətt, konus, əyri xətlər, müxtəlif fiqurlar, məsələn, ağac və s. alarıq.

***Gələcəyi görmənin əsaslandığı mülahizələr.***

Istənilən halda, elmi gələcəyi görmə bu günkü və keçmiş məlumata əsaslanır. İstənilən halda, gələcək, iştirakçıların qarşılıqlı əlaqəsi və onların arasında olacaq ziddiyyətlərin (fərdi mənafelərin həlli, yəni eyni zamanda təminatı variantı (yenə də müvəqqəti) kimi meydana çıxacaqdır. Başqa sözlə, gələcək odur ki, burada hər bir fərdin (əşyanın, quruluşun, təşkilatın, cismin) yaşaması təmin olunur – həm canavarlar tox olmalı, həm quzular sağ qalmalıdır. Gələcək, dünyanın eyni quruluşunun qanunauyğun dəyişiliyinin davamıdır. Əgər cisimlərdə struktur onlar yarananda sabit formada sürətlə qurulursa, canlılar tarixində isə hadisələr zaman keçdikcə oxşar strukturla - əlaqələrlə qurula - qurula davam edən uzun prosesdir. Gercək həyat və inkişaf da, məsələn, metalın atomlarının *yerləşmə modelinə* oxşayır, lakin burada gələcək, zəruri əlaqələrin, strukturun, digər elementlərin yaranacağını əks etdirən hərəkətli kompleks prosesdir.

*Dünyanın Yaradıcı ağıl baxışından aşkar edilən konstruksiyası, eyni zamanda gələcəyi görməyin yaxşı metodudur.*

Qısa desək, hər baxılan şey onu əhatə edən çoxluğun (mühitin - sistemin) bir hissəsidir. Bu çoxluqun necəliyi ilə baxılan şeyin həyatı (inkişafı) müəyyən (təyin) olunur, həm də xassələri aşkar olunur. Mühit isə müxtəlif hissələrdən ibarət olaraq ümumi xassə, forma, quruluş alır.

Dünyada hər şey, hər cisim, hissəcik, canlı, mühitdə bərabər hüquqludur, öz yeri və təsiri var və belə hüquqlarla sistemin

bütövlüyünün formalaşmasında iştirak edir və özünü qoruyub yaşadır (самосохранение). Lakin hər bir element avtonom olaraq *potensialının miqdarına görə sistemdə bərabər hüquqluluq dərəcəsinə* malikdir ki, nəticədə o iyerarxiyada müəyyən yeri tutur.

Cansız kainatda, habelə yer təbiətində bu fərdi hüquqlara görə hissələr yaşama formasını qısa - ani zamanda əldə edirsə və sonra evolyusiyaya təbii olaraq məruz qalırsa, canlı aləmdə - cəmiyyətdə bu proses uzun, davamlı proses kimi gedir. Bəzən deyirlər ki, flan qruplar, xalqlar hüquqsuz vəziyyətdədir; onların bu və ya digər hüququ yoxdur. Bu fikir hərfi mənada düzgün fikir deyil. Onlara öz mühitlərində lazım olan hüquqları vardır. Çünki hər bir sistemin elementi öz potensialına görə sistem yaradılmasında iştirak edir, lakin potensialına görə hüquqlar əldə edir və sonra bununla da yaşamalı olur. Həm kainatda, həm insan cəmiyyətində **hüquqlar potensiallara proporsionaldır.**

Şeylər, elementlər sistemin ümumi qanunlarının formalaşmasında iştirak edir; bütün ümumi prinsiplər onların qarşılıqlı əlaqəsi – mübarizəsi, əməkdaşlığı, təsir və əks təsirləri nəticəsidir. Özləri isə bir tək - element olaraq sistemin təyin etdiyi qanunlarla, qayda ilə imkan və məhdudiyyətlər çərçivəsində, insanlarda isə (eynilə heyvanlarda da) habelə həmin sistemin yaratdığı əxlaq, davranış etalonu ilə yaşayır və belə yaşamağa məcburdur. Cansız cisimlər də sistemin təyin etdiyi davranışla yaşamağa məcburdur.

*Gələcyi bilmək üçün şeyin potensialını, fərdi həyat-tale xəttini, mühitin xarakterini və əsas aparıcı trendi bilmək lazımdır ki, onların əlaqəsi ilə şeyin gələcəyi müəyyənləşir.* İstənilən halda şeyin, insanın gələcəyi onunla mühitin əlaqəsi, təsirləri-əks təsirləri nəticəsi olacaqdır.

**Şeyin – elementin və mühitin (çoxluğun) münasibətlərini belə ümumiləşdirmək olar:**

1) şey - obyekt sistemdən potensialına (gücünün miqdarına ) uyğun qaydalar, təsirlər alır və müəyyən fəza -zaman və status mövqesi seçir;
2) onun potensialı ilə sistem qaydaları yaratmaq qabiliyyəti düz mütənasibdir, başqa sözlə elementin nə qədər potensialı varsa, o qədər sistemdə qayda yazmaq (üstün təsir etmək) qabiliyyəti var.
3) şeylərin formalaşdırdığı sistem (ümumi obyekt) şeyə - hissəyə münasibətdə idarəedici, qanunverici rol oynayır. Potensialların müxtəlifliyinə və sistemlə qarşılıqlı əlaqələri nəticəsində şeylərin ierarxik fəza - zaman yerləri, mövqeləri, hər birinə ümumi sistem qanunundan doğan spesifik təsir miqdarı yaranır.
4) kiçiklər böyüklərin orbitində, nüfuz dairəsində yaşayır və onun verdiyi qaydalara əməl edir; böyüklər isə daha böyük birləşmələrin

orbitində yaşayır (tabe olur), onların qaydalarına əməl edirlər. Nəhayət, kainat nəhəng birləşmələrin sisteminə çevrilir. Buna kompleks sistemlər deyirlər, təkcə kainat deyil, yerdəki istənilən obyekt kiçik kompleks sistem sayıla bilər. Bu prinsipi pozaraq bəzi qanmaz dövlətlər öz yerlərini düz seçməyərək öz üstün sistemindən qaçmaq istəyir və xalqın da başını bəlaya soxur.
5) bu sözlər cəmiyyətə, dövlətə, firmalara, təşklatlara da aiddir. Hər element potensialına görə iştirak edib özünə "yaza bildiyi - əldə edə bildiyi" konkret təsir- qayda altında yaşamağa məcbur olur.
6) fiziki dillə ifadə ilə deyilsə, *gələcək* **- impulslar** müharibəsinin, onların qarşılıqlı əlaqələrinin, toqquşmalarının nəticəsidir. İmpuls fiziki cisim üçün MV- kütlə, sürət və ya energetik yuklə sürətin hasilidirsə, insan cəmiyyətində (M)- sağlam bədən və ya təşkilati quruluş, (V)- ağıl, güc potensialı - stimul hasilidir və ya istənilən iki parametrin hasili kimi qəbul edilə bilər. *İndi* də belədir, *keçmiş* də belə olmuşdur. Bu müharibənin (çəkişmələrin) nəticəsi, şübhəsiz, *qalibi* meydana çıxarır. Qalib isə özünə uyğun sistem yaradır. Bütün sistemlərdə qaliblər - dominantlar hökmən var, deməli, ondan asılı elementlər var, zəiflər, idarə olunanlar və sair bütün tələb olunan rollar və icraçılar var. Buna görə də şeylər, sistemlər, cəmiyyətlər, dövlətlər, adamlar arası münasibətlər, əlaqələr ifadəsi əvəzinə onların *impulsları arası əlaqə* ifadəsi tam elmi və daha aydın ifadədir və bu ifadəni işlətmək düzgündür.
7) **gələcək**, *keçmiş- indi- gələcək* adlanan dəyişiliklər xəttində (bu əyridir, həm də hökmən düz ya qeyri düz dalğavari xəttdir) baxılan obyektin, hadisənin zəruri olaraq alacaqı vəziyyətdir.
8) gələcək-görmə nəzəri olaraq dünya və şeylərin sistemık bütöv quruluşuna və həm də qanunauyğun dəyişilməsi prinsipinə əsaslanır.

Əgər indi baxılan obyekt dayanıqlığa, sistem quruluşuna malikdirsə, gələcək anda da o sistem quruluşuna malik olmalıdır. Digər tərəfdən, o indi müxtəlif sistemlərin (konkret olaraq onu əhatə edən bütöv mühitin) elementidirsə, onların şərtini ödəyirsə, gələcəkdə də o *dəyişmiş* mühitin ( ətraf təbii, sosial, siyasi və s. ) elementi olaraq (dəyişilərək) qalmalı və onların şərtini ödəməlidir. Yəni, gələcəkdə baxılan obyekt indiki formada deyil, başqa forma və başqa elementlərlə əlaqədə, başqa sistemin elementi ola bilər, yəni indiki kimi olmaya bilər.
9) riyazi dillə desək, *gələcək* çoxlu müxtəlif tənliklərin şərtini ödəyəcək və onlarda iştirak edən bir məchulu (və ya məchullar qrupunu) tapmaq, onun parametrlərini bilməkdir. Xoşbəxtlikdən sistemik quruluş və qanunauyğun dəyişilıklər, gələcəyi elmi yolla

tapmaq məsələsini asanlaşdırır, axtarış sahəsini kiçildir. Əgər dünya müəyyən quruluş və qaydalarla dəyişməsəydi, gələcəyi heç cürə, nə intusiya, nə elmi analiz və mühakimə vasitəsilə müəyyən etmək mümkün olmazdı. Bu quruluş və dəyişiliklər qaydası amilinə görə müxtəlif metodlar yaradılmışdır və yeniləri də yaradıla bilər. Gələcəyi elmi üsulla demək üçün fasiləsiz bu işlə məşğul olmaq, məlumatları toplamaq, dəyişilikləri izləmək, səbəb və nəticələri yazmaq və yadda saxlamaq, amillərin tək təsiri və qrup amillərin təsirini, şəklini bir - birindən seçmək, böyük –trendləri və kiçik baxılan obyektin dəyişilik dalğalarını seçmək, yazmaq lazımdır.

Gələcəyi bilmək üçün ümumi inkişaf prinsipi – bir baxılan nöqtədən müxtəlif istiqamətlərə inkişaf etmə xətti model kimi istifadə edilə bilər. Bu model bütün tarixin dəyişiliklər modelidir, eyni zamanda bu maddələrin struktur modelinə oxşardır. Bu onu sübut edir ki, həm statik həyat (cisimlərin, molekulların strukturu), həm də dəyişən həyat eyni konstruksiyalıdır. Hadisələr tarixində gələcəyi başa düşmək üçün məsələn, texniki yaradıcılıq sahəsinə baxaraq bu tarixin onunla oxşar olmasını görərik (şəkil Fiq7 və 8). İistənilən bir prosesi, məsələn, metalın səthinin təmizlənməsi işini araşdıraraq onu müxtəlif üsullarla edilə bilinməsini və onunla əlaqədar olaraq asılılıq əlaqəsinə görə bütün motorları, maşınları, materialları, ümumi qanunları, habelə Yer kürəsini, sonra isə kainatı yenidən ixtira edə bilərik. İlkin məsələdən hədsiz uzaqlaşaraq ona aid olmayan digər sahələrə makro və mikro – dünyaya, maddənin quruluşuna, sonra zərrəciklərə gedib çıxa bilərik. Eynilə konkret gələcək də dinamik proses olaraq, onun hər bir hadisəsi müxtəlif nöqtələrin müvazinətləşdiyi zonadır (obyektdir), yəni təkcə bir nöqtənin avtonom gələcəyi deyil, başqalarından asılı, onların da gələcəyini - həyatını ödəyən hadisədir.

10) Gələcəkdə baş verəcək hadisələr və statik formada olacaq şeylərin-qurğu, tikinti, əşya və s. olması və forması müxtəlif hərəkətlərin, ehtiyacların, davranışların, yollarının kəsişmə- birləşmə nöqtələridir. “Hər bir gələcək vəziyyət yeni kombinasiyadır” fikri həmişə düzdür. Biliklər, nəzəriyyələr də belədir. Onlar da müxtəlif tərkib hissələrinin kombinasiyasıdır, yəni yeni sintezdir.

Bir şey yaratmaq – yeni kombinasiya yaratmaq deməkdir. Hətta bir ölçünü dəyişmək və ya bir detalı tərsinə qoymaq da, zamana görə nəyi isə əvvəl, ya sonra etmək də yeni kombinasiyadır. Hadisə də yeni kombinasiyadır. Düzdür, *gələcək*, insan üçün əsasən məlum deyil, onun məlum - dərk edilən cizgiləri var. Bu cizgilər hələ nəyəsə az oxşardır. Zaman yaxınlaşdıqca bu şəklin digər xətləri çəkilir, rənglənir.

Bu gələcək tələb olunan amillərin kəsişməsindən - birləşməsindən əmələ gələcəkdir. Hadisə baş verməmişdən artıq onun şəkli hazırdır. Əsas müəyyən edici xətləri - gələcəyin skeletini üstün elementlər çəkir, aşağı elementlər (kiçik amillər) isə ikinci dərəcəli xətləri çəkir.

***Dini idealist nəzəriyyələrin gələcək haqda mövqeyinin tənqidi.***

Bir çox dini və idealist cəbhəsinin nəzəriyyələri hesab edir ki, dünya kənar qüvvə - Dünya zəkası və ya allah tərəfindən yaradılıb və yaradıcının məqsədi, planı ilə yaradılıb; insan dünyanı anlaya bilməz; yaradanın məqsədini heç kim bilə bilməz (bu iddiaya belə cavab verirəm: ona görə bilməz ki, onun məqsədi yoxdur), gələcəyi bilmək olmaz; dünyada səbəblik prinsipi yoxdur; məqsədəuyğuluq prinsipi var. Lakin onlar nə dünya zəkasının ,nə allahın nə yaradanın nə olduğunu anlamırlar, nə də bu tezislərə heç bir sübut təqdim edə bilmirlər.

Bu nəzəriyəyə mənim münasibətim belədir: - Şübhəsiz, belə düşündüyünə görə və bu səbəbə görə heç nə yarada bilməyən belə adamlar elmə və insanlara heç bir fayda vermirlər. Dünyanın üç avtonom hissədən (1. material, 2. keçid və 3. forma-surət-ruhlar, boşluq) ibarət olaraq konstruksiyası elədir ki, burada absolyut olaraq ondan kənarda heç bir qüvvə, idarə edən ola bilməz. Hər şey sistem formasında, hər şey müəyyən sayda üzvləri olan birliyin ( sistemin) üzvüdür. Hər üzv isə müəyyən sayda kiçik – alt üzvlərdən ibarətdir. Nə varsa, dünyanın – şeylərin öz içindədir. Burada hər hansı xaric qüvvə olsaydı və o hadisələrə "öz ağlına görə", yəni 4 təsir qüvvələrindən və Nyuton - Eynşteyn qravitasiya qanunundan, canlı aləm üçnsə əlavə olaraq xüsusi bioloji qanunlardan kənar müdaxilə etsəydi, dünya və onun tərkib hissələri – elementar hissəciklərdən başlayaraq ta maddi cisimlərə, ulduzlara, qalaktikalara, planetlərə, yerdəki canlılara qədər - bir gün də ola bilməzdi. Kainatın və onun ümümi cazibə qanununu pozan və onun tərkib üzvlərinin, şeylərin strukturunu pozan elə bir kənar, fövqaladə qüvvə yoxdur. İstənilən sistem bir istiqamətli deyil, müxtəlif istiqamətli dəyişiliklərə uğrayır. Qaz atomu, hava və qalaktikaların hərəkəti, təbiətin və cəmiyyətin inkişafı müxtəlif istiqamətdə gedir. lakin konkret - müəyyən istiqamətdə gedir - birinin istiqaməti digərlərindən asılı olaraq müəyyən edilir. Üst sistemlər necə qayda müəyyən edirsə, o istiqamətdə dəyişilir. Material cisimlər aləmində hər bir hissəcik, cisim bərabər hüquqludur, eyni qanun altındadır. Əgər, təsəvvür etsək ki, ayrıca bir dünya daxilində şeyin mühitindən kənar bir qüvvə ona müəyyən təsir edirsə, onda şey

bütövlükdə həmin qüvvəyə qarşı əks reaksiya verəcəkdir. Eynilə, dünyadan kənar qüvvə dünyaya təsir edərsə, bu, dünyanın qaydasını poza bilərdi və bizim dünya ona qarşı əks reaksiyada olardı. Hələki pozulmayıb- Günəş, Yer, Ay, ulduzlar, qalaktikalar öz yolları ilə gedir, onların nizamları pozulmayıb, yerdə həyat təbii eolyusiya prosesindədir - demək, kənar naməlum fövqəltəbii qüvvə yoxdur. Əgər belə bir ruhi qüvvə olsaydı, o dünyaya qatılmağa onun bir tərkib hissəsi olmağa məcbur olardı və dünyanın formalaşmasında, qanunlarının "yazılmasında" iştirak edərdi. "İlahi" uyduran dinlərin dediyi bu insanabənzər ruhi qüvvə konkret şəxsiyyətə malik olardı (hər insani ruh hökmən fərdiyyətə və şəxsi xarakterə, şəxsi dəyərlərə malikdir) və dünyanı elə buna görə məhvə aparardı. Kənar idarəedici, yəni material dünya ilə, habelə insan cəmiyyəti ilə əks əlaqəsi olmayan bir qüvvə olsaydı, o dünyada ən axmaq bir müstəbid olardı, onda ümumiyyətlə dünyanı başa düşmək və gələcək hadisələri bilmək və bir şey düzəltmək prinsipcə mümkün olmazdı. Elmi məntiq və cihazlar dünyadan kənar qüvvə aşkar etməmişdir. Nə varsa, məlum və naməlum, görünən – görünməyən - hamısı dünyanın içərisindədir.

### *Gələcəyi öyrənməklə məşqul olan fəaliyyət sahələri*

Gələcəyi bilmək cəhdi insan fəaliyyətinin 7 böyük sahəsində aparılır: Astrologiya, Peyğəmbərlik (prorok, profecy), Falçılıq, Cindarlıq, Numerologiya, İntuisiya və Elmi Öncəgörmə (foresight) . Astrologiya- bu növ gələcək görmədə hesab edilir ki, həyatın şəkli ulduz birləşmələrinin fəzada şəklini əks etdirir. Yəni göylər və yer bir -birinə oxşar olmalıdır və buna görə də yerdəki həyat əvvəldən deyilə bilər. Astrologiyanın məqsədi insanları təhlükələrdən xəbərdar etmək və nə olacağını xəbər verməkdir. Müşahidələr nəticəsində göydəki 12 zodiak ulduz birləşməsinin vəziyyəti ilə bu zodiaklar altında doğulmuş insanların taleyi arasında oxşarlıq müəyyən edilmişdir. Yerin və göy cisimlərinin hərəkəti nəticəsində hər ay bir zodiak birləşməsi göydə əsas mövqe tutur, bu zodiak da hər hansı bir zodiak altında doğulmuş insana oxşar təsir edir. Astrologiya da şeylərin asılılıq qanuna əsaslanır. Lakin burada üst sistemlərin alt sistemlərə təsirindən istifadə olunur. Ulduzlar göydə olduğu üçün ona üst sistem demirik. Üst sistem şeylərin daxil olduğu daha böyük sistemlərə deyilir, hansı ki, orada baş verən dəyişiliklər onun elementlərinə -alt sistemlərə təsir edir. Tarixi müşahidələr talelərin, xarakterlərin ulduzların və planetlərin duruşundan asılılıq qaydası müəyyən etmişdir, bunu sözə çevirmək üçün böyük bilik və anlama tələb olunur. Göy cisimlərində baş verən

dəyişiliklər dalğalar vasitəsilə yerdə hər şeyə təsir edir, astrologiya məhz müxtəlif ulduz birləşmələrinin yerdən görünən vəziyyətlərinə görə hadisələr arasındakı əlaqələri öyrənməklə və proqnoz verməklə məşğul olur.

*Peyğəmbərlik(prorokluq)* - nəzərdə tutur ki, bəzi şəxslərin düşüncənin (ağlın) dərin qatlarına girişı var və buna görə onlar gələcəyi görə bilir. O sadəcə xalis görmədir (8). Astrologiyadan fərqli olaraq peyğəmbərlik insanların həyatı ilə uldüzların duruşundakı uyğunluq asılılığına əsaslanmır. Nəyə görə Qədim yunanıstanda tək ilahili din və peyğəmbər meydana gəlmədi? Ona görə ki eradan əvvəlki min illikdə Yunanıstanda böyük elm, fəlsəfə xeyli inkişaf etdi və belə şəraitdə heş kəs özünü peyğəmbər elan edə bilməzdi - heç ağlına da gəlməzdi, onun əxlaqı yol verməzdi. Lakin peyğəmbərlər Orta şərqdə münbit şərait olan - daha avam və savadsız bir zonada meydana çıxdı.

Prorok qabiliyyətinə hər milyon adamdan 1-2-si qabildir. Bu qabiliyyət təbii olaraq yarana bilər və yaxud xüsusi psixi vəziyyət əldə etməklə meydana çıxa bilər.

Prorok sözünü qədim dünya intuisiya sözü hələ yaranmadıqda onu işarə etmək üçün yaratmışdır və mistik məna vermişdir və saxtakarlıqla, subyektiv meyllərlə həmişə qarışmışdır. Çünki həmin peyğəmbərlərin bəzisi peyğəmbərlik statusu alandan sonra cəmiyyətin avamlığından istifadə edib öz şəxsi mənafelərinə uyğun xəbərlər, "allahdan gələn" vəhylər uydurub asanlıqla deyirdilər. Kim onlara nəzarət edirdi ki, və ya ifşa edirdi ki, tanrı heç kimə işğal, qəsb, qarət, qətl. qırğın törətmək haqda göstəriş verə bilməz. Onların da çoxu ağlına gələn özünə xeyirli vəhylər uydurub elan edirdi və cəmiyyəti çoban kimi otarmağa cəhd edirdi. O dövrün xarakteri qul –ağa; çoban – sürü idi. Onlar da axı insan idi, indi necə, o vaxt da eyni xassələrə malik idi. Eqoism; yalnız özü üçün, ailəsi, qohumları üçün çalışmaq; xəyanət; aldatmaq; paxıllıq; hakimiyyətə, varlanmağa can atmaq; öz mənafeyi üçün başqalarını və digər mühiti qurban vermək; qisas, dişə - diş, gözə -göz. Əgər indi bu fundamental xassələr bəzən görünmürsə bu o deməkdir ki, onlar ləğv olunmamışdır, sadəcə gizlədilmiş və maskalanmışdır, istənilən lazımı mühitdə oyanacaq və işə düşəcəkdir. İndiyədək bu xassələrdən kənar - heç bir müqəddəs olmamışdır. Həmin avam adamlar səhvən elə bilirdilər ki, intuisiya ilə - vəhylə məlumat alma allah tərəfindən xəbər verimədir. Və belə xəbər verəni allahın xəbərçisi-yəni peyğəmbəri adlandırırdılar. O dövrdə hər şeyi allahla izah edirdilər. Ağıl ona qoyulan dini sərhədləri yarıb azadlığa çıxmamışdı. Hər etnos öz dilində tanrı sözünü isə, onlar özləri başa düşməsələr də, mühitin, çoxluğun (ümuminin) əvəzinə işlədirdilər. Və

hər şeyin səbəbi sayırdılar. Müasir elmin təsdiq etdiyi kimi hər bir şeyin forması, strukuru, davranışı və ya həyatı, vəziyyəti 2 tərəfin: 1) özü və 2) mühitin (çoxluğun) qarşılıqlı əlaqəsi nəticəsidir. Lakin o dövrdə insanlar 1-ci tərəfi görmür və əhəmiyyət vermirdilər, 2-ci tərəfi görürdülər və bu anlamadıqları tərəfi (kompleksi) də allah hesab edirdilər. Əslində ağılları çatmırdı görməyə, sadəcə anlamadıqları hər şeyin səbəbini xarici təsirin üzərinə, yəni özlərindən naməlum ilahi obyekt uydurub onun üzərinə qoyurdlar.

Peyğəmbərlik heç cürə fövqəltəbii qüvvə ilə, allahla, mələklə əlaqədar və onların təyin etməsilə baş vermir. Bu insanın təbii bioloji, psixoloji xassəsidir. Peyğəmbərliyin kökündə təbiətlə eyni taktda yaşamaq və onu hiss etmək durur.

Dini Üçlük (məlum üç böyük tək allaha əsaslanmış din) gələcəyi görmənin təkcə 2000 - 3500 il əvvəl yaşamış yəhudi peyğəmbərlərinə, Xristianlıq isə təkcə İsaya, İslam isə yalnız İsadan sonra yaşamış Məhəmmədə xas olan qabiliyyət olduğunu və onların axırıncı olmasını, daha başqa peyğəmbər gələ bilməyəcəyini elan edirlər. Lakin tarixi faktlar bu fikrin səhv olduğunu sübut edir. Hər əsrdə və hər zaman hər bir xalqda peyğəmbərlik müşahidə olunmuşdur və bu hadisə davam edir. Bu təbii hadisədir. Peygəmbərliyin kökündə danışmağa başlayanadək keçən insan tarixi dayanmışdır. Həmin dövrdə insanlar və heyvanlar, quşlar söz olmadan beyinlərin daxili hissinə görə təbiəti anlayır, təbiətlə bir harmoniyada yaşayırdılar; bir-birilə və təbiətlə bu əsasda münasibət qururdular. Bu zaman onlar daha çox gələcəyi anlayır və hisslərlə onu görürdülər (yağışı, tufanı, istini, soyuğu, təhlükəni və s.) Indi də bütün heyvanlar və quşlar belə qabiliyyəti saxlamışlar. İlahiyə əsaslanan dinlərin fikrilə bəlkə bu heyvan və quşlara peyğəmbər adı verək? Danışmağa başlayandan sonra isə insanda bu qabiliyyət tormozlandı və fəaliyyətdən çıxdı. Lakin bu qabiliyyət imkanı insan genlərində, beyin maddəsində qalmışdır və bəzən işə düşür, bəzi adamlarda çox zaman, bəzilərində hərdən. 21 – ci əsr yeni böyük peyğəmbərlərin gəlişi əsridir ki, onlar bütün keçmiş peyğəmbərləri gölgədə qoyacaqdır.

Əlavə edim ki bəşəriyyətin ilkin tarixində peyğəmbərlər də çox idi, çünki insanla təbiət münasibətləri pozulmamışdı, dövlət yaranmamışdı, hansı ki insanlar arasında və təbiətlə disharmoniya, zorakılıq yaradaraq peyğəmbərliyin baş verməsini əngəlləyir. Bibliyanın yazdığına görə dünyanın sonunda peyəmbərlər çoxalacaqdır, hansı ki hazırda (2010 il) bu belədir. Bu fikirdə vacib məlumat vardır və yeni nəticələr çıxarılmalıdır.

*Cindarlıq* Cindarlıq adətən qeyri - maddi hesab edilən *bioenerji-informasiya şüur* strukturları ilə (ruh və ya cin, mələk hesab edilən varlıqlarla) əlaqə ilə həyata keçirilir. Bu zaman görücü onunla daim əlaqədə olan belə ruhi varlıqdan məlumat alır və deyir. Həmin ruhi varlıqlar hansı ki onlara müxtəlif adlar qoymaq olar, məlumdur ki, keçmiş və gələcək haqda dəqiq məlumata malikdirlər (bax hissə İİ).

*Falçılıq.* Falçılıq gələcək **hadisənin**, onun baxılma anında müəyyən **model kimi** istifadə edilən müəyyən **proseslə** oxşarlığı fərziyyəsinə əsaslanır. Bu proses kartların düzülüşü, daşların atılması, kofe və ya çay stəkanının dibində qalmış şəkillər, hər hansı kitabın açılması ilə gözə görsənən ilk cümlələr ola bilər. Belə ki burada müştəri hökmən əlini həmin fal vasitələrinə toxundurmalıdır ki, bu zaman onun bioloji informasiya sahəsi ilə fal vasitələrinin davranışı uyğun olur. Dünyanın bütövlüyü, hadisələrin harmoniyası və qarşılıqlı uyğunluğu prinsipindən oxşarlığın olması nəzəri cəhətdən güman edilə bilər. Dünyanın və onun lokal zonalarının böyük axınında- hadisələrin böyük trendində bütün xırda hadisələr də eyni taktda təsir alır və oxşar dəyişir. Bu mülahizə bir çox hallarda hadisələrin falla müəyyən edilə bilməsini mümkün edir. Falı açmaq və oxumaq yüksək interpretasiya qabiliyyəti tələb edir. Falaçma kartla, müxtəlif əşyalarla, toxumlarla, kofe və çayla həyata keçirilir. Bu üsul etibarlı üsul deyil, çünki insan subyektivizmi qarışır və böyük savad, təcrübə tələb edir.

Numerologiya. Hələ Pifaqor tərəfindən kəşv edilmiş bu metod bu gün də böyük nəticələr göstərir.

***İntuitiv gələcəyi görmə.*** Bu növ gələcək görmə mümkündür və bunun üçün böyük hesablamalar, tədqiqatlar lazım deyil. Söhbət futbol, loto oyununun nəticəsini, imtahana düşəcək sualı, bilet nömrəsini, gələcəkdə kimin başına nə gələcəyini, instituta qəbul olacağını ya olmayacağını, verilən hadisənin olacağını və ya etdiyin işin düz olduğunu, başlanan işin, fəaliyyətin uğurlu olub olmadığını və hədsiz gələcəkləri əvvəldən deməkdən gedir. Bunun səbəbi şüur və şüur altının bizim əhəmiyyət vermədiyimiz sərbəst işi ilə izah oluna bilər. Habelə intuitiv gələcəyi bilmə qohumlar arasında bir - birinin gələcəyini hiss etmə formasında daha çox özünü aşkar edir. Gələcəyin müəyyən əlamətlərinin daha diqqətli insan tərəfindən sezilməsi və qiymətləndirilməsi İntuitiv görməyə kömək edən amildir. Bu o deməkdir ki, hadisələr asılı əlaqəli və ardıcıl olaraq baş verir, yəni adətən qəfil olmur. Başqa sözlə, həyatı dalğa vari dəyişiliklər - sinusoid kimi təsəvvür etsək, bu dəyişiliklər kəskin, ani sıçrantı deyil, yavaş - yavaş hər hansı bir istiqamətə sinus üzrə dəyişilməsi formasında müşahidə olunur. Bu zaman hadisənin – gələcəyin baş

verməsi hər anda keçmişlə əlaqədardır. Yəni hadisənin baş verməsi elementlərinin (səbəblərinin) bir hissəsi keçmişdədir. Hər gördüyümüz, yalnız axırıncı elementlərin yaranması və ya formalaşması ilə hadisənin (bütövlüyün yaranması və reallaşması) bitməsidir. Yəni başqa sözlə, biz *sonları* görürük- bunun dalınca isə başlanğıclar gəlir, başlanğıcları sezə və ya görə bilmirik - çünki gözləmirik, əhəmiyyət vermirik. Əgər biz başlanğıcları - başlanğıc elementləri diqqətlə yazsaq və seçə bilsək və hadisə üçün hansı zəruri elementlərin (şərtlərin, materialların) tələb olunduğunu bilsək, biz hadisənin nə vaxt olacağını intuisiya ilə deyə bilərik. Lakin intuisiya üçün məsələ haqda əvvəldən tanışlıq vacib deyil. İntuitiv görmə və peyğəmbərlik elə mahiyyətcə eyni şeydir. İntuisiya bütün insanlar üçün ilahi mistik allah olmadan adi istifadə edilən xassədir, bəzilərində çox, bəzilərində bəzən.

*Elmi Öncəgörmə*. Elmi öncəgörmənin 3 növü var:

a) gələcəklərin araşdırılması , Avropada buna Futurologiya deyilir

b) proqnozvermə (forecast)

*b) Öncəgörmə* (foresight)

Müasir dünyada Astrologiya və peyğəmbərliyə az inam verildiyi üçün ( belə ki, elm əsrində heç kəs sadəcə, sübutları olmayan sözə inanmaq istəmir) proqnazlaşdırma planlaşdırıcıların, ekonomistlərin, sosioloqların daha çox üstünlük verdikləri texnika olmuşdur . Proqnozlaşdırma üçün daha çox məlumat toplamağa və emal etməyə ehtiyac var. Futuroloq alimlər əlbəttə bir çox metodlar yaratmışlar. Onlar ən azı 6 ay- 1 il hesablayıb, bir neçə ssenari qurar və ehtimal edilən variantları alternativ gələcək adı ilə sizə təsvir edərlər. Bunun özü də çox əhəmiyyətli və lazımlı işdir. Bu tədqiqatlar nəticəsində özünün düz və ya səhv hərəkət etdiyini bilə, düz istiqaməti seçə və məsləhət görülən tədbirləri həyata keçirərək qabaqda ola bilərsən.

## *Öncəgörmə (Futures Studies, foresight) elminin məqsədləri.*

Vendell Bell (1 ) aşağıdakı mövqesi öncəgörmə elmini yaxşı təsvir edir:

Gələcək Araşdırmaları elminin ən böyük məqsədi bəşəriyyətin azadlığını və maddi rifah halını saxlamaq və ya yaxşılaşdırmaqdır. Futuroloqların məqsədi insanların yaşaması üçün və fayda görməsi üçün dünyanı daha yaxşı yer etmək və Yerin həyatı saxlayan imkanlarını artırmaqdır. Prospektiv düşüncə vasitəsilə futuroloqlar alternativ: - mümkün olan, ehtimal olunan və daha sərfəli olan gələcəkləri araşdırır. Əsas məqsədi həyata keçirmək üçün bu elm aşağıdakı 9 əsas məsələni həll edir:

1. Mümkün olan gələcəyin öyrənilməsi. Bunun üçün ənənəvi, dominant düşüncədən imtina edilərək indiyə başqa gözlə, yaradıcı baxaraq reallıq dərk edlir.
2. Ehtimal edilən gələcəyin öyrənilməsi. Gələcək zamanda müəyyən təsadüflərin olması və hər şeyin davranışını dəyişməsi şəraitində hansı ən çox ehtimal olunan hadisə baş verə bilər? Onun obrazı təsvir edilir.
3. Gələcəyin obrazının təsviri.
4. Gələcək haqda biliyin, fəlsəfi əsasların tapılması.
5. Gələcəyin etik əsasları. Bu zaman sərfəli gələcəyin etik əsasları müəyyən edilir.
6. Keçmişin başa düşülməsi və indinin qurulmasında – rasionallaşdırılmasında ondan istifadə.
7. Demokratik iştirak vasitəsilə gələcəyin təsəvvür edilməsi və konstruksiya edilməsi.
8. Gələcəyin xüsusi təsəvvürünü müzakirə etmək və müdafiə etmək. Bu iş gələcəyi araşdıran qruplar vasitəsilə edilir.

### *Öncəgörmənin əsas fərziyyələri*

Futurologiya elmi gələcəyi görmə elmidir, lakin bir çox futuroloqlar hesab edir ki, gələcəyi görmək mümkün deyil. Bu elm gələcək üçün ola biləcəyini ehtimal etdiyi müxtəlif alternativ vəziyyətlər qurur. Elmi dərk etmə metodlarından və alətlərindən (riyaziyyat, proqramlaşdırma, proqnozlaşdırma, extrapolyasiya) istifadə edir, hesablayır, amillərin təsirlərini qarşılıqlı təsirlər və digər üsullarla nəzərə alır, nəticədə həqiqətə yaxın müəyyən söz deyə bilir. Dövlətlər, firmalar, insanlar bu tədqiqatlardan istifadə edərək öz gələcəklərini planlaşdıırlar, düzgün yol seçirlər, düzgün qərarlar, qanunlar verirlər. Futurologiya elmi nəticəsində məhz Avropa, ABŞ, Yaponiya və s. ölkələr xeyli inkişaf etmiş və yer kürəsinin digər ölkə və xalqlarını necə effektiv istismar etmək və onlara hakim olmaq yollarını tapmışlar.

Vendel Bell Gələcək Araşdırmaları elminin aşağıdakı fərziyyələrə əsaslandığını müəyyən etmişdir (1), hansı ki hər bir düşünən insan üçün faydalı ola bilər. Bu fərziyyələri sizin düşünməniz və nəticə çıxarmaq üçün təqdim edirəm:
1. Zaman davamlı, xətti, ümumi istiqamətli və geri dönməzdir. Hadisələr zamanda başqa hadisədən əvvəl və ya sonra baş verir. Zamanın davamlılığı keçmişi, indini və gələcəyi müəyyən edir.
2. İndi və Gələcəkdə olan şeylərin hamısının keçmişdə də olması vacib deyil.

3. Gələcək haqda düşüncəyə malik olmaq, insan fəaliyyəti üçün vacibdir. Fəaliyyətin nəticələri gələcəkdə olacaqdır. lakin bu düşüncə adi adam və ya siyasətçi tərəfindən pis və ya yaxşı edilə bilər, habelə yaxşılaşdırıla bilər.
4. Fərdi və ya kollektiv olaraq öz yolumuzu müəyyən edəndə ən vacib bilik *Gələcək haqda bilikdir.* Plan qurarkən, alternativləri araşdırarkən, məqsəd seçərkən, fəaliyyət seçərkən insanların gələcəyi bilməyə və keçmiş və indiki səbəblərin gələcək effektləri necə yaratmasını bilməyə ehtiyacı yaranır.
5. Gələcək qeyri - müəyyən xarakterdədir və müşahidə oluna bilməz; buna görə gələcək haqda faktlar yoxdur. Lakin insan təqribi biliklərə sahib ola bilər.
6. Gələcək bütövlüklə əvvəldən müəyyən edilməyib. O az və çox dərəcədə açıqdır. Onun hələ baş vermədiyinə görə gələcək hələ şüurlu insan üçün qeyri - müəyyəndir. Yaşayan, nəfəs alan, öz həyat yolunu seçən insanlar üçün, gələcək azadlıq, güc və ümid verir, hansı ki gələcək zamanda reallaşacaqdır.
7. Gələcək nəticələrə çox və az dərəcədə - fərdi və kollektiv fəaliyyətlə təsir etmək olar. Gələcək az dərəcədə insan iradəsilə, habelə insan nəzarəti - idarəsi və ya gözlənilən uyğunlaşdırma ilə formalaşdırıla bilər.
8. Dünyada qarşılıqlı asılılıq, qərar qəbulu üçün biliyin təşkilində və sosial addım atarkən holistik baxış və fənlər arası yaxınlaşma tələb edir. Dünyanı bilmək üçün alimlər bölmə, reduksionist və məhdudlaşdırılmayan düşüncədən istifadə edirlər. İnsanların effektv addımları üçün onlara holistik baxış lazımdır, hansı ki müxtəlif məqsədlər və dəyərlər üçün addımların nəticəsini qiymətləndirmək və gözlənilməz nəticələrdən qorunmağı əhatə edir.
9. Bəzi futuroloqlar başqalarından yaxşıdır. İnsan çoxlu gələcək imkanlarını qurmalıdır ki, onlardan ancaq biri reallaşarkən bu arzu olunan olsun.

Bundan başqa Bell daha 3 ümumi fərziyyə irəli sürür:
1) *Birinci ümumi fərziyyə.* İnsan və onun məqsədyönlü addımları. İnsanlar yaradıcı, məqsədli hərəkət edirlər, onlar özləri məqsəd və istiqamətlə yaşayan varlıqlardır. Qeyd edilir ki, insan potensiala malik rasional məqsədli varlıq olaraq öz təcrübəsi haqda bilik yaratmaq və bu bilikdən öz həyatını dəyişməkdə istifadə edir. İnsan özü şüurlu, dəyərlə stimullaşan və qərar qəbul edən sistemdir, məqsədi olan, gələcək haqda obraza malik olan aktyordur. İnsan öz taleyini icra etmək üçün kənar qüvvələrin idarə etdiyi – passiv robot deyil.

2*) ikinci ümumi fərziyyə:* ***Cəmiyyət gözləmə və qərarların birliyidir***. Cəmiyyət məqsədli aktyorların sistemidir, hansı ki onun daxilində hadisələrin nəticələri aktyorların motivli davranışlarından yaranır. Cəmiyyət təkrar olunan ( məşq olunan) sosial qarşılıqlı fəaliyyətlərin dayanıqlı patternlərindən ( sxem və nümunələrindən) və doğulan insan davranışlarından ibarətdir - hansı ki, zaman və yerlə, gözləmələrlə, gələcəyin ümidlərilə, qorxuları ilə, qərarlarla təşkil olunur. Cəmiyyətdə müxtəlif fəaliyyət, davranış yolları, formaları, ictimai qaydalar, məqsədli planlar, seçim, qorxu və ümidlər - hamısı qarşılıqlı əlaqədə olaraq onun gələcəyini tapmağa kömək edir.
3) *üçüncü ümumi fərziyyə:* ***Obyektiv reallıq haqda biliyin olması.*** İstənilən yaratmaq, saxlamaq, yaymaq, biliyi tətbiq etmək haqda insan fəaliyyəti aşağıdakı prinsipə əsaslanır. Obyektiv reallıq olmuşdur, indiki reallıq mövcuddur, insanın onu bilməyindən asılı olmadan bu reallıqları insan, obyektivliklə, az və çox dərəcədə dəqiqliklə bilə bilər. Futuroloqlar əlavə olaraq fərz edirlər ki, *gələcək* insan şüurundan asılı olmadan reallıqda olacaqdır və gələcək haqda az və çox dərəcədə obyektiv fikir söyləmək olar.

**Mənim şərhlərim**

**1. Bellin 1-ci ümumi fərziyyəsinə şərh.** Bu baxış doğrudur, əgər biz insanı abstraktlaşdıraraq mühitdən (sosial –siyasi təbii, ailə, ərazi, zamanı əhatə edən) kənarda onu müşahidə etsək, başqa sözlə, mühiti görmək istəməsək, təkcə insanı müşahidə etsək. Lakin əgər insana mühitlə bir yerdə baxsaq, onun hərəkəti, məqsədi mühitlə qarşılıqlı əlaqədə, mühit daxilində fəaliyyətdir. Yəni mühitin - harda mümkündür, müqavimətini qırmaq; mühitin təsirinə reaksiya, mühitin verdiyi imkanlar içərisində yol seçməkdir. Bir tərəfdən insan Bellin göstərdiyi kimidir, digər tərəfdən o eyni zamanda, olduğu mühitin idarəsilə, yönəltməsilə, məhdudlaşdırması ilə özünü öz şüur və qabiliyyətlərilə, inandığı dəyərlərlə yaşadan varlıqdır. Mühit yönəldir - insan isə qərar qəbul edir və bunu azad etdiyini düşünür.

Belə daha dəqiq ifadə bütün həyat faktları ilə sübut olunur. Məsələn: a) despotik dövlətlərdə insan, azad ölkədə insanların etdiyini edə bilmir. Belə mühit qul yaradır və insanın bütün əxlaqını, davranışını, hərəkətlərini müəyyən edir; b) xəstələnmiş insan həkimə gedib müalicə almaqdan məhrum olduğu üçün əzab içində ölməyi üstün tutur. Məgər bu insanların ağlı çatmır? Onlar da azad demokratik ölkə insanları ilə eyni kifayət edəcək ağıla malikdirlər. Lakin mühit imkan vermir. İstənilən halda insanın hərəkəti, iradəsi mühitin iradəsi

ilə razılıq olduqda mümkündür. Bu iradələr arasında bərabərlik işarəsi olduqda yalnız insan öz məqsədinin və iradəsinin üstünlüyü altında hərəkət edə bilər. İnsanın hərəkəti həmişə mühitin hədləri - sərhədləri arasındadır. Konkret hədlərə malik mühit insanı böyük də edə bilər, gic, cinayətkar, səfeh, kasıb da edə bilər. Lakin digər balans qanununa görə mühitin imkanları və şəxsi potensiallar miqdarca əks proporsionallıq prinsipilə paylanır. Təsadüfi deyil ki, futuroloqlar hər bir şeyin, eynilə insanın gələcəyini axtaranda onu mühitlə əlaqədar (asılı) axtarırlar.

**2. Bellin 1-ci fərziyyəsinə- zaman haqqındakı fikirlərinə - şərh** . *Zaman davamlı, xətti, ümumi istiqamətli və geri dönməzdir*- fərziyyəsinə fərqli belə şərh vermək istərdim.. Zaman davamlı, şeylərə görə fərdi- məxsusi, şeylərin evolyusiyasına uyğun olaraq xətti və ya siklik, şeyin olma forma və strukturu dəyişənə qədər (ölənə qədər) davam edən, ümumi istiqaməli deyil, lakin hər şey üçün *irəliyə doğru* istiqamətli və geri dönməzdir.

**3. Bellin 6-cı fərziyyəsinə - *Gələcək tamamilə əvvəldən müəyyən edilməmişdir*- şərh.** Məlumdur ki, müxtəlif dini idealist nəzəriyyələr gələcəyin əvvəldən ilahi tərəfindən müəyyən edilməsini qəbul edir. Mübahisələrin mənbəyi bu ifadənin nə demək olması və zamanla əlaqələndirilməməsidir. Mənim şəxsi araşdırmalarıma görə və təcrübələrimə görə hər bir baş verən hadisə baş vermə anından əvvəl artıq müəyyən olunur. Yəni bu hadisə olmadan əvvəl hər keçən zamanda müxtəlif amillərin inkişafı ilə müəyyənləşir və əvvəldən *əsas əlamətləri* müəyyən edilmiş hadisənin *son kiçik naməlumluqları* məhz hadisəyə az qalmış müəyyən olunur. Fasiləsiz müəyyənləşmə prosesi gedir, nəticədə hər şey əvvəldən yazılmış olur, lakin bunu insan görə və müşahidə edə bilmir. Çünki hadisə üçün lazım olan amillərin hamısını və onların güc miqdarını insan bilmir. Bəzilərini bilir, lakin bəzilərini bilmir və yaxud bəzi amillər sonra yaranır. Buna görə də gələcək hadisəni təsadüf sayır. Gələcək tamamilə bu günlə bağlıdır. Gələcək hadisə nəticədir, yəni şeylərin yaşamaq uğrunda çalışdıqları müxtəlif hadisələrin, hərəkətlərin, amillərin sərbəst əlaqələri nəticəsidir. İndi baş verən və ya gələcəkdə baş verməli hadisə “nəzərdə tutur ki”onun zəruri elementləri sərbəst əlaqədə və müstəqil asılı hərəkətdə və mühitlə əlaqədə toplaşacaq və hadisə olacaqdır. Gələcəyin müəyyən formada və asılılıqla baş verməsi insanın özündə iradə azadlığı olmaması demək deyil. Burada *müəyyən edilmə və azadlıq eyni prosesdir*. Bu səbəbə görə insan “müəyyən edilməni” özü üçün çox zaman müəyyən edə bilmir və ya çox gec anlayır. Çünki özü

haqda tam biliyə - özünü tam dərkə malik deyil. Bu bilik azdır, həmişə aktiv deyil və əsasən şüuraltındadır. Onun hərəkəti həm azad, lakin mühit tərəfindən idarə olunaraq edilir, bunu o sezə bilmir. Spesifik halda konkret- müəyyən parametrli insan hara qaçsa da, o məhz həmin mühitdə - şəraitdə tələb olunan addımı atacaqdır. Lakin bu addımın formasını o öz şəxsi potensialına (ağlına, düşüncə tərzinə, dəyərlərinə, xarakterinə, əxlaqına, sağlamlığına) görə seçəcəkdir. Bunu o azad etdiyini düşünəcəkdir. Onsuz da o hər şeyi azad etdiyini düşünür. Konkret faktları araşdırsaq, görərik ki, insanın azad saydığı hərəkətin dalında çoxlu müəyyən edici səbəblər və amillər - konkret mühit vardır və insan özünün həmin şəxsi parametrləri ilə yalnız bu hərəkəti edə bilərdi.

Bellin fərziyyəsinə bu əlavəni etmək istərdim ki, gələcək hadisələrin, yaranışların, böyük trendlərin bütün ssenarisinin sxemi bütövlükdə ondan çox uzaq zaman əvvəl yazılmamışdır. Yazılma tədricən yazılır, nəhayət, reallaşmadan çox kiçik zaman əvvəl hadisə 100% artıq müəyyəndir. Yəni hər an, hər gün gələcəyin bir çizgisi bir, əlaməti, rəngi çəkilir. Yaranışın və ya hadisənin ümumi skelet sxemi isə onun başlanğıcından “yazılmışdır”.

### *İnsan əvvəldən intuitiv necə görə bilər? Bunun mexanizmi necədir?*

Bu sualın cavabını tapmaq dünyanı dəyişdirə biləcək, bəlkə də keçmişdə edilmiş böyük bir kəşvin neçənci dəfə yenidən edilməsidir.

İntuisiyanın mexanizmini tam açmaq üçün böük miqdarda falçı, görücü, ekstrasens və elmi intuisiyaya malik insanlarda bu məsələni tədqiq edib ümumiləşdirmək lazımdır. İntuisiya hadisəsində insan beyni, ətraf mühitdə gizli yazılmış məlumat, dünyanın quruluşu və dəyişməsi prinsipləri işirak edir. İnsan beyni mühitlə əlaqəyə girərək gələcəyi deyir. Gələcək hələ gəlmədiyi halda bunu nəyə əsasən deyir? Məsələ elə bundadır. Böyük miqdara faktları, hadisələri araşdırmaq imkanına malik olmasam da - bizdə belə işlərə, ümumiyyətlə sərbəst tədqiqatlara dövlət pul verməz - mən yalnız şəxsi təcrübəmə və müşahidələrimə əsaslanaraq aşağıdakı izahatı verirəm.

İntuisiyanı anlamaq üçün düşünmə prosesini təsvir edək: Düşünmə zamanı beyində biocərəyan keçir və bu cərəyanın parametrləri ensefaloqraf adlanan aparatla yazıla bilir. Beyində cərəyanın başlanğıc nöqtəsi xaricdən alınan qıcıqlandırıcıların beyində qurtardığı yerdə olur. Beyin praktiki olaraq məlumat yazılmış yaddaşdan – neyronlardan ibarətdir. Başlayan cərəyan hansı istiqamətdə gəzirsə hansı neyrona- neyronlar qrupuna toxunursa onlar

aşkarlanır və beyində uyğun fikirlər, hisslər, rənglər obrazlar - nə yazılıbsa- oyanır, təkrarlanır. Yuxusu qaçmış adamda cərəyanın parametri güclü olur, cərəyan sürətlə gəzərək, çox neyrondan keçir və insan fasiləsiz fikirləşməyə başlayır. Çox vədə bu qaydasız olur, müxtəlif fikirlər sürətlə oyanır, başqası ilə əvəz olunur, cərəyanın keçməsinə uyğun olaraq.

Adi həyatda fasiləsiz bütün görüntülər - ev, şəhər, küçə, dağ, dərə, ağac, su, çay - hər şeyi insan duyğu üzvlərilə görür, eşidir, hiss edir – bütün bu məlumatlar beyində spesifik kodla neyronlarda yazılır. Xüsusilə qeyd etmək lazımdır ki, hər bir hissin, sözün, situasiyanın, sevincin, kədərin ancaq onu əks etdirən yazılış "hərfləri" var. Bu yazılış, şübhəsiz, müəyyən material formaya – uzunluğa, dərinliyə, müəyyən kimyəvi atoma, molekula və s. malikdir. Normal adam fikirləşəndə, nəyə görə əcayib şeylər – qanadlı atlar, yeriyən evlər, əcayib heyvanlar təsəvvür etmir, habelə yuxuda görmür? Ona görə ki, onun qarşılaşdığı məlumat ancaq o cürə (normal formada) beyninə yazılıb. lakin "beyni pozulmuş" adam belə şeylər görə bilər ki, bu da beyində məntiqə nəzarət edən aparatın səhv işi nəticəsidir. Əşyalar, obrazlar, hadisələr kompleks yazılır və bu bütün əlamətləri əks etdirir – yəni beyində bu surətlər də sistem quruluşuna (asılı əlaqəli hissələrə) malikdir. Obrazlar bir - birinə təsadüfi bağlanmır, beyindən cərəyan keçdikdə, hardan keçirsə, oradakı məlumatı göstərir. Lakin cərəyan təsadüfi istədiyi yerdən keçmir. Obrazların hissələri – oxşar (eyni) əlamətləri vasitəsilə birindən digərinə (obraza, yerə, hissə) keçir. Belə olmasaydı, biz dəhşətli, məntiqə uyğun olmayan fikirlər düşünər, şeylər görərdik. Yaddaşı çağıranda tərkib hissələri kimi yazılmış məlumat içindən biz əvvəl bir əlaməti (hissəni) yada salırıq, sonra onun "ucundan tutub" o biri hissələri də yada salırıq. Yuxuda naməlum yer gördükdə, bu yerin forması, hissələri asılılıq-uyğunluq qaydasına görə yaddaşda olan məlumat materiallarından, hissələrdən məntiqə uyğun calanır və bütöv bir mənzərə, hadisə yaranır. Beyində surətlərin yazılışı formaya, ölçüyə malik olduğu kimi *dada* da (hətta rəngə və iyə də ) malikdir. (Azərbaycanda iylə bütün hadisələr, şeylər və canlılar haqda onların keçmişi və gələcəyini oxuyan qadın yaşayır). Hər bir söz, məlumat özünün spesifik dadına malikdir. Söhbət ağızda bilinən daddan getmir. Burada beyində aşkar olunan dad nəzərdə tutulur. Hər bir dad spesifikdir və konkret məlumatı əks etdirir. Müəllif özü gələcyi müəyyən etmə təcrübələrində məhz dad amilindən istifadə etmişdir- o gələcəyi dadla hiss edirdi. Ona görə də insan fikirləşəndə həm *təsəvvür edərək* fikirləşir, həm də bəzi qabiliyyətli adamlar *təsəvvür etmədən* – beyində yazılmış fikirlərin dadları (habelə rəngləri

və iyləri) ilə fikirləşir. Axtarılan nəticə əldə edildikdə yalnız həmin fikri, mənanı onun, məsələn, beyində his edilən dadı ilə oxuyurlar sonra sözə, cümləyə çevirirlər. Beləliklə sualın cavabı-intuisiyanın mexanizmi belədir:

1. İntuisiya yalnız ideya, fikirlərin beyin vasitəsilə obyekt-söz əlaməti ilə işləyən hadisədir. Belə ki aydıngörmə isə şeylərin hadisələrin real formada –həyatda olduğu kimi göz qarşısında canlanmasıdır və ya hər bir şeydən və hadisədən törəyən xüsusi iy vasitəsilə beyin tərəfindən məlumata çevrilməsidir.
2. İntuisiya ümumi halda nə olacaqdır sualı üzrə işləyə bilər. Bu halda şeylərin və sözlərin, hadisələrin beyində atom molekullarda yazılmış məlumatın dadları ilə axtarış aparılır. Müxtəlif dadlar bir birni əvəz edir və nəhayət olacaq hadisələrin dadları dayanıqlı qalır. İnsan bu dadları oxuyaraq sözə çevirir. Daha yaxşı olar ki, mümkün hadisələr təsəvvürə gətirilsin və soruşulsun, təsəvvürdə ağacın budaqları üzrə müxtəlif istiqamətlərə axtarış genişləndirilsin.
3. İntuisiya konkret müəyyən hadisə olacaqmı və ya hansı rəqəm (imtahnda, futbolda və s.) düşəcəkdir sualı üzrə işləyəndə daha sadə proses gedir. Həmin hadisənin yaxud rəqəmin olub olmayacağı və ya hansı olacağı beyində soruşulur cavabında müəyyən - ya HƏ, ya YOX bildirən dad hiss edilir, sonra sözə çevrilir, deyilir.

Lakin intuisiyanın arxasında böyük miqdarda əsaslar, asılılıqlar, prinsiplər, səbəblər vardır. Görək intuisiyanın arxasında hansı əsaslar vardır.

**İntuisiyanın nəzəri əsasları**

1. Şeylər bir - birindən asılı olaraq müəyyən qayda ilə dəyişir, hadisələr müəyyən ardıcıllıqla müxtəlif vəziyyətlərdən keçir, lakin struktur qalır.
2. İstənilən yerdə dünyada, hadisələrdə xaos yoxdur.Yəni hər hadisə hər şey necə gəldi baş vermir və necə gəldi davam etmir. Maddə strukturu və ya molekulun strukturu kimi hər şey, hər hadisə dəqiq formada dəqiq diaqramla, dəqiq trendlər formasında baş verir. Yəni istənilən məkana baxsaq biz hadisə xətləri görərik ki, hər bir varlıq və onun vəziyyəti bu xətlərdə yerləşir. Xətlərdə olmayan şeylər, hadisələr yoxdur. Bu xətlərin başlanğıcı və sonu (vəziyyəti) əsasən bir birinə bərabər olur,

onlar gah kəsişir, gah yanaşı uzanır, gah birləşir. Qədim müdriklərin dediyi kimi hər şey öz başlanğıcına qayıdır.

3. İntuisiya qabiliyyətinin mənşəyi **preinsan** dövründə qoyulmuşdur. O dövrdə bütün canlı aləm -insanlar heyvanlar quşlar - intuisiya ilə işləyirdi. İnsan danışmağa başlayandan sonra bu qabiliyyəti passivləşdi, daha az istifadə etdi, yalnız bəzən bəzi insanlarda bu aktivləşir. Başqa canılıarda isə bu qabiliyyət, şübhəsiz, qalmışdır və inkişaf etmişdir.
4. Bir çox proses ümumi **Oxşarlıq və ya analogiya** prinsipinə görə digər sahədəki prosesə oxşayır. Konkret məkanda hadisələrin, proseslərin, şeylərin sayı və növü müəyyəndir. Sonrakı zamanda isə tamamilə yeni şeylər, proseslər deyil, müəyyən miqdarda "köhnə"- proses modelləri, növləri, şeylər yenidən təkrar olur, yəni oxşayır. Hər təzə şey, *köhnədən* və *yenidən* – onların yeni kombinasiyasından ibarətdir. Digər tərəfdən hər hadisə, reaksiya, davranış tipik modellər, etalonlar üzrə baş verdiyi üçün hökmən oxşamalar vardır.
5. Eyni mühitlərin, situasiyaların sayca çox olması ilə əlaqədar olaraq onların təkrar olması. Təkrar olunan situasiya və mühitlərdə eyni analoji dəyişiliklərin baş verməsi.
6. Oxşar dəyişilik naxışları nəinki eyni bir obyektin keçmiş həyatında, eləcə də başqa bir obyektin həyatında təkrarlanması baş verir.
7. Təkrarların və oxşarlıqların səbəbi növlərin, obyektlərin hədsiz sayda olması və eyni oxşar mühitdə baş verməsidir. Digər səbəb hər bir yeni kombinasiyanın olma - yaşama formalarının məhdud, konkret sayılan olmasıdır Hər yeni mühit konkret sayda kombinasiya (yaranış) – yaradır (imkan verir).
8. Habelə Xaos nəzəriyyəsinin iki qanunu da öncə görmək üçün böyük imkanlar açır: 1) prosesin başlanğıc halının necəliyindən asılı olaraq sonrakı hadisələrdə bu böyük zamanda baş verən dəyişiklərə gətirir; 2) hər sistemin öz həyatında, hərəkətində dəyişiliklər oxşar olaraq təkrar olur (9 ). Başqa sözlə, əgər kiçik zaman dövründə müəyyən hadisələr olursa, böyük zamanda da həmin şəkilli ( naxışlı) hadisələr olur. Oxşarlıq, məhz hadisələrin necə davam edəcəyini bilməyə kömək edir.
9. Real həyatın beyində başqa formada davam etməsi və nəticənin (intuitiv) oxunması kimi izah etmək olar. Belə fərz etmək olar ki, biz iki həyat yaşayırıq ; biri real material həyat, digəri beynimizdə reallığı əks etdirən, paralel işləyən neyronların hiss, emosiyalaları və dəyişiliklərindən ibarət

həyat. Bəs kənar insan həmin məşğuliyyət sahəsindən uzaqdırsa *intuitiv olaraq* niyə gələcəyi deyə bilir? Bu sualı cavablandırmaq üçün 4 fərziyyə irəli sürmək olar:

10. (1) Güman etmək olar ki, reallıqda görünən şeylərə, hadisələrə oxşar eynilə beyində onları təsvir edən məlumatlar, obrazlar formasında eyni gerçəkliyə uyğun qaydada paralel həyat prosesi gedir. Yəni həyat qanunları təkcə Pifaqor teoremindən və ya məlum fiziki qanunlardan və s. ibarət deyil, burada naməlum xeyli qanunauyğunluqlar var ki, beyin onların adını bilmədən də, real nə var, hamısını daxili məntiqi ilə qəbul edir və yazır. Axtaran beyin X hadisəsinin olub - olmayacağını bilmək üçün beynində prosesi sürətləndirir və hadisəni – faktı əvvəldən görür.
11. (2) Ola bilər ki, həqiqətən, insan eyni zamanda iki aləmdə olur. Birinci - maddi reallıqda; ikinci isə - xəyali, hissi və ya ruhi aləmdə. (Ruhun nə olduğu haqda hələ az bilirik, lakin onların da zamana və fəaliyyətinə və hansı daşıyıcıda olmasına görə növləri var.) Ruhumuz (elmi dillə desək bizim şüurumuz) gələcəyə gedərək nə olduğunu görür və bizə deyir (bax hissə II).
12. (3) Ola bilsin, gerçəklikdə baş verənlər *forma və ruhi, surət-forma dünyasında* əvvəldən eyni qanunlarla (qarşılıqlı təsirlər) repetisiya – məşq olunur, oynanılır və bunu "görən" insan hadisə baş verməmişdən nə olacağını hiss edir. Bəlkə hadisədən günlər, aylar, 100 illər, qərinələr əvvəl hadisələr Hegelin dediyi dünya ruhunda planlaşdırılır, ölçülür, biçilir, ssenarisi tutulur? Şübhəsiz, dünya ruhunda və ya başqa bir idarədə planlaşdırmadan (bunu deməyə sübutumuz yoxdur) asılı olmayaraq dünyanın- kosmosun, neçənci dəfə bilmirik, yenidən bir vəziyyətdən digər vəziyyətə çevrilməsində bu günə gətirən konkret ardıcıl dəyişilmə xətti olmuşdur. Bunun elmi sübutu var, əks halda bizim Günəş sistemi və Yer kürəsi yarana və evolyusiya etməzdi. *Konkret başlanğıcı olan varlıq konkret istiqamətdə, konkret dəyişilmə mərhələlərindən keçir.* Bu hər bir şeyə aiddir. Başlanğıc hər şeyin nəticəsi üçün vacibdir və səbəbdir.
13. (4) Ona görə baxıcı (həmişə) ilk andan keçmişi araşdırmağa çalışır. Ona görə ki, gələcək məhz keçmiş hadisələrin içindədir, həm də keçmişdə (habelə indidə) gələcəyin toxumları, əlamətləri var. Lakin elmi təhsil almayan baxıcı bunları bilmir, ona bu lazım da deyil. Keçmişə dair heç olmasa bir sual

verərək o, hadisələrin ritmini tutur və düzgün hesablama momentini (başlanğıcını) seçir - düz başladığına əmin olur, əks təqdirdə o heç nə deyə bilməz. Özünə tam əmin olanlar heç sual da vermir. İndinin ritmini tutmaq üçün, habelə insanın səsini - cavabını eşitmək, habelə adını və anasının adını (hər kəs anasından doğulduğuna görə - başlanğıc kimi) bilməyin böyük kömək edici rolu var. Bu məlumatlar keçmiş və indini dərk etmək üçün lazımdır. Nəzəriyyəyə görə adlar təsadüfi deyil, insanla adı arasında asılılıq var və taledə müəyyən məna daşıyır. Baxıcılar a) keçmiş haqda hər hansı məlumat alaraq; b) insanın xarici görünüşü, səsini, şəklini və ya onun paltarını nəzərə alaraq-ondakı məlumatı oxuyaraq; c) hadisə və variantların sonlu olduğu amilinindən istifadə edərək; d) intuisiyadan istifadə edərək gələcəyi deyə bilərlər.

14. Daha bir fərziyyə gələcəyi - görmənin aydın - görmə (ясновидение) ilə eyni prinsipli ola bilməsi ideyasıdır. Yəni aydın - görmə mütəxəsisinin vizitorun şüurunu əldə edərək (bunu o, həmin adamın gördüyü sifəti və toxunmaqla və ya şəkli vasitəsilə, düşüncə ilə, özünü gipnozla onun şüuruna - məlumat sisteminə daxil olaraq edir) onun əvəzindən onunla əlaqədar hadisələri aşkar görməsidir. Adi insan özü haqda bütün məlumata malik olsa da, o bu məlumatı aşkar etmək və hamısını demək qabiliyyətinə malik deyil. Yalnız aydıngörən digər insan onun şüuruna daxil olub bu məlumatı oxuya və gələcəyini də görə bilər. Bu gələcək, misal üçün, digər adamlarla əlaqədardırsa, onların məqsəd və hərəkətləri vizitorun yaddaşındadır - o onları görüb, lakin bu yaddaşı oxumaq və anlamağa qabil deyil. Halbuki bunu aydıngörən adam görə bilər.
15. Dəyişiklər qanunauyğun baş verir.
16. Hər hansı konkret obyektin – insan, cəmiyyət, ictimai, texniki quruluşların, təbiət hadisələrinin gələcəyinin şəkli, əlamətləri hadisə və mərhələlərin dəyişməsi ssenarisi, formulası, qaydası, dəyişilik baş vermədən onun indiki və keçmiş həyatında və ya digər obyektdə, qonşularda, şeyin kontaktda olduğu cisimlərdə və ya keçmiş dəyişiliklər xəritəsində, sxemində, naxışında əks olunur. Bu amil gələcəyi bu naxışlara görə necə olacağını deməyə (identifikasiya etməyə) imkan verir. Bu amildən elm az istifadə edir. lakin əsas istifadəçilər bütün falçı ( yalnız həqiqi olanlar) və ekstrasenslərdir. İnsanın da həyatı artıq əvvəldən onun göz quruluşunda və əlinin içində, səsində əks

olunmuşdur. Müşahidələrə görə uşaq vaxtı bu cizgilər az, zaman keçdikcə isə uyğun olaraq xətlərin çoxalması və müəyyən şəkil cızması baş verir. Şübhəsiz, şəkillər təsadüfi deyil, insanın xarakterini, həyatını əks etdirərək ona uyğun cızılır. Habelə genlərində, genetik meylliliyində, doğulan zamandakı il, ay, gün, saat anından asılı olaraq insanın həyat sxemi - əsasən cızılmışdır. Bu keçmişin təsir amilləridir. Eyni zamanda, insanın həyatı onun yaşadığı indiki mühit tərəfindən müəyyən olunur. Yəni həm keçmiş mühit, həm də indiki mühitin birgə təsiri insanı idarə edir, onu formalaşdırır, həyat ssenarisini yazır. Bu nəticə ümumi universal harmoniya-uyğunluq prinsipindən çıxır. Başqa sözlə, insanın həyatı və mühit elementləri tam uyğunluq təşkil edir; biri digərini anlamaq üçün, identifikasiya üçün istifadə edilə bilər. İnsanın gələcəyi görməsi üçün hadisələrdə gördüklərini diqqətlə analiz edib dəyişilik istiqamətlərini, naxışlarını yadda saxlaması lazımdır. Hadisələr içində yeniləri və təkrarları seçə bilməlidir. Bu amildən istifadə edərək gözün xəritəsinin quruluşundan, insan əlinin içinin naxışlarından və süni öncəgörmə vasitələrindən - fal kartı, toxumlarla, daşla, sümüklə, kofe və ya müxtəlif cisimlərin fal atılması ilə düşən kombinasiyasından gələcəyi görmə üsulları yaradılmışdır. Öncəgörmə vasitələrindən istifadə etdikdə visitorun əli və ya nəfəsi bu vasitələrə toxundurulur. Habelə onun şəkli və ya onunla uzun müddət olmuş bir əşya -cisim əl ilə "oxunur", adı və anasının adı soruşulur. Bunlar vacib tələblərdir və hər bir adamın təsiri sahəsi müxtəlif, lakin həmin adama uyğundur.

17. Həyat ağacının hadisələrinin və yaranış budaqlarının müxtəlif zamanlı olması (bax zaman anlayışına), keçmiş, indi və gələcəyi bir yerdə görməyə imkan verir ki, bu da intuisiya üçün yaxşıdır.

Bu fərziyyələr gələcəyi bilməyə kifayət edirmi? Cavab tapılsa, bu nə ilə nəticələnə bilərdi ? hər halda çox zərərli olardı. Axı bu cavabda dünyanın bütün mənası əks ediləcəkdir. İnsanlar öz gələcəklərini asanlıqla bilsəydilər, hansı davranışı seçərdilər? Bəlkə onlar kütləvi tərki dünyalıq, özünə qəsd və ya hər şeyi - məsuliyyət və idarəni onları idarə edən dünya ruhunun öhdəsinə buraxıb ağıllarına gələn hər bir hərəkəti edəcəklər?. Bəlkə bu elə bilgilərdir ki, bütün insanların bilməsi məqsədə uyğun deyil? Bəlkə bu çox faydalı olardı, insanlar və cəmiyyətlər daha rasional və ağıllı, əxlaqlı davranardılar? Yəqin ki,

çox bilmək onlara əzab gətirərdi, necə ki mənə gətirir. Bəlkə bilib əziyyət çəkməkdənsə, bilməyib rahat olmaq yaxşıdır?

Lakin biz həqiqəti yalandan ayırmalı, düzü dələduzdan seçməliyik. Tam sübut olunmuşdur ki, olacağın qabağını almaq olmaz! Lakin nə olacaq, nə olmayacaq? Bu sualın cavabını bir sıra hallarda daha dəqiq, intuisiya verir.

## Gələcəyə doğru hərəkət necə formada baş verir?

Universal qanunlarda qeyd etdiyimiz kimi dünyada müxtəlif proseslər müxtəlif sahələrdə, şeylərdə gedir. Prosesin mahiyyəti isə şeylərin olmaq üçün çalışması, pozulmuş müvazinəti bərpa etmək üçün hərəkəti, çoxluqda müvazinətin əldə edilməsidir. Burada heç bir boş, mənasız, lazımsız hərəkət -proses baş vermir. Istənilən gördüymüz obyektin fərdi tale xətti var və bu xətt, yəni fərdi həyat icra olunmalıdır, hər bir varlıq öz həyat siklini (doğulma, böyümə, zəifləmə, ölmə pillələri) yaşayır. Ətraf mühitə baxdıqda biz hökmən hansısa cismə, canlıya, obyektə məxsus tale xətləri görəcəyik, başqa heç nə, məhz həmin obyekt bu xətt üzrə yaşama prosesindədir. Həyat xətti hər pillədə iki sərhədd arasında yerləşir, yəni dalğavarıdır, məsələn, yuxarı - aşağı; sağ – sol; yaxşı –pis; yenmə - qalxma baş verir. Lakin qeyri - düzgün dalğaya oxşayır ki, bunun da səbəbi ətraf mühitlə əlaqələr və asılılıqın təsiridir. Cəmiyyət, insan və təbiət hadisələrində, göy cisimlərinin hərəkətlərində də bu belədir. Şəkil 3,4,5,6,10 - da rəqqasın asılma mərkəzinin gələcəyə hərəkəti sxemi ilə və digər sxmlərdə hər bir material varlığın: cismin, insanın, cəmiyyətin inkişafı – dəyişilk traektoriyası təsvir olunur .

*Qəfil və kəskin hadisələr gələcəyə qeyri məyyənlik gətirir.* Hər şey orijinal və tale xəttinə malik olsa da bu normal, hamının öz xətti (ritmi) ilə yaşadığı hala aiddir. Bəzən qəfil hadisələr (yanğın, tufan, avtomobil qəzası, psixi partlayış, kosmosda hadisələr və s.) baş verir və ya şeylər müəyyən daxili yaxud xarici səbəblər nəticəsində öz optimal həyat dalğasından bir neçə pillə kənara çıxır, nəticədə onlar öz davranışını və mühitdə şeylərin normal həyat siklini (tale xəttini) pozur, öldürür, dağıdır. Bu hal gələcəyi ağıl vasitəsilə görməyə qeyri-müəyyənlik gətirir. Lakin belə gələcək intuisiya vasitəsilə kəşv edilə bilər və bu haqda çox fakt vardır. Ona görə də gələcəyin tapılmasının intuitiv metodunu daha dərin öyrənmək, qabil olmaq, genişləndirmək, çoxlu məşq etmək lazımdır. Ağıl vasitəsilə onu görmək mümkün olmadıqda, intuitiv metoddan istifadə etmək lazımdır.Yaxşısı, hər iki üsuldan istifadə etməkdir.

1978 –ci ildə təcrübə və analiz nəticəsində yazdığım *Gələcəyi necə görmək olar* məqaləsində müəyyən etmişdim ki, görünür, şeylərin, hadisələrin hansısa bir naməlum parametri vardır ki, hələ gələcək gəlmədən, hadisə baş vermədən onların mahiyyətlərinin, surətlərinin də balanslaşması həmin parametr üzrə gedir. Sonra nə baş verməsinin tələb olunduğu hadisə baş verir. Əlavə etməliyəm ki, bu parametr elə obyektlərin, hadisələrin bütün mühitdə yerləşmiş mahiyyətidir ki, yəni müəyyən sahədir ki, onun hansısa parametri, məsələn, enerjisi, intensivliyi pulsasiya edir- daim rəqs edir. Məsələn, rəngini daim siklik olaraq dəyişir. Bu dəyişiliyə uyğun sonra şeylərdə və onların münasibətlərində material dəyişilik baş verir. Yəni əvvəl şeylərin ümumi sahəsində dəyişilik olur, sonra özlərində. Bu deyilən təsvir bu analogiyada asan başa düşülə bilər. Ekstrasenslərin guya insanın energetik sahəsini əllərilə necə korreksiya edirlərsə nəticədə insanın bioloji energetik sahəsi defektdən qurtarır və ardıcıl olaraq bədəndə bu defekti yaradan ona aid orqanının xəstəliyi sağalır. Mən bu əməlyyatın həqiqiliyini təsdiq edə bilmərəm, lakin təsvir etdiyim poses bu modelə oxşayır.

Digər bir aksioma budur:
*Hadisələr hərəkətdə olan, müvazinələşməkdə olan struktura malikdir ki, onun hər bir elementi maddələrin kimyəvi formulundakı və kristal qəfəsindəki elementlərin yerinə oxşar olaraq yaranmalıdır və o yeri tutmalıdır. Maddələr, cisimlər isə "donmuş" hadisələrdir*. Adi proses və hadisələrin də modeli atom və molekulların modeli kimi təsəvvür edilə bilər. Lakin bu modelin strukturu və elementləri *keçmiş, indi* və *gələcəkdə* yerləşir və formalaşır. Yəni bir hissəsi keçmişdədirsə, bir hissəsi indi baş verir, bir hissəsi gələcəkdə baş verəcəkdir. Nəticədə bitmiş hadisə, konkret yranış, vəziyyət meydana gəlir. Məhz gələcəkdə baş verən hadisə fraqmentinin nəticəsində həmin elementlərin təmsil etdiyi sistem – bütövlük tamamlanır, lakin onun daxilınidə artıq yeni gələcəyi zəruri edən yeni başlanğıclar da vardır. Beləliklə keçmiş, indi, gələcək bir-birinə bağlanır. Kimya kitabını açın, bir üzvi maddənin məsələn, neftin, benzolun formuluna baxın, onu kəsib keçən uzun xətt çəkin , burada hər bir nöqtədə duran atomu gerçəkliyin bir elementi hesab edin; xəttin bir tərəfi keçmişdir, digər tərəfi gələcəkdir, gələcək hissədə hər bir atom (hadisə, vəziyyət, yeni yaranış) məhz digərləri ilə əlaqələnmiş formada yalnız müəyyən yerdə və anda olmalıdır (formulada olduğu kimi). Dünyanı məhz belə model kimi təsəvvür etmək lazımdır (şəkil 7, 8, 9). Yəni maddələrin daxili strukturu *donmuş sabit bir struktura* - *qəfəsə* malikdirsə, dünyadakı hadisələr də oxşar struktura –lakin *zaman ərzində dolan,*

*tamamlanan dinamik struktura* malikdir. Deməmk, hadisələr (vəziyyət nöqtələri) bu strukturda müəyyən edilmiş yerləri öz zamanlarına görə baş verməli və strukturun uyğun yerini tutmalıdır. Digər tərəfdən, hadisələrin baş verməsində mexanikanın qızıl qaydası da iştirak edir. Bu, hadisələrin avtonomluğunu saxlamaq prinsipidir. Bu qaydada deyilir ki, *cisimlərin hərəkətlərində bir təsirin digərinə təsiri yoxdur*. Şeylər üçün isə bu qanun belə səslənir, cismə nə qədər xarici təsir olsa da o öz avtonomluğunu - strukturunu saxlamağa çalışır. Avtonomluq-struktur pozulanda artıq həmin şey başqa şeyə çevrilir. Bunu da belə əyani təsəvvür etmək olar. Əgər benzinin tutaq ki, formulu real həyatın formuludur, onun bir nöqtəsindən digər ucuna bir xətt çəksək və bu xətti boş yerlərdən deyil, məhz atomların yerləşdiyi nöqtələrdən aparsaq, bir ziqzaq formalı bir xətt alarıq. Bu xəttin başlanğıcı baxılan yaranışın əvvəli, sonu isə onun qurtaracağıdır. Bu misal hər şeyin avtonom qalmasını, lakin onun mühitin elementlərilə münasibətdə zəruri rolları- əlaqələri oynamasını göstərir. Bu nöqtəni bir insanın ilkin vəziyyəti saysaq, onun bütün həyatı konkret vəziyyətlərdən (formuldakı nöqtələrdən - qalxma -yenmə; pis- yaxşı)) keçməlidir. Əgər bu insan güllə ilə öləcəksə, demək bu təsadüf deyil, zərurətdir - həyat xəttinə uyğundur. Deməliyəm ki, keçmişlə bu günü və yaxud bu günlə gələcəyi ayıran sərhəd xətti də düz xətt deyildir (şəkil 9). O da ziqzaq, sinus formasına oxşayır, bu baxışla demək, bu xətlə düşünsək bəzən keçmiş gələcəkdə, gələcək keçmişdə olduğu görünər, ümumiyyətlə indinin harada olması naməlum qalar, zamanın olmadığı və ya bəzən uzun, bəzən qısa olması, zamanın deyil, prinsipal nöqtələrin daha vacib, determinant olması təsəvvürü yarana bilər. Tetraedr modeli bu məsələ üçün daha yaxşı yarayır (Şəkil 1)

Material dünya və kənar hesab edilən - keçid, ideyalar, informasiya, mahiyyət, surətlər, formalar, ruhlar dünyaları - düşünürəm ki, bir yerdədir. Bu amil gələcəyi görməkdə əlavə imkanlar açır.

Görünür, məhz bu xassələr görünməz dünyada iştirak edərək maddi dünyada maddi çevrilmələr baş verməmişdən əvvəl müvazinətləşirlər və nəyin olacağı bu prosesin nəticəsində tələb olunur, sonra maddi hadisə, gələcək forma, vəziyyət və s. baş verir. Gələcəyə doğru həyatı fortuna təkəri ilə də təsəvvür etmək olar. Gördüyünüz kimi onun iki əks tərəfində yaxşı və pis nöqtələri , horizontal oxlarında isə orta vəziyyət qeyd olunub, təkər fırlandıqca orta - yaxşı - orta – pis dəyişiliklər sikli həyat boyu davam edir.




Şəkil 3. İnsanın həyatında yaxşı və pis hadisələr və emosiyalar bir - birini əvəz edir




Şəkil 4. Eynicinsli olmayan və mühitlə bütöv əlaqədə olan obyektin real yaşama olma dalğası-həyatı. Bu dalğa düzgün deyil




Şək. 5. Eynicinsli obyektin ətraf mühitlə əlaqəsi olmadan olma, yaşama, yayılma dalğası. (elektromaqnit, radio, tentgen dalğaları, zərrəciyin, atomun pulsasiyası.)




Şəkil 6. Tale təkəri



Şəkil 7. A mərkəzindən başlayan inkişaf müxtəlif istiqamətlərdə gedir və hər yeni mərhələ, nöqtə bir çox hissələrin birləşməsindən yaranır. A- dan çıxan istiqamətlər müxtəlifdir və çoxdur. Bu A -dan ətrafa istiqamətlər çox istiqamətlə gələcəyi görsədir. Hər kəsişmə - birləşmə gələcək hadislələrdir və ya varlıqlardır. Və ya yeni ixtiralar, yeni yaradılışlardır. Istənilən nöqtəni götürüb ondan çıxan xətlərə, istiqamətlərə baxmaq olar.




Şəkil 8




Şəkil 9




Şəkil 10

Şəki l0. Dünyanın və hadisələrin ağac modeli. Bu ağac adi ağac deyil, həm də çiyələk kimi yeni yaranışlar verən ağacdır ki, hər yeni yaranış yeni mühitlə qidalanır və inkişaf edir, keçmişin məhvi yeniyə dəxli yoxdur. Baxılan anda E nöqtəsindən göyərən A qolu ən uzun inkişaf keçmiş və aparıcı istiqamət və yaxud trenddir. B qolu da güclü istiqamətdir, lakin A -dan geri qalır. Ağacın budaqları müxtəlif istiqamətlərdə böyüyür, bir tərəfə çox budaq, digər tərəfə az budaq atır. Bəziləri daha artmır, bu inkişaf istiqamətləri –dayanır. Hər budaq öz zamanını yaradır, istiqamət isə daim gələcəyədir, lakin hamısının istiqaməti eyni deyil. Ən uzun budağa nisbətən qalan inkişaflar müxtəlif istiqamətlidir, yəni zamana görə hətta geridir. Bu model zamanın hər şey üçün irəli olmasını lakin , bir birinə nəzərən keçmişə, gələcəyə, geriyə yaranmasını göstərir. Gələcəyin digər anında güclü potensiala malik D qolu uzanaraq aparıcı istiqamətə çevriləcəkdir, qalan qollar isə geri qalacaq, yaxud inkişafı dayanacaq. Beləliklə daim üstün istiqamətlər, aparıcı trendlər bir- biri ilə yarışaraq bir -birini əvəzləyəcək. Daim irəlidə güclü, potensiallılar olacaq. Biri digərini geridə qoyaraq. Hər şey doğulma, böyümə, yksək səviyyə, enmə və məhv olma –dağılma siklni yaşayaraq qalib - məğlub, güclü- zəif, yaxşı- pis və s. əks olan rollarını oynayacaqdır

Belə müşahidə edə bilərik ki, bütövlükdə dünya, yer hadisələri sanki ağac kimi daim bitir (şəkil 10). Bir tərəfə zaman və dəyişiliklər xətti çox şaxəli və uzun meydana gələ bilər, digər tərəfə isə az miqdarda *dəyişiliklər –zaman* (budaqlar) meydana gələ bilər.

Zamanın materiyanın daimi yeniləşən vəziyyətləri ilə üst -üstə düşən fəza struktur modelini diqqətlə araşdırdıqda belə bir fərziyyə söyləmək olar ki, bu *zaman –materiya* ağacının hər bir budaqı və qolu əslində müxtəlif zamanlardır, müxtəlif material obyektlər və vəziyyətlərdir. Hər bir qol fəzada üst - üstə düşməyən istiqamətlərdədir və hər bir qolun uzunluğu müxtəlifdir. Buradan belə nəticə çıxır ki, dünyada eyni zamanlı hadisələr yoxdur. Makrodünyada, lap elə mikrodünyanın nəzəriyyəsini verən kvant fizikasında heç vaxt eyni zamanlı hadisələr olmur. Yerdə biz öz saatımızla ölçdüyümüz eynizamanlı görsənən hadisələr əslində illuziyadır. Zaman ümumi deyil, hər şey üçün "şəxsidir".

Şəkildə hadisələrin və ya real dünyanın strukturunun bitməsi sxemi əks olunub (Şəkil 8 və 9). ABCD böyük sistemin elementlərdir. ABC keçmişdədir, D isə gələcəkdədir, deməli, hələ sistem tamamlanmamışdır və onu biz buna görə aşkar edə bilmirik. Yalnız D hadisəsi - elementi baş verəndən sonra biz bu sistemi aşkar edib onu aydın görəcəyik. *iml* kiçik sistemi keçmişdədirsə E vəziyyəti gələcəkdədir. A-dan İ vəziyyətinə yaxud elementinə keçən zaman azdır, A-dan C-yə keçən zaman isə uzundur. Kəsişmələr baş vermiş hadisələrdir və eyni zamanda yeni başlanğıcları əks etdirir. Şəkil ancaq fəza fiquru ola bilər, lakin asanlıq üçün müstəvidə çəkilmişdir. İstiqamətlər gələcəyə yönəlib lakin müxtəlif istiqamətlidir, xətlərin uzunluğu həm zamanın uzunluğunu, həm hərəkət –dəyişilik ölçüsünü göstərir.

Dekart koordinat sistemində BC hadisələri eyni zamanlı görsənir, halbuki həqiqətdə belə deyil (şəkil 8). Təklif edilən dünya koordinat sistemində A -dan C-yə keçən zaman A-dan B-yə olan zamandan iki dəfə çoxdur. Bu kordinat sistemində gələcək yalnız bir istiqamətli deyil, baxılan nöqtədən istənilən istiqamət gələcəkdir. X-X xətti də şərti olaraq düz kimi çəkilib, əslində keçmişi və gələcəyi ayıran düz xətt deyil, o şəkil 9-daki Y-Y xətti kimi sınıq xətlərdən ibarətdir. Bu sxemdə, zamanı bir istiqamətlə qəbul etsək, keçmiş bəzən gələcəkdə gələcəyi isə keçmişdə görürük. Indi isə keçmişdə yaxud gələcəkdə yerləşir. Dünyanın 13, 7 milyard il əvvəl yaranması ideyası isə ancaq onun hissəciklərdən ən qoca materiyanın yaranmasından bu günədək evolyusiyasını göstərir. Yəni dünyada evolyusiya eyni xətt və zaman sürətilə getməmişdir, elə yerlər tapmaq olar ki, onlarda başlanğıc (yəni axırıncı) yaranışla indi arasında heç bir neçə gün ( hətta dəqiqə) və ya il də keçməmişdir.

Yaranışı və dünyanı *tetraedr hüceyrələr* toplusu qəbul etdikdə, onun xeyli çox ölçülü olması aydınlaşır. Bu ölçülər, tetraedrdən yığılmış çoxluqda tetraedrin ( və onun bir birinə səthləri ilə kip oturdulmuş çoxluğunun) yaratdığı bucaqlar, istiqamətlər, təpələr üzrə yerləşir. Və Dekart koordinat sisteminin dünyaya tətbiq edilməsinin və dünyanın izah edilməsində düzgün olmadığını göstərir. Dekart kordinat üsulu yalnız cismin bir- birindən asılı olaraq iki dəyişən parametr üzrə evolyusiyasını təsvir etməyə yarayır. Ona görə də biz gələcək proqnolzarı verdikdə tetraedr quruluşuna oxşar koordinat sistemi işlətməliyik, yəni bu sistemdə qonşu tillər arasında 60 dərəcə, bir nöqtədən isə 3 səth olmaqla arasında dəqiq hesablanmış bucaqlar olmalıdır. Burada biz mühitin iştirakı ilə iki obyektin əlaqəsini və

yaranan nəticəni və bu nəticə ilə digər bir obyektin əlaqəsi ilə yeni mühitin iştirakı ilə yaranan yeni nəticəni əks etdirən evolyusiya – yaranma, dəyişilik zəncirini görəcəyik. Şəkil 2- də tetraedrdən yığılmış kompleks sistem və ya həyatın fraqmenti göstərilir.

**Gələcəyin müəyyən edilməsində səhvlər**

Fiziki proseslərə, göy cisimlərinin hərəkətinə aid və həndəsi - riyazi tənlik və məsələlərin gələcəyinə (yəni həllinə) aid öncəgörmələr həmişə düz çıxır. Lakin sosial məsələlərin, insanlar dövlətlər, cəmiyyətlər və ailə - arası və daxili münasibətlərin, siyasi situasiyanın, iqtisadiyyatın, texnikanın proqnozlaşdırılması daim səhvlərlə müşahidə olunur. Bunun səbəbi odur ki, proqnoz verərkən hadisənin hansı üst sistemin idarəedici təsirilə getməsini müəyyən etmirlər. Digər səhv böyük aparıcı trendi səhv müəyyən etməyin nəticəsidir ki, onun bilavasitə təsirilə baxılan obyekt, hadisə dəyişməlidir. Bu aparıcı və ən böyük trend özü də iki sərhəd arasında dəyişir. Onun qalxmasını və yenməsini diqqətlə izləmək və ona uyğun fəaliyyət planı qurmaq lazımdır. Uğurun müəyyən edici səbəbi bölməsində göstərildiyi kimi (bax hissə İİ) hadisələrin uğurlu inkişaf xətlərini müəyyən etmək lazımdır. Bu xətt isə baxılan məkanda 1) müxtəlif iştirakçıların qarşılıqlı əlaqəsi, 2) aparıcı trendin , 3) obyektin fərdi həyat dalğasında vəziyyəti, 4) fəaliyyətin-hərəkətin sağ-sol, minimum – maksimum sərhədləri, 5) strukturda obyektin böyük, kiçiklərlə zəruri tabeçilik və xidmət göstərmək əlaqəsi, 6) daxil olduğu strukturda öz yerini dəqiq və düzgün müəyyən etməsi, 7) özünə böyüyü -dayağı, müdaqfiəçini düzgün seçmək,başqa sözlə, baxılan təkin çoxluq içində öz yerini düz seçməsi, 8) böyük qarşısında öz borcunu dəqiq icra etməsi nəticəsi kimi formalaşır. Göründüyü kimi bu amillər nə qədər ağıllı olmaq dərəcəsini müəyən edir. Ağıllılar uğur qazanır, ağılsızlar uduzur. Məsələn, Qafqazda Azərbycan rəhbərləri ağılsız hərəkət edərək ərazisinin 20%-nin işğalına və 1 milyon adamın müharibə qaçqını və didərgini olmasına, 2 milyon adamın isə səhv iqtisadi siyasət nəticəsində didərgin və mühacir olmasına, xalqa xeyli əzablar (təhsil, müalicə və həyat şəraitində) yaratmasına səbəb olmuşlar. Gürcüstan rəhbərləri isə ağılsız davranış seçərək iki avtonom ərazidən məhrum olmuşlar. Ermənistan isə ağılla davranaraq çox asanca Azərbaycan ərazisini qəsb etmiş və ona şərtlər diqtə edir, halbuki özü xeyli zəifdir. Bu dövlətin etdiyi qəsblərin, etnik təmizləmənin səbəbi fiziki – hərbi güc yox, ağıldır. Lakin *nəyin naminə o bunları etmişdir və nə əldə edir, dünya inkişaf trendi ilə bu uyğundurmu, yoxsa ziddirmi* suallarını

verdikdə erməni dövlətinin məqsədini icra etməkdə ağıllı, lakin məqsədin qoyulmasında ağılsız və bəşəriyyətə, ümumi inkişaf xəttinə zidd olduğu aşkar olur. Bu və digər mövcud misallar göstərir ki, ağılsızlıq xalqların (onların ağlını toplayıb hazırlamalı olan dövlət adlı təşkilatının) birinci düşmənidir. Onlar bu göstrərdiyim uğurlu strategiya qurmaq metodu ilə davranmalıdırlar. Kiçik bir səhv böyük fəlakətlərə səbəb olur. Yəni bütün dünyada baş verən müharibələr, konfliktlər, ekologiyanın dağıdılması, aclıq, səfalət və az miqdarda varlılığın digər bir səbəbi də strukturun qeyri - kamilliyindən başqa, qaliblərin ağılla davranması, uduzanların isə ağılsız davranması nəticəsidir.

Bu hissədə qeyd edildiyi kimi kainatda ümumiyyətlə və xüsusilə onun yerli dünyası olan bizim Yer planetində hər bir şeyin, hər bir tərkib hissənin (ümumidə, çoxluqda) zəruri optimal yeri vardır. Cansız cisimlər, zərrəciklər, atom və molekullar bu yerləri konkret qanunların işi nəticəsində düzgün və dəqiq tapıb durduqları halda, insan məhz şüurlu və ağıllı olduğu üçün onunla əlaqəli bütün cəmiyyətlər, ailə , icmalar, dövlətlər, təşkilatlar öz layiq və zəruri yerlərini çətinliklə tapırlar və ya tapa bilmirlər.Tapa bilmədikdə bu onlara baha başa gəlir, konfliktlər və müharibələr, daxili dartışmalar, çalxalanmalar baş verir ki, nəicədə böyük itgilər bahasına onlar öz yerlərini tapmağa məcbur olurlar. Başqa sözlə, onlar öz layiq olduqları tabe və xidmətçi, başı qapazlı yerlərinə itələnib salınırlar. Onlara məhz ağıl mane olur. Bu yerlər onların arzu və istəklərindən asılı deyildir. Lakin onlar bunu dərk edə bilmir, tərslik edirlər, öz yerində deyil, öz rolunu deyil, ona aid olmayan yeri tutmağa və kənar rolu oynamağa calışırlar. Nəticədə bədbəxtliklərə səbəb olurlar, boş yerə çalışırlar. Öz yerində durmayan hökmən uduzacaqdır və ağıllılar onun səhvindən istifadə edərək ikiqat qələbə qazanacaqdır.

Qeyd edim ki, tək adamın ağlı ilə idarə olunan sistem – bəşəriyyətin təqribən 95% hissəsi - ağılla idarə olunan sistem sayıla bilməz. Uğurla yaşamaq üçün ağılın müəyyən edilib ortaya qoyulması və onu həyata keçirmək üçün cəmiyyətdə, ailədə, tayfalarda, kənd və şəhərlərdə, dövlətlərdə, təşkilatlarda ağılla idarə etmə strukturu yaradılmalıdır. Bu metod, nəzəriyyə və praktiki struktur 4-cü hissədə, rasional cəmiyyət bölməsində izah edilir.

## Yaradiciliq, Ixtiraetmə

İlk insanlar artıq yaşamaq üçün təcrübəyə malik idi. Bu təcrübə əvvəlki meymunabənzər babalarından genlərlə gələn və təcrübə ilə

formalaşan yaşamaq üsulu idi. Yeni mühitdə ağacdan yerə düşməklə düz yeriməyə tələbatın artması ilə yeni həyat təcrübəsi yarandı. Bu həyat cəhdlər və səhvlər üsulu ilə idi. Evolyusiya nəticəsində insan yalnız mühitinə görə müəyyən şeyləri yeməyə, müəyyən yaşamaq, qorunmaq üsulunu seçdi. Mühitdən asılı olaraq əvvəl heyvanların, sonra isə insanların uyğunlaşması - özünə müəyyən qorunmaq, yaşamaq, qidalanmaq üçün texniki vasitələr, üsullar ixtira etməsi baş vermişdir. İnsan da eynilə qorunmaq ehtiyaclarını ödəmək üçün ilk ağac dəyənəyi kəşv etdi, sonra onu daha yaxşı düzəltdi və təcrübələr nəticəsində onun böyük beyni çox şeyi öyrəndi və yadda saxlamalı oldu. Dəyənək düzəltməklə, insan yaratmağın mümkün olduğunu anladı və ona lazım olan çox şey düzəltdi. Lakin hər yeni dövrdə onun keçmiş təcrübəsi yeni şeylər yaratmağa tormozlayıcı təsir edirdi. Beləliklə, keçmişin stereotip düşüncəsi, adətlər, ehkamlar formalaşaraq yaradıcılığa da mane olurdu.

***Yaradıcılıq nəyə görə mümkündür?***

Yaratmağın mümkün olması dünyanın - şeylərin quruluşu və dəyişməsi qanunauyğunluğuna əsaslanır. Başqa sözlə, şeylərin müxtəlif kombinasiyada birləşməsi; müxtəlif formalara, ölçülərə malik olması hədsiz dərəcədə müxtəlif xassələr verir. İnsan isə bu imkandan şüuru nəticəsində istədiyi kimi istifadə edə bilmək qabiliyyətinə malikdir. Şeylər Demokritin kəşv etdiyi hissələrdən, atomlardan, ən sonda eyni elementar hissəciklərdən ibarət olmasaydı, heç nə yaratmaq olmazdı.

Təbii qanun olaraq hər yeni kombinasiya yeni xassələrə, dəyərə, qabiliyyətlərə malik olur. Bütün təbiət və kosmos belə - vahid hissəciklərdən; hissəciklərin əmələ gətirdiyi maddə atom və molekullarından və onların yaratdığı müxtəlif maddə kombinasiyalarından, habelə müxtəlif maddələrin yeni kombinasiyasından qurulmuşdur. *Hissələrdən kombinasiya yaranması və mühitə uyğunlaşma xassəsi yeni şeylər yaratmağın nəzəri əsasıdır.*

Yaradılan obyekt də, eynilə, təbii və ya keçmişdə düzəldilmiş şeylər kimi bütövlüyə malik olmalıdır. Yeni yaradılan maddi obyekt istənilən halda keçmiş materiyanın hissələrini və yeni forma ölçülərini, detal və hissələri əhatə edir. Yeni - müxtəlif hissələrin, keyfiyyətlərin, formaların, fiziki effektlərin, xassələrin kombinasiyasıdır. Praktiki olaraq istənilən məqsəd – funksiya irəli sürməklə, onu icra edən material kombinasiya tapmaq olar. Başqa sözlə, **istənilən məsələnin həlli vardır, həm də effektiv və daha rasional həlli vardır.**

Bəzən siyasətçilər öz xalqlarını ağır vəziyyətə salaraq obyektiv səbəblər irəli sürürlər. Bu ona görə olur ki, onlar elmin verdiyi metodlardan istifadə etmirlər və yaxud elmdən xəbərləri yoxdur; öz bilikləri az olduğu üçün məsələni həll edən təklifləri də anlaya, qəbul edə bilmirlər. Və nəticədə bütün cəmiyyət tək bir siyasətçinin zəif ağlı ilə əziyyət çəkməyə məhkum olur. Ona görə də dövlət rəhbərlərini və nazirləri, məmurları Rasional Cəmiyyət formalaşana qədər elm sahibləri içindən, lakin yüksək əxlaqi dəyərlərə malik olan və əməl edən adamlardan seçmək lazımdır. Seçməkdən əvvəl isə bütün namizədlər lazımı kriterityalara, biliklərə uyğun olmaqları haqda kütlə və elmi komissiya qarşısında imtahan verməli, sertifikat almalıdır. Lakin məlumdur ki, nadan ictimai sistemdə vəzifəyə qoyulan hər kəs sistemin nadanlığına tabe olur və o da nadanlardan birinə çevrilir. Bu məsələnin həlli, şübhəsiz, ictimai sistemi rasional qurmaqla əldə edilə bilər .

Yaradıcılığa başlamaq üçün əvvəl məsələni, mühiti, şeyi, hadisəni, prosesi dərk etmək, onun yerini və rolunu müəyyən etmək lazımdır. Elm dərk etmənin bu üsul və formalarını təklif edir: Müşahidə, eksperiment; təsvir etmək və nəzəri izah etmək; müqayisə və analogiya ( oxşarı müəyyən etmə) ümumiləşdirmə və abstraktlaşdırma, yəni bir əlaməti öyrənib digərlərini nəzərdən atma; induksiya və deduksiya; analiz, sintez; fərziyyə söyləmək və elmi nəzəriyyə qurmaq;

Dərk etmə isə şeylərin daxil olduğu üst və alt sistemləri müəyyən etmək; həmin sistemlərdə oynadığı funksiyaları müəyyən etmək; şeyin tərkib hissələrini, əmələ gəldiyi böyük avtonom sistemləri və sonra onların da tərkib hissələini müəyyən etmək; hər hissənin olma qaydasını müəyyən etmək; şeyin yaxşı və pis cəhətlərini, güclü və zəif cəhətlərini; funksiyanı yerinə yetirməkdə rasionallıq dərəcəsini; digər sistemlərlə əlaqə və asılılıqlarını və s. müəyyən etmək deməkdir.

Əvvəllər Sokrat, Platon və sair elm mütəfəkkirləri hesab edirdilər ki, yaradıcılıq insana fövqəltəbii qüvvələr - pərilər, ruhlanma, fəhylər - vasitəsilə verilir.

Yaradıcılığın elmi izahını İlk dəfə Aristotel (b.e.ə.384-322) insanın düşünmə mexanizmində axtarmış və *öz logika və silloqizmlərin qurulması qaydasında* təsvir etmişdir (5 BEKM 2002). Bu metod 2 min il Qərb fəlsəfəsində yaşamışdır. Lakin sonra Rene Dekart *Ağılın idarə edilməsi qaydası* kitabında müasir elmi metodun əsasını qoymuşdur. Dekartın metodu şeyləri bölmə və dərk etmə qaydalarıdır ki, elmi dərkin əsas metodu olmuşdur. 20 –ci əsrin ağlı bir çox yaradıcı metodlar yaratmış və onun psixoloji mexanizmlərini

öyrənmişdir. Metafora nəzəriyyəsi yaradıcılığın psixoloji mexanizmini təsvir edir. (10 Кац М.Д. 2003 ).

Hegel və Kant isə Aristotel və Dekartın bölmə metodunu daha da dərinləşdirərək yenidən fəlsəfədə dərk etmə yolunu müəyyən etdilər, bu yol bütövdən hissələrin dərkinə doğru yönəlmiş yoldur. Həmin dövrə qədər fəlsəfədə hissələrdən başlayıb bütövü dərk etməyə çalışırdılar. Analız və sintez hər hansı obyekti dərk etmək vasitəsidir. Burada əvvəl şeyi 1) hissələrə bölür (fikirdə) sonra 2) hissələr arasındakı struktur əlaqələrini təsvir edirlər. Obyekt başa düşülürsə, ondan qoyulmuş məqsədi ödəyən, səmərələşdirən yeni obyekt sintez edirlər. Başa düşülməsə, hər hissəni yenidən bölürlər. Bu üsul məsələni dərk etməni, yaratmanı xeyli asanlaşdırır.

***Müəllifin təklif etdiyi dərk etmə metodu.***

Mən təklif edirəm ki, obyekti – maddi cismi, hadisəni, insanı, quruluşu dərk etmək üçün
1. Əvvəl obyektin hansı (üst) sistemin bilavasitə hissəsi - elementi olması müəyyən edilsin. Bu zaman obyekt üst sistemin hissəsi olduğu üçün onun tələb etdiyi, imkan verdiyi rolu oynamalıdır, onun imkan verdiyi formada fəaliyyətdə olmalıdır. 2. Üst sistemin tələb etdiyi funksiya, üst sistemlə əlaqə müəyyən edilsin. 3. Həmin funksiyanı icra etmə üsulunu və formasını anlamaq, müəyyən etmək. 4. Obyektin icra etdiyi rolu bilərək, onun maddi formasını, strukturunu nəzəri olaraq yenidən fikirdə müəyyən etmək. Bu üsul obyekti nəzəri və ya reallıqda hissələrə parçalamadan da sürətli anlamağa imkan verir. 5. Birinci addımdan-obyektin icra etdiyi funksiyaları biləndən sonra onu hissələrə bölmək və hər hissənin rolunu digərindən və ümumi funksiyadan asılılıqını öyrənmək lazımdır. Məlum bölmə - anlama - bölmə qaydası ilə analizi davam etdirərək obyekti dərk etmək, nəhayət, tələb olunan son nəticəyə - məqsədə uyğun yeni sistem və ya modernləşdirilmiş sistemi sintez etmək olar.

***Yaradıcılığın iki qrupu.***

Yaradıcılıq iki tipə bölünür:
1. Məqsədin verilməsilə yeni şeyin - qurğu, maşın, material, prosesin yaradılması. Əgər məqsəd - obyektin funksiyası verilirsə, bu o deməkdir ki, məkan və zaman və ilkin istifadə şərtləri verilir, bu halda bir yox, bir sıra müxtəlif həllər mümkündür.

2. Məqsədin verilməməsilə yeni obyektlərin yaradılması. Bu zaman sonsuz miqdarda yeni obyektlər yaradıla bilər ki, onların yerinə yetirəcəyi məqsədlər sonra müəyyən edilib istifadə edilə bilər. Hətta elə şeylər yaradıla bilər ki, o 100 illər sonra hansısa məqsədi icra etməyə xidmət edər. Belə yaradıcılıq müxtəlif kombinasiyalar qurmaq, müxtəlif istiqamətlərdə fiziki effektlər, xassələrin kombinasiyası üsulu ilə yaradıla bilər. Məsələn, təkcə 4 xassənin kombinasiyasından 256 yeni şey ixtira etmək olar.

Yaradıcılıqda *məqsəd* ən vacib əhəmiyyətə malikdir, nəinki onun əldə edilməsi *yolu*. Bir çox hallarda dövlət idarələri hey çalışır, tez - tez siyasətlərini dəyişir, qanunları dəyişir, nə isə etmək istəyirlər, lakin nəticə almırlar. Bunun səbəbi odur ki, onlar dəqiq rəqəmlər və təsvirlərlə ifadə edilmiş rasional məqsədlər, yəni son nəticələr qoymurlar. Və ya onların məqsədi reallıqda cəmiyyət üçün yaxşı, lazım olan bir iş deyil, onda illuziya yaratmaqdır. Praktiki olaraq istənilən məqsəd qoyub onu əldə etmək olar. Lakin o dayanıqlı olacaqmı? O cəmiyyətə lazımdımı? Yalnız daxili hissələri harmonik uyğunluqda və təbiətlə harmonik yğunluqda olan şeylər, rahat, ən az enerji sərf etməklə uzun müddət yaşaya bilər. Bu bütün dünyanın vacib qanunudur. Yalnız düzgün məqsəd qoyulduqdan sonra onun həlli yolu çox asan tapıla və problem tam həll edilə bilər. Düzgün məqsəd isə faydalı funksiyanı icra edən və daxili, eynilə xarici mühitlə harmonik – məntiqi uyğunluqda olan obyektin (qaydanın, idarə üsulunun, qurğunun) yaradılmasıdır.

Məqsədin qoyulmasında isə gələcəyin nəzərə alınması, gələcəyə hazırlaşmaq ən vacibdir. Beləliklə bütün bəşər sistemində, bütün xalqlarda olan inkişafda, həyat şəraitində gerilik, kasıblıq və digər problemlər məhz səhv məqsədlər qoyulması, yəni beş -*ictimai faydalılıq, harmonik uyğunluq, ictimnai prioritetlik və gələcəyin nəzərə alınması və rasionallıq(ağlauyğunluq və təkmillik)* tələblərinə cavab verməyən məqsədin qoyulmasıdır.

20-ci əsrdə yaradıcı düşüncənii tədqiq edən yeni elm sahəsi *Evristika* meydana gəldi. Və nəticədə bir çox ixtiraçılıq, problem həll etmə, gələcəyi görmə, proqnoz vermə metodları yarandı. Lakin hələ bu elm öz *missiyasini* tam yerinə yetirə bilməmişdir.

Bu günkü dövrümüzdə elmin mənası Aristotel dövründən başlamış 20-ci əsrədək təbiət obyektlərini *təsvir etməklə* deyil, yaradıcılıq dövrü kimi yeni nəzəriyyələr, ümumiləşdirmələr, yeni proseslər, texnologiyalar, maşın və texnika, bioloji məhsullar *yaratmaq* – dövrü kimi səciyyələnir.

Yaradıcı düşüncənin əsas şərti - həmişə obyektin ənənəvi təsvirindən, başqa sözlə, baxılan məsələyə ənənəvi baxışdan imtina etməkdir. Yəni şübhə etmək və funksiyanı yenidən material hissələrlə konstruksiya etməkdir.

Yaratmaq üçün sistemin tərkib hissələrini və hissələr, parametrlər arası asılılıqları bilmək lazımdır. Müxtəlif biliklər bizi əhatə edən dünyanın, mühitin, şeylərin müxtəlif modelləridir.

Elementləri - dəyişənləri 10 – dan çox olan böyük sistemlərdə əsasən düşünmə mexanizmi - metaforadan (yəni prosesi, hadisəni başqa hadisəyə köçürmək, oxşatmaq) istifadə edilir. Hadisələr çox amilli – 10 dəyişəndən artıq olduqda, insan ağlının dərk etmə və yaratma qabiliyyətini məhdudlaşdırır. Sistemin gələcək vəziyyətini onun 2 parametrdən artıq dəyişəni olduqda demək hədsiz çətindir. Ona görə böyük sistemləri dərk etmək üçün yeganə yol onların formal riyazi modelini qurmaqdır. Böyük sistemlərdə fərziyyə söyləmək çətindir, bu səbəbə görə lazımı bilik çatmadığı üçün sistem çox sadələşdirilir. Xətti, qeyri - xətti asılılıqları, statik ya dinamik sistemləri, giriş və çıxış parametrlərini bilmək lazımdır. Modelləşdirmənin özü böyük bir qabiliyyətdir və çox çətindir. Böyük sistemlərin identifikasiyası zəruridir, onun davranışını müəyyən etməyə çox hallarda nə qabiliyyət, nə intuisiya inkan vermir. Obyektdə hansı qanunauyğunluqların olması haqda biliyin olmamasını kompensasiya etməyə bəzən model qurmağa metod da olmur. Mürəkkəb sistemlərin həlli üçün *Mozaik portret üsulu* yaradılmışdır (10 Кац М.Д. 2003 ).

Yaradıcılıq alqoritmində qəbul edilir ki, inkişafın və ya yeni vəziyyətin səbəbi ziddiyyətlərin nəticəsidir. Həqiqətən də, texniki ixtiraların edilməsi texniki ziddiyyətlərin tapılıb həll edilməsi prinsipi ilə edilir. İxtira və yaradıcılığın əsas problemi məsələni düzgün dərk etməkdir, başqa sözlə, məsələni yenidən dəqiq formulə edərək, *nə lazımdır?* sualına cavab vermək lazımdır, yəni məqsədi düzgün formulə etmək lazımdır. Ondan sonra məsələ adi vasitələrlə çox asan həll olunur.

----------------------------

## Son söz

Bu kitabın ümumi nəticəsi odur ki,

1. Dünyada və sizin mühitinizdə etmək istədiyiniz ağıllı bir işdə, hər hansı bir fəaliyyətdə onun, hər şeyin həmin zaman və yerdə ən optimal (səmərəli, az zərərli, ağıla uyğun, gələcəyi nəzərə alan, rasional) ağıllı üsulu, forması, ardıcıllığı vardır. Məhz birinci növbədə onu tapmaq və bu yola uyğun fəaliyyət , davranış seçmək lazımdır. Bu fikir rasionalıq prinsipidir ki, onu müəllif formulə etmişdir və belədir: *hər şeyin müəyyən zaman və məkanda ən yaxşısı var.*

2. Şeylər, məqsədlər vacibliyinə görə prioritetlik, birinci dərəcəli, ikinci və üçüncü dərəcələrə bölünür.

Bu iki biliyi isə yalnız kollektiv yaradıcılıqla düz tapmaq olar. Tək adamların ağlı bunu tapmağa kifayət deyil, xüsusilə əgər bu adam dövləti idarə edirsə, bu bilikləri nəzərə almadan idarə etmək fəlakətdir.

İnsanların, dövlət və idarə rəhbərlərinin, menecerlərin əsas səhvləri elə bu məsələləri bilməməkdədir.

**İstinad mənbələri**


1. Wendell Bell. [1997] 2005. Foundations of Futures Studies. Volume 1. Transaction publishers. New Jersey. 368 pages.
2. İmanov Həmid. Fəlsəfənin əsasları. Turan evi. 2009. Bakı. 440 s.
3. Murquzov Mirzəli M. Atom Fizikası 2000. Kür nəşriyyatı. Bakı. 466 səh
4. Fəlsəfə. Ensiklopedik lüğət. Azərbaycan ensiklopediyası nəşriyyat birliyi. Bakı.1997. 513 s.
5. Большая энциклопедия Кирилла и Мефодия 2002 (БЭКМ-2002) , Москва. www.km.ru
6. Краткий очерк истории философии. Иовчук М.Т. Мысль. Москва. 1981, 927 səh
7. Новиков И.Д. 1983. Эволюция вселенной. «Наука», Москва.190 стр.
8. Sohail İnayatullah.2003. Methods and Epistemologies in Futures Studies. In Knowledge base of Futures Studies. Millennium edition CD-ROM. Queesland, Australia
9. http:wikipedia.org/wiki/chaos_theory
10. Кац М.Д. Алгоритм изобретения при решении технологических и научных задач. Украинский Промышленный журнал «ММ Деньги и Технология N 6. 2003
11. Mehdi Tofiq. Həqiqətə Pəncərə. Bakı: Səda nəşriyyatı, 2008, 521 s

# Tofiq Mehdi

# Dünya necədir, O necə işləyir?

HİSSƏ İİ.

İİİ DÜNYA - *RUHLAR, FORMALAR, SURƏTLƏR BOŞLUQ*
DÜNYASI - HAQQINDA NƏZƏRİYYƏ

*Yaradıcı ağıl* fəlsəfəsinin mövqeyindən

**Mistik dindən elmi dinə doğru**
**Dinlərin yaranması**
**Ruhlar proroklar vəhylər**
**Tanrı və allah nədir**
**Uğurun səbəbi**
**Dinlrərin evolyusiyası və gələcəyi**







İİ hissənin tərkibi

Giriş. Mistik dindən elmi dinə doğru....................117
Kosmoqoniya. Yaranış prosesinin
dini və elmi izahı................................................123
İnsan və onun ikinci şəxsiyyəti..............................130
Görünməz və qəribə hadisələr ...............................132
Dinlərin yaranması, ilkin fərziyyələr dövrü...........143
Ruhlar......................................................................145
Proroklar..................................................................151
Vəhylər....................................................................157
Tanrı nədir?.............................................................166
Tanrı haqqında tarixi baxışlar və təsəvvürlər .........174
Müasir insanlar tanrını necə qavrayır ....................182
Bəzi faktlar və izahlar ...........................................191
Əvvəldən müəyyən edilmə -
determinizm, yaxud azadlıq? ................................204
Politeizmdən monoteizmə......................................207
Uğurun müəyyən edici səbəbi ...............................210
Gələcək və ruhi varlıqlar........................................215
Dinlərin evolyusiyası və gələcəyi..........................219

İstinad mənbələri...................................................231

**Giriş. Mistik dindən elmi dinə doğru**

İ hissədə müəyyən etdik ki, dünyanı tamamilə komleks olaraq 3 böyük dünyadan təsəvvür etmək olar. İ. *Material* dünya. İİ *keçid* dünyası. Yəni materiyadan təşkil olunmuş dünyaya keçid dünyası və İİİ. *ruhi, formalar, surətlər və boşluq* dünyası. Material və keçid dünyaları haqda və onların ümumi prinsipləri haqda İ hissədə, materiyal dünyanın cəmiyyət qolu hada isə İİİ və İV hissələrdə geniş izahat verdim. Bu İİ hissədə isə ayrıca *ruhi, formalar və surətlər, boşluq* dünyası haqda söhbət edəcəyik.

XXİ əsrdə mənim şəxsi mülahizəmə görə şüurlarda, dünyabaxışlarda yeni böyük inqilab gözlənilir. Elm və texnologiyaların sürətli inkişafı, dünyanın daha dərindən dərk edilməsi insanlara indiyədək naməlum qalan sualların cavabını tapmağa imkan verir. Dinləri qidalandıran bir qrup psixi hadisələr və mühitin naməlum fenomenləri məhdudlaşdırlmayan yeni analitik baxışla izah oluna bilər. Aşağıda belə bir müstəqil və elmi metodlarla silahlanmış özümün formalaşdırdığım *yaradıcı zəka* (*kreativ intellekt) rasionalist fəlsəfi nəzəriyyə* mövqeyindən *ruhlar, formalar, surətlər* aləminin şəxsi tədqiqini sizə təqdim edirəm.

Elmdə gözlənilən bu inqilab fövqaladə qüvvənin və görünməz varlıqların mahiyyətini açacaqdır. Bu inqilab həm nəzəriyyədə olacaqdır, həm də insan beyninin gizli qabiliyyətlərinin kəşvindən və beynin iş prinsipindən ibarət olacaqdır. Əksər suallar elə beyinlə əlaqədar izah ediləcəkdir. Nəzəri sahədə bu, *material, keçid və görünməz dünya haqda, görünməz varlıqlar* haqda ümumi və daha dəqiq ifadə edilmiş izahat, nəzəriyyə olacaqdır. İnsan beyni ilə əlaqədar kəşv bütün evolyusiya dövrü ərzində beyinin yarandığı maddənin və onun elementlərini, strukturunu, düşüncə və yadda saxlama prosesində elektrik və kimyəvi proseslərin xarakterinin və yatmış qabiliyyətlərin üzə çıxarılması, beyinin dünyanın səthindən, hadisələrindən, duyğular və naməlum üsulla qəbul etdiyi məlumatı ağıl vasitəsilə avtomatik analizi və intusiya vasitəsilə aşkar etməsini; tarix ərzində baş vermiş hadisələrin, biliklərin genlər vasitəsilə yeni nəsilə ötürülməsi mexanizmini açacaqdır. Bir çox sullara cavab tapılacaqdır. Kvant Sahə Nəzəriyyəsini tətbiq etməklə bir çox fenomenlər izah ediləcəkdir. Artıq elə indi xeyli faktların izahı verilə bilər. Bu elmi sıçrayış dinlərə xeyli zərbə vuracaqdır. Bəşəriyyət dinlərin tiraniyasından: inkişafa və elmə qarşı böyük əks qüvvədən, insan azadlığını məhdudlaşdıran və insan qruplarını və sivilizasiyalarını ayıran, düşmən edən dini idarə və ruhanilərdən xilas

olacaqdır. Bütün teist dinlər yenidən reforma olunmaq zərurəti qarşısında qalacaqdır. Əgər dövlətlər demokratiya, azadlıq, azad fikir, həqiqət tərəfdarı olacaqlarsa, bu baş verəcəkdir. Lakin dövlət postlarında kimlər oturub, onlar kimdirlər ? Bu göstərilən ideyalar nə vaxt onların xoşuna gəlmişdir? Bir dövlət liderini göstərin ki, onun xoşuna bu sözlər gəlir.Yeni peşələr olan futuroloq, psixoloq peşələri siyahısına, spiritoloq, tale konstruktoru (fate designer), sosial sistem designer, naturoloq, bioloji enerji korrektoru, emosiya korrektoru, filosof – sosial konstruktor peşələri də əlavə olunacaqdır.

O gündən ki, Orta Şərqdə, ayrı - ayrı şəxslər hakimiyyət, varlanmaq, ərazi tutmaq, hegemonluq, nüfuz uğrunda şəxsi strategiya qurub onu ilahi maskası ilə örtüb (özünü ilahi tərəfindən hakim təyin edildiyini və icra etmək üçün xüsusi tapşırıqlar aldığını elan etməklə) insanlara nəyin yaxşı, nəyin pis; nəyin xeyir, nəyin şər olması haqda, habelə nəyə inanmaq, nəyə inanmamaq; nəyə sitayiş etmək, nəyə etməmək kimi öz şəxsi baxışlarını zorla qəbul etdirməyə başladılar - insanlığın bədbəxtliyi başladı. İnsanlar, xalqlar düşmənlərə, yadlara, rəqiblərə çevrildilər. Müharibələrin, konfliktlərin, ədalətsizliklərin miqdarı 2-3 dəfə artdı. Bu təlimlə yanaşı onların bu təlimlərini qəbul etməyənləri, habelə başqa inam daşıyanları kafir, düşmən elan etmək, onlara nifrət, öldürmək, vuruşmaq və ağır cəza vermək, insan saymamaq təbliğatı da aparılırdı. Bu, xüsusislə, məhdud miqdarda - yəhudi və saysız miqdarda göstərişlərdə -islam və müəyyən gizli və bir neçə göstərişdə xristian dininə aiddir. Belə dini təlim və özgəyə düşmənçilik və nifrət təbliğatı insanların və xalqların yaşadıqları ərazidə təbiətlə harmoniyada əldə etdikləri optimal həyat tərzini fərdi və toxunulmaz həyat seçimlərini (nə yemək, nə geymək, necə yaşamaq, fərdi inanclarını), eynilə icma həyat tərzini pozurdu. Onu bir şəxsin özünün nümunəsinə süni oxşamağa məcbur edirdi. Deyərdim ki, bu elə insanlığa qarşı bir cinayət idi. Optimal həyatın pozulması idi ki, bu da insana əlavə narahatçılıqlar gətirirdi.

O vaxta qədər təbii evolyusiya nəticəsində insanlar heyvan tarixlərində əldə etdikləri ailə, dəstə instinktlərini saxlamış və daha ağıllı varlığa çevriləndən sonra isə onların qəbilələri, tayfaları, ilk cəmiyyətləri, dövlətləri meydana çıxmışdı. Belə təşkilat və birgəyaşayış nəticəsində onlarda artıq əxlaq, həyatda yaşamaq vərdişləri, qidalanmaq, ünsiyyət, bir –birinə qayğı, idarəetmə elementləri daha yüksək inkişafa çatmışdı. İnsanlar heyvan dövründən xeyli uzaqlaşmışdılar. Onlar bütün həyat tərzlərini, davranışlarını, qidalanmağı kollektiv təcrübədə müəyyən edirdilər. Heyvan dəstələrində heyvanlar nəyi yeməyi, nəyi yeməməyi təbii təcrübəyə

görə; necə davranmağı dəstədə yerinə və şəxsi ehtiyacına görə müəyyən edirdilərsə, insanlar da elə müəyyən edirdilər. Onlara əlavə göstərişlər lazım deyildi. Onsuz da təbii *universal təkmilləşmə* (rasionallaşma) *qanununa* uyğun olaraq onların həyatı təkmilləşirdi. Bu, icmada təbiəti və birgə həyatı öyrənmə-ağılın artması və qonşularda baş verən təkmilləşmə nəticəsində baş verirdi. Deməli, onların adət etdikləri mədəniyyətdən, davranışlardan sapdıran bir şəxsi (peyğəmbər ya çarın) subyektiv göstərişə, kaprizə ehtiyacı yox idi. Qarşılıqlı əlaqələr və yaşamaq uğrunda çalışmaq nəticəsində hər şey təbii, öz axını ilə öz layiq olduğu yeri alırdı, daha yaxşı formaya düşürdü. Şəxsi strategiya qurmuş belə *zirəklər* insanların təbii təkmilləşmə ehtiyaclarını tez anlamaqla məhz ondan istifadə edərək, öz şəxsi mənafelərini də bu reforma hərəkatına, özgələr hələ anlamadan, daxil edirdilər. Və hamısını allahın adından icrası vacib ideya kimi insanlara – zorla, qorxutmaqla, təbliğatla - icra etdirirdilər. (Zərdüştü, Buddanı, Konfuçini, şübhəsiz, bu qrupa qatmağa kifayət əsaslarımız yoxdur). Bu zirəklər cəmiyyəti təkmilləşdirməklə irəli aparmaq, lakin onu öz mənafelərinə uyğun əyməklə aparmaq funksiysını icra edirdilər. İndiki dövrdə necə ABŞ, NATO, Avropa ittifaqı və digər güclülər *insan hüquqları,aşkarlıq, bərabərlik, demokratiya* ideyaları vasitəsilə qalan digər xalqların həyatına daxil olur və özlərinə faydalı idarə edir və istifadə edirlərsə, o dövrdə də zirək puhanilər, peyğəmbərlər *əxlaq, insanlıq* ideyaları ilə maskalanaraq ətraf insanları və xalqları öz mənafelərinə uyğun istifadə edirdilər. Bununla insan cəmiyyətinin təbii, kollektiv fəaliyyətlə gedən normal evolyusiyası pozuldu. Qəbilədə, sonra dövlətdə şəxsi diktatura; mənəviyyatda isə ruhaninin dini diktaturası insanları kollektiv idarədə iştirakdan məhrum etdi. İnikişaf bir tərəfli, qeyri - optimal, irrasional formada getdi. *Bu böyük səhvi - dünya inkişafını onun mənfi, təhlükəli tərəfə əyən(siyasi və dini diktatorların və ya qrupların öz şəxsi mənafeyini cəmiyyətə sırımaq və onu öz mənafeyi və harın yaşaması üçün vasitə etməsi) xətti düzəltmək, onu optimal, ağıllı yola tərəfə yönəltmək vaxtı artıq gəlmişdir.*

2 milyard insanın başı bir dini ideya ilə, digər 1.5 milyard insanın başı başqa dini ideya ilə, yerdə qalan müxtəlif xalqların, millətlərin başı digər başqa ideyalar ilə, bundan başqa milyonlarla adamın başı bu ya digər dünyəvi ideya ilə aldadılır, onlar dünyəvi yaxud dini diktatorun yaxud qrupun mənafeyinə uyğun əhliləşdirilir, tabe etdirilir və vasitə kimi istifadə edilir. Nə üçün? Elm var ikən insanlara hər hansı bir sübut olunmamış fərziyyələri, uydurulmuş mifləri, yalan məqsədləri nə üçün demək lazımdır? Nədir məqsəd?

Zaman biliksiz, elmsiz, mistik dövrdən xeyli keçmişdir. Bəşəriyyət uşaqlıq çağından böyümüşdür, indi ağıl dövrünə qədəm qoyur. Müxtəlif cür təsəvvür edilən Allah üzərində qurulmuş dinlərin ruhaniləri zamanın keçdiyini, elmin dini əvəz etdiyini, elm - texnika dövrünün gəldiyini sanki görmürlər. Fövqaladə qüvvələrə inanan dinlər daş dövrüün və quldarlıq və erkən feodalizm quruluşunun mifik baxışlarını bu günə qədər gətirmişlər. Kapitalizmin yaranması ilə isə xristianlığın ona faydalı olan yeni protestantizm qolunu yaratmışlar. Onlar sanki elmdən çox bildiklərini hesab edirlər. Elm isə onların uydurmalarını və eqoismini bir-bir ifşa edir. Amerikan filosofu Tomas Peynin dediyi kimi, "istər yəhudi, istər xristian, istər islam olsun-onların məqsədi biznes və hakimiyyət ələ keçirmək üçün qurulmuş manopoliyadır". Müasir dövrdə isə belə dinlər özlərini yaşatmaq üçün daha çox, hakimiyyəti ələ keçirmək deyil, mənəvi əxlaqi təlimlə və təbliğatla maskalanaraq dövlətlə gizli müqavilə bağlamış və dövlətin müdafiəçisi rolunda və insanların mənəvi aləminin istismarçısı kimi çıxış edir və onların başını mücərrəd dini milərlə (dini tiryəklə) dumanlandıır, sərbəst düşüncədən məhrum edirlər və onların hesabına hədsiz gəlir alırlar. Dövlət (varlı siyasi siniflər) üçün müti, etiraz etməyən, zülmə dözən vətəndaş yetişdirirlər. Demokratiyaya, həqiqətə, aşkarlığa əks mövqe tutaraq, dövlətin ekspansionist, öz xalqına qarşı istismarçı, varlıları müdafiə edib kasıb etdiyi insanları dözüm sərhəddində saxlayan və dünyada hegemon siyasətini, müdafiə edirlər. Təsəvvür edin ki, nə üçün İran və Ərəb xalqları mollalar, ruhanilər əlində qalmışdır? Bu molla rejimi insanlara necə paltar geymək, nəyi yemək, nəyi yeməmək, kimlə yolla getmək, kim ilə söhbət etmək, necə düşünməyi, nəyi düz, nəyi səhv hesab etməyi zorla diqtə edir. Onlar bunu necə edir? Məgər insan ağlı müstəqil düzgün seçim edə bilmir? İslam şurası İranda cəmiyyətin bir zaman eyforiyasından, avamlığından, şah rejimindən təngə gəlməsindən istifadə edərək hakimiyyəti 1979 ildə əlinə keçirmişdir. Sonra konstitusiya yazmış, özünün aparıcı, rəhbər edici rolunu qanuniləşdirmiş, referendum yolu ilə xalqa qəbul etdirmişdir. Bununla özünü əbədi rəhbər etmişdir. Hərbi qüvvələrin başçılarını özü təyin edərək, islam keşikçiləri - dini polisini yaradaraq, dini diktatura yaratmışdır. Bu vəziyyəti davam etmək üçün insanların beynini gündəlik yuyur, islamı tək bir düz dünyagörüş kimi təbliğ edir, dindarlığı artırır, insanların şüurlarını ruhaniyə müti qul olmağa hazırlayır, insanları islama sitayiş etməyə məcbur edir, onların azad fikirlərini qadağan edir. Bu sistem belə işləyir və insanların bu konstitusiyanı dəyişməyə ağılları və ya gücləri çatmır. Dini diktatura rejimi İran millətinin və digər müsəlman

teokratik dövlətlərinin xalqlarının boğazından ağır bir daş kimi asılıb onların insan inkişafının qarşısını alır. Maraqlıdır ki, dünyada teokratik rejimlər yalnız islam dövlətlərində qalmışdır. İslam teokratiyası, eynilə dünyada olmuş digər qeyri dini qrup demokratiyası rejimləri – Sovet, Avropa kommunist rejimləri, nasional sosialistlər və s. quruluşlar, tarix göstərir ki bütöv cəmiyyətə faydalı olmamışlar, yalnız hakim sinfin mənafeyini qorumuşlar. Buna görə də bəşəriyyət hər hansı bir partiyanın, qrupun hakimiyəti əlinə almasına yol verməmlidir.Yeni-hamının azad iştirak edə biləcəyi siyasi sistem qurmaq haqda düşünməlidir.

Eynilə xristian fundamentalistləri daim insanların azad həyatına qarışır, hər şeyin dinə tabe etdirilməsinə, şüurların dini uydurmalarla doldurulmasına çalışır.

Məgər 1400-2000-4000 , habelə 100 min il əvvəl vəhy alanlar indiki vəhy alanlardan daha ağıllı idilər? Məgər keçmişdə proroklarin aldığı vəhylər daha səlahiyyətli inandırıcıdır, nəinki indiki vəhy alanların vəhyi? Müasir vəhy alanlar haradan vəhyi alırlarsa keçmiş adamlar, habelə proroklar da həmin mənbədən alırdılar. Ona görə də birini peyğəmbər sayıb digərini saymamaq səhv işdir. Onların hər biri, nə sayırsınız - sayın, vəhy almağa görə eyni statusludur. Kitabda vəhy almayan, lakin yalandan vəyh aldığını deyib müxtəlif şəxsi mənafeyinə uyğun və bəşəriyyət əleyhinə fikirlər uyduran adam peyğəmbər sayılmır.

Keçmiş, 50-100 min illər, dövründə ən qədimdən başlayaraq insanların gözünə əvvəllər tüklü yarım meymun adamlar görünürdü, zaman keçdikcə bu görüntülər də evolyusiya edərək müasir insan surətlərilə əvəz olundular, ən qədim görüntülər yoxa çıxdı- sadəcə maddi obyektlərə hopdü, enerjisini itirdi, “yuxu” dövrünə keçdi, lakin onların nadir nüsxələri hansısa yol ilə - faktlar göstərir ki - qalmışdır, hətta evolyusiya etmişdir. Buna misal üçün meymuna və insana oxşar quyruqlu, habelə qeyri- adi vəhşi heyvan -insan görüntülərini göstərmək olar ki, bəzi insanlara rastlaşır.

Allahın dini anlayışı onun elmi anlayışından xeyli fərqlidir. Göy allahına inam dinləri daha qədimdən şüurlarda yaranmış bu anlayışı mistikləşdirərək çalışır ki, həqiqəti, ağılla dərk edilə bilən bu obyekti elə qarışdırsın ki, onu elə sirli anlanmaz təqdim etsin və ruhanilərə faydalı olacaq xassələr yazsın və onun reklamı, təbliqi və uydurduğu xidmətlər vasitəsilə yaşasın (gəlir alsın). İnsanları qula, tabe olana, onları eşidənə çevirsin və onların sueverliyi, avamlığı, biliksizliyi əsasında onları öz xidmətlərinə müştəriyə çevirsin.

Sovet dövrü sübut etdi ki, dinsiz də daha yaxşı yaşamaq olar və burada daha yüksək əxlaqi etik həyat, humanism, insanın insana qayğısı, anlaması, cinayətlərin, xətaların xeyli azalması əldə edilmişdir. Lakin 1991-ci ildən sovet sistemi dağıldıqdan sonra dinlər bərpa olunmağa başladı və əxlaqi etik həyat xeyli pisləşdi, oğurluq, aldatma, fırıldaq adi həyata çevrildi. Bu sübut edir ki, din ictimai həyatda heç bir faydalı rol daşımır, əgər dəfn mərasimini nəzərə almasaq, hansi ki onu da dinsiz təşkil etmək olar.

Elm nümayəndələri isə şəxsi mənafe güdmədən ilahinin (habelə, reallığın təbiətin, kosmosun) nə olması və ondan necə faydalanmaq olar?- sualını araşdırmağı və insanlara necə yaşamaq haqda məsləhətlər verməyi öz vəzifəsi sayır. İlahinin elmi anlayışının yaradılması b.e.ə.V əsr Ksenofandan başlayır, Epikur, Sokrat, Platon, Stoiklər, Sufulər - Mənsur Həllac, Nəsimi; İbn Sina, Ömər Xəyyam, leybniç, Kant, Hegel xətti ilə onun daha dərindən dərki və təsvir edilməsi davam edir.

Bəşəriyyətin əldə etdiyi bilikləri və reallıqları analiz etdikdə görürük ki, bütün düzgün və səhv biliklərin, həqiqət və uydurmaların, yaxşı çağırış və şüarların məqsədi yalnız və yalnız yaşamaq, hakimiyyət, dominantlıq olmuşdur. Yəni bu biliklər yalnız şəxsi mənafeyə xidmət edir və onların elan etdiyi məqsəd - insanları xilas etmək üçün istifadə olunmur. Onlar yalnız bu ya digər davranış üçün, insanları aldatmaq, çaşdırmaq, inandırmaq üçün, maska rolunu oynayır.

Müasir fizika elminin nailiyyətlərinə əsaslanıb demək olar ki, dünya vahiddir, bütün dini təlimlərin ruh, cin, şeytan, mələk, allah adlandırdığı varlıqlar fiziki mahiyyətə malikdir, reallığın xüsusi növüdür. Onların ümumi mahiyyəti müəyyən informasiya daşıyan hər hansı bir fiziki- gerçək yaxud virtual sahədir- qaydalanmış zərrəciklər çoxluğudur, sadəcə onları informasiya energetik strukturlar alandırmaq olar. Maraqlıdır ki, tarixdə bu haqda ilk düzgün məlumatı verən Avesta olmuşdur, mənbə həmin mələkləri yaxud ruhları qəzəb, sevgi, acıq, şər və s. hisslər olan varlıqlar (yəni müasir dildə informasiya) olduğunu qeyd edir (1, 70-90 ). Onlar informasiya olduqları üçün müəyyən hallarda idarə olunan məqsədli sorğulara reaksiya verir və ya özləri informasiya qəbul edən ən yaxşı qəbuledici- deşifrator olan insanla kontaktda ola bilir.

Dünya tezliklə kainatın - nə var - böyük nəzəriyyəsini tam tərkibdə alacaqdır. Hətta eksperimentlər qoyaraq həmin fövqaladə hadisələri, hətta belə adlandırılan : fövqaladə allahı, şeytanı, cini,

mələyi özü yaradacaqdır və nümayiş etdirəcəkdir. Təsəvvür edin, belə varlıqlar düşmən tərəflərin əlinə düşsə nə baş verəcəkdir.

Mənim rolum bu kitabda o böyük nəzəriyyənin bəzi fraqmentlərini-izahları elan etmək və ümumi nəzəriyyəyə doğru yaxınlaşmaq və bir çox baryerləri aşmaqdır, yeni baxış və düşüncə yaratmaqdır. Əlbəttə böyük tədqiqatçılar, orijinal talantlarla, fiziklər, bioloqlar, elektronçular, ezoterik elmlərin mütəxəssisləri , , obyektiv faktların toplanması, belə hadisələr görmüş adamların cəlb edilməsilə, bir neçə min eksperimentlərlə, maliyyə ilə bu iş görülə bilər. Belə komanda tam nəzəriyyəni hazırlaya bilərdi.

***Yaranş prosesinin dini və elmi izahı.***

Fizika doktoru, Pedaqoji universitetin professoru Murquzov Mirzəli fizikanın sübut etdiyi biliklərə əsalanaraq qeyd edir ki, əgər biz ideal əks etdirici divarlara malik qabda vakuum yaratsaq və bir deşikdən oraya göy işıq göndərsək qabın daxilində əsil yaradıcı proses başlayacaqdır, fotonlar toqquşaraq iki elektron yaranacaqdır. Həmin qabı qızdırmaqla təcrübəni davam etdirsək, qabda protonlar, neytronlar, lazımı zərrəckilər, yəni maddənin yaranması üçün bütün materiallar yaranacaqdır. Nəticədə yaranmış maddə, antimaddə və elektromaqnit şüaları arasında tarazlıq yaranacaqdır ki, bu da bizim kainatın malik olduğu bütün komponetləri deməkdir (2, s.159-163 ).

Keçid dünyasında meydana çıxan kütlənin topalara cəmləməsi-fluktuasiya, təzyiq, temperatur, elektrik yükləri, müxtəlif işıq-elektromaqnit dalğalar, ildırım və burulğanlar, kənardan partlayışlar və onların dalğalarının iştirak etdiyi qarşılıqlı təsir əlaqələri maddənin yaranmasında yaradıcı funksiya daşıyırlar. Keçid dünyaya nümumə kimi ulduzları, günəşləri, qara deşikləri və qara “maddəni” göstərmək olar ki, onlar hamısı zərrəciklərdən təşkil olunmuşlar. Allahın vacib zəruri əlamətinə, xüsusilə yaradıcı xassəsinə görə elə onları allah hesab etmək olar. Nəticədə keçid dünyasından material dünya elementləri yaranır. Lakin o allahlar keçid dünyasında işləyir və yer dünyasının allahı funksiyasını yerinə yetirmirlər. Bu hadisələrin əsas səbəbi isə yenə də hər bir hissəcikdə olan 4 xassədir: qravitasiya (cəzb etmə, itələmə), güclü nüvə, elektromaqnit və zəif parçalanma qüvvələri ( 3, s.184 ). Burada cəzbetmə, insani münasibət dilində desək, məhəbbət, bilavasitə birinici yaradıcı funksiyanı icra edir; itələmə isə hər bir varlığı izolyasiya edən avtonom vəziyyət əmələ gətirən, brləşməyə (varlığa) struktur verən, onu qoruyan funksiya daşıyır. Deməli, əsas yaradıcı səbəb yenə də şeylərin özü və onların

digərləri ilə qarşılıqlı əlaqələridir. Yəni xassələrə malik varlıqlar çoxluğu (yəni 2 və ondan çox üzvə malik çoxluqlar) özləri, xassələri işlədiyi zaman allahdır. Başqa sözlə, xassələrə malik *iki şey mühitin* olması ilə qarşılıqlı *əlaqəyə* girdikdə allah doğulur- yəni yaradıcı funksiya işə düşür, yaratma prosesi başlayır. Yəni harada əlaqəyə girən varlıqlar varsa, orada allah var, yəni varlıq olmasa allah da olmaz. Deməli, material dünyanın allahı bu dünya yaranması ilə paralel yaranır və evolyusiya edir. Dünya yaranmasa allah da yaranmaz. Allahın olması üçün azı əlaqəyə girə bilən iki **varlıq** və onların **əlaqəsi** və **mühit** olmalıdır, yəni 3 amil olmalıdır ki, onların nəticəsində 4-cü amil -yaradıcılığın məhsulu alınır. Deməli allah yaradıcılıq prosesndə daim 3 elementli tərkib hissələrinə malikdir. 4-cü element -nəticə isə bu yaradıcı tərkibə qatılaraq dinamik yaradıcııq prosesi- dinamik yaradıcı allah meydana gəlir Bunlardan təkcə biri və ya ikisi olduqda allah işə düşmür, hər üçü uyğun olaraq olduqda yaradıcılıq prosesi başlayır.

Hər 3 : 1)*material,* 2) *keçid: hissəciklər- sahələr* və güman ki, 3) *surətlər, formalar, ruhlardan* ibarət dünyalarda hər birinə özünəməxsus mühit və xassələrə malik konkret varlıqların olmasına görə məhz bu 4 ilkin fiziki xassələrin həmin mühitdə qarşılıqlı işi nəticəsində yeni yaranışlar, hadisələr, habelə törəmə yeni xassələr meydana çıxır (bax hissə1). Bu tezisdən yenə belə tezis alırıq ki, allah məhz *varlıqlar, xassələr və mühitdən* ibarətdir. Lakin bu allah eyni bir ədalətli, eyni məqsədli, həmişə yaxşılıq edən və ya pislik edən allah deyildir. Yaratmaq onun ümumi xassəsidir. Lakin bu yaradılış kim üçünsə ya yaxşıdır, ya pisdir. Yaranış burada məqsəd qoymadan bütün iştirakçı amillərin gücləri, keyfiyyət dərəcələrinin müəyyən proporsional əlaqəsinin zəruri nəticəsidir. Nəticədə yeni yaranış, yeni forma meydana gəlir və bu prosesdə əlaqəyə girən tərəflər öz xassələrini həyata keçirirlər, doyurlar, rahatlanırlar, müvazinətləşirlər, dayanıqlı olurlar, yeni məhsul yaranır.

Qeyd etməliyəm ki, qədim zamanlardakı çox allahlıq inancları heç də səhv olmamışdır. Təsvirdə biz gördük ki, material dünyada allahlar çoxdur, nə qədər varlıq varsa, o qədər də allah (hissəsi) vardır, hər şeyin üzərində öz allahı-yəni mühit daxilində onu idarə edən bir allahı, yəni bir ən zəruri idarəedici amil vardır. Özü isə başqaları üçün allah funksiyasını (başqa amillərlə birgə) icra edir.Yerin və onun üzərindəkilər üçün daha ümumi allah günəşdir. Günəşin allahı isə süd yolu qalaktikasıdır. Kiçik və böyük, zamana görə allahlar vardır. Hər şey iki funksiya daşıyır: 1) yaradan, idarə edən və 2) tabe olan və idarə olunan. Yunanların külək, dəniz, məhəbbət, günəş, ildırım və s.

allahlarını qəbul etməsi tamamilə düzgün idi. Bu həqiqətdə belədir. Onlar yaradıcı xassəyə malikdirlər. Elə keçid dünyasında da küləklər, ildırım, işıq, istilik allah (onun zəruri hissəsinin) funksiyasını icra edirdi.

Müasir tək ilahiyə inanc dinləri də deyirlər ki "allah birdir, çox deyil". Bu ifadəni necə başa düşmək lazımdır? Yuxarıdakı təsvir bu ifadəni çox asan izah edir. Yəni biz hər birimiz və hər bir material obyekt, cisim, canlı: bitki, heyvan daim bir allahla üzləşirik, hökmən mühit elementlərinin daxilində və iştirakı ilə. Gah bu amil (məsələ) bizim və ya digər şeylərin tək allahımız olur, gah digər amil (amillər içərisində). Bunlar hamısı müxtəlifdir. Lakin yerin digər sahəsində digər adamı isə onun öz allahı (həmin zaman idarəedici amili) idarə edir. Onun bizə dəxli və təsiri yoxdur. Demək, konkret həyat prosesində ümumi, hər şeyi yaradan və idarə edən eyni bir allah yoxdur. Bütün bəşəriyyətin və canlıların daha ümumi allahı günəşdir. Nəticə olaraq deməliyəm ki, dinlərin dediyi "allah təkdir, vahidir, əbədidir" ifadəsi düz deyil. Hər 3 dünya allahı fərqlidir, eyni, vahid deyil, hər dünyanın hissələri qarşılıqlı əlaqəyə girərək yaradıcı və idarəedici xassəni – öz allahını və ya hər spesifik yerdə və zamanda öz allahlarını meydana çıxarırlar. Lakin teist dinlər bunu qəbul etmirlər, onlar təbiətdən kənar bir abstrakt şey uydurаraq ona allah deyirlər. Lakin həmin allah elə təbiətdən kənar materiyaya keçid dünyasında doğrudan da var, halbuki dinlər bunu bilmirlər, lakin bizi o idarə etmir, bizi bizim öz yerdəki allahımız idarə edir, harda ki biz özümüz də onun bir zəruri hissəsiyik. Material dünya və ya obyekt məhv olduqda onda yaranan allahın özü də, əməli də, funksiyası da məhv olur. Keçid dünyasında isə oradakı hissəciklərin əlaqələri nəticəsində yaradıcılıq-allah meydana gəlir və nəticədə material cisimlər günəşlər, planetlər yaranır. Lakin keçid dünyasının allahı daha material obyektlərə, məsələn, Yer planetinə təsir etmir və idarə etmir və yaxud bu təsir əhəmiyyətsizdir. Material dünya elementlərinin (məsələn, yer üzvlərinin) öz əlaqələri nəticəsində yaradıcılıq – allah meydana gəlir. Beləliklə, dünyada tək bir allah müşahidə etmirik. Hər şeyin öz allahı (yəni yaradanı və idarə edəni) var. İnsan cəmiyyətində də eyni bir allah yoxdur. Xristianlar təsadüfən allahı şəxsi hesab etmirlər. Və hesab edirlər ki, bir olmaqla allah hər insana ayrıca şəxsi formada aşkar olur və öz funksiyasını yerinə yetirir. Bunu düz edirlər, belə ki doğrudan da hər insan üçün onun öz şəxsi allahı – yaradıcı idarə edici mühit, hansı ki insanı əhatə edən elementlərdən (sosial, təbiət, siyasi, iqtisadi, mədəniyyət, keçmiş biliklər) və onların qarşılıqlı təsirindən , habelə insanların öz qarşılıqlı əlaqəsindən formalaşır- həmişə var, o öldükdən

sonra onun allahı da yox olur. Lakin belə dinlər allahı belə təsəvvür etmirlər. Onların bütün ideyalarından belə məlum olur ki, onlar dünyadan kənar bir abstrakt naməlum varlığı, daha doğrusu insan xarakterli ruhu allah hesab edirlər. Bunu düzmü edirlər? Buna sübutlar yoxdur. Bütün kainatla əlaqəsi olan, ruhları görən insanlar (habelə özüm) aşkar etmişik ki, ruhların bütün mövcud olma zamanı, fəaliyyət hədləri vardır. Onlar heç də yaradıcı, idarəedici deyillər, onların yalnız şüurlu varlıqlardan-insandan və heyvandan törənən nümunələri yalnız şüurlu insana (heyvana və bitkilərə təsiri aşkar edilməmişdir, bizim hələ bu halları aşkar etmək alətimiz yoxdur) bəzən müəyyən təsir etmək, kontakta girmək, məlumat, məsləhət vermək, kömək etmək, habelə zərər vermək təsirləri haqda faktlar vardır. Hələ ruhlar bir daşı digər daşın üstünə qoyub bir şey yaratmamışlar. Ruhlar ifadəsini işlətmək də hələ dəqiq deyildir. Onların güman ki, müşahidələr göstərir ki, müxtəlif növləri vardır: işıq nöqtəsi kimi görsənən, insan siluetinə oxşar lakin parlaq işıqdan olan və ya canlı real formada görünən, danışan, danışmayan, formalarını dəyişən, real tanış insan formasına düşən və oxşar davranan, xeyirli, zərərli). Beləliklə ruhların heç bir növünə allah demək olmaz.

Biliksizlik və məlumatsızlıq lilahiyə əsaslanan din üçün qida mənbəyidir, dini yaşadan vasitədir. Belə ki, onlar bilirlər ki, daim hansısa bilik çatmır, insan birdən birə hər şeyi bilə bilməz. Buna görə də deyirlər ki, dünya və allah dərk edilməzdir. Harada bir qaranlıq, naməlumluq qalırsa onlar deyirlər “allah bilər”. Başqa sözlə, əslində onlar naməlumluğu allah hesab edirlər və naməlumluğa sitayiş edirlər ki, o yaxşı nəticə versin, uğur gətirsin. Elm isə bu naməlumluğu öyrənir və onu biləndən sonra fəaliyyət və davranış planı irəli sürür, insanın problemini həll edir. Dünya və allah dərk ediləndir.

Göstərilən nəzəriyyənin mövqeyindən bəzi dini ideyaları qiymətləndirək.

1) İslam deyir: “Allahdan başqa ilahi yoxdur”. Bu ifadə qeyri- dəqiq ifadədir və nə vaxt? Harada? suallarını meydana çıxarır. Digər tərəfdən ilahi nəyə deyirlər? əgər material dünyadan kənar hansısa yaradıcı, idarəedici obyektə deyirlərsə, (çox güman ki, buna deyirlər) belə bir obyekt digər iki böyük dünyada– 1) *keçid dünyasında* və 2) *qeyri material xəyali surətlər-formalar* dünyasında vardır, (bax hissə 1). Lakin o material dünyanın işlərini idarə etmir, o yalnız keçid dünyasından material dünyanın yaranmasına (virtual hissəciklər, dalğalar, elektrik maqnit xassələri, xassələrin birləşməsi- birgə fəaliyyəti, küləklər tufanlar, təzyiq, teperatur, ildırımlar vasitəsilə) yardım edir-ilkin kimyəvi elementləri yaradır.

Digər tərəfdən, yerdə, xalis material dünyada belə təsvir edilən ilahi aşkar edilmir. Həmin *iki* dünyada fəaliyyət göstərən allah maddi dünyada nə yarada, nə idarə edə bilir. Maddi dünyanın və habelə yerin öz yaradıcı və idarəedici allahı –bu dünyanın daxilində meydana çıxır. Habelə ayın adından götürülmüş allah adlı bu naməlum ilahi hesab edilən bu obyekt də ilahi, yəni *fövqaladə yaradıcı və idarəedici* xassəsinə malik deyil. Demək bu ifadə boş, mənasız bir ifadədir, yaradıcı idarəedici rolunda isə istənilən qədər 3-lük tapa bilərik. Məsələn 1) *kişi- qadın 2) əlaqəsi* və 3) *mühit* nəticəsində 4) *uşaq* meydana gəlir. Deməli, bu komplekt hadisə və iştirakçılar yaradıcı, dini terminlə desək, allah rolunu icra edir. Digər misal, 1) *günəş – mühit* kimi 2) *bitki toxumu* və *rütubətli torpaq* 3)*əlaqəyə* girdikdə 4) *yaranış* baş verir. Demək, burada allah bu hər 3 tərkib hissəsinin birgə işidir. O yerdə ki 3 elementin birləşməsi olmur, orada yaradıcı və idarəedici-allah da olmur.

Müşahidə və faktlara əsasən belə demək olar ki, təbiətdə olan materiyanın müxtəlif növlərinin müxtəlif proporsiyada və hərəkətdə görüşü nə isə yeni bir maddi növ və ya olanın kopiyasını yarada bilər. Bu yaradıcı iştirakçılar komandasının içərisində teist dinlərin ruh, can dedikləri və bizim isə uyğun olaraq müxtəlif sahələr, mental -astral sahə adlandırdığımız elementlər də vardır.

Yerdə canlıların yaranmasını bu dinlər belə təsəvvür edir. Ruh (allah) materiyaya keçir və ya allah sözlə, püləməklə, qovuşmaqla cansız cismə can verir. Allah "ol" deyir, şey olur. Bu qayda ilə bibliya əfsanəsinə görə allah – ruh dünyanı 6 günə yaratmışdır. Atəşpərəsətlikdə hesab edilirdi ki, əvvəl allahlar yaranmış sonra maddi dünya allahlardan yaranmışdır. Zərdüştlüyün fikrinə görə Ahura Mazda bütün dünyanı yaratmışdır. Hər bir maddi şey iki bir birinə zidd iki qüvvədən təşkil olunmşdur (xeyir -şər, isti -soyuq, məhəbbət - nifrət) ( 1, s. 29).

Biz elm adamları isə aşkar etdiyimiz faktlar əsasında fikir yürüdə bilərik. Bu faktlar bunlardır ki, təbiətdə insan, heyvan, cisim *xəyalları,* formaları, *elektromaqnit sahələri* vardır, az öyrənilmiş a*ğ-göy işıq buludu, kvant, torsion sahələri* vardır (bax hissə1). Müəyyən sahələrdə və xarici təsirlərdə maddələrin, kimyəvi elementlərin xassələrinin dəyişməsi fizika elmində məlum hadisədir. Cisim və canlıların xassələri və forması - əslində elə kənar təsirə qarşı öz potensialından və keyfiyyətindən asılı olaraq reaksiyadır, davranışdır. Lakin həmin sahələrin maddəyə necə keçdiyi prosesini və nəticəsini biz müşahidə etməmişik, dolayı sübutlar da yoxdur. Bu sahələr, məsələ ondadır ki, idarə olunmur, bəzən meydana çıxır, bəzən itir. Belə təcrübələr

aparmaq lazımdır. Lakin bunun əhəmiyyəti yoxdur. Dəqiq sübut edilir ki, yaranışın səbəbi məhz təbiət elementlərinin, yəni *olan şeylərin* mühitin zəruri iştirakı ilə qarşılıqlı təsirləri, birgə işi nəticəsidir. Kvant, elektromaqnit, bioeneji sahələrini də, fikirlə göndərilmiş ideya kodunu, aktivləşdirilmiş fikir kodunu da təbiət elementləri saymaq lazımdır, çünki onlar məhz materiyadan törəmədirlər. Belə saymasaq da belə ilk canlının da yaranışı elə belə də olmuşdur- yalnız zəruri kimyəvi elementlər, turşular, maddələr və şəraitli mühit- mexaniki hərəkətlər, külək, ildırım radiasiya, istilik, sahələr və s. bir yerdə işləyərək ilk canlı hüceyrəni yaratmışdır və sonra o təbiətin sonrakı iştirakı ilə evolyusiya etmiş, növləri və sayları çoxalmışdır. Indi də bu proses gedir. Yəni təbiət həm anadır, həm dayədir. Elmin məlumatına görə elə indi də yeni yaranan növlər, yeni viruslar, mikroblar vardır ki, bunlar hamısı məhz yeni mühit komponentləri birliyinin işi nəticəsidir. Burada kənar fövqaladə, ilahi, başa düşülməyən sirli bir element yoxdur. İndiyədək dinlər səbəbi bilinməyən hadisələri ilahinin etdiyini deyirdilər və onu da ruh hesab edirdilər. Lakin indi buna ehtiyac yoxdur. Səbəbsiz heç nə yoxdur, deməli, ilahi anlayışı real biliklər içərisindədir, daha o naməlum ilahi deyildir. Məsələn, əgər əvvəl Günəşin mənasını bilməyib onun idarəedici, həyat verici roluna görə ona ilahi deyirdilərsə, sonra onun nə olduğunu bilib real həyat məsələlərinin təkcə ondan asılı olmadığını görüb ona daha ilahi demədilər, daha da dərinə gedib bütün kosmosu, göyləri, bütün reallığı ilahi hesab etdilər.

Belə bir fikir dəyişiliyinə getdikcə artan miqdarda görüntülərin, xəyalların görsənməsi (əvvəlki insanlarda bu görüntülər hələ təzə başlamışdı və anlaya bilmirdilər), söz, fikir, inamın güclü təsiri və nəticələri də kömək etdi. Onlar (hər millət öz dilində) tanrı adlı ruhi varlıq icad etdilər. İnsanlar tanrı anlayışını yaratdılar. Hətta bəzi kvant, yaxud energetik informasıya buludlarını (qapalı sahələrini) tanrı saysaq belə, əgər başqa komponentlər olmasa və bir yerdə görüşməsə təkcə onun iştirakı ilə (rəhbərliyi idarəediciliyi ilə yox) heç nə yarana bilməz. Məsələn, tək tanrı dinlərinin dediyi kimi torpağa, daşa, heykələ belə tanrının üfürməsilə (birləşməklə) adam yarana bilməz. Güman edirəm ki, əsil materiyal varlıqlar və onların surətləri birləşməklə (ruhla bədənin birləşməsilə) real şeylər yaranmır. Surətlər maddi şeyləri yalnız dinamik, eyni taktda əks etdirir (güzgüdəki kimi) və müstəqil qala bilir. Lakin belə *surət - formaların*, hansı ki əvvəl forması konkret (insan, heyvan, bitki, daş) deyildi, yaranışda necə iştirak etdiyini hələ bilmək mümkün deyil. Lakin hər hansı bir canlı ilə

belə bir forma birləşsə həmin canlının xarakterində dəyişilik baş verməsi məlumdur.

Təsvir edilən yaranış prosesinə naməlum sahənin, mənim gümanıma görə, surətlər dünyasının elementinin müsbət təsiri (yalnız) bu faktla sübut oluna bilər. Bu hadisə 1990-ildə Bakıdan olan bir qadının başına gəlmişdir. O Rusiyada əsgərlikdə xidmtət edən öz oğlunun yanına gedərkən qışda çox nazik paltarda- plaşda olmuş, hissəyə yaxınlaşarkən 3 km yolu qarda 40 dərəcə şaxtada getməli olmuşdur. Bu zaman o qarla örtülmüş dərin bir quyuya düşmüşdür, qorxu içərisində kömək deyib qışqırmış, sonra qəfildən bir işıqlı obyekt ona yanaşmış və ona toxunmuşdur. Bundan sonra qadının dediyi kimi, ona böyük enerji gəlmiş, o asanlıqla çıxmışdır və soyuğu hiss etməmişdir, piyada gedib hissəyə çatmışdır. Qadının nazık paltarda hissəyə gəlməsi və 40 dərəcə şaxtada üşüməməsi əsgərlərdə böyük təccüb yaratmışdır (Space tv Sent/2009). Belə müxtəlif faktlar vardır ki, obyektiv analiz tələb edir, dini izahlar isə müstəqil düşüncədən məhrum olduğu üçün, əsassız kimi əvvəldən rədd edilməlidir.

Belə sual vermək lazımdır ki, belə sahələr həmişəmi iştirak edir? Mən deyərdim ki, onların iştirakı olmadan da proseslər gedə bilər. Bir məsələ qətidir ki, kənar təsir edən obyektlərin əksəriyyəti şüurludur - sanki həyacan, güclü stress, çətinlik halında insanı hiss edir, görsənir, hərəkətə reaksiya verir, bəziləri sözə cavab verir. Şüur isə *müxtəlif dərəcələrdə* olaraq insanlara və heyvanlara aiddir. Müasir elm səhvən deyir ki, heyvanlarda şüur və ağıl yoxdur. Bilmək lazımdır ki, onlar niyə işə qatışıb müharibədə ölümlərin, konfliktlərin, xəstəliklərin qarşısını almırlar, axı hamı onları köməyə çağırır? Bu məsələ böyük tədqiqatlar tələb edir, onları növlərə ayırmaq, xassələrini müəyyən etmək, yaranma və mövcud olma şərtlərini öyrənmək lazımdır. Burada digər bir az ehtimallı fərziyyə vardır ki, bunlar hamısı insan beyninin işi nəticəsi ola bilərdi. Lakin elə faktlar vardır ki, onlar insanın özü ilə əlaqəli deyil. Bir fərziyyə söyləmək olar ki, bütün bu faydalı görünməz obyektlər fikir, söz və güclü emosiyalarla əlaqədardır. Daha aydın desək bunlar hamısı güclü fikirə (arzu, istək, nifrət, paxıllıq) çevrilərək yönəlmiş adama və ya cismə, qurğuya təsir edir. Sadəcə, gözdəymə bu qəbildən olan hadisədir. Onlar bəzən çağırışa gəlirlər, bəzən özləri gəlir, hansısa xəbərdarlığı, məsləhəti vermək üçün.

Əlavə etmək lazımdır ki, ruh adı verilən belə varlıqların öz - özünə yaranması ehtimal olunmur, onlar tamamilə maddi varlıqlar- insan və heyvanlar, bitkilər yaranandan sonra onlardan törəmişdir, ya diri vaxtı, yaxud öləndən sonra. Bəlkə Platon düz deyir - əvvəl formalar olmuş

sonra onlar maddə ilə birləşmiş – şeylər yaranmışdır? Belə olsa qəbul etməliyik ki, hissəciklərdən yaranmış kvant sahələri ayrıca birləşmə - ayrılma (cəzbetmə - itələmə) nəticəsində qapalı *formalar* əmələ gətirə bilərlər. Digər evolyusiya xəttində isə onlar birləşərək atomun hissələrini yaradır, sonra onlar- elektron, neytron, proton - birləşərək atomları və bütöv Mendeleyev cədvəli elementlərini, molekulları və müxtəlif *maddələri* yaradır.

Ola bilər ki, bu sahələr bir həyat sikli bitib - Yerin qalaktikada məhv olub- yenidən həyat
(yer kürəsi) yarananda onlar məhv olmamış, yeni həyatın yaranmasında iştirak etmişlər- digər komanda üzvlərilə birlikdə. Lakin onların müəyyən qədim binalarda, çox insanın olduğu zallarda, Misir ehramlarında, divarlarda əks olunması, sahə kimi qalması aşkar olunmuşdur. Onların dinamik növləri də vardır ki, insanlara görünə bilər. Enerji informasiya nəzəriyyəsi ruhları energetik informasiya strukturları, mental - astral formalar adlandırır (4, s. 9). Mümkündür ki, belə şüurlu obyektin forması sahə kimi fəzada səyahət edə bilər, lakin Yeri əhatə edən qatlardan hələ bir şeyin öz xoşuna kənara çıxması mümkündürmü? Yəni bu məlumat energetik buludu başqa planetlərə uça bilərmi? Onlar divarı, metalları, şüşəni asanlıqla keçirlər. Məlumdur ki, təkcə fotonlar və neytrino qarşılılı təsirdə iştirak etməyərək bütün dünyanı dolaşır. Əgər yüzlərlə eksperimentlər aparılsa və bütün fenomenlər toplanıb araşdırlsa, düşünürəm ki, daha konkret biliklər ala bilərik və şübhələrə və yalan iddialara son qoyular. Bu şüurlarda böyülk inqilaba səbəb olar və çox faydalı nəticələri ola bilər.

**İnsan və onun ikinci şəxsiyyəti**

Yunan filosofu Platon (B.e.ə. 427-348) deyirdi ki, dünyada canlıların və cisimlərin, habelə keyfiyyətlərin (yaxşı, pis, gözəl və s.) bədənsiz Formaları vardır. Həmin formalar materiya ilə birləşəndə həmin şey yaranır. ( 5, s. 127-180 ). Bu fikri belə başa düşmək lazımdır ki, hər bir dayanıqlı və adı olan şeyin konkret forması və tərkib hissələri, strukturu vardır və yalnız belə forma və strukturda o mövcud ola bilər, yəni həmin adı daşıya bilər. Lakin Platon başqa formanı nəzərdə tutur, hansı ki mən onun *xəyal, surət, obraz* kimi olmasını aşkar edirəm və onu 3-cü dünya aləminə aid edirəm(bax hissə1) Forma ideyası bu günkü təsəvvürlərə (məsələn, enerji - informasiya nəzəriyyəsinə) uyğun gəlir. Şeylərin görünməz surətləri, xəyalları (formaları) vardır və hadisələr prosesində onların gələcək

vəziyyəti məhz bu surətlərin qarşılıqlı razılaşması - müvazinətləşməsi (məlumat alıb verməsi-məlumatın birindən digərinə yayılması) nəticəsində hansısa *hadisə, vəziyyət* hələ gələcək baş verməmişdən əvvəl (günlər, bəlkə də aylar və ya illər ) məlumdur (bax hissə İ, gələcəyin nəzəriyyəsinə). Bu fikri belə bir fakt təsdiq edir ki, əgər bizim gələcəyi görmək qabiliyyətimiz olsaydı, gələcəyi deyə bilərdik. Faktiki olaraq bu baş verir. Deyənlər vardır. Mən xüsusilə Forma ideyasını qiymətləndirirəm.

Bir çox faktlar göstərir ki, insanın şüuru ən azı *iki ayrıca şüurdan və ya şəxsiyyətdən* ibarətdir. Bu, psixiatrların təcrübəsində müşahidə olunmuşdur, misal üçün psixi xəstə demişdir ki, “mən özümü iki adam kimi görürürəm, biri deyir ki, özünü pəncərədən at, digəri deyir ki, bu lazım deyil”. Qəribə hadisələr siyahısında ( bax səh 18) bu fikir uyğun faktlarla təsdiq olunur. Bu ikinci şəxsiyyət, görünür, bizim şüur altı adlandırlan şüurumuzda yerləşir və əsas operativ şüurumuzdan fərqli və müstəqil işləyir. Bu şüur bizdən asılı deyil, yəqin ki bizim genlərimizlə yaxud təbiətlə əlaqəlidir və sərbəst işləyir. Əsas şüurumuz isə doğuluşdan mühitlə əlaqədə inkişaf etməyə başlayır, bilik, təcrübə toplayır, ağıla çatır. Bəzən onların rəyi eyni olur, bəzən fərqli olur. Lakin bu 2-ci şəxsiyyətin rəyi həmişə düz olur. Bəzən bu surət insandan ayrılır və bədənsiz görüntüyə çevrilir. Fiziki hərəkətlər edir. (Belə faktlar vardır). Deyərdim ki, yerə gələn uçan tarelka və içindəki adamlar elə əsillərin surətləri ola bilər. Onlar elə bir daşıyıcıda, məsələn, neytrino, kvant sahəsində gələ bilərlər, bu sahələr istənilən bərk cismi keçir və işıq sürətilə hərəkət edir. Belə hərəkətdə isə onlar həmişə cavan qalırlar. Istənilən “ surət -kopiya” müəyyən daşıyıcıda yerləşmiş məlumat kompleksidir, eynilə yerdəki müşahidə etdiyimiz xəyallar (insan ruhu, cin, mələklər, maşın, təyyarə, bitki və heyvan surətləri) güman ki, belədir. Budur, Universitet professoru deyir ki, “parkda oturmuşdum gördüm, çoxdan ölmüş dostumuz bir dəstə adamla yanımdan keçir, məni görüb əli ilə salamlaşdı və ketdi”. Bu, insanın yəqin ki 2-ci şəxsiyyətidir, yəni surətidir, hansı ki, güman ki Platonun dediyi kimi bu “forma” ölmür. Bu 2-ci şəxs fərdi üsulla dünyanı dərk edir və yaddaşında saxlayır və bizə intuisiya ilə məlumat verir. Bu surət bütün görünməz və görünən şeyləri hiss edir, məlumat alır. Onu biz xüsusi transa düşdükdə, beynimiz zədələndikdə daha aydın aşkar edirik. Məhz xüsusi transa düşəndən sonra öncəgörənlər keçmişi və gələcəyi görə bilirlər. Görünür, dünyanın gizli laboratoriyalarında canlı və cansız cisimlərin surətlərini yaratmaq və digər yerdə reallaşdırmaq üzrə xeyli təcrübə aparılmışdır. Bu barədə 10 il əvvəl Rusiya dövlət TV –si bir nüminə göstərməklə məlumat

vermişdir (mən onu görmüşəm - şəhərdə küçə ilə gedən bir kişi – yox edilmişdi). Şeylərin xəyal surətlərinə aid bu biliklər, görünür, dinlərin köklərini dağıtdığı üçün hökumətlər tərəfindən gizlədilir. Onlar istəyir ki, insanlar daim küt qalsın, kerçəkliyi dərk etməsinlər, dövlətin həqiqətdə nə etdiyini bilməsinlər və ruhanilərə və dövlətə tabe olsunlar. İnsanların başını qatmaq üçün din dövlətə lazımdır.

İnsana sistem kimi baxdıqda onda təkcə bədən və şüur deyil, ən azı hələ ki müşahidələrə görə 4 elementi aşkar edə bilərik: 1) *bədən,* 2) *can* (soul) və 3) *müstəqil və ayrıla bilən enerji informasiya kodu* (psixika - ruh), 4) material mühitlə əlaqədə yaranmış aktiv *düşüncə və ağıl* (mind). Buddizm də insanın təkcə bədən və ruhdan olmadığını hesab edir.

Psixiatr Karl Yunqun insanın nəinki 2, hətta dörd insandan (mən, maska, gölkə və surət) ola biləcəyi fikri də əsaslı görünür (6, s. 259). Digər tədqiqatlar insanı bioloji, sosial, ruhi və psixi elementlərdən ibarət qəbul edir. Görünür, hələ insan haqda tam biliklərə malik deyilik. Bu tələb edir ki, müxtəlif fənlər üzrə elmi qrup insanı tam sistem kimi təsvir etsin, aydın və sübut olunan konsepsiya yaratsın.

İnsanda olan ikinci şəxsiyyət yaxud şüur bəzən ondan ayrıla, kənardan ona məsləhət verə bilər, hansı ki əsas insan şüurunun xəbəri olmaya bilər. Bu haqda faktlar var. Psixi xəstələrdə bu asan ola bilir. Bəzən adətən insan özü iki zidd fikrin arasında qalır. Bu qayda ilə insanlar müxtəif olduğu üçün onlar hədsiz müxtəlif göstərişlər ala bilər və səhvən bunu tanrıdan gəldiyini düşünə bilər. Bu fikrə əsaslanıb soruşmaq lazımdır ki, məgər 1400 və 3000 il əvvəl özünü peyğəmbər sayan və ya tanrı ilə danışan hesab edən adamlar öz maraqlarına uyğun göstəriş almamışdı? Bunların mənbəyi güman ki onların öz bədənlərində yaşayan ikinci müstəqil şəxsiyyəti (təhtəlşüuru və ya şüuraltı) idi. Çox az ehtimalla bu mənbə bəzən başqa bir ruh idi. Daha ətraflı bax ruhlar bölməsinə və qəribə hadisələrə.

**Görünməz şüurlu varlıqlar və qəribə hadisələr.**

Istərdim ki, oxuculara öz başıma və digər yaxın və dostların, müxtəlif etibarlı adamların başına gələn tamamilə etibar edilə bilən faktları təsvir edim və sizi də bu müzakirəyə qoşum.
Aşağıdakı son dövrlərdə baş vermiş hadisələrin mifologiya ilə nə qədər oxşar olduğuna fikir verin və nəticə çıxarın.

1. Çöldə kombayn taxıl biçir, gecə taxıl sahibi girir bunkerə və taxılın üzərində uzanır və girdiyi deşiyi paltarı ilə örtüb yatır və

gecə istidən xeyli tərləyir və boğulma həddinə çatır, yarı ayıq zamanı ayaq səsləri eşidir ki, kimsə pilləkənlə qalxır. Bu naməlum gələn adam digərinə -yazıqdır, ölə bilər- deyir və paltara toxunur, paltar düşür bu şəxsin üzünə, bu zaman o dik atılır, bayıra baxır nəfəs alır və özünə gəlir aşağı düşür görür ki, iki nəfər dalı buna tərəf tarlada baxırlar. Soruşur ki siz burada nə axtarırsınız? - deyirlər ki, atlarımızı axtarırıq. Bunu eşidən cavan ətrafa baxır ki, görsün nə var, çevrilib görür ki, bu adamlar yox olublar.

2. Xəstə danışır ki, yemək zamanı tikan udmuş və həmin tikan onun yemək borusunu deşmişdir, ciyərinə su yığılmışdır, ağır xəstə qalmışdır və həkimlər ümidsiz olduğunu demişlər. O isə allaha yalvarıb ki, ona bir müddət möhlət versin ki, oğluna toy etsin. Bir gün görür ki, onun bədənindən bir itə oxşayan bir heyvan quyruğunu qısaraq çıxıb qaçdı. Bunu evdəkilər də müşahidə etmişlər. Sonra bu adamda güclü yaxşılaşma başladı və o sağaldı.
3. Real həyatda çox belə hadisələr olmuşdur ki, heyvanlar, quşlar, ilan, qurbağa insanların çətin vəziyyətində yolu azarkən kömək etmişlər. Əgər burada bioloji hissi ümumilik və anlama olmasa idi onlar necə kömək edə bilərdilər? Bu fakt da onu göstərir ki, bütün canlılarda canlı qohumluğu hissi vardır və canlılar insan, heyvan, vəhşi quş, ev heyvan və quşları bir - birini bununla başa düşür və qayğı çəkmək hisslərinə malikdirlər.
4. Budur (2009, 14 sentyabr tv verilişi) qadın deyir ki, anası qapını bağlayır, gecə yatır, səhər oyanır, görür ki qapının qabağında bir kişi durmuşdur, soruşur ki, nə istəyirsən, kişi deyir ki, gəlmişəm səni aparam. Qadın deyir ki, mənə 2 gün möhlət ver. Sonra, həmin 2 gündə qadın gedir dostları ilə vidalaşır, vaxt tamam olanda oturur və nəfəsini buraxır, ölür. Hekayəni danışan qadın davam edib deyir ki, ərim xəstə idi. Səhərə yaxın məni belimdən itələyərək oyatdılar, dönüb baxdım ki ərimin çarpayısının ayaq tərəfində bir kişi oturub, qışqırdım, kişi yox oldu. 2 gündən sonra kişi öldü. *İzahat:* görünür ki, xəyal ruhlar özünə lazımi ruhu dost etmək üçün aparmağa gəlir və canlı insanların onlardan qorxduğunu bilir. Bu misalda qadının anası ölmək fikri olmadığını deyib həmin ruhu qovsa idi, qorxmasa idi, dualarla özünü təlqinlə iradəsini saxlasa idi, güman ki ölməyəcəkdi- onun ölümünə səbəb qorxu və ölməyinə inam olub. Belə ki digər misalda gələn ağ paltarlı

xəyal-ruh kişini boğub öldürməyə çalışmış, kişi isə müqavimət göstərməklə ona qalib gəlmişdir və ruh uçub yox olmuşdur və öz məqsədinə çatmamışdır.

5. Digər bir maraqlı hadisə. Qadın deyir ki, yüksək temperaturla xəstə yatmışdım, oyandım gördüm ki, yanımda bir qara paltarlı kişi oturub. *Izahat:* Görünür ki xəyal –ruhlar insan çətin vəziyyətə düşərkən, xəstələnərkən, yaxud tək olarkən insana yanaşır, onun ölməyini gözləyir. Bəlkə də özlərinə ruh-yoldaş tapmaq üçün bunu edirlər.
6. Məktəbli qız ailəsi ilə tarladan evə - qayıdır, qabaqda qız həyətə qirir. Görür ki, ocağın yanında qırmızı köynəkli nazik balaca bir oğlan oturub, qızı gördükdə o ayağa qalxır və sürətlə həyət darvazasını açıb bayıra qaçır. Qız qışqırır ki, "cın qaçdı", lakin heç kim onu görə bilmir, yalnız qapının çırpılmasını görür və səsini eşidirlər.
7. Yuxuda qız 3 kişi ilə otaqda olduğunu görür. Onlar deyirlər ki, gəl alnına bir möhür vuraq, cin ol, qadın imtina edir. Lakin həmin adamlardan biri deyir ki, sən bu qədər - N il yaşayacaqdın, əgər razı olmasan, onda ömründən bu qədər kəsəcəyik və ona öləcəyi günü deyirlər.
8. **Orta yaşlı qadın** xəstəxanaya xəstəyə baxmağa gedir və orada palata qapısında ~30 sm diametrində, formasız yaşıl-ağ rəngli bir işıq topasının incə səslə, külək kimi axaraq, fırlanaraq döşəməyə töküldüyünü görür. Lakin sonra yox olur. O, bu səs və rəngi incəliyinə görə hələ adi həyatda müşahidə etməmişdi. Bu hadisə orada başqa adamların gözünə görsənmədi.
9. **Qadın** oğlunun məktəbə getməsinə arxadan baxır. Qarşıda bədənsiz, lakin havadan olan iki adamın forma – xəyalının durduğunu görür. Uşaq onların yanına çatanda onlar onun dalınca getməyə başlayırlar. Sonra xəyallar itir. Bir azdan uşaq geri qayıdır, deyir ki, burnundan qan açılmışdır.
10. Bir gün yol qırağında oturmuş bir neçə kəndli cindarı sınamaq üçün deyirlər: "əgər bacarırsansa, onu bizə sübut elə, o yoldan gedən qadınları elə elə ki, tumanlarını yuxarı qaldırıb getsinlər " Kişi uzun təkiddən sonra baş barmağı üzərinə qələmlə nə isə yazır. Kəndlilər ağac dalına keçib baxırlar, bu zaman qadınlar tumanlarını yuxarı qaldırıb dərin çaydan keçən kimi getməyə başlayırlar. Sonra molla dırnağını silir və arvadlar tumanı aşağı salıb təccüblə bir - birinə deyirlər: "biabır olduq, biz nə edirik". Onlar niyə belə etdiklərini başa düşə bilmirdilər.

11. Həmin cindar bir gün rayona gedir, bir tanışı qabağına çıxır, deyir: “a molla arvad bir aydır küsüb gedib, qayıtmır, elə elə ki, o qayıtsın evə”. Molla deyir: “get bir nal gətir və ocaq qala”. Kişi nalı gətirir, molla nalın üstünə mismarla nə isə sözlər cızır. Sonra nalı ocağa qoyur . Nal qızaranda deyir ki, gətir. Molla nalı suya salır, çıxarır, dua oxuyur, püləyir, sonra yenə suya salır, bir neçə dəfə belə edir, qoyur qırağa, deyir ki, indi gələr. Doğrudan da həmin arvad tələsik evə gəlir və cindara salam verir, çay hazırlamağa başlayır, kişi ilə barışır.
12. Pəri adlı qadını gecə qohumları oyadır, deyirlər, “dur vaxtdır, yola düş”, o başqa bir kəndə gedəcəkmiş. Durur, atı yəhərləyib yola düşür, kəndin kənarında Ağcaqovaq ağacının altında tanıdığı Əsli adlı qadın oturmuşdu. O deyir ki, məni də apar və atın tərkinə minir. Gedirlər, yolda at getmək istəmir və çox əziyyət çəkdiyi, yorulduğu hiss olunur. Çaya çatdıqda Əsli deyir: “ atı suya salma”. Lakin Pəri onun davranışından acıqlandığı üçün atı suya vurur. Dalındakı qadın qəfilfən hoppanır, çayı havada keçir və sonra qaçmağa başlayır, itir. Səhər açılır, atlı gedəcəyi yerə çatır. Atı tər içində idi. Onlar təccüblənirlər ki, o niyə gecə və necə gəlmişdir? Deyir ki, Əsli ilə gəlmişəm . Sonradan həmin qadının yanına qonaq çağrılır. O deyir: “niyə gedim, o mənimlə gələndə heç mənimlə söybət etmədi, uşaqlarımı soruşmadı”. Sonra məlum olur ki, tərkə minən cin imiş, çünki onun əsli olan Əsli kənddə imiş, kecə heç yana getməmişdir, ərinin yanında olmuşdur, habelə Pərini oyadıb yola salan da həqiqətdə ev adamı deyilmiş, onun səsi imiş.
13. Bir nəfər cadügər qadının dediyinə görə onu yuxuda və ayıqlıqda adam formasında olan naməlum varlıq çöllərdə çox gəzdirmiş və ona çox şeylər öyrətmişdir. Bundan sonra o müalicə edən, ovsun yazan, çöp çıxardan, fala baxan qabiliyyətlər əldə etmişdi. Müşahidə zamanı kənar bir varlıqdan məlumat alıb, onun adından dediyi aşkar edilmişdir. O üçüncü şəxsin adından danışırdı, yəni “deyir...”formasaında.
14. 8 yaşlı uşaq öz yoldaşları ilə dağ aşırımında oynayan zaman aşağıda dərənın digər tərəfindəki qədim kilsə adlanan və divarları qalan xarabalıqlar ətrafında bir dəstə adamın musiqi çalaraq dövrə vurub oynadığını görür. Qəfildən onlardan biri çönüb ona baxır və dəstədən ayrılıb sanki hava ilə düz xətt ilə ona yaxınlaşmağa başlayır. Lap yaxın gəldikdə uşaq onun uzun qarasaqqallı, papaqlı əlində əsa olan balaca boylu qoca

olduğunu görür. Qoca yenə yaxınlaşmağa başladıqda uşaqlar qorxub qaçırlar.

15. Qatar gedir, maşinist qabaqda əlində yaylıq bir qadının durduğunu görür, qatarı saxlayır, irəli gedərkən qadın yox olur, lakin relsə bağlanmış uşağı görür, onu xilas edir, araşdırma aparılır, məlum olur ki, qadın uşağın ölmüş anasıdır və ögey anası onun uşağını belə öldürmək istəyirmiş.
16. 2006 –cı il May ayı orta yaşlı kişi yuxuya getmək anında otaqda kənar varlıq olduğunu hiss edib diqqət verir, o yaşıl – göy və çox incə dairəvi işıq görür, işıq onun üzərində havada toxunmadan gəzir və dayanır. Beynində bir ideya canlanır: - " iki xəbər alacaqsan, mən özüm gələcəyəm., 11"
17. Kişi tez - tez yataq otağında gündüz və axşam toranlıqda tanımadığı müxtəlif adamların xəyalların görür . Onlar hərəkət edirlər. Bir dəfə Xəyal - qadından qorunmaq üçün o, yanına çubuq qoyur və qadın onun üstünə gəldikdə ağacla onu qovur, surət qorxub çəkilir. Lakin bu hadisələrdən bezib, o, falçı - cadugərin yanına gedir. Falçı onun başı üzərində od yandırır, bununla da görüntülər azalır.
18. Evə qonaq gəlir, qonaq gecə xırıldayır, ev sahibi düşünür ki, yəqin xoruldayır, səhər qonaq deyir; " niyə gəlmirdiniz, burada bir ağ paltarlı adama oxşar bir şey məni boğurdu, mən ondan xilas ola bilmirdim, nəhayət, gücümü toplayıb onu itələdim, o geri çəkilib divarın küncünə girdi". Həmin evdə başqa vaxtda digər qadın qonaq isə danışır ki, tezdən, o yuxudan oyandıqda, yanında bir qız görmüşdür.
19. 12 yaşlı oğlan uşağı qəfildən qaçaraq Qovaq ağacı altında samovar və dəm çayniki olan çay süfrəsinə yaxınlaşır, çayniki alıb samavara çırpır, sındırır və qaçaraq sürətlə ağaca çıxır, ağacın bir budağı üstündə gəzərək oynayıb – oxuyur, halbuki tutmağa bir şey yox idi, lakin o yıxılmırdı. Camaat toplaşır və onu zorla kəndirə bağlayıb yerə düşürürlər, o halsız vəziyyətdə idi, güclə nəfəs alırdı. O, yatıb yuxya gedir, 3 gündən sonra oyanır, və başlayır başqa dildə (Ərəb) Quranı oxumağa, hansı ki o, heç yazıb - oxumaq bilmirdi. Sonra məlum olur ki, onun ekstarasens qabiliyyətləri əmələ gəlmişdir, insanlara uzaqdan təsir edə bilir, istədiyi hərəkəti adamlara etdirə bilir, baxmaqla sacı yarım metr yuxarı qaldırır. Dırnağı üzərinə qələmlə yazmaqla müxtəlif təsirlər göstərə bilir, məsələn , arpa dənələri divara dırmaşır və s.

20. Müxtəlif yerlərdə ildırım bəzi kişilərin lap yanında yerə düşür və böyük cərəyan axır, sağ qalırlar. Sonra birində gipnoz etmə qabiliyyəti , digərinin özündə deyil, uşağında rentgen göz və qabaqcadan görmə qabiliyyəti yaranır. Bəzilərində heç nə olmur, bəzilərində baş ağrıları yaranır.
21. Klinik ölüm keçirəndən sonra bir çox hallarda həmin insanda fövqaladə qabiliyyətlər meydana çıxır. Rentgen - göz yaranır, o, insanının və şeylərin daxilini, divarın arxasında nə olduğunu şəffaf görür, xarici dildə danışmağa başlayır. Aleksey adlı oğlan 7 dəfə klinik ölüm keçirmiş və onda müxtəlif qabiliyyətlər – yaşıl rəngli varlıqların görünməsi, hərəkətdə olub yanından ötən maşın - xəyalın görünməsi, əvvəldən görmə, kartların üstündən baxmaqla altındakı nişanı görmək – yaranır (Rossiya TV- 1 kanalı 23.04.2007). Gipnozla və ya təbii olaraq klinik ölüm vəziyyətinə düşən insanlarda dünyabaxışlar və dərk etmə - qiymətləndirmə xeyli dəyişir.
22. Nikola Tesla (1856-1943) anası öldükdə, o uzaqda idi və havada onun surətini görmüşdü və başa düşmüşdü ki, anası öldü. Eynilə, indiki zamanda da bir çox adamlar qohumları öldükdə onların surətlərini havada görə bilmişlər.
23. Nostradamus fenomeni, Bibliya peyğəmbərlərinin yuxusunu, eşitdiyi səsləri , başlarına gəldiyi fiziki hadisələri, videniyelərini yenidən yada salın, Vanqanı yada salın. O deyirdi ki, naməlum surət görmüşdür və o həmişə onun yanındadır. O, onun gözü ilə görür, onunla hiss edirdi; müxtəlif cadügərlərin metodlarına baxın, dedikləri sözlərin mənbəyinə fikir verin - çoxusu üçüncü şəxsin adından danışır.
24. 2007 –ci ildə müşahidə edilən hadisə: orta yaşlı kişi yataqa girərkən çətin yuxuya gedir və çox ayıq yatır, yuxuya keçmə anında bir neçə dəfə hiss edir ki, ondan bir adam ayrılıb uzaqlaşmaq istəyir və bu zaman o tez qalxıb onu tutmaq istəyir, lakin bu xəyal dərhal yox olur, yaxud nəinsə bəzən belə anda onun şüuruna daxil olduğunu, üzündə külək əsdiyini hiss edir.
25. Evdə kişinin qarşısına qəfildən çoxdan ölmüş bir qadın qohumu paltarda olaraq, yaranır və ona yaxınlaşır və əlindəki tarelkanı ona verib deyir: ”Bu tarelka sınan zaman sənin atan müharibədən qayıdıb gələcəkdir” və yox olur. Sonra müəyyən müddətdən sonra həmin tarelka doğrudan da, təsadüfən düşüb sınır və kişinin atası gəlir.
26. Ekstrasenslərin yarışında qalib olmuş Qalina Bağırova deyir (2010 il): Mən 4 yaşımdan səs eşidirəm, bu kişi səsidir. O hər

şeyi, keçmişi, gələcəi mənə deyir, mən onun səsilə insanlara kömək edirəm

Qeyd edirəm ki, bu hadisələrin iştirakçıları heç bir psixi xəstəliyə malik deyildirlər.

***Analiz və Izahat***

Bu hadisələr təqribən bütün fövqaladə hadisələrin qammasını təşkil edir. Bu faktlar psixi xəstəlik nəticəsi deyil. Bu real faktların izah edilməsi, düşünürəm ki, bəşəriyyətin böyük bir kəşvin astanasında olduğundan xəbər verir. İndiyədək elm bu məsələləri ciddi saymamış, ona görə tədqiq etməmişdir. Dini xidmətçilər isə həqiqətin açılmasında maraqlı deyillər. Yalnız müstəqil intellektuallar bu məsələlərin həqiqi izahını tapmaqda maraqlıdırlar. Son illərdə yaradılmış energi - informasiya nəzəriyyəsi isə natamamdır və məqsədi həqiqətin tapılması deyil, bir çox dini təlimləri yeni mistika ilə əsaslandırmaqdır. Bizə isə həqiqət lazımdır.

Çətinlik orasındadır ki, fövqaladə qabiliyyət əldə etmiş insanların əksəriyyəti, sirrin üstünün açılmasını istəmirlər, elmlə həqiqətin tapılması naminə əməkdaşlıq etmək istəmirlər, lakin öz gəlirlərini güdürlər. Kapitalizm sisteminin qəlblərdə yetişdirdiyi individualizm, yalnız öz gəirini güdməsi həqiqətlərin açılması üçün böyük maneyədir. Dini xidmətçilər isə, eynilə, şəxsi mənafeni üstün tutaraq həqiqətin ümümiyyətlə açılmasını istəmirlər. Onların təcrübələri daha çoxdur. Lakin yenə də qaranlıq, hansısa bir işıqla aşkar olacaqdır.

Bütün qeyd edilən və edilməyən, lakin mənə məlum faktları ümumiləşdirərək aşağıdakı mülahizələri deyə bilərəm:

1. Qədim insanlarla hansı hadisələr baş vermişsə (polterqeyst, xəyalların gəlişi, səs eşitmə, naməlum varlıqla güləşmə və s.) həmin hadisələr indi də baş verir. Qədimdə eyni tip hadisəni başqa cürə mistik formada izah etmişlər, bu günkü baxış isə ağıldan qaynaqlanır.

5. Faktlarda təsvir edilən və eynilə, qədim dini kitablarda da təsvir edilən bu hadisələrin və səsin mənbəyinə, insan formasındakı görüntülərə Allah və ya mələk demək qeyri – mümkündür. Bu mənbələri Allah kimi qəbul etsək, onda ona yazılan keyfiyyətlərin səhv olduğunu qəbul etməliyik. Yalnız qədim primitiv, biliksiz cəmiyyətdə bu görüntüləri və səsi Allah hesab etmişlər.

6. Analiz müəyyən edir ki, həm keçmişdə həm indi eşidilən səslər və görüntülər yalnız həyatın bir parçası üçün, yəni bir spesifik ərazidə və ya bir konkret insan üçün fraqmentar məsələnin həllində iştirak etmişdir. Məsələn, Yəhudilər üçün təkcə onların seçilməsi və onların

probleminin həlli (başqalarının bu zaman zərər çəkəcəyini nəzərə almadan).
7. Müəyyən edirik ki, səs mənbəyi (və yaxud ekstrasensin gördüyü surət ) abstrakt fikirlə, ümumbəşəri həqiqətlərlə, əxlaq prinsiplərilə, elmi terminlərlə danışmır, məhz həmin insanın, anlayacağı dildə, elə onun öz dünyagörüşü səviyyəsində, həmin ərazinin, yaşayış məskənin adətləri, mədəniyyəti səviyyəsində, habelə *həmin milli dildə* və məhz *həmin adamın mənafeyini* güdərək məlumat verir. Bunun insanın öz beyninin məhsulu olması ehtimalı daha ağlabatandır, çünki hər kəs özü haqda daha çox məlumata malikdir, nəinki kənarda təsəvvür edilən fövqaladə ilahi. Və yaxud ehtimaldır ki, insanın şəxsiyyəti iə həmin obyektin uyğunluğu var
8. Bu səslərin, görüntülərin insanı xarakterdə, insani formada olması onun məhz insandan ayrılan və ya yaranan hissə olmasını fərz etməyə əsas verir. Belə ki, bu səslər seçdiyinin qayğısını çəkirsə, deməli, onun nəslindən gələn ruh və ya onunla əlaqəsi olan varlıqdır. Bəs onun adı nədir? Seçdiyinə qayğı göstərirsə, özgələrin belə müdafiəçisi yoxdur? və o əzab çəkməlidir? *Nəticə:* Onun adı Allah deyil.
Heyvanların – inəyin, qoyunun, atın da hətta cansız cisimlərin, maşının belə surətləri müşahidə edilmişdir. Bu son ifadə yenidən insandan ruhun ayrılmasına şübhə yaradır, belə, ki əgər maşın və ya təyyarənin canı yoxsa, yəni ondan da ruh ayrılmırsa, nə üçün müəyyən yerlərdə onların səsi və surətləri meydana gəlir? Görünür, dünyanı ən azı üç formada qəbul etməliyik: maddi , keçid və xəyali dünya - surətlər dünyası; xəyali dünyada bütün cisimlər və canlıların olduqları kimi xəyalları paralel qalır, yalnız insan şüuruna bəzən aşkar olur.
9. Bu varlıqlar əvvəllər fərz edildiyi kimi göydə deyil, yerdə konkret yarandığı insan məskəni ərazisində mövcud olurlar. Onun "qəbulediciləri" yalnız həmin kənddə, ailədə, həmin yerdədir. Əlbəttə Pravoslav kilsəsi deyə bilər ki, bu fikirlər Allahın şəxsi olması - yəni hər insana öz şəxsi Allahı kimi özünü göstərməsi fikrini təsdiq edir (belə bir nəticə onun universal dünya yaratmaq və idarə etmək xassələrilə düz gəlmir). Yəhudilər də ilahini –Yəhova adlandıraraq özlərininki sayır. Belə düşünsək, onda onun univesallığı – bütün insanlara ümumi qayğı funksiyası itir. Bu halda Allahı ümumi deyil, fərdi, hər kəsin (yəqin, habelə hər millətin) öz Allahı olmasını qəbul etməli olarıq. Yuxarıdakı faktlar, habelə belə nəticəyə gəlməyə kömək edir ki, görünür ən qədim insanlar ona yaradıcı, idarə edici funksiyanı öz fantaziyalarına görə vermişlər, lakin bu hiss şəxsi olmuşdur. Onun hər bir adama kömək etmək və məsləhət – xəbər verməsi faktı isə onun dünya işlərindən məlumatlı, xəbəri olması fərziyyəsini yaradır - əks

halda o məsləhət və xəbər verə bilməzdi. Belə məlumatlılıq isə hər şeyin əvvəldən dəqiq müəyyən olmasını - determinizmi sübut edir, eynilə ciddi səbəb - nəticə asılılığının, mühit – element; çoxluq və tək asılılığının, dəqiq qanunauyğunluğun olmasını sübut edir. Belə olmasaydı, *Mənbə* heç bir xəbəri, məsləhəti verə bilməzdi. Yalnız qaydalı quruluşların gələcəyini əvvəldən bilmək olar. Bu mənbəyə, şübhəsiz, düzgün və layiq ad vermək lazımdır. Allah adı primitiv dünyagörüşlü insanların verdiyi addır, gerçəkliyi əks etdirməyən, mistik, həqiqəti aşkar etməyən, başa düşülməyən, mücərrəd addır. Onun adını Zəka, yaxud Həqiqət çağırmaq daha düzgün olardı, hansı ki elə Zərdüşt də onu belə adlandımışdı.

10. İnsan surətli belə varlıqlar, insanın təbii evolyusiya ilə yaranmasından sonra meydana gəlmişlər. Onların insanın anticismi və ya bioloji, elektro maqnit xüsusiyyətlərinə malik emosiya, ağıl və fikirlərinin bir sistemdə birləşməsi, sistemik struktur olması fərz edilə bilər. Yəni sistem xassələrinə malikdir: mühitdədir, mühitin hissəsidir. Onlar, təkcə onlar deyil bütün digər surətlər bir - birilə birləşib yer səthində eqreqor sahələr (müsbət, mənfi, xeyirli, zərərli, ağır, yüngül) güman ki, yarada bilərlər. Belə sahələr mövcuddur.

11. Onlar maddi obyektlər yaratmaq qabiliyyətinə malik deyillər. İnsanın hissləri, fikri, ağlı vasitəsilə, əsasən mürgülüyəndə, şüur altı aktivləşəndə insanla (çox cüzi hallarda) əlaqədə olur və məlumat verə bilərlər.

12. Onlar insana səs, fikir, hiss kimi aşkar oluna bilərlər, bu onların xassələridir. Fiziki olaraq isə **incə – yaşıl və göy işıq kompleksi, incə külək burulğanı, istilik gətirən elektromaqnit və ya digər sahə -** hansı ki insanın temperaturunu qaldırır, insanı tər basır, - kimi reallaşırlar. Güman edildiyi kimi insanın baş beyni vasitəsilə əlaqədə olmayıb, bunu nəfəs almaqla, ya onlar enerjilərini bərpa edir, yaxud insanın daxilinə girirlər. (müşahidələr var). Bibliyada cinin insana və donuzlara daxil olması, İsanın onları çıxartması təsvir olunur (7). İnsan ölmə prosesində, yüksək temperaturda, lap ölümcül vəziyyətdə, dərin gipnozda, aritmiyanın uzun fasiləsində (yuxuda), eynilə mürgüləyəndə onlar aktivləşirlər və yaxud insanın ikinci şüuru aktivləşir. İnsanda bəzən qaranlıq, qara paltarlı (formasız, şara bənzər) varlıq təəsüratı yaradırlar. Bu zaman real şüur zəifləyir, alt şüur həyatla əlaqəsini itirərək, ayılır və bunları görür. İslamda insan ölərkən bu hadisəni belə qavrayırlar: "əzrayıl gəlib canı alır". Lakin əslində əzrayıl yoxdur o heç kimi canın almır. Doğrudan da, bu zaman adamlar belə varlıq görə bilərlər. Məhz psixikanın xeyli zəiflədiyi hallarda müxtəlif məqsədli

ruhlar insana yaxınlaşır, sanki onu müşahidə edirlər. Və Yalnız şüuraltı (2-ci şüur) onları qavraya bilir.
13. Onların insanın ailə quruluşuna oxşar quruluşu olması fərz edilir. (müşahidə var). Dünyanı, insanları onlar idarə etmirlər. Onlar əsasən şüurun çox zəif vəziyyətində, lakin şüur altı güclü insanları tapır, onlarla əlaqəyə girirlər. Onlarla əlaqəyə meditasiya ilə, mürgüləməyə başlayanda girmək olar. Lakin çox ağıllı adamla, nadir kontakt haqda məlumat var. Onlar qruplara, pillələrə bölünə bilər. Görünür, enerji səviyyəsinə görə bir - birindən fəqlənirlər, buna fiziki əsaslar var.

Enerji informasiya nəzəriyyəsi deyir ki, onlar ierarxik pillələr əmələ gətirir və ən yuxarıda təmiz ruh – dünya zəkası durur. Beləliklə yuxarıda Allahı, aşağı pillələrdə isə yaxşı və pis emosiyaları əks etdirən ruhları yerləşdirirlər (4). Bu baxış Maxayana buddizminin mövqeyi ilə uyğunur. Nəinki bu pilləkəndə ruhlar, habelə burada cinlər, mələklər adlanan və ya adı olmayan varlıqlar da yerləşə bilər. Bu baxış, tamamilə özünü aldatma və sadəcə qədimdə anlamadan qurulan Allah ideyasına yeni məna tapmaqdır. Hələ bir şəxsin şəxsi probleminin həllini təklif edən – məsləhət görən bu mənbə bu həllin cəmiyyətin bütün digər üzvlərilə əlaqədar, daha rasional formada təklif etməmişdir. Ona görə də əgər bu mənbə necəTanrı hesab oluna bilər ki, hələ ki o cəmiyyətin universal və optimal birgə yaşayış, icmalar arası davranış modelini təklif etməmişdir, **birinə qayğı göstərməklə digərinin insan haqlarını, azadlığını pozmuşdur.** Buna ümumi xeyirxah funksiyalar yazaraq, hansı ki həyatda hamı üçün təsdiq olunmur, Tanrı deyə bilərikmi? Əlbəttə yox, bu mənada bütün Bibliya və digər müqəddəs kitabların bu mənbəyi Tanrı hesab etməsinin səhv olması sübut olunur. Yəni həmin peyğəmbərlərin Tanrı ilə danışması olmamışdır – bu onların səhv anlamaqları, illuziyalarıdır. Müqəddəslərin yuxuda görülməsini necə izah etmək lazımdır? Onlar ən azı 1000 il bundan əvvəl yaşamışlar. Bu görüntülər onların ruhu olmuşdurmu? Bu sübut kimi qəbul edilə bilərmi ki, ruhlar əbədi yaşayırlar? Çox uzaq bir insanı, məsələn, Adəmi, Nuhu seçib insandan gipnoz altında onları necə gördüyünü soruşsaq, şübhəsiz, müəyyən təsvir alacağıq. Bu o deməkdirmi ki, onların ruhu yaşayır? Görünür, burada psixologiyanın yuxu haqda nəzəriyyəsi istifadə edilməlidir. Bəli, konkret adamların öz yaxın qohumlarını yuxuda görməsi və konkret məsləhət və xəbər alması faktları var. Müqəddəslərin xəyalının gerçəkdən gəlməsi və kontaktda olması - əgər olmuşsa - onların energetik kodunun mövcud olması haqda sübut ola bilər. Bu isə belə xəyalların daha uzun zaman mövcud ola bilməsini güman etməyə gətirə bilər. Lakin onların görünməsi səbəbini onlar haqda məlumatın

nəsillərlə ötürülməsi, hər adamın onlar haqda təsəvvürə -yaddaşa malik olması ilə və beyinin (əlamətlər, açar sözləri vasiəsilə) obraz yaradıcı qabiliyyəti ilə əlaqələndirmək daha rasional olardı.
14. Təsvir edilmiş faktlar içərisində 19, 26-cı fenomenləri xüsusidir, onun qabiliyyəti söz - ovsunla və fikirlə təsir deyil, əsasən kənar görünməz qüvvələrin vasitəsilə baş vermişdir.
15. Xəyali varlıqların, ölmüş adamların ruhlarının (hələ bunu sadəlik üçün ruh adlandıraq) daha çox məlumatlı olmalarını aşkar edirik, halbuki ölməmişdən əvvəl, şübhəsiz, onlar bu qədər biliyə malik olmamışlar. Yadımıza buddizmin və Hegelin *dünya ruhu – dünya zəkası* ideyası düşür, sanki doğrudan da öləndən sonra insandan ayrılan həmin astral-mental hissə- ruh, görünür, həmin zəka ilə əlaqədə olur və biliklənir- məlumatlanır və ruhi bəşəriyyət üzvü maddi-canlı bəşəriyyətə (üzvünə) qohumluğu, ailə münasibətlərinə görə və simpatiyasına görə uyğun insanları seçərək əlaqəyə girir, qayğı göstərir, məsləhət verir.
16. Faktlar bizə dünyanın tək bir material dünyadan ibarət olmadığını, onun bütöv və avtonom *hissələrdən* olduğunu yenidən göstərir. Bu hissələrdən biri ruhlar, təbiətin və canlıların formaları, surət, obrazlar aləmidir. Bu aləm məlumatları, bilikləri, qanunları əhatə edən zəka xarakterlidir, bu zəka fasiləsiz artır və onun idraklı üzvləri məlumatlanırlar və canlı varlıqlarla bəzən əlaqəyə girərək onlara müəyyən bilik verir, yol göstərir. Oğru, qatil, qəsbkar, paxıl, düzgün, ədalət sevən, əxlaqla yaşayan - hər cür insan özlərinə oxşar belə xəyali varlıqlardan məsləhət, kömək ala bilər.
17. Çox ehtimaldır ki, Xıdır Nəbi, Küpəgirən qarı, və digər millətlərin mifologiyasındakı oxşar personajlar, məsələn, ruslarda Baba – yaqa, Finlandiyada Halloven haqda əfsanələr real varlıqlar olmuşlar. Bunları xalqlar uydurmamışlar, gördüklərini demişlər. Bu obrazların siyahısını tutmaq, hekayələrini yazmaq və dəqiq analiz etmək lazımdır. Bu bizə dünyanı dərk etməkdə kömək edər. Bu fenomenlər hələ dinlərdən əvvəl olmuş və rəvayətlər yaranmışdır. Dinlər, xüsusilə teist dinlər yaranarkən onların yaradıcıları bu faktlardan istifadə etmiş, başa düşməmiş, lakin onların hamısını uydurduqları tanrı anlayışında əks etdirmişlər, özlərini isə rəqabət və eqoizm səbəblərinə görə ləğv etmiş söhbətlərdən çıxarmağa cəhd etmişlər. Lakin məqsədlərinə nail olmamışlar. Xalqlar öz tarixlərini, rəvayət və nağıllarını unutmamışlar.
***Nəticə.***
1. Beləliklə, bütün toplanmış faktlar, tarixi məlumatlar, bu günkü müşahidələr ərəbcə Allah adlandırılan obyektin fövqəltəbii mahiyyət

daşımadığını, naməlum deyil, *məlum, konkret məna daşıdığını və dərk edilən olduğunu* sübut edir. Onun indiyədək hesab edilən heç bir qeyri - material görsənən varlıqla oxşarı yoxdur. O, 3 tərkib hissəsi kimi özünü göstərir. Müşahidə və eşidilən səslər, hisslər, fikirlər, habelə cin, mələk, ruh adlandırılan heç bir şey ümumi bəşəriyyət üçün, universal dünya üçün Allah hesab edilə bilməz və bu funksiyaları daşımır, buna bir dənə də sübut yoxdur. Lakin hər bir sağlam insan eşitdiyi səsi, gördüyü formanı və işığı özü üçün xoşu gəldiyi adı verərək fərdi köməkçi dost, (ilahi, Tanrı, Allah, mələk) hesab edə bilər. Bu onun şəxsi işidir. Əgər o, sabah durub desə ki, mənə müəyyən tapşırıqalr verilib ki, başqalrını gərək öldürəm və bu milləti özümə nökər edəm, filan ərazini işğal edəm və yaxud hamı mənə inanmalıdır, o, düşünməlidir ki, başqasının da Allahı eyni sözü o biri tərəfə deyə bilər, şübhəsiz, deyir və hər zaman demişdir. Nəticədə onlar deyilən səsə deyil, real münasibətlərə baxaraq maddi güclərin balansına və sülh şəraitində yaşamağın daha səmərəli olmasını aşkar edərlər. Xarici mühitdən səslə, görmə vasitəsilə alınan məlumat digər insanları özünə tabe etmək aləti rolu oynaya bilməz. Burada heç kəsin aldığı məlumata uyğun olaraq başqasına zorakılıq etməyə mənəvi haqqı yoxdur. Bu mənada Yəhudi və islam ruhaniliyinin Allahın adına yazdığı başqa millətləri və insanları zorla tabe etmək və tabe olmayanları qırmaq və vergi almaq tələbləri və strategiyası antihumanist və kökündən səhv baxışlardır. Burada zorakılıq və qəsblər üçün Allah adı vasitə kimi istifadə olunmuş, qeyri - etik hərəkət olmuşdur. Onların güman etdiyi bu mənbə Allah olmamışdır. Başqa , Asiya mənbəli dinlərin və daha qədim azad milli dinlərin əsaslarında belə göstərişlər yoxdur.
2. Bu məlumat mənbələri güman ki, görsənməyən elektromaqnit - bioloji - informasiya strukturlardır - yəni müəyyən bir ruhdur. Bu sonuncular az öyrənilmişdir və sui - istifadə obyekti ola bilməz. Ümumbəşəri əxlaq buna icazə vermir.
Hamının qəbul edə biləcəyi ümumi mənəvi əxlaqi dəyərlər - ədalət, davranış üçün üstün rəhbərlik olmalıdır, nəinki xəyali varlıqların iradəsi - tapşırıq və məsləhətləri. Onlar insanı yoldan çıxara bilər.

**Dinlərin yaranması, ilkin fərziyyələr dövrü**

Yeni neolit dövründə, təqribən 30 min il əvvəl Bellin araşdırmasına görə dinlərin ilk rüşeymləri yaranır (8,). Bundan da əvvəl insanın ilk qorunma aləti - dəyənəyi düzəltməsi, sonra çəkic - daş, kəsən - daş düzəltməsilə yaradıcılığı - elmin ilk biliklərinin yaranması və texnologiyanın inkişafı başlayır. Ünsiyyətin meydana

gəlməsilə insanlar öz başlarına gələn , lakin izah edə bilmədiyi görüntüləri, səsləri, surətləri, xəyali insanları, işığı, xarici kömək haqda məlumatları və hekayələri bir-birilə bölüşürlər.

Vacib cəhət odur ki, bu zaman məhz canlı sistemin yaranması ilə insanın canlı sistemdən bir qol kimi ayrılıb evolyusiya prosesi ilə birlikdə bu qeyri- material hadisələr də baş verirdi. Deyərdim ki yəqin ki, məməlilər qrupu meydana çıxandan bu hadisələr də meydana çıxdı, həmin heyvanlar da beyinləri böyük olduğu üçün görüntü, xəyallar görürdülər. İnsan isə danışmağa başlayandan sonra bu məlumat geniş yayıldı, təbii olaraq o, həm bu hadisələrdə iştirak edənlərin özlərində, həm də eşidən insanlarda qorxu yaratdı.

İnsanların danışması mümkün olandan sonrakı dövrlərdə görünənlərə müxtəlif fərziyyələr irəli sürərək insanlar **ruh, tanrı, cin , şeytan, iblis mələk,** adlarını yaratdılar. Yunan və Roma allahları, habelə sonrakı tək ilahili dinlərdəki tanrılar nə üçün insan formasında təsəvvür olunurdu? - bunun səbəbi yəqin ki, insan formasında onların gözünə görsənən surətlər idi. Bu zaman ilk fərziyyələri şamanlar yaxud fenomenlərlə qarşılaşanlar irəli sürür və onları insanlara inandırır və zamanın keçməsilə bu ideyalar ehkama çevirlir. Yeni nəsillərə hazır formada əzbərlədirlər. Məşğuliyyətlər üzrə ixtisaslaşma prosesi getdi. Bu işlərlə məşğul olanlar- ilk şamanlar, kahinlər, sonra isə daha çox elementdən ibarət din ( sitayiş, dünya baxış, ictimai qanunlar, davranış normaları) və dini ruhanilər yarandılar. Din dünyəvi hakimiyyətlə paralel meydana çıxaraq insan düşüncəsinə məhdudiyyət qoydu. “Bunu düzəltmək olmaz, bu dərmanı içmək olmaz, belə demək, düşünmək olmaz, buna şübhə etmək olmaz, bunu yemək olmaz və belə etmək lazımdır” tələbləri ilə sanki kiçik uşaqlara ünvanlanmış normaları ilə o, cəmiyyəti idarə etməyə cəhd etmişdir. Əlbəttə, elm və din paralel olaraq inkişaf etmişdir, bəzən elm – qədim Yunanıstanda, Şumerdə, bəzi dövrlərdə isə dini ruhanilər ideoloji üstünlüyə malik olmuşdur, bəzən onlar bərabər olmuşlar. Dini idarələr daim sirli hadisələr üzrə biliklərin monoplisti olaraq çox asanlıqla bilərəkdən və ya bilmədən öz biliklərindən sui - istifadə etmiş, əsil mahiyyəti gizlətmiş və yaşamaq üçün biznes qurmuşlar, qırğınılar, işğallar, müharibələr törətmişlər, deməli, əxlaqi və mənəviyyatı birinci özləri pozmuşlar. Elm adamları isə belə etməmişlər, öz biliklərini azad, xəbislik etmədən yaymışlar və biznes və hakimiyyət haqda düşünməmişlər.

Çox böyük ehtimalla demək olar ki, iudaizm, xristianlıq və islamın yaranmasında başqa planetdən gələnlər də iştirak etmişdir və yaxud onların kitablarına özgə planetlərdən gələnlərlə epizodlar əlavə

edilmişir. Məsələn, Bibliyada Musanın yanan kolla danışması Sinayda ildırım və od içindən Allahın çıxması, islamda Məhəmmədin meracı rəvayəti və İsanın qəribə hələ indiyədək təkrarı olmayan qabiliyyətlər göstərməsi, Mariyanın qız qalaraq mayalanması, başqa epizodlar bu ehtimalı əsaslandırır. Bu qədim rəvayətləri yenidən tədqiq etmək və həqiqəti üzə çıxartmaq, bu dinlərdəki mistikanı, şər ruhların və yaxud nəsil, qəbilə ruhlarının insan formasında allah adından başqa insanlara millətlərə qarşı şər göstərişlərini seçib təmizləmək lazımdır.

Şübhəsiz, bizim qulağımızı uşaq vaxtdan elə doldurublar ki, biz düşünmədən -avtomatik olaraq tanrı və ya allah, şeytan, mələk və s. ağlabatmaz anlayışlatrı qəbul edirik və bu : *Allaha təvəkkül, yaxşısını allah bilər, allah haqqı, şeytan etdi, şeytana nələt* ifadələrini işlədirik. Lakin bu ifadələrin mənasını dəqiq bilmirik. Elm və texnologiyanın inkişafı, bizim qarşılaşdığımız faktlar, bizi inandırmağa çalışan ruhanilərin sözünə baxmadan bizi yenidən düşünməyə vadar edir. Əlbəttə onlar axı kimdirlər ki, bilik üzərində monoploliyaya malik olsunlar. Bizə qadağanlar qoysunlar. Bu hətta çox gülünc səslənir. Məgər bizim ağlımız çatmır ki, sərbəst düşünək və ağlla şeylərə, hadisələrə qiymət verək ? Bu gün bu imkanlar: təhsil, biliklərə giriş, internet imkanları hamıya verilmişdir. Əgər biz bu ruhanilərin sözü ilə yaşayacağıqsa, bəs biz ağıl, öyrənmək qabiliyyətimiz nə üçündür? Renesans və maarifçilik dövrü gözümüzü elə açmışdır ki, biz bizim şüurumuz üzərindəki diktaturanı, quldarlıq və feodalizm dövründən gətirilmiş köhnə, sübutsuz dini fərziyyələri qəbul edə bilmərik. Zaman keçdikcə ağıl və biliyin artması qanunu bu mülahizəni müdafiə edir. Bütün ağıllı bəşəriyyət sirli fenomenlərin izahını bilmək istəyir.

**Ruhlar**

Ruh anlayışı hələ də mücərrəd qalır, o görünür psixologiyanın hesab etdiyi kimi şüur deyil, nə isə başqa şeydir. Bəlkə energetik mahiyyət sahəsidir, şüurun (psixika və ağılın) müəyyən daşıyıcıda həkk olunmuş və müstəqil qala bilən qısa kodudur?

Istəniln halda hesab edirəm ki, ruh anlayışı dəqiq deyildir. Bütün canlı aləmin, habelə cancız aləmin surətləri mövcuddur. Canlıların surəti isə əlavə olaraq öz originallarına oxşar olaraq şüurludur, ruhun tam anlayışını bioloqlar, fiziklər, ekstrasenslər, spiritualistlərin iştirakı ilə birgə tapılmasını siz gənclərə həvalə edirəm. Əlbəttə müasir elm yalnız insanı şüurlu varlıq sayır. Əslində mənim fikrimcə bütün heyvanlar hansı ki əsəb sisteminə malikdir və özü mühitin təsirinə reaksiya verə bilirsə, onları şüurlu adlandırmaq lazımdır, hətta bitkləri

də belə adlandırmaq mümkündür. Şüurluluq dərəcəsi anlayışı irəli sürməklə əlbəttə insanı müəyən hallarda ən çox şüurlu varlıq saymaq olar. Hətta bunun özü də həmişə, hər zaman deyil, yalnız həmin subyektin müəyyən dövrlərində, müəyyən mühitdə belə hesab oluna bilər.

Hilolizm nəzəriyyəsinə görə bütün varlıqlar, materiya, cisim və canlılar hamısı ruha malikdir. Lakin ruh nəyə deyirlər? Hansı növ ruhu deyirlər? Bu naməlumdur.

Vacibdir qeyd edim ki, ruhun bitki, heyvan və ilahilərə keçməsi haqda buddizm, metempsixoz və deizm nəzəriyyələri - böyük dərəcədə doğru çıxır.

Aristotel ruhu 3 pilləyə bölürdü : a) qida məhsulu (nitritive)- bu bitkilərdir; hissiyatlı (sensible) - bu heyvanlardır; və ağıllı (rational)- insanlardır.(5, s.182 )

Müasir qəribə hadisələri öyrənərkən qədimdən bizə kitablar vasitəsilə çatmış fövqaladə hesab edilən hadisələrin oxşarlığını aşkar edirik. Bu günkü baş verən hadisələrin reallığına baxaraq onların da doğru ola biləcəyi mülahizəsinə gəlirik. Məsələn, Bibliyada .... allah İakovla güləşir, ondan İsrail adını alır (7, bıtıe 22-32 bibliya).Təsvir edilən müasir qəribə hadisələrdə belə oxşar faktlar vardır (bax fakt 18, səh12). Lakin deməliyəm ki, qədim izahları kənara qoymalıyıq - hansı müqəddəs kitabda yazılmasından asılı omayaraq, çünki o müəlliflərin biliyi az idi, hələ bunları izah verə bilməzdilər. Lakin mən deməliyəm ki, artıq bu hadisələrdə heç bir fövqaladə gizli bir məna yoxdur, hər şey aydındır.

Fransa, Fatima kəndi, 21-ci əsrin başlanğıcı, üç qız tarlada olarkən gözlərinə üç qadın sataşır, onlardan biri müqəddəs Mariyadır. Mariya qızlarla danışır və ona İsanın yaxın zamanlarda gələcəyini söyləyir və gələcəkdə olacaq bir neçə digər hadisəni də xəbər verir. Bu hadisə də mümkündür. Bunu izah etmək olar.

20-ci əsr, budur, bir Almaniya şəhərində poçtalyon ölür. Lakin sonra onun xəyalı həmişə kafedə oturduğu yerdə görünür. O qapını açır, həmişəki kimi çiynindən poçtalyon sumkası asılmışdır və öz yerinə gedib oturur, baxır, bir azdan durub gedir. Bu səhnəni hamı müşahidə edir. Lakin ona yaxınlaşıb kontakta girmək istərkən o yox olur. Bu hər iki misaldakı bir momentə fikir verin, onlarla kontakt baş verən an onlar yox olurlar. Bunu izah etmək lazımdır. Görünür, görünməz halda belə obraz, yaxud ruhlar enerjisiz olurlar, yalnız enerjini hansı üsullaca aldıqda görünən olurlar, lakin kontakt zamanı enerjinin boşalması baş verir və görüntü gözdən itir.

Budur, bir kişi uzanıb yerində yatır, səhərə yaxındır, o oyanır. Pəncərədən bir qadın silueti görünür, onun üstünə gəlir, kişi nə qədər onu sözlə, əli ilə qovsa da, təsir etmir, işığı yandırır, o yox olur; kişi yanına növbəti dəfə ağac qoyur və onunla özünü müdafiə edir, bu zaman qadın- surət geri çəkilir. Demək, həmin görüntü şüurludur, anlayır, reaksiya verir.

Bir orta yaşlı adam işə gedir, çay üstündə olan körpünü keçərkən o iki gənc oğlan və qız xəyallarını görür, onlar bu kişi ilə əylənir, onu ələ salırlar. Kişi evə qayıdır və 2 ay xəstə yatır, heç bir dərman kömək etmir, nəhayət özünə gələndə həmin başına gələn hadisəni danşır. Bundan sonra bu adamda qəribə davranışlar və görüntülər müşahidə edilir. Bir zaman deyir: " bu arvadları buradan qovun, bunlar niyə bura toplaşıb namaz qılırlar"?; digər bir vaxt öz-özünə danışarkən o deyir: " Ə, sən mənə bir həftə vaxt verirsən"?! - sonra bir həftə yatır və həmin vaxt çatanda ölür. **Izahat**. Həmin şəxs körpüdə olarkən görünməz 2 ruh onu qorxutmuşdur. Sonra o 2 aydan sonra özünə gələndə bu hadisəni xatırlamışdır. Bu dəfələrlə sübut olunmuşdur ki, belə ağır psixi vəziyyətdə görünməz ruhlar aktivləşir və insanı əhatə edirlər. Lakin onlar gələcək haqda məlumatlıdırlar, biri ona bir həftədən sonra öləcəyini deyir, bu şəxs isə inanmır və ona istehza edir. Nəticədə 1 həftədən sonra o ölür. Bu hadisədə özünə təlqin olmamışdır, çünki bu adam suever deyildi, heç bir fövqaladə şeyə, dinə də inanmırdı və göründüyü kimi həmin ruhu da qovmuş, ona inanmamışdır.

Görünür ki, ruh ayrıca olaraq ölüyə daxil olaraq onu diriltməyə qabil deyildir. Belə olsaydı insanlar heç ölməzdi, gəzən ruhlar onu canlandırardı. Bibliyada İsa ölünü diriltmişsə, bu o deməkdir ki, həmin ölü klinik ölümdə olmuşdur və onu insani bioloji, düşüncənin enerji qüvvəsi cana gətirmişdir - İsa enerji və həyat daşıyan söz gücü ilə onu diriltmişdir. Bu mümkün hadisədir. Lakin hər ölmüş canı yenidən diriltmək mümkün deyil. Onun diriləcəyini və bunun mümkünlüyünü İsa bilmişdir.

Zərdüşt təlimi ruhları 3 yerə bölür: 1. İnsanı şəxsən qoruyan ruh, 2. Qəbilə ruhları, 3. Əcdad ruhları. (1, 95). Altayda habelə yer və dağ ruhları haqda inanclar vardır. Avesta deyir: ata-baba ruhları- fravaşlar insan yaranmamışdan əvvəl mövcud olmuşdur və bütün həyatı boyu onu müşayiət edir. Ahura-Mazda yaratdığı bütün varlıqlara fravaşlar təyin etmişdir ki, onları bədxah ruhlardan və şeytanlardan qorusunlar. Hər adamın, evin, kəndin, suyun, torpağın belə qoruyucu mələyi – fravaşı var (9, s.100 ). Zərdüştün fikirləri, müəyyən edirəm ki, düzgün müşahidə nəticədir. Digər varlıqların da belə mələyi olmasını, şübhəsiz, sübut etməyə qabil deyilik. Deyə bilərəm ki, insanın

qoruyucu mələk adlandıran bir varlıqla əlaqədə olmasını öz həyatımda müəyyən etmişəm. Zərdüştün bu fikirlərində böyük bir həqiqət vardır. Belə ki döğrudan da 1-ci hissədə dünyanın tərkib hissələri haqqında danışarkən 3 dünya olmasını aşkar edirik. Onlardan biri ***surətər, formalar, ruhlar*** dünyasıdır ki, çoxlu sübutlara əlavə olaraq Zərdüştün də fravaşlar ideyası bu dünyanın olmasını təsdiq edir. Yəni Zərdüştün dediyi hər şeyin qoruyucu mələyi elə onların surətləridir-formalarıdır ki, görünür, şeylər : yer və göy cisimləri, canlılar, təbiət özünün surət kopiyası ilə daim əlaqədədir. Bu mələk adlandırılan obyekt qeyri - müəyyən, göydən düşmə deyil, kim tərəfindənsə təyin edilmş xidmətçi deyil, görünür, elə həmin şeyin öz surət -formasıdır.

Ruh adlandırılan şeyin simmetriya qanununa görə (cisim - anticisim) habelə müşahidələrə görə insanın xəyali, əks bədəni və ya astral - mental qabığı ola bilməsini fərz etmək olar. Bu halda onun nə üçün aqressiv olması izah oluna bilər. Fərz etmək olar ki, insanla paralel olaraq, görünür, onun doğulduğu zaman onun müxtəlif tip bədənsiz surətləri, anticismi də formalaşır. İnsan bioloji elektromaqnit sahəsinə malikdir. Bu insanın hüceyrəsinin titrəyişi - həyatı ilə və onun damarlarından qan və limfanın axması ilə, onlar ionlaşmış olduqlarına görə elektromaqnit sahəsi və şüalanma yaradırlar. İnsan öldükdə, görünür, enerji mənbəyi kəsildiyinə görə bu sahə onun beynindəki yaddaşla birlikdə görsənməyərək həmin ərazidəki yaxın bir əşyaya, ya fəzaya keçir, lakin uzaqlara getmir, nəsillə birlikdə müəyyən müddətə qədər qalır. Bunu ruh adlandımaq çox çətindir. Məsələ belədir ki, insan öləndə təkcə bir uçucu sahə ayrılmır. Bunların bir neçə olması ehtimalı var. Onda onların hansına ruh demək lazımdır? Zərdüştlüyün əsas kitabı Avesta insanda ruh adlana biləcək 5 qüvvəni təsnif edir. 1. Ahu ölməz ruh, insan öləndən sonra göylərə gedir və əbədi yaşayır. O insanın yaranışdan əvvəlki mənəvi simasıdır, insan yarandıqda də insan qəlbinə girir, o pis əməlli olarsa div adlanır. 2. Can –hərarət qüvvəsi. İnsanla birlikdə yaranır və öləndə ölür. 3. Dayena - şüur, vicdan mənasını verir, insan bədənindən asılı deyildir. İnsanda müvəqqətidir, yaxşı əməli, pis əməldən ayırmaq üçündür. 4. Buz- (bue), bu qüvvə insanda havizəni, yaddaşı və idrakı qoruyur, insanla birgə yaranrır, insan öləndən sonra mənəvi dünyaya qayıdır. 5. Urvan- can. Onun vəzifəsi uğurlu işi, düşüncə və davranışı seçməkdir. İnsan öləndən sonra onun canı yaxşı əməlli olarsa mükafat, pis əməlli olarsa cəza alır ( 1, s.85).

Ruhun insan öləndən sonra göyə qalxaraq *nazik materiyaya* keçməsini deyən (burada da bir vahid fikir yoxdur) hinduist-buddist nəzəriyyəsini qəbul etsək, nə üçün onun göydə deyil, insanlar içində

olması sualına cavab tapılmır. Və nə üçün məhz göydə olmalıdır? Buna sübut yoxdur, o nədirsə, göydə işi yoxdur, o yerdə insanlarla əlaqədardır. Göydə onun üçün maraqlı bir şey yoxdur. Ruhun nə olması təbiəti yenə də tam aydın deyil.

Enerji informasiya nəzəriyyəsinin müdafiəçisi parapsixoloq Medvedev dünyanı 4 yerə bölür:
1. Sıx fiziki materiya dünyası. 2. Astral dünya. Öləndən sonra insandan ayrılan emosional ruhlar: yuxarı səviyyədə məhəbbət, sevgi ruhları, aşağı səviyyədə qəzəb, paxıllıq , pislik ruhları yerləşir və burada evolyusiya edir, bu emosialardan təmizlənir 3. Mental dünya. Bu şüurlu varlıqların düşüncəsilə yaranmış və energetik vibrasiyası dünyasıdır. Burada emosialardan təmizlənmiş ruhlar yerləçir ki, mental xarakterlərindən də azad olsunlar. 4. Yüksək vibrasiyalı təmiz ruhlar dünyası - ilahi. Bu nəzəriyyə insanı da 4 qatdan ibarət hesab edir: fiziki bədən, efir bədəni, astral bədən, mental bədən, hansı ki qatlar formasında fiziki bədəni əhatə edir (4, s. 6-11). Müəllifin mövqeyincə ruhlar enerji infomasiya strukturları olmaqla məhz insanın atral-mental oboloçkasından ibarətdir. Daha ümumi formada müəllif dünyanı iki dünya kimi təsvir edir: fiziki dünya və astral - mental, yəni ruhlar ierarxiyası dünyası, hansı ki onun başında dünya zəkası –allah durur. Qeyd etmək istərdim ki enerji nformasiya nəzəriyyəsi bu müəllifin təsvirində buddizmin, induizmin, zərdüştlüyün, platonizmin, obyektiv idealizmin müasir modernləşdirilmiş formasıdır. Və dünyanı obyektiv və tam təsvir etmir. Fiziki cisimlərin surətləri, qeyri - material fiziki keçid hissəcikləri necə olsun? Yəni bu mənada Mənim irəli sürdüyüm dünya strukturunu daha düzgün hesab edirəm, hansı ki ibarətdir:
1. Material dünya 2. Keçid dünyası 3.Surətlər, formalar və ruhlar düyası.

Bu gün fakt budur ki, doğrudan da ruhlar vardır və onlar canlı insanlarla bəzən əlaqəyə girirlər və öz şəxsi mənafeyini irəli sürərək öz arzusunu yerinə yetirməyə sövq edirlər. Hər biri öz əlaqəyə girdiyi adama, məsələn, biri Krişnaya sutayiş etməyi, biri İslama, biri İsaya və başqa biri digər dinə sitayiş etməyi tapşırır. Şübhəsiz sitayişdən başqa digər tapşırıqlar da verirlər. Ateist ruhlar da sitayiş etməməyi, dünyanı ağılla dərk etməyi tapşırır. Son zamanlar 2010 ildə belə faktlar Azərbycanda xeyli çoxalmışdır. Bu sadə faktlar belə mülahizəyə gətirə bilər ki, buddist, induist və enerji- informasiya nəzəriyyəsinə görə ruhi aləmin başında ümumi xalis və təmiz müqəddəs ruh - allah durur və bütün ruhlar ondan törəyir, insanlara keçir. Lakin bu postulat səhvdir - sübutsuzdur. Orada heç bir ümumi vahid ruh-allah yoxur - olsaydı, o eyni göstərişi verərdi, bəşəriyyəti bədbəxtlik yolundan xilas

edərdi. Əgər o hər işin elə belə qalmasına 80 % dünya əhalisinin zülümdə, 20% -in isə var dövlətdə, təmin olmuş həyat yaşamasına, dünyanın və bəşəri inkişafın elə belə getməsinə çalışırsa, o bizim nəyimizə lazımdır? Deməli, biz işimizi onsuz qurmalıyıq. Bu fikri insanlara diqqətlə anlayıb qəbul etmələrini və yalan təlimləri rədd etməyi tövsiyyə edirəm. Kim əks sübutlar tapa bilərsə desin-belə sübutlar yoxdur!

*İnsanlar, cəfəng ideyalardan, cəfəng fəlsəfədən, cəfəng ideologiyadan, uydurmalardan xilas olmağın vaxtı gəlmişdir! Ağılla yaşayın, ağılla dünyanı dərk edin, fırıldaqçılrın xidmətçisi, istismar obyekti olmayın! Bilin, bu gün yaradılmış ideologiyaların, ictimai nəzəriyyələrin, dini təlimlərin 99%-i yalana, hiyləgərliyə, dominantlığa, şəxsivə dünya hakimiyyətinə, varlanmağa, istismara xidmət etmək üçün, cəmiyyəti aldatmaq və vasitə kimi istifadə etmək üçün yaradılmışdır. Elə bir azad rəsmi elm yoxdur ki, sizə əsil sosial - siyasi fəlsəfi həqiqətlər haqqında təlim versin, nəzərəiyyə yaratsın, sizin mənafeyinizi güdsün. Xoşbəxtliyə çıxmaq üçün siz elmi, xüsusilə ictimai humanitar elmləıri dövlətin, korporasiyaların və dinlərin tabeçiliyindən çıxarın, xalq kollektivinin idarəsinə verin və ya hamılıqla öz vəsaitinizlə azad elmi idarəni yaradın, kömək edin, o da bütün xalqa, bəşəriyyətə xidmət etsin.*

Fərz etmək olar ki, ruh adlanan varlıqlar ancaq insanla əlaqədardır - ya insanın əks surətidir, ya öləndən sonra bədəndən çıxan candır. Platon da bədənsiz varlıqlar olduğunu demişdir və onlardan ikisi ilə söhbət etdiyi rəvayət edilir. Pifaqor isə ruhlardan deyil, maddi, keçid və surətlər dünyasndan məlumat alırdı, lakin elə bilirdi ki, ruhlardan alır. Buna etiraz etməyə səbəb yoxdur.

Nəticə olaraq faktlardan belə məlum olur ki, insanın sağlığında da onun surəti – forması mövcuddur. O gecə yatanda ondan ayrıla bilir. Bundan başqa insanda həyatı boyu əlavə şəxsi şüur formalaşır və idrakın yaranmasına şərait yaradır və onu özündə daşıyır. Öldükdən sonra bu şüur və idrak da energetik bədən və əsəb sistemi məhv olduğu üçün itir. lakin insanda İİ şəxsiyət alt –təhtəlşüur əbədidir və o da öldükdə ayrılır, insanın görünməz forması ilə birlikdə olur. Demək, insanı 1.fiziki bədəndən 2. əsas şüur-idrakdan 3. 2-ci şəxsiyyətdən və 4. surət formadan hesab etmək olar. Surət- forma isə çox günan ki astral, mental, həndəsi insan formasıdır.

Qəribə faktlar bölməsində (səh 18) ruhlar haqda çoxlu faktlara diqqət verin.

**Proroklar**

Qeyd edim ki, bütün bu son 3 monoteist din yarandıqda ruhanilər onlara qədər olan dini baxış və əfsanələrdən və bir - birinin məlumatlarından istifadə etmişlər və din yaratma prosesinə yaradıcı yanaşmışlar. Proroklar dini yaradaraq şamanların, totemizm, animizm biliklərindən və metodlarından yaradıcılıqla istifadə edərək yeniləşmiş dua sistemi yaratdılar. Bu dualar sitemi absolyut olaraq onların subyektiv şəxsi mənafelərinə, öz ideyalarını təbliğ etməyə yönəlmişdi.Yənu dualar və yeni rituallar güclü ideologiya rolu oynayırdı. Və müxtəlif mərasimlərdə onların oxunmasını vacib elan etdilər. Məsələn, onlar bu duaları ölü öləndə, ölmüş şəxsləri insanlar öz yuxularında görəndə onların yazdığı kitabı və ya diqtə etdiyi tekstləri oxumağı tələb edirdilər.

Dini yaradıcıya peyğəmbər demişlər. Bu işdə: 1) intuisiyadan 2) qarabasma və halluniysaiyadan, 3) o dövrdə məlum olan elmi, texniki, kosmoloji biliklərdən, 4) doğruçu insan xəyallarından, ruh adlandırılan obyektlərdən və mistikadan və mifologiyadakı faktlardan, insanın psixiloji qabiliyyətlərindən: gipnoz, söz-dua, özünü təlqin, inamdan istifadə etmişlər. Yəni dinləri ağıl və məntiqlə o dövrdə mövcud olan bilik və hadisələrdən konstruksiya etmişlər. Bu işdə vacib rolu naməlum hadisələr və görüntülər oynamışdır ki, məhz din yaradanlar onlardan sui - istifadə edərək insanları qorxutmaqla özlərinə tabe etmişlər. Qorxu aləti başqa alətlərdən fərqli olaraq avam cəmiyyətdə daha səmərəli idi. Məqsəd insanları idarə etmək və öz şəxsi xeyrinə idarə etmək olmuşdur.

Hesab edirəm ki, dinləri, İsa və Zərdüştdən başqa ümumiyyətlə xüsusi qabiliyyətləri olan adamlar yaratmamışdır. Daha qədim dinlərin müəllifləri əlbəttə yaddan çıxmışdır, güman etmək olar ki onlar daha çox kollektiv əməyin məhsulu olmuşdur.

Bu ya digər səbəblə özlərini prorok elan etmiş adamlar əksəri özləri cadugər, falçı, astroloq, öncəgörən, yuxu yozan, dünyəvi prorok olmadıqları üçün əsil proroklarıı, öncəgörənləri rədd etmiş və rəqabətdə qalib olmaq və inkişaf etmək - dindarların sayını çoxaltmaq üçün onların fəaliyyətini şeytan işi adlandırmışlar. Şəxsən özlərini isə allahdan verilən xəbərləri insanlara çatdıran, allahın proroku - peyğəmbəri adlandırmışlar.

Obyektiv analiz bu hərəkətin əsassız olmasını aşkar edir. Bu zaman hegemon dini ruhanilər yeni dini prinsipi müdafiə edən prorokları allahdan *düzgün* məlumat çatdıran, ümumi strategiyaya zidd olanlarını isə *yalançı* prorok adlandırmışlar. Əslində bunu etmək üçün əsas olmamışdır, prorok adlanan heç bir kəs qəsdən yalan danışmırdı. Nə

eşidirdisə, nə hiss edirdisə onu danışırdı. Əsas məsələ burada bu məlumatın mənbəsini tapmaqdır. Prorok anlayışı təqribən Musa və Zərdüşt ilə başlayır. Bu dövrə qədər təsvir edilən personajlara, məsələn, İbrahimə, Nuha, İakova, Davidə və digərlərinə prorok deyilmirdi. Asiya dinlərinin yaradıcıları prorok deyil, müəllim, master adlanırdı və onların iudaist - xristian və müsəlmanların nəzərdə tutduğu allahla kontaktda olmaları və göstəriş almaları haqda məlumat yoxdur. Bibliya prorokları əksər hallarda siyasi, hakim mövqe tutmamışlar, onlarla adi insan kimi rəftar edilmişdir. Dünyəvi hakim-çarlar başqa adamlar olmuşdur. Biz bilirik ki, Bibliya 3 dəfə redaktə olunmuşdur (10 ). Buradakı allahın adına hesab edilən söhbətlər ya həqiqətən olmuşdur, yaxud anoloji olaraq redaktorun məqsədinə uyğun düzəldilmişdir. Hesab edirəm ki, bunların hər iksi vardır, mümkündür ki , həqiqətdə olan epizod təsvir edilmiş, lakin bir az dəyişdirilmişdir, çünki dini təlim strateji məqsədlə (milləti birləşdirmək, Misirdən çıxmaq, torpaq tutmaq) yaradılırdı. Bir çox epizodlardakı hadisələr indi də müəyyən dərəcədə təkrar olunur. Hansı ki sayaqlama, yaxud qarabasma adlandırmaq mümkün deyildir. Müqayisəli və dərin analız göstərir ki, həqiqətən görünməz ruhi dünya vardır və onun daxilində müəyyən insani və ya heyvani xarakterli varlıqlar - xəyallar mövcuddur. Bunlar daha çox məlumatlıdırlar, nəinki bizlər. Maraqlıdır ki xəstələnmiş, beyni zədə almış adamlar, habelə bəzi sağlam adamlar onları görə, hiss edə bilirlər, kontakt yarada bilirlər. Bu varlıqların bəzisi insan formasında, bəzisi dairəvi və ya insan siluetinə oxşar işıq formasında, bəzisi istilik, külək formasında özünü göstərir. Mən bunları müşahidə etmişəm, lakin tamamilə beynim sağlamdır. Belə görüntülərin bir hissəsi bəzi hallarda insanın öz beyninin qarabasmasıdırsa, bir hissəsi həqiqətən mövcuddur. Məhz psixi xəstələr, ekstrasenslər, cadugərlər onları asan görür və danışırlar, onlardan istifadə edirlər. Lakin müəyyən dərman içəndən sonra onlar sadəcə gözdən itirlər (11, s. 80-81). Bu o deməkdir ki, normal halda onlar görünmür, lakin beynin elə bir kostruksiyası – halı var ki, onlar əks olunurlar - bu digər surətlər dünyasının varlığını sübut edir.

Düşünürəm ki, Bibliyanın fövqəltəbii hesab etdiyi faktlarını bu dinin ruhaniləri real həyatdan götürmüş və məntiqlə montaj etmişlər. Bibliyada bir çox epizodlar, bəlkə də hamısı real həyatda ola biləcək faktlardır, hansı ki elə indi də baş verir. Məsələn, 1) İsanın doğulacağının əvəldən bir neçə dəfə xəbər verilməsi, çünki Yerusəlimin Makedoniya, Roma tərəfindən qəsb olunması cəmiyyətdə yeni xilaskarın gələcəyi gözləntisini yaratmışdı və bu da yuxulara girirdi; 2) İsanın onun bakirə Mariyadan doğulması. Bu hadisə də

müasir dövrdə müşahidə olunan özgə planetdən gələnlərin əməlinə oxşayır. Azərbaycanda belə fakt qeyd edilmişdir ki( 2000-2009 illər ), özgə planetdən gələn gəminin heyəti qızı oğurlamış və geri qaytarmışdır, sonra qızın bakirəliyi pozulmadan hamilə qalmışı məlum olmuşdur (Yerli TV,2009 il, Azərbaycan). 3) Lazarı diriltməsi, 4) 30 gümüş pula onun şagirdi tərəfindən satılması, çarmıxa çəkilməsi və 3 gündən sonra dirliməsi və göyə uçması mümkün ola bilən hadisələrdir. 3 gündən sonra məhz onun özü deyil, güman ki onun surəti-forması ( 2-ci şəxsiyyəti) reallaşmışdır ki, elə indi də belə hadisələr olur. Lakin İsanın meyidinin yox olmasını insanlar uydurmuşlar. Onun əlləri mismarlanmışdı və əlavə olaraq Roma əsgəri onun ölməsinə əmin olmaq üçün nizə ilə sinəsindən vurmuşdu – o, bütün qanını itirmişdi, ona görə belə bədən artıq heç bir vasitə ilə canlandırıla bilməzdi. İsanın diriləndən sonra görünüb söhbər etməsi ola biləcək hadisədir - bu onun surəti olmuşdur, lakin o eyni qaydada da yox olmuşdur. Onun göyə uçması və digər müasir göyə uçma faktlrarı göstərir ki, İİ şəxsiyyət ya ruh adlanan bu surət havadan yüngüldür (bəlkə də kütləsi, cəzb etmə xassəsi, digər fiziki xassələri yoxdur) energetik vəziyyətdə deyil , bəzən enerji aldıqda reallaşır- yalnız bədənsiz görsənir. 2) Bibliyada (7, Бытие 18 ) təsvir olunur ki., Avraam üç Qocanı görür, onlardan Saranın uşaq doğacağı xəbərini alır, İakov Allahla güləşir, ona üstün gəlir, tutub saxlayır və ondan tələb edərək xeyir – dua, İsrail adı alır, bundan sonra onu buraxır (7, Бытие 32- 24). Bu hadisələr müasir hadisələrlə oxşardır (bax qəribə hadisələr, səh 18).

Eynilə hər bir dini kitablardakı peyğəmbərlərə gələn səslərin, tapşırıqların çoxu real həyatdan götürülmüş, doğrudan olmuşdur. Şübhəsiz, əlavələrlə, şəxsi izahatla, müəlliflər tərəfindən deyil, başqaları tərəfindən dəfələrlə ağızdan keçərək əlavələr və təhriflər edilərək bizə gəlib çatmışdır. O peyğəmbərlərin və ya adi adamların başına nə gəlmişsə, indi də indiki adamların başına gəlir. Yahve (allah) Avraam ilə müqavilə bağlayır, Yəhudi xalqının tanrısı olduğunu öhdəsinə alır, Misir çayları ilə Fərat çayı arasındakı ərazini Avramın nəsillərinə bağışlayır. Sonrakı bütün nəsillərə bunu təkrar edir və hamı bu ərazini almağı arzu edir və Musanın dövründə konkret fəaliyyətə başlayırlar. Bütün bu rəvayətin izahı nədir? Burada çox ehtimaldır ki, 1)Avraam öz ağlı ilə belə bir strategiya qurur və 2) yaxud intuisiya ilə belə bir ideya əldə edir, 3)yaxud NLO sakinləri ona deyir və yaxud, 4) ruhi varlıq-obraz ona deyir. Bu dövrdə yəhudi milləti hələ formalaşmamışdı, onların ilkin nəsilləri yaranırdı, ona görə də torpaqları yox idi. Avraam bu ideyanı yaradandan (göstərilən üsullardan biri ilə alandan ) sonra, şübhəsiz, bu ideyanı təbliğ edirdi və

bütün tayfa bu ideya ilə tərbiyə olunurdu və hamı bunu gözləyirdi. Bu səbəbə görə də, şübhəsiz, görüntü -xəyal tez- tez bu, ya digər yəhuduinin qarşısına çıxırdı, yuxusuna giridi, bu fikirləri təkrar edirdi; onların qanuna əməl etmələrini deyir, cəzalanacaqları ilə qorxudurdu, yönəldirdi, məsləhət verirdi. Bu ideyanı bilən xəyal –surət elə yəhudilərin öz keçmiş nəsillərindən idi. Düşünürəm ki, başqa xalqların başçıları da belə strategiya qəbul etsəydilər, habelə elə indi, onların da qarşısına belə xəyallar çıxar, belə yuxular görər və bu fikri təkrar edərdi və yönəldərdi. Sonrakı nəsillərin dövründə (1500 il) isə daim bu, ya digər icma üzvlərinə onların fikrincə Yahve yaxınlaşır, onlara bu vədi yadlarına salır və düzgün yaşamaq yolunu göstərir. Onların günahlarını deyir, düz yola, yəhudiləri birləşdirəcək ədalətə, mərhəmətə, bir - birini sevməyə, başqa millətlərə isə nifrətə səsləyirdilər. Lakin həqiqətdə bu tanrı deyildi, forma - ruhlar və ya insanların yaddaşında daim yaşayan canlanan ideya idi. (Tanrı heç vaxt danışmır və birinə yaxşılıq etsə idi, bu digərinə pislik etmək demək olardı, insanlara ən böyük yaxşılıq- xeyirxahlıq onların işinə qarışmamaqdır, onların özlərinin düşünüb sərbəst obyektiv münasibətlər qurmalarına imkan verməkdir). Nifrət təlqin olunmasaydı, onlar heç vaxt özgələri öldürə, döyüşə bilməz, işğal edə bilməzdilər. İndi də bir çox millətçi xalqlar, məsələn, erməni xalqı daim öz qonşularına nifrətlə tərbiyə olunur ki, öz işğalçı məqsədlərini başa çatdırsınlar - dənizdən - dənizə torpaqları işğal etsinlər. Çox hallarda bu forma - ruhlar elə onların öz 2-ci şəxsiyyəti-surəti idi, bəzi nadir hallarda isə digər müdriklərin ruhları idi ki, yəhudilərin problemləri olanda çağırışa və ya trans halında onlara yaxınlaşırdılar, əlaqəyə girirdilər. Belə hadisələr indi də hər bir ölkədə baş verir. Özünü allahdan göstəriş alan-peyğəmbər elan edəndən sonra bu ruhanilər şamanların yaratdığı dualara və ayinlərə özlərini reklam edən və tabeçilik yaradan fikirlər əlavə etdilər və yeni dualar düzəltdilər. Mədəni həyatda müəyyən mərasimlərdə özlərini tərif edən öz fikirlərindən ibarət ayinlər düzəltdilər, öz dinlərinə inamı möhkəmlətmək və artırmaq üçün dəfn mərasimini yaxşı reklam yeri kimi istifadə etdilər. Dəfndə dini və özlərinin adlarını çəkməklə xüsusi dualar düzəltdilər. Fikir versəniz dəfndə istifadə edilən duaların ölü ilə heç bir əlaqəsi yoxdur, yalnız dini təbliğ edir. Ümumiyətlə həqiqət budur ki, dəfndə istənilən xristian, iudaist yaxud islam duası oxumağın ölü üçün və dirilər üçün heç bir mənası yoxdur. Dəfn və şənlikləri dinin təbliğ yerinə çevrilməsinə yol vermək səhv hərəkətdir. Dəfn zamanı yalnız ölünün xeyirxah işlərindən, yaxşı davranışlarından , əsərlərindn və cəmiyyətə verdiyi faydadan danışmaq daha ağıllı olardı.

Ruhanilər dini baxışlar, ayinlər sistemi yaratmış və bunlarla öz mənafeyini güdürlər. Dəfndə heç bir dini dua oxumağa ehtiyac yoxdur, bu duaların allahla heç bir əlaqəsi yoxdur. Az-çox xristian dualarının dəfndə, yeməyə başlarkən, nigah kəsilərkən rasional - məntiqi mənası vardır. Həyatın hər bir mərhələsi, əhəmiyyətli hadisəsi üçün elmi duaların yaradılması və oxunması daha məsləhətdir.

Xristianlar 2000 il İsanın gəlişini gözləyirlər. Onlar elə bilirlər ki, İsa yenidən eyni formada gələcəkdir. Lakin İsa daim gəlir, o bütün bu müddət ərzində çox dəfə insanlara görünmüş və kömək etmişdir. Lakin fərdi köməklər insanları xilas etməmişdir. O fərdi adamlara kömək üçün deyil, böyük işlər üçün, dünya, cəmiyyət üçün, şübhəsiz, yeni formada gələcəkdir. Yeni dövr artıq göstərir ki, tək- tək adamların probleiminin mənbəyi daha çox onların özləri, öz davaranışları deyil, onların ictimai siyasi, iqtisadi, mədəni sistemləridir. Belə bir baxış hələ o dövrdə yaranmamışdı, İsa da, Musa da, Məhəmməd də bunu bilmirdi. O dövrdə belə bir hakim baxış dəbdə idi ki, əgər insanlar fərdi olaraq 10 əxlaq normasınna əməl etsələr (Musa); düz olsalar, bir-birini sevsələr (İsa), yaxşı işlər görsələr -5 dəfə sitayişə, zəkata, həccə əməl etsələr (Məhəmməd); meditasiya etsələr-ruhlarını tarazlaşdırsalar (Budda); habelə ataların yolu ilə getsələr və bir ağıllı rəhbərə tabe olsalar (Konfuçi) onlar xoşbəxt olacaqlar. Bu baxışlar insanları xilas etmədi, onlara müxtəlif böyük problemlər- başqa icmalarla münasibətlərin düşmənçiliyə çevrilməsi, diktatorun yaranmasına, ictimai strukturu yaxşılaşdırmaqdan imtinaya- gətirdi. Bu təlimlər gizlində və ya açıqca digər təlimə inananları düşmən hesab edir, onları əzməyi, insan saymamağı, qəsb etməyi, zorakılıq etməyi, öldürməyi məsləhət görürlər.

*Ictimai sistem istənilən yaxşı işlər görən adamı və hamını sevən, və ruhunu tarazlaşdıran adamı oğru, dilənçi, qatil, yaltaq, dələduz, qəddar edə bilər*. Buna görə də xilasın yolu- ictimai iqtisadi sistemin yaxşılaşdırılması fikrini yeni peyğəmbər gətirməlidir. Bu peyğəmbərlər çoxdur, renesans və marifçilik dövründən sonra böyük miqdarda mütəfəkkirlər, bilavasiə həqiqi tanrının mənasını anlamış müdriklər elə peyğəmbərdirlər və bu ideyanı müdafiə edirlər. Bəşəriyyət əsil peyğəmbərlərini tanımalı və onların məsləhəti ilə ictimai sistemlərini və həyat tərzlərini qurmalıdır. İctimai sistem kamil olmasa, insanlara xilas yoxdur. Kamillik isə hamıya - indiki və gələcək nəslə yaxşı həyat vermək, təbiətlə harmonyanı təmin etmək qabiliyyətidir.

Yeni peyğəmbər artıq gəlmişdir. Mən 1) ***"hamını sev"*** və 2) Konfuçinin irəli sürdüyü və habelə İsanın nəsihət etdiyi- *"hamıya özünə istədiyin kimi münasibət saxla"* ideyalarına - 3) *"təkbaşçılıqdan*

*imtina et, kollektiv idarə etsin, hamının idarədə iştirakına imkan verin*" çağırışlarını əlavə edirəm. Bu sözləri kim deyirsə və müdafiə edirsə demək onlar sizin İsadır. Yəni mən və bir çox intellektuallar belə düşünürlər, biz hamımız yeni peyğəmbərik. Bəşərin xilası yalnız bu üç tələbdədir. Bu üç tələbi təmin edən iqtisadi sistem elə qurulmalıdır ki, təbii nemətlər: torpaq və çaylar, dənizlər və sular, yeraltı sərvətlərdən hamı ədalətlə istifadə edə bilsin və yaxud xeyrini bərabər alsın, onlar bir nəfərin və ya güclü qrupun- kompaniyanın mülkiyyətinə verilməsin, ictimai olsun. Mülkiyyət sahibləri bütün istehsalda və ya digər sahədə işləyənlərlə bərabər əmək haqqı alsın, yəni fərdi bonuslar, mükafatlar ləğv edilsin. Siyasi sistem ləğv olunub yerində kollektiv idarəetmə yaradılsın. Mədəni sistem insan həyatının, ailənin yaxşı və davamlı olmasına xidmət etsin. Dünyabaxışlar yalnız həqiqətlər əsasında yaradılsın.

**Mənə belə gəlir ki, dünyanın tam mənası tapılanda onun adət etdiyimiz, qəbul etdiyimiz dövrünün, obrazının sonu gələcəkdir.** Yeni bir ağıl, bilik dövrü başlayacaqdır. Yeni daha böyük və dərin **reformasiya, renesans və marifçilik** dövrləri olacaqdır, hansı ki əvvəlkilər bunun yanında bağça uşaqları üçün həyat haqqında giriş məlumatına oxşayacaqdır. Bu dövr indi başlayır.

Maraqlıdır ki, Pyotr deyir: "*peyğəmbər İoliya xəbər verir ki, son günlərdə sizin oğullar və qızlar, nökərlər və kənizlər peyğəmbərlik edəcəklər. Gənclər xəyal-ruhlar görəcəklər, qocalar yuxularla ağıla gələcəkdir. Göydə möcüzələr, yerdə isə əlamətlər yaranacaq sonra ali hakimin şərəfli günü başlayacaq. Kim bu hakimin adını çəksə xilas olacaq. Böyük hakimin şərəfli günü başlayacaq*" (7, səh 154). Bu məlumatda göstərilən məhz elə peyğəmbərlik etmək, yuxular və ruhların tez- tez görünməsi hazırda sanki daha çox baş verir. Bəzi mülahizələrə görə bu hadisə tarixdə siklik olaraq 100 ildən bir baş verir. Pyotr son sözlərində nəyi, yaxud kimi nəzərdə tutur. Bu yaxın günlərdə (Oktyabrın 17-də 2009) mən yuxuda dünyanın sonunu, Yer kürəsinin oxundan çıxması və fırlanma sürətini qeyri - bərabər dəyişməsini, silkələnməsini, qadınların ağlayaraq dua etməsini görmüşəm. Deyim ki, çox yuxularım havayı olmur, hökmən bir məsləhət, olacaq hadisə haqda işarə alıram. Pyotrun sözlərini belə başa düşmək lazımdır ki, insanlar böyük dünyanın bütövlüyünü və hər bir şeyin bir - birilə əlaqəsini, asılılığını anlamalı, və razılıqda yaşamaq, dünyanı(mühiti) öz tərkib üzvlərinə münasibətdə bütöv, yaradıcı, həlledici, idarəedici rolunda qəbul etməsi, böyük hakimin adını çəkməklə məhz bu mənanı yada salmalı və təsəvür etməli və hər bir canlıya və cansıza, insana, heyvana, bitkilərə - bütöv təbiətə qayğı ilə

yanaşmalı, onlarla, ətraf mühitlə harmoniyada, **razılıqda,** fəlsəfi mənada təkin çoxluuqla ağıllı razılıqla münasibət qurması ilə yaşamalıdırlar. Hər bir insanın, xalqın, millətin məxsusi ierarxik konkret üst sitemlərə üzvlüyünü anlamalı və onların əksinə getmədən yaşamağı öyrənməlidir. İstehlakçılığı, artıq yeməyi, varlanmağı, ac-gözlüyü, təbiəti korlamağı, hədsiz istismar etməyi, sərvətləri sürətlə sərf etməyi kənara qoymalı; yalnız orta və optimal vəziyyəti seçməli, öz həyatlarına dünya, ətraf mühit, həyat haqda düşünmək, gündəlik meditasiya və dünyanı (ətraf aləmi) hiss etmək və anlamaq prosedurunu daxil etməlidirlər. Əlbəttə Pyotrun dövründə insanlar yalnız **ağa –qul**; **başçı - idarə olunan** sistemini bilirdilər və elə indi də bilirlər, hətta ağaya, müdirə, rəisə, başçıya, prezidentə, baş nazirə sitayiş də edirlər və elə güman edirlər ki yalnız hansısa rəhbər, başçı gəlsə onlar xilas olacaq, problemləri həll olunacqdır. Pyotr da, bütün xristianlıq, yəhudilik, islam, buddstlər elə düşünürlər. Bu, bütün keçmiş tarixin yaratdığı, istifadə etdiyi, sitayiş etdiyi **səhv** fikirdir.

*Bəşəriyyətin yeni tarixi başlayır, burada ayrıca başçıya, rəhbərə ehtiyac yoxdur, insan kollektivi özü başçı və rəhbər olacaqdır, başçı, rəhbər, bürokratiya vəzifələrində oturanlar isə sadəcə kollektiv qərarların; proqram və layihələrin ; gələcək stategiya və doktrinaların icraçısı olacaqlar.* Başqa heç bir korrupsiya, vəzifələrdən şəxsi istifadə, şəxsi mənafe, özgələrə diskiminasiya qəti olmayacaqdır.

Ağıl sərhədsiz, limitsiz maddi varlanmaq üçün, vəhşilik üçün, qəsbkarlıq üçün, hakimiyyət məqsədi üçün işlədilməməlidir, əksər bəşəriyyət belə istəyir. Bunun qarşısı əlbəttə söz ilə alına bilməz. Bunun qarşısı yalnız cəmiyyətin özünün- sadə, ağılla yaşamaq istəyən hədsiz var-dövlətdən qudurmamış böyük çoxluğunun idarəedici, qanunverici, nizamlayıcı səlahiyyətlər əldə etməsi ilə alına bilər. Lakin müasir siyasi sistem buna mane olur və bəşəriyyəti sürətlə məhvə aparır. Bu problemi - böyük arzu edən çoxluğun idarə edə bilməsi, qanun verə bilməsi problemini həll etmək lazımdır!

## Vəhylər

Hadisələrdə eynilik, analogiya, təkrarlar bu gün də davam edir. Vəhylər axını yuxuda, aşkarda, çətin psixi anlarda davam edir, görüntülər – insan, heyvan, quş, təyyarə, bitki gəlir, gedir...aşkarda , yuxuda naməlum adam-surətlər və obyektlər çətinə düşmüş insanlara kömək edir, sonra yox olur. Bunlar heç sitayiş etməsən də, dua eytməsən də, allahdan xahiş etməsən də baş verir. Sanki həyəcan, kömək çağırışı görünməz şüurlu varlıqlar tərəfindən eşidilir. Bu günkü

vəhylərlə qədim vəhyləri müqayisə edəndə məlum olur ki, bir sıra vəhylər oxşardır, bir sıra vəhylər isə sadəcə keçmiş adamlar tərəfindən uydurulmuşdur. Həmin vəhylər də naməlum ilahi mənbədən gəldiyi elan edilərək hansısa dini kitabda bizə təqdim olunmuşdur. Bu zaman uydurulmuş vəhylərlə həqiqi vəhylərin seçilməsi məsələsi üzə çıxır. Vəhylərin həqiqi ya yalan olmasını da biz tapmalı, onları seçməliyikgələcəyin, həqiqətin naminə.

Keçmiş proroklar içərisində elələrini tapmaq olar ki, bu gün də ona sitayış edilir. Bu, əsasən şərqdə geniş yayılmış qul - ağa düşüncə tərzi ilə izah edilir ki, insanlar öz rəislərini yerdə ilahi hesab edirlər. Lakin belə bir prorokun prorok olması onun guya öz dilindən dediyi vəhylərlə sübut olunmur. Məsələn, belə vəhylərdə deyilir “filan əraziləri sizə vermişəm oranı tutun əhalini qırın, bir kişini də sağ buraxmayın” digər vəhydə deyilir “filan dini insanlarla dostluq qurmayın onlar kafirdir, filan əraziləri qəsb edin, var-dövləti qarət edin, sonra hallallıqla yeyin, mən tanrının vəkiliyəm, mənə tabe olun və sitayiş edin, onda cənnətə gedəcəksiniz ”. Digər bir müqədəs yazıda deyilir: “başqa dinlərin allahları şeytandır, onlara inanmayın yalnız mənə inanın” Məgər belə vəhyləri tanrı-hansı ki ancaq xeyirxah ola bilər- deyə bilərdimi? Belə fikirlər uyduraraq, ruhanilər şübhəsiz, insanların avamlığından istifadə etmiş, məqsədləri milli siyasət, şəxsi eqoizm, varlanmaq, hakimiyyət olmuşdur. Onlardan bəziləri, məsələn, Musa doğrudan da öz xalqına xidmət etmiş – günəş altında onlara vətən qurmuşdur, bu zaman bəzi vacib əxlaqi prinsiplər pozulsa da.

Zorakılıq da, razılıqla bərabər, yeni ictimai sistemin, quruculuğun, sabitliyin, rifahın vacib alətlərindən birirdir. Yəni güclü varlıqlar zəifləri güclə birləşdirməklə, bir stabil formada saxlamaqla qaydalılıq yaradırlar, dünyanın və hissələrin avtonom sistem kimi olmasına, yəni var olmasına xidmət edirlər. Əgər Günəş Yer planetini zorla öz ətrafında lazımı orbitdə saxlamasaydı, Yerin başına nə gələrdi? Əxlaq isə məlumdur ki, kənar sosial hədlərdə - son kasıblıq və son varlılıqda- daim pozulmağa məhkumdur. İnsanların sabit və normal sosial iqtisadi vəziyyətində isə o işləyə bilir, yaddaşlarda qalır, insanlar onu pozmaqdan utanırlar. Həmin yalançı müqəddəslərin bəzisi heç prorok olmamışdır, şahidlərin rəvayətinə görə psixi xəstə olmuş, öz sayaqlamalarını, halluniyasıyalarını tanrının dediyi kimi qələmə vermiş, avam, biliksiz camaatı inandırmağa qılınc gücünə və qorxutmaqla (qılıncı, hərbi gücü olanlar) nail olmuşlar. Onların adından yazılanlar orada heç bir məntiqin olmamasını, yalnız öz öyrənib bildiklərini, eşitdiklərini xəstəlik tutması vaxtı eşitmə qarabasması kimi kənar mənbədən deyil, öz səsinin yaxud daxili

nitqinin eşitməsi olmasını aşkar edir.Bu psixologiya elmində sübut olunmuş faktdır. Belə xəstə adamın haqqında deyilən hekayət və aforizmlər isə sadəcə ağıllı insanlar tərəfindən - bu bayrağın altında gizlənmək və belə uydurma baxışın yaratdığı yemək süfrəsindəki yeməyə əlini uzada bilmək üçün uydurulmuşdur. İnsanların inandıqları ilahi əsaslı son dinlərin kitablarında yalnız bir neçə ilahi vəhyin olmasını aşkar etmişəm, qalanları şəxsi yaradıcılıq məhsuludur.

Bütün teist dinlərin kitablarında vəhylərin mahiyyətini araşdırdıqda və müasir vəhy alanlaraın vəyhlərilə müqayisə etdikdə nadir istisnalardan başqa, burada heç bir fövqaladə mənbənin olduğunu müəyyən etmək olmur. Məlum olur ki, bu vəhylər yalnız həmin şəxsin şəxsi problemlərinin və ya nadir hallarda həll etmək istədiyi ictimai problemin həlli haqdadır. Adi canlı həyatda necədirsə, insanlar hansı prinsiplərlə yaşayırsa, məsələn, daim öz mənafeyini güdür, irəli çıxmaq üçün başqasından istifadə edir, aldadır, hansı elmi prinsip və qanunları bilirsə, vəhylər də məhz həmin insanın şəxsi və ya ictmai, elmi probleminin həllinə yönəlib. Məsələn, Nikola Tesla rəvayətə görə yeni şar ildırımlar buraxan elektromaqnit qurğusunun konstruksiyasını intuisiya –vəhylə görmüşdü. Mən hesab edirəm ki ümumiyətlə obyektiv idealizmin tərəfdarı Hegelin irəli sürdüyü *dünya zəkası* anlayışı ( 6, s.222-225) uydurmadır və belə bir şey yoxdur. Zəka şüurlu varlıqlardadır, məsələn, insanda, insan öz beyini və bütün bədəni ilə ətraf mühitin bütün qanunlarını və obrazını, habelə gələcəyini, mövcud trendləri yaddaşına köçürməyə və avtomtik düşünmə və nəticə almaq qabiliyyətinə malikdir. İnsan təkcə 5 duyğu üzvü ilə məlumatı oxumur, o xeyli məlumatları bütün bədəni və naməlum anlama mexanizmi ilə qəbul edir ki, heç özünün də xəbəri olmur, hiss etmir. Görünür, bunu 2-ci şəxsiyyəti (təhtəlşüuru) ilə edir. İntuisiyanın bir mənbəyi də elə budur-insanın öz zəkasının gizli işi.

Proroklarin əksər vəhylərinin əsas mənbəyi məhz allah deyil, həmin prorokların öz ağlının əlaqədə olduğu mühiti anlamağın nəticəsidir. Hansı ki sakit və ya xəstəlik tutması zamanı öz beyni sakit işləyərək onların həll etmək istədikləri problemin həllini intuisiya vasitəsilə almışlar və yaxud öz daxili nitqlərini eşitmişlər. Bu həll və ya məlumat tamamilə onların dünyagörüşünə, adətlərinə, fikirlərinə, məqsədlərinə uyğun olmuşdur. Məsələn, Musa həll etməli məsələnin - Yəhudilərə vətən düzəltmək və onları təşkil edib onu tutmaq strategiyası- həllini elə öz ağlı və təcrübəsi ilə almışdı, çünki özü də Ramzesin qoşunnda Həbəşistanı işğal etmək üçün vuruşmuşdu. Digər tərəfdən bu tapşırığı vəhylə - yenə də eyni cürə əvvəl İbrahim (Avraam) almışdı (10). Və bu məlumat yəhudi miflərində, folklorunda,

yaddaşlarında hər gün yaşayırdı, ona görə də yenidən Musaya və sonrakı liderlərə belə ideya yuxuda və ya ayıqda gəlməli idi.

Məhəmməd də Ərəbistan ərəblərini birləşdirib bir dövlət qurmaq və sonra onu imperiyaya çevirməyi və bunu qarətlər və işğalla etməyi də, digər sosial və iqtisadi davranış normalarını da öz ağlı ilə törəni və zərdüştlüyü, xristianlığı, səbailiyi səyahətlərində, hənifiliyi, hansı ki hamısı tək allahın olduğunu təlim edirdi, öz şəhərində və ticarət səfərlərinə öyrənməklə sonradan intusiya ilə və ya bilavasitə düşünməklə almışdı. Elə burada qeyd etməliyəm ki, onun, elə Musanın da aldığı vəhylərin bir hissəsi bəşəri əxlaqi etik prinsiplərə əsaslanmırdı və onlara zidd idi . Məsələn, əlində qılınc 84 döyüşə rəhbərlik və 28 döyüşdə bilavasitə iştirak, İrana, Xeybərə, Məkkə karvanına hücüm faktlarını və s. göstərmək olar ( 12, s. 287 ).

Yəhudilər və ərəblər o dövrə qədər hələ ümumi mədəniyyətin yaranmasına və qorunmasına kömək edəcək, həyatı nizamlayacaq dövlət görməmişdilər, bütöv cəmiyyət yaranmamışdı. Ona görə oğurlamaq, öldürmək, qarət, çox arvadlılıq, müharibə, qəsbkarlıq, müxtəlif ilahilərə sitayiş adi həyat tərzi idi. Cəmiyyət mədəniləşdikcə, yəni idarə sistemi yarandıqca əxlaq da yaranırdı. Və nəticədə əvvəl yəhudilər üçün Musa tərəfindən məhz onların birinci ehiyacı olan 10 əxlaqi göstəriş irəli sürüldü. İran milləti üçünsə Zərdüşt daha rasional əxlaqi həyat normalarını irəli sürdü. Başqa millət və xalqlarda bundan əvvəl artıq o dövrə qədər tələb olunan bütün ilkin əxlaq normaları yaradılmışdı.

Onu da qeyd edim ki, bütün tarix ərzində digər adamların da aldığı vəhylərin və ya intuisiyaların hamısı heç vaxt əxlaqa və etikaya zəruri olaraq uyğun olmamışdır. Elə bu fakt çox dərin nəticələr çıxarmağa səbəbdir. Bu bir daha sübut edir ki, əxlaq və etika normaları yalnız insan cəmiyyətinin kollektiv yaratdığı anlayışlardır, onlar öz cəmiyyətlərində özlərinin etdiyini əxlaqi sayırlar, digər cəmiyyətlərin və ya başqalarının eyni şeyi etmələrini adətən əxlaqsızlıq sayırlar (heyvanlar da özlərinə oxşar və uyğun qaydalar müəyyən edirlər). Məsələ orasındadır ki, ağılın və düşüncənin **hədləri** daxilində Məhəmməd onu maraqlandıran əsas məsələlərin həllini intuisiya ilə alandan sonra daha vəhylər gəlmədi. Niyə?- çünki öz düşüncəsinin sərhədlərində dayandı və sərhəddi keçmədi. Lakin daha dərindən düşünərək düşüncə sərhəddini keçsəydi, həddən artıq həll edilməmiş məsələləri - hakimiyyətin necə başqasına verilməsi, və ya daha kamil optimal idarənin qurulması, ictimai nəzarət, yeni iqtisadi münasibətlər, elmi texniki inkişaf, baxışların daim təkmilləşdirilməsi və s.- təsəvvür etsəydi, yeni vəhylər olacaqdı. Islamın parçalanması,

təriqətlər, daxili müharibələr, terrorizm və s. eyib davranışlar olmayacaqdı. İsa da iudaizmi reviziya və ictimai siyasi reallığı analiz edərək bütün məsləhətlərini, yeni "hamını sev" və s. strategiyalarını öz ağlı ilə, intuitiv əldə etmişdi. Heç bir halda kənar transendental mənbə iştirak etməmişdi. Musa haqqında da eyni sözləri demək lazımdır. Eynilə həmin dövrdə və sonralar da vəhylərin əsas mənbəyi: 1) elə adamların öz ikinci şəxsiyyəti –öz ağılları, daxili nitqləri və yaxud 2) xəyali insan surətləri (astral-mental surətlər, yəni konkret ruhlar) olmuşdur. Başqa adamlar belə məqsəd qoymadığı üçün onlar almamışlar.

Bu mülahizə onunla sübut olunur ki, 1) tanrıya verilən xassələrə görə o müsbət, xeyirxahdır, hamının mənafeyini, yaxşılığını, həyatını qoruyur. Belə olduğu tərzdə tanrı heç bir proroka hansı xalqlarısa qəsb etməyi, qırıb öldürməyi, əmlakını almağını, istismar etməyi, arvad və qızlarını öz hərəmxanasına qatmağı məsləhət görə bilməzdi. 2) Özü də onların aldığı vəhylər həmin dövrün əxlaqi siyasi mədəni təsəvvürlərinə uyğundur, yəni məhz həmin adamların davranış tərzləri, qəddarlığı, dəbləri və adətləri, özgələrin insan olmaması –öldürülməyə, soyulmağa, qarət olunmağa layiq olması baxışları nəticəsidir. Əgər həmin proroklar bu gün yaşasaydılar belə vəhylər – işğal, qarət, yandırmaq, öldürmək-onlara gəlməzdi, çünki bəşəri mədəniyyət indi başqadır, daha humanist və ağıllıdır. 3) həmin vəhylər yalnız həmin prorokların şəxsi və maraqlandığı problemlərin həllinə aiddir- hansı ki sübut edir ki məhz, vəhy formasında məsləhət verən də əksər hallarda elə onların öz ağlıdır. Onlarda həmin problemləri həll etməyin güclü arzusu olmuşdur. Ona görə onların beyni dayanmadan hər zaman işləmişdir və sakitlik, meditasiya və ya xəstəlik tutması zamanı intuisiya ilə həlləri öz beyinləri tapmışdır, lakin dövrün düşüncəsi və mədəniyyətindən kənara çıxmamışdır.

Dini kitablarda elə vəhylər də vardır ki onlar, bilavasitə 3-cü dünyadan –yəni onun tərkibindəki ağıl - zəka "buludlarından"gəlməsini güman etmək olar. Məsələn, Məhəmməd allah haqda deyir: "Gözlər onu görüb dərk etməz, o gözləri dərk edər. O lətifdir, cismlikdən uzaqdır və hər şeydən xəbərdardır" (13, s. 556). Bunu necə başa düşmək lazımdır? O nəyi nəzərdə tutur? Deyərdim ki, bu elə belədir, yəni yuxarıda qeyd etdiyim kimi yaradıcı, idarəedici allah hesab edə biləcəyimiz obyekt konkret bir varlıq, əşya, hadisə deyildir; o, 4 amilin komplektidir ( bax hissə 1 və burada səh 10). Əlaqəyə girən varlıqlar görünə bilər, digərləri görünməyə bilər- əlaqələr, xassələr: cəzbetmə, itələmə, insanlar arasında psixi simpatiya, nifrət münasibətləri və s. 3-cü dünya obyektləri də görünmür. Digər

tərəfdən əgər o hər şeyi bilirsə, buna çox dolayı sübutlar var, belə bir obyekt nədir və haradadır? Bu obyekti biz məhz 3-cü dünya varlıqları arasında tapırıq - bu Çin, Hind mədəniyyətində “göylər” və yaxud “dünya zəkası” adlanır. Lakin onu *dünya zəkası* deyil, dünya(cisimlər, canlılar, hadisələr mahiyyətinin surətlərdə əks olunmuş) məlumat ambarı adlandırmaq daha düzgündür. O, yalnız məlumat ambarıdır və heç kimə özü haqda məlumat göndərmir, yalnız anlayan şüurlu varlıq məsələn, insan və bəzi ağıllı heyvanlar onu dərk edib onu “oxuya”, anlaya bilərlər. Qədim türk mifologiyasına görə də dünyanı göy ilahisi Tenqri (tanrı) idarə edir (9).

3-cü dünyanın(surətlər, formalar, ruhlar) təsvirindən gördüyümüz kimi (bax hissə 1) orada əbədilikdir. Oranın sakinləri: ruhlar, xəyallar, material obyektlərin, təbiətin , hadisələrin surətləri, formaları, obrazları, kölgələri, dayanıqsız, kütləyə malik olmayan, enerjiyə malik olmayan hissəciklərdir. Güman ki, sükunət kütləsi olmayan və virtual hissəciklər sahələri olduğu üçün , onlar evolyusiya etmir (ona görə də onlar dəyişmədikləri, evolyusiya etmədikləri üçün zamanı generasiya etmirlər). Lakin bütün yer kürəsində və ya kainatda baş verən həyat təcrübəsi, yaradılan biliklər və ya reallığın malik olduğu imkanlar, biliklər bu obyektlərdə əks olunub - yazılıb. İntuisiya və ya vəhy alma bəzi hallarda (hamısı yox) məhz bu 3 – dünyadan insan zəkasının işi nəticəsində əldə edilir. Bizim həyat oradan daha aydın görünür və gələcək (istiqamətləri və xətləri, inkişafın zoğları, budaqları, detalları) çox asanlıqla bilinir. Ruhlar isə məhz xaraktercə eyni sahə, sahə buludu (məlumat, mental, astral strukturlar) olduğu üçün bu məlumatları asan oxuyur və yer sakinlərinə deyirlər. Əgər bu belə olmasaydı, onların dediyi və ya bu İİİ dünyadan alınan intuitiv məlumat düz çıxmazdı. Yerdə belə ruhlara cin, mələk, allah adı qoymuşlar. Təsvir edildiyi kimi Məhəmməd düzgün demişdir: həmin “dünya cisim deyildir və o hər şeydən xəbərdardır”. Buradan belə nəticə çıxır ki, allah dedikdə, həqiqətdə onu məhz material dünyanı və keçid dünyasını deyil, bu 3-cü dünyaya (formalar, surətlər) aid etmək lazımdır. Lakin biz tədqiqatımızda aşkar etdik ki, 3-cü dünya yaratmır və idarə etmir, o formalar, xəyallar, kölgələr, məlumat buludları və s. obrazlardan ibarətdir, zəruri dayanıqlı sabit fiziki xassələrə malik olmadığı üçün heç nə ilə əlaqəyə girib bir yaradılış prosesində iştirak etmir. Bəlkə də edir, lakin biz bunu müşahidə edə və sübut edə bilmirik. Fiziki xassələri olmasa da görünür, digər xassələri: məlumat daşıma və bir obyektdən (surətdən, ruhdan) digər obyektə ötürmə xassələri var. Lakin bunların nədə əks olunduğu naməlumdur. Lazımı tədqiqatlar və bütün fenomenlərin toplanması və yeni analizi lazımdır.

Bu 3-cü dünya elə bütün kainatı tutur və bizi də əhatə edir. Biz və istənilən varlıq eyni zamanda material, keçid və İİİ dünya mühiti içərisindəyik.

Bibliyanın hekayələrindən İsanın allah olması nəticəsi çıxmır. Təccüblüdür ki, ona nə üçün allahın oğlu deyirlər. Belə baxıldıqda hər bir insan allahın (real, həqiqi allahın) oğlu sayıla bilər. **Onun özü deyir: "mən müəllim və tərbiyəçiyəm, hamımızın atası allahdır**"(7, 19 ). Görünür ki, İsa öləndən sonra apostollar və ya digər keşişlər xristianlığın 50-100 il dövründə əmələ gəlməsi və iudaizmdən ayrılması dövründə yaddaşların köhnəlməsindən itifadə edərək Yəhudi proqnozlarına düz gəlmək üçün onu Allah (allahın oğlu) elan etmişlər. Çünki Yəhudilərdə Malaxiya prorok demişdi ki, Israili xilas etmək üçün allahın özü gələcək. (7, Malaxiyadan 3 , 1-5 səh 934, bibliya) Digər tərəfdən *yeni çağırışda* allahın oğlu ifadəsini bioloji mənada deyil, məcazi mənada başa düşmək lazımdır. İsanın özü deyirdi: "mən və allah birik, məni o göndərmişdir". Bu fikirdən onun allahın oğlu olması mənası çıxmır. Bunun bir səbəbi də odur ki, İsa normal mayalanma olmadan dünyaya gəlməklə (ola bilər ki, bu NLO (UFO)-da özgə planetdən gələnlərin işi oluşdur) xüsusi qabiliyyətlərə malik olmuşdur. Müqəddəs yazıdan belə məlum olur ki, o daim 3-cü dünya ilə əlaqədə olmuşdur, bütün təfəkkürü oradan olmuşdur, ona görə də həmin mənbəni allah hesab etmişdir. Özü ilə allahı eyni saymışdır. (7, Bibliya, İohandan 10 (22-42). Qeyd etmək yerinə düşər ki, indi də həmin mənbə ilə daim və ya müəyyən zamanlarda əlaqədə olan adamlar vardır, yəni İsa və ya digər həqiqi peyğəmbərlər bu işdə tək deyildir. Nəzəri olaraq hər bir insanın onu dərk etmək, ideya almaq potensialı vardır. Lakin sonrakı səhifələrdə göstərəcəyik ki, bu mənbəni bütövlükdə dini mənada allah hesab etmək olmaz, o yalnız qismən belə funksiyanı daşıyır. Onun digər tərkib hissələri də vardır ki, yalnız birlikdə bütöv allah funksiyasını icra edirlər. Allah nə cismdir, nə ruhdur.

Təqribi hesablamama görə Yalnız bəşəriyyətin 1 %-i öz ideyasına malikdir. Qalan hissə isə özgə ideyalarını mənimsəməklə yaşayırlar. Elə məhz 1% öz prinsiplərini dəyişmir, hər çalınan havanı oynamır, dünya ilə bir düşünmür. Lakin onların ideyasının da düzgün olmasına qarantiya varmı? Belə güman etmək olar ki, dünyada hər zaman və ərazidə düz ola biləcək bir düz danışan adam, bir düz dərk edən adam yoxdur. Bu təbii qanuna uyğundur. Çünki eyni iki şey yoxdur.Yəni eyni bir adam özü kimi digər adamı yalnız düz sya bilərdi. Elmin vəzifəsi məhz o düzgünü hər sahədə tapmaqdır. Çox sahələrdə düzlərin, yəni həqiqətlərin çoxu tapılmışdır, lakin daha dərin qazmaq

və ya daha çox hündürə qalxmaq, daha uzağa getmək, daha çox bilmək lazım gəlir. Bununla bərabər tək adamların mindən birinin düzü tapması hələ heç bir dəyişiliyə kifayət deyil, lazımdır ki həmin minlər də bu düzün tapılması yolunu öyrənsin və həmin düzü özü tapsın, yoxlasın, inansın, sonra həyata keçirsin, məhz öz ağlı ilə, əzbərləmək və ehkam kimi qəbul etmək olmadan. İnsan öz başına gəlməsə, özü bilavasitə təcrübə etməsə, heç nəyi öyrənə bilmir, adət etmir.

Bu gün demək olar ki, görüntü və vəhyləri – intuisiyanı, naməlum təsirləri izah etmək üçün elmi və adi söhbətlərdə iki baxış, iki mövqe formalaşmaqdadır. Bu fenomenlər xaraktercə oxşardır və insanın məlum və naməlum hiss üzvləri vasitəsilə insana aydın olur. Bu məlumatlar isə məhz beyinin işi nəticəsində dərk olunur, seçilir, sortlaşdırılır.

**Birinci baxış** elmi-psixoloji baxışdır. Məsələn, belə baxışın nümayəndəsi- psixiatr Vladimir Levi deyir ki, hər şey beyinin öz işi nəticəsidir: qıcıqların, keçmişin əks səda doğurması, təkrarlanması, uzun müddətli yaddaşın öz - özünə aktivləşməsi, bu yaddaşın yuxu zamanı və ya ayıq olduqda müxtəlif məlumat qalıqlarından, obrazlardan yeni obraz və hadisələr montaj etməsi. Bütün görüntülər qarabasma və halluniyasıdır. Dərmanlar atmaqla onları ləğv etmək olur ( 11, s. 80-82). Maraqlıdır ki, Rusiyada aparılmış (2009 il) tədqiqatlara əsasən beyni zədələnmiş, zərbə almış və narkoz altında qalmış, klinik ölüm keçirmiş, ildırım vurmuş adamların məhz 20 % -ndə belə naməlum qabiliyyətlər- vəhy və görüntülər, öncə görmələr, rentgen gözlər müşahidə edilir. Nadir hallarda tam sağlam adamlarda belə qabiliyyətlər meydana çıxa bilər. Bu faktlara bu məsələnin izah olunmasında **açar** kimi baxa bilərik. Əgər xəstə aminazin içərkən qarabasmalar yox olursa, xəstə olmayan da yəqin ki aminazin içsə (bunu eksperimentlə yoxlamaq lazımdır) onların da gördükləri eşitmə və görmə qarabasması və digər hadisələr yox olar.

**İkinci baxış** isə ondan ibarətdir ki, həqiqətdə dünyada ruhlar, cin, şeytan, mələk, allah vardır. Bu baxışı teist dinlər, idealist filosoflar və bütün dindarlar qəbul edir. Bu baxış real, lakin izah edilə bilinməyən faktlara istinad edir və həmin terminləri, anlayışları uydurmağa məcbur olur.

Güman etmək olar ki, dərman içməklə gözdən, hisslərdən itən həmin obyekt – insan, heyvan, maşın xəyalları - bəzi hallarda həqiqətən mövcud olmaqda davam edir, insan bunu görməsə də. Məhz bu halı xəstənin qarabasması ilə qarışdırmaq lazım deyil. Digər tərəfdən, faktları sortlaşdırmaq lazımdır, hamısını eyni bir ölçü aləti ilə ölçmək lazım deyil. Psixoloji hadisələri və bilikləri spiritoloji

hadisələrdən və izahlardan ayırmaq lazımdır. Çünki hər birinin predmeti müxtəlifdir. Lakin bu analiz predmeti - fenomenlər insanın eyni bir beyninin və hiss üzvlərinin işi nəticəsində insana aşkar olur. Burada onları, hansı ki - elə oxşardır ki- seçmək, adətən mümkün deyil. Yuxarıda göstərilən faktlar psixologiyanın izahından kənara çıxır və başqa izahat tələb edir, hansı ki dünyanın bütövlükdə hansı hissələrdən, nədən ibarət olması və onun necə işləməsi və dəyişməsi suallarına toxunur. Görünür ki, yeni elm sahələrinin: ümumi dünya haqqında, görünməz dünya haqda, varlıqların (cisim, canlılar) kvant və ya digər sahələri, forma xəyalları və evolyusiyası; zamanın ümumi deyil, hər varlığın, cismin öz zamanını generasiya etməsi ; dünyanın varlıq hüceyrələrindən – modullardan qurulması , dünyanın tetraedr hüceyrə və inkişaf qanunu - 4 elementlərin birliyi, ruhi varlıqlar haqda yeni elm sahələrinin yaranması vaxtı gəlmişdir. Habelə buraya spiritologiya elmi və spiritoloq peşəsin də əlavə edə biərik.
Hər iki hadisə eyni bir psixoloji mexanizm vasitəsilə aşkar edildiyindən onların hansının illuziyya- qarabasma olmasını, hansının gerçəklikdə olmasını seçmək üçün hələ metod yoxdur. Lakin bu metod yaradıla bilər.

**Nəticə:**
1. İntuisya ilə alınan vəhyləri hazırlyan insanların öz ağlıdır, öz təfəkkürüdür. Savadlı elm adamının aldığı vəhy savadsız biliksiz adamın vəhyindən daha aydın, dəqiq mənalıdır. Yəni vəhylərin məzmunu və dəyəri adamın öz mədəniyyətindən, baxışlarından əxlaqından, savadından, biliyindən asılıdır. Bu da onu sübut edir ki, bu hadisədə vəhy alanın öz ağlı, öz beyni iştirak edir. Ümumi biliklərdən hərə öz dərrakəsinə görə intuisiya alır. Oğru necə oğurlamaq haqda, eqoist, şöhrətpərəst dünyanı, qonşu xalqları necə işğal etmək haqda, necə hamını özünə qul etmək haqda vəhylər ala bilər, əlbəttə məlumat bazasında istənilən bilik, üsul vardlr. Hamısını da insan allahın adından elan edə bilər. Vicdanlı humanist adam isə dünyanı necə xilas etmək, necə insanları xoşbəxt etmək, necə harmonik cəmiyyət qurmaq haqda vəhy ala bilər.
2. Səslə, mənbə görünmədən alınan müəyyən vəhylərin də mənbəyi insanın öz şüurunun qarabasmasıdır. Bu zaman uzun müddətli şüur işləyir ( 11). Nadir hallarda bu səs müəyyən, daha məlumatlı ruhlardan ola bilər.
3. Yuxuda alınan məlumatlar habelə 1)insanın öz ağlının gizli işi nəticəsidir, və yaxud 2) xəyali ruhi varlıqlarla əlaqə nəticəsidir ki, bu zaman bir xəbər, məlumat alına bilər, 3) habelə ətraf mühitin -3-cü

dünyada toplaşmış məlumat bazasından alınan məlumat əsasında beyinin hazırladığı ideyadır. Bu məlumat bazası uzaqda deyil, elə bütün ətraf aləmin cisim və hadisələrinin mahiyyətindədir ki, insan onu öz məlum duyğu üzvləri, habelə naməlum hissi qəbuletmə mexanizmi ilə alır.
4. Görünür, formalar-xəyallar, məlumat daşıyan "buludlar" dünyası mövcuddur.

**Tanrı nədir və tanrı varmı?**

Tanrının nə olmasını obyektiv bilmək üçün biz bütün keçmiş ideyalara, dini təsvirlərə şübhə edib təmiz şüur və ağılla təmiz vərəqdə gerçəkliyi araşdırmalıyıq. Əvvəl biz real dünyanın nədən ibarət olmasını bilməliyik. 1-ci hissədə biz bu suala cavab verdik. Real dünya 3 dünyadan *maddi, keçid və formalar –ruhlar* dünyalarından ibarətdir.

Rus filosofu Solovyov V.S. yazmışdır ki, "fəlsəfə bütün yalançı və özgə allahlarını taxtdan salmış və insanda həqiqi ilahinin vəhyləri üçün daxili formanı inkişaf etdirmişdir" ( 6, s.43 ).

Məhz burada mənim məqsədim **həqiqi ilahinin** və onun **vəhylərinin** nə olması, necə insana çatmasını izah etməkdir.

Hər bir izolə olunmuş coğrafi şərazidə yaşayan xalq qədim tarixdə öz əcdadlarının inandığı göy cisimlərini –ulduz, günəş, ay; təbiət elementlərini –dəniz, çay, dağ; məişətində- əkinçilik, ovçuluqda- vacib elementləri və yaxud müdrik adamlarını ilahi hesab etmişdir. Məsələn, ərəblərdə islama qədər dövrdə *allah* sözü bütpərəstlik dövründə ərəblərin 329 müxəlif bütlər içərisində birinin, daha doğrusu ən böyüyü hesab edilən İl –illah və yaxud allah, yəni Ayın adını bildirir (14, s. 252). Bu dövrdə allah ərəblərin baş ilahisi idi və insan formasında daşdan düzəldilmiş bütləri mövcud idi ki, sinəsində aypara işarəsi çəkilirdi. Kəbə isə çoxlu ay məbədlərindən biri və daha böyüyü idi ki aya və digər bütlərə sitayiş edənlər aya baxdıqda salavat çəkir, ildə bir dəfə onun başına fırlanır, bayram keçirirdilər. Xristianlarda İsa, hinduistlərdə Krişna, buddistlərdə Qautama budda, Çinlilərdə göylər-Konfuçi, Rusiya federasiyasının şimalında yaşayan Çukçi xalqı isə boz ayını ilahiləşdirmiş, Altay xalqları isə dağ ruhuna və göylərə (bütün kainata) Tenqriyə (göy –bütün kainat mənasını verən tanrıya) ilahi deyirlər. Tanrının göylər olmasını Çin ictimai fəlsəfi baxışı da müdafiə edir. Beləliklə, tanrını bütün mövcudiyyət –kainat hesab etsək, tanrı mövcuddur, lakin ərəblərin bütpərəstlik dövründən sitayiş etdikləri Allah adlı ilahisi, yəni ay heç bir yaradıcı, idarəedici funksiya daşımır, ona aid edilən xassələr- əgər yerdə qabarma və

çəkilmələri, gecələr bitkilərə təsirini nəzərə almasaq ona verilən bağışlayan, seçən, xeyirxah, həqiqət, düzlük tərəfdarı, hakimiyəti yaradan - isə gülünc uydurmadır.

Əvvəlcə pisliklər bədbəxtliklər, sel və tufan, yağınlar, zəlzələlər, xəstəlik gətirən şeytan anlayışı yaranmış, sonra isə ona əks xeyirxah ilahi anlayışı yaranmışdır. Ən qədim dövrlərdən bu günə qədər allah anlayışı xeyli dəyişmişdir. Məsələn, əgər əvvəllər insanlar allahı dünyanı yaradan və idarə edən tək ruh formasında başa düşürdülərsə, sonralar qəbilə və tayfaların yaranması, müxtəlif insan dəstələrinin birləşməsi prosesində, tək ilahini deyil, müxtəlif allahların olmasını qəbul etdilər və uyğun sitayiş və dünyabaxış sistemini tədricən yaratdılar. Bu belə oldu ki, hər zorla yaxud xoşluqla ittifaqa daxil olan dəstə öz allahını da yeni icmaya gətirdi. Daha sonralar isə 3-4 min il bundan əvvəl müxtəlif avtonom həyat keçirən böyük icmalar artıq mədəniyyətin, ümumi dilin yaranması prosesi nəticəsində xalqlara çevrildilər. Belə xalqların bəzisində – İranda, Şumerdə, Misirdə ilk dövlətin meydana çıxması ilə zərurət nəticəsində allahın bir olması haqqında ideyalar irəli sürüldü və tək allahı qəbul edən dinlər: Zərdüştlük, Yəhudulik, Xristianlıq və İslam ardıcıl olaraq meydana çıxdı və tək allahın əsasında yeniləşdirilmiş dini baxışlar yaradıldı. Qeyd etməliyəm ki, allahın bir olması haqqında ideya heç də dünyanın daha böyük bütövlüyə və vahidliyə malik olmasını dərk etməklə əlaqədar deyildi və hələ adamlarda belə düşüncə yaranmamışdı, coğrafiya, fizika, biologiya, kimya inkişaf etməmişdi. Bu ideya gerçək sosial həyatın tələbi idi, yəni daha böyük icmaları, müxtəlif qəbilələri birləşdirib bir böyük güclü xalq (dövlət) yaratmağa ehtiyac var idi. Bu proses daha erkən yaranmış insan məskənlərində xarici mühitdən qorunmaq, söz, fikir, fəaliyyət birliyi əldə etmək, qəsbkarlıq etmək və ümumi biliklərin daha çox artması, şüurun inkişafı, daha çox ağıl tələb edən təsərüfat fəaliyyəti, hər bir dinin qəddarlıq, yaxud dinc xarakter daşıma dərəcəsi amilləri nəticəsində gedirdi.

Dünyanı 3 böyük 1) surətlər, xəyallar, məlumat daşıyan sahələr 2) keçid və 3) material aləmdən qəbul etsək yaradıcı, idarəedici **xassə**, yəni dini dillə desək ilk **allah** ilkin avtonom *keçid dünyasında* (atomaqədərki dünya) artıq meydana çıxır, material dünya yarandıqca isə onun öz allahı meydana çıxır. Lakin bu allah ( xassə) bu aləmlərdə işini görüb qurtardıqdan sonra, yəni materiyal dünya yarandıqca və müxtəlifləşdikcə sonra isə məhvə doğru gedərək, nəhayət, tam həmin formada məhv olan andan müvəqqəti yox olur, yeni sikl başlayanda meydana gəlir. Lakin sikli fasiləsiz hesab etsək, deməliyik bu dünyaların allahları daim iş başındadır. Biri yox olur, digəri meydana

çıxır. Hərəsi yalnız öz olduğu aləmdə öz işini görür. Sonrakı yaranan dünyada artıq digər allah, digər keyfiyyətdə və gücdə meydana çıxır, yəni başqa *iştirakçılar* və onlar arasında xassələrdən yaranan *əlaqələr* və *yeni mühit*. Təsadüfi deyildir ki, deistlər deyirdi ki, allah dünyanı yaradır, daha onun işinə qarışmır və ya Dekart deyirdi ki, allah dünyanı yaradır, ona ilk təkanı verir, sonra dünya özü - özünə işləyir. Onlar məhz yuxarıda dediyim təsviri nəzərdə tuturdular, yəni düz deyirdilər. Lakin ilk və yeganə təkan anlayışı düzgün görsənmir, lakin şeyin özü hərəkət etməsə heç bir təkan onu daimi hərəkət etdirə bilməz. Yəni təkan və ya ilk təkan anlayışı səhvdir. Material dünyanın yaradılışı fasiləsiz seriya təkanları: keçid dünyasından ulduzların partlaması, sona qədər yanıb cismə çevrilməsi və qara deşiklərin işi nəticəsində baş verir. Dekart bunu bilməsə də onun təkan sözünü məhz bu hadisəyə aid etmək olar ki, material dünya bu üsulla yaranandan sonra məlum 4 fiziki xassə vasitəsilə yaşamağa - olmağa çalışır. Təkan elə yaradılanın içində və ətraf mühitlə əlaqədədir, yəni bu hərəkətverici qüvvənin özü - *şeylərin daxili xassələri, mühit* və *əlaqələr* kompleksidir. Onların bu fikirlərinə düzəliş verib deyərdim ki, hər konkret zamanda hər yeni iştirakçılar və yeni mühitdə məhz yeni allah meydana çıxır və yeni bir şey yaradır və idarə edir. Yunan və Şərq, zərdüştlükdə və Şumer dinlərində belə bir qədim mif vardır ki, ilk əvvəl allahlar yaranır və onlardan dünya və insanlar yaranır. Bu miflər əlbəttə mənim izah etdiyim təsvirdə-yaradıcı kompleksdə həmin əlaqəyə girən ilkin amilləri (allahın əsas hissələrini ) nəzərdə tuturdular. Bu baxışdan onlar düz demişlər. İlkin xassələrə malik elementlər, əlaqələr və mühitin iştirakı ilə yaradıcı prosesdə bütün kainatın, günəş sisteninin və Yerin yaranmasına balanğıc vermişlər. Hər yaranış mövcudiyyətə qatılaraq mühiti yeniləşdirmişdir və dünya fasiləsiz döğulma, yaranma, təzələnmə, (yeni mühitlərdə uyğunlaşa bilməyənlərin məhv olması, yeni növlərin yaranması), sönmə prosesində olmuşdur, böyümüş, artmış, müxtəlifləşmişdir. Dünya daim ağaç kimi bitmişdir və bitir. Bu onların düzgün intuisiyası və mümkündür ki, xəyallar dünyasından aldıqları məlumatlardır.

Bizə maraqlıdır ki, yer kürəsində başa düşülən və qəbul edilən allah haradandır? O burada əvvəldən varmı, yoxsa sonra meydana çıxır? Təsvir edilən prosesdə asanlıqla Yer allahının necə yaranmasını aşkar edə bilərik. (Bu kitabda istifadə edilən allah sözü heç də ərəblərin qəbul etdikləri allah ifadəsini əks etdirmir, yalnız ümumi anlayış kimi araşdırılır).Yəni material dünya yarandıqca onun allahı da onunla eyni zamanda yaranır. Yəni yaratma, idarə etmə keyfiyyəti məhz material və keçid dünyasında yaranır ki, əslində ruhanilərin və

dindarların- özləri anlamasa da və belə qəbul etməsə də - allah adlandırdıqları obyekt elə budur.

Q*eyri- material xəyallar, formalar, surətlər dünyasında* (3-cü dünyada) isə evolyusiya olmadığı üçün burada yaradıcı və idarəedici hadisənin-allahın meydana çıxmasını demək olmaz. Bu 3 –cü dünya tam görünməzdir. Bu aləmdə olan ruhlar da, hansı ki onların içində allaha əsaslanan din birinə (daha böyüyünə) allah deyir -səhv edir, heç yer məsələlərinin idarəsində və yaradıcılıqda iştirak etmirlər, bəzi nadir və kiçik məlumat xidmətini nəzərə almasaq. *Onlar sadəcə xəbərdardırlar*! ( bu keyfiyyət isə bütün məlumatların bir birinə keçməsi bir - birini anlaması, yaddaşında saxlaması xassəsinə görə mümkündür. Görün, o məlumatlar necə yazılır və hansı formadadır ki, belə nəticə -məlumatların bir daşıyıcıdan digərinə keçməsi -baş verir?). Yer sakinlərinə sadəcə bu məlumatları oxumaq qalir. Bu aləmdə gümana görə obyektlərdə 4 universal təsir qüvvəsindən heç biri yoxdur, ona görə də orada evolyusiya getmir, heç nə yaranmır, çevrilmir, ona görə də burada zaman yoxdur. Başqa sözlə buranın zamanını yer zamanı ilə ölçsək əbədi andır (bax zaman anlayışına, hissə İ).Yəni deməli, buranın bütün sakinləri əbədidir və ya uzun ömürlüdür, eyni cürədir, dəyişmirlər. Lakin faktlar göstərir ki, bu ruh obyektlərindən bəzisi, bəlkə də hamısı müəyyən zamanlarda "yatmış"formada olurlar, hər hansı bir enerji aldıqda aktivləşirlər. Onların hansı fiziki sahədən və ya hissəciklərdən ola biləcəyi haqda qoy fiziklər düşünsünlər. Buradakı obyektlər alt və üst idarəedici, təşkiledici, birləşdirici sistemlərə bölünmür. Beləliklə, idarəedici və yaradıcı xassə yalnız tam və daha dolğun formada material dünyada və şübhəsiz, keçid dünyasında (material dünya ulduzlardan əmələ gəlir) aşkar olunur. Deməli, bu funksiyaları hər bir üst sistem alt sistemə nəzərən həyata keçirir. Dini dillə danışsaq, hər bir material varlıq özü alt sistemlər üçün, yəni onun birləşdirdiyi, bütöv halda saxladığı, tərkib hissələri üçün allahdır (daha doğrusu allahın bir hissəsidir, başqa elementlərlə birlikdə şərikli allahdır); eyni zamanda daha böyük üst sistemlərə tabe olan və onlar tərəfindən idarə ediləndir, qorunan və saxlanandır. Burada bir məsələ vardır ki, bunu qeyd etmək vacibdir. Bu məsələ odur ki, üst sistemlərin bir qrupu alt sistemi kollektiv idarə edir, lakin bu idarə sükanı yalnız bir üst sistemin (obyektin, amilin, şeyin) əlində olur. Hər zaman anında da bu rolu başqası əldə edir. Bu halda bütün qalan və obyektlə əlaqəsi olan üst sistemləri mühit hesab etsək, daha aydın başa düşərik. Yəni həmin mühiti əmələ gətirən şeylər də vacib rol oynayır, əgər onlar olmasa əsas idarəedici necə və nəyi idarə edəcək? Demək lazımdır ki, fasiləsiz evolyusiya prosesində

hər bir obyektin rolu və özü dəyişir, yəni daim yeni idarə edicilər, yeni idarə olunanlar, ölənlər və yeni doğulanlar meydana gəlir, bəzisi tez, bəzisi gec. Məhz hadisələrin eyni zamanlı olmaması, yaranma və məhv olmanın müxtəlif zamanlarda olması kainatın daimi mövcudluğunun vacib şərtlərindən biridir. Belə bir təsvirdə gördüyümüz kimi başqa bir yaradıcı, idarəedici varlıq və ya ruh aşkar etmirik ki, onu allah adlandıraq. Təsvir etdiyim yaradıcılıq, idarəetmə gündəlik faktlarla təsdiq olunur. Dini baxış isə heç bir faktla təsdiq olmur.

Tanrı anlayışını daha sadə başa düşmək üçün hər hansı bir çoxluqu, yəni cisim, bitki, heyvan , maşın, qurğu, bina, günəş, sistemi, icma, kollektiv, cəmiyyət, dövlət, qalaktika və s. seçin. Həmin çoxluqda istənilən bir “A” hissəsini, üzvü- nəzərdə seçin. Burada Seçdiyiniz “A” hissəsi ilə qalan bütün B hissəsi arasındakı əlaqələr nəticəsində A – nın taleyi, hər an üçün vəziyyəti müəyən olunur. Burada başqa bir idarə edən, təsir edən - yəni ruhanilərin dediyi allah yoxdur. Məsələn, siz özünüzü cəmiyyət sistemi içərisində qeyd edin, sizdən başqa yerdə qalan bütün **qeyri - sizlə sizin** əlaqələriniz vasitəsilə sizin həyatınız mövcud olur, taleyiniz, gələcəyiniz , həyat səviyyəniz, uğur və uğursuzluqlarınız müəyyən olunur. Yəni sizin həyatınızda **siz özünüz** və **qeyri –siz** iştirak edirsiniz və nəticə-həyat alırsınız. Nə qədər obyektlə əlaqədə olsanız yerdə qalan bütün böyük hissə yenə də mühitdir və iştirakçıdır. Bundan başqa heç bir digər iştirakçı -allah yoxdur. **Qeyri - siz** , yəni mühit sizin olduğunuz təbiət, cəmiyyət və onun parametrləri, idarə, ərazi, qonşular və törəmə təsirlər - münasibətlər ictimai fikir, trendlər, təhsil, sağlamlıq, yaşayış şəraiti və hər bir təsir edicidən ibarətdir. Beləliklə, siz və mühit mümkün optimal 50/ 50 % hədlərindən ən kənar hədlərə qədər dəyişmə nisbətində iştirak edərək sizin bütün nailiyyətləriniz, həyatınız əldə olunur. Əgər siz 70% iştirak etmisinizsə, mühit, deməli, 30 % iştirak edib, yəni siz böyük əziyyətlərlə daha çox öz gücünüzə uğur qazanmısınız. Sizin bütün işlərinizdə, hərəkətlərinzdə mühit iştirak edir. Dindarlar üçün bu ifadəni tərcümə etsəm, deməli, siz allahla birlikdə fəaliyyət göstərərək yaşayırsınız. Yəni allah elə sizin özünüz və mühit birlikdədir və birlikdə işləyir. Sizsiz sizin üçün nə allah fəaliyyət göstərir, nə də siz allah iştirak etmədən bir şey edə bilərsiniz. Əlbəttə ruhanilər bilmirlər, allah nədir və onu göydə axtarırlar, lakin sizlə işləyən allah göydə deyil, daim sizin yanınızdadır. O elə sizi əhatə edən mühitdir. Yeri gəlmişkən deyim ki, xristianlar şəxsi allah deyəndə (müsəlmanlar belə demirlər) elə bunu başa düşmək lazımdır, yəni hər kəsin mühiti müxtəlifdir, yalnız həmin mühitlə hər insan kontaktda olaraq yaşayır. Ümumi mühit içərisində şəxsi mühit elə

şəxsi allahdır, o sizə (düzə də, oğruya da) uğur gətirə bilər, işinizi poza da bilər. Bu səbəbə görə o nə xeyirxahdır, nə bədxah, yəni nə xeyirə xidmət edir, nə şərə, belə anlayışlar onun üçün yoxdur.Yəni dini təlimlərin onu yalnız xeyirxah hesab etməsi səhvdir. Siz öz fəaliyyət nisbətinizi artırmaqla onunun maneçiliyini ləğv edə bilər (əgər mümkündürsə və gücünüzə görə) məqsədə çata bilərsiniz və ya yaxşı imkanlardan istifadə edib xeyli uğur qazana bilərsiniz. Deməli, a) xoşbəxtliyə çatmaq əsasən insanın öz əlindədir; b) istənilən hadisədə insanın şəxsi iştirakı və xarici mühitin iştirakı səbəbdir, cinayət və ya qeyri - etik davranan insan mühit- situasiya onu məcbur etsə də, hökmən özü şəxsiyyəti ilə iştirak etdiyi üçün günahkardır. Onun cəzalanması əsaslıdır. Ona görə deməli, insanın tərbiyəsi, xüsusi adətlər, vərdişlər, davranışlar öyrədilməsi yolu ilə insanın bütün cəmiyyətə zidd hərəkətlərinin (qətl, yalan, oğurluq, diktatorluq, rüşvətalma və s.) qarşısı alına bilər. Eynilə mühit də günahkar olduğu üçün onu da səmərələşdirmək zəruridir. Əgər insan ona xoş olmayan mühit tərəfindən pis işlərə sövq edilirsə o, həmin mühiti dəyişdirə bilmədiyi üçün oranı tərk etməlidir, çünki orada qalsa, o qeyri -əxlaqi davranmağa məcbur olacaq və məhvə gedəcək. İctimai mühit yalnız kollektiv əməkdaşlıqda dəyişdirilə bilər.

## Uçan boşqablar və ya başqa göy planetləri sakinlərinin yerdə işləri və həqiqətlərin aşkar olunması

Uçan obyektlərin bir çox işləri artıq yer kürəsində bir çox sirlərin üstünü açmağa başlayıb. Məsələn, BBC radiosunun 26 Aprel 2010 tarixli verilşində Litvinov- Rusiya Coğrafiya cəmiyyətinin uçan boşqablar laboratoriyasının müdiri, keçmiş atom sualtı qayığının komandiri bildirir ki, 6000-ə qədər faktları qeyd etmişdr və tədqiq etmişdir. O qeyd edirdi ki, bu boşqablar daim yeri, atom gəmilərini müşahidə edir və məlumat toplayırlar. Onların içərisində canlı varlıqlar olur. Məsələn, 1989-cu ildə Rusiyanın Perm vilayətində belə boşqab məktəbin həyətində yerə enmiş və ondan odlu kürəvi ildırıma oxşayan kürələr çıxmış və uşaqların dalınca qaçmışlar, bu kürələr bu zaman yarımşəffaf insan siluetinə çevrilmişlər və şüurlu olmaları aşkar görünmüşdür. Faktlar göstərir ki, belə ekipajlarda 3 növ varlıq olur: insana bənzər, insana oxşamayan və qeyri - dayanıqlı formalar. Onlar hətta formalarını da dəyişirlər. Onlar əsasən yer insanlarına qarşı neqativ olurlar, bəzən isə müalicə edir, kömək edir, məlumat və məsləhət verirlər, insanları oğurlayıb aparır, bəzən qaytarırlar, xəstəyə cərrahiyə əməliyyatı aparmaları haqda fakt vardır. Bu reallıq dəfələrlə müşahidə olunmuş və faktlarla təsdiq olnmuşdur. Belə məlumatları

bütün dövlətlər dinlərin tələbi ilə cəmiyyətdən gizlədirlər, dövlətlər həqiqətin aşkar olmasına qarşıdır. Qeyd etməliyəm ki, elə insana bənzər bədənsiz siluetlər və ya tam insan formalı görünüb itən varlıqlarla yer üzü doludur və bunları çox adam müşahidə etmişdir. Görünür ki, başqa planetlərdə də belə hadisəəır baş verir, lakin onların bizdən üstün keyfiyyəti odur ki, onlar daha ağıllıdırlar, onlar belə fenomenlərdən istifadə etməyi öyrənmşlər və həmin formalarda yerə gəlirlər. Görünür, belə forma daha sərfəli və asandır, onların axı gəmiləri də belə formada güman ki, işıq sürətindən də artıq sürətlə hərəkət edirlər, yerə çatanda maddiləşirlər. Uçan boşqablarla əlaqəli bir çox belə faktları və yerdəki faktları ümumiləşdirdikdə dünyanın mənası daha çox başa düşülən olur. Bu həqiqət dinlərin köklərini qazır, onları yaşadan qidadan (naməlumluqdan, sirlərdən) məhrum edir. Yerdəki bütün xəyali görüntülər (cin, şeytan, mələk, allah) mümkündür ki, digər planetlərdən gəlmiş varlıqlar və ya yerdə canlı insan, heyvan, quşdan və ya təbiət sahəsindən formalaşmış varlıqlardır (bədənsiz formalardır, obrazlardır). Yerdəki belə formaların necə yaranmasını biz hələ bilmirik. Lakin güman edirik ki, onlar elə yaranan şeylə eyni zamanda yaranır. Platon deyəndə ki, bədənsiz formalar var, elm ona 2300 il gülmüşdür, görünür, Platon haqlı idi. Mən özüm belə formaları çox görmüşəm.

Bibliyada Mariyanın mayalanmadan hamilə qalması, mələk adlandırılan çoxlu obrazların yəhudilərlə əlaqəyə girməsi və məsləhət verməsi, peyğəmbərlik öyrətməsini və bəzi adamları peyğəmbərə çevirməsi; xüsusilə, Sodom və Qomorranın məhv edilməsi; Musanın Xoriv dağında allah hesab etdiyi kürəvi alovdan göstərişlər alması, Lotun xilası, Saranın uşaq doğması, 3 mələk hesab edilən qocanın Avraama qonaq gəlməsi; islamda Məhəmmədin meracını və bəzi vəhy hadisələri, görünür, ya uçan boşqabların varlıqları etmiş və ya yerdə yaranan formalar (ruh və s.) tərəfindən edilmişdir. Hətta bu tekstləri yazanların da yaradıcılığını buraya əlavə etmək lazımdır. Bu fikir ona əsaslanır ki, bütün kainatda şeylər eyni materiallardan (hissəcik və atomlar) yarandığına görə hamısında oxşar xassələr, davranışlar, hadisələr meydana çıxmalıdır. İlkin və ierarxik törəmə xassələr sırasını fərqləndirmək lazımdır, hansı ki inkişaf artdıqca artır və müxtəlifləşir.

Bu kitabda qeyd edilmş digər müasir faktları da (naməlum əlifbanın insan tərəfindən hər gecə bir hərfini almaqla qəbulu, müxtəlif ağlabatmaz ideyaların ifadə edilməsi, yaradıcılıq intuisiyalarını (musiqidə, texnikada, elmdə, fəlsəfədə), keçmiş və gələcək haqda öncədən görmə və s.) birlikdə əlaqələndirsək, dünyaya yeni bir baxış əldə edirik. Yəni görünür:

1. Bütün bəşəriyyətin yaratdığı biliklər, ideyalar yazılı və mədəni abidələrdən başqa, ölmüş və ya ölməmiş insanların şüurlarının formaları vasitəsilə forma- *xəyallar* və *keçid* dünyasına (hansı ki onlar bizi və bütün dünyanı əhatə edir) gedir; orada müəyyən açıq və özü - özünə qapanmış sahələr, "buludlar" şəklində qalırlar. İnsan görünür, öz ağlından əlavə həmin mənbələrdən də məlumat almaq- oxumaq qabiliyyətinə malikdir. Yəni insan bir məsələni öz ağlı ilə də, habelə xəyallar dünyasından məlumat almaqla da həll edə bilər. Lakin bu xəyallar dünyası da mürəkkəbdir; orada ayrıca bilik buludlarından başqa şəxsiyyətə, yəni psixoloji xarakterə malik yaxşı və pis ruhlar (konkret insan formaları) da vardır ki, insana kömək də edə bilər, zərər də verə bilər. Dinlərin fikrincə insanın öz ağlının rolu yoxdur, onu allah (kənar insani şəxsiyyətli ruh) idarə edir. Bu fikri qəbul edə bilmərik, çünki insan doğulandan qocalığa qədər öyrənir və böyük bilik yığır. Onun fəaliyyəti yer ümumi (1)*mühitində* (2)*özünün* (3)*maddi dünya* ilə qarılıqlı *(4)əlaqəsi* nəticəsidir ki, onun məhsulu (5)*yaşamaqdır.* Göründüyü kimi insanın əldə etdiyi məhsul-yaşamaq 4 amilin nəticəsidir ki, bu komplekti də dinlərin dediyi kimi allah adlandıra bilərik. Burada başqa bir iştirakçı və ya digər bir allah yoxdur. Bu 4 amilin içərisində insanın özü də iştirak edir, yəni prosesdə o allahın bir hissəsidir. Əgər o iştirak etməsə allahın bütövlüyü (elementləri kompleksi) təmin olmur, məhsul yaradıcı allah yaranmır və insan yaşamır, başqa yerdə və işlərdə fəaliyyət göstərən başqa yaradıcı komplektin-digər allahın isə bu insana dəxli, təsiri yoxdur.

Nəticələr.

1. Dünya 3 növə bölünür: 1- canlı təbiətin və onun müxtəlif cisim və canlılarının enerjili yaxud enerjisiz obrazları dünyası: sahələr, xəyali görüntülər, formalar, ayrılmış obrazlar, ruhlar; 2-material dünyaya keçid dünyası: enerji daşıyan sahələr, hissəciklər; 3- material dünya, göy cisimləri, yer və digər planetlər, minerallar, bitki və heyvanlar
2. Bu 3 dünyadan kənar heç bir ilahi, fövqəltəbii qüvvə və ya varlıq yoxdur.
3. Dünyanı və hər bir şeyi yaradan və idarə edən onun *özünün* və *hər bir şeyin* digər bir *varlıq* ilə *mühitin* olması şərtində *əlaqəsidir*. Nəticə - yeni yaranış, yeni vəziyyət, yeni hadisədir.

## Tanrı haqqında tarixi baxışlar və təsəvvürlər

Araşdırma nəticəsində bizə məlum olur ki, tarixin hər bir dövründə, məsələn, qədim Yunan və sonrakı dövrlərdə müəlliflər tanrının mahiyyətini müxtəlif cür izah etmişlər. Bu müxtəliflyin əsas səbəbi elmi və dini baxışlar müəlliflərinin müxtəlif məqsədlər güdməsidir. Elm həqiqəti tapmaq istəyir, din isə həqiqəti gizlətmək və sui - istifadə etmək istəyir. Yəni elə bir məntiq qurur ki, orada dini ruhaniyə və idarəyə xüsusi idarəedici rəhbər rolu versin və adamların həmin rəhbərin xidmətlərindən istifadə etməsini təmin etsin. *Belə bir ağa – qul (tabe olan) həyat yolu, yəni təkbaşçılığın kollektiv idarəyə nisbətən üstünlük əldə etməsi ibtidai icmadan quldarlığa keçiddə baş verdi.* Əvvəl icma kollektiv formada və ya kollektivin seçdiyi müdrik, güclü, bacarıqlı adam tərəfindən əsasən açıq iclaslar vasiəsilə ədalətlə, düzgün idarə olunurdu, nemətlər bərabər bölünürdü, hamının qayğısı eyni çəkilirdi.Qeyd edim ki, bu ədalət və düzgünlüyün səbəbi o idi ki, bir əyrilik olduqda hər kəs etiraz edir və öz fikrini deyirdi, rəhbərə sitayiş etmirdilər, ona görə rəhbərin ağlına bu -əyrilik gəlmirdi, buna görə də ədalət və düzgünlük qorunub saxlanırdı. Müasir idarədə məhz bu prinsip - *iki bərabər tərəfin iştirakı* -pozulduğuna görə rəhbərlər utanmadan, istədiyini edir və bunu qanunauyğun hərəkət adlandırır, hansı ki belə səfeh qanunu da özləri elə bu pozğunluğu etmək üçün yazmışdır. İnkişafda daha çox məhsul istehsalı artandan və ticarət yaranandan və müharibələrdə əsirlər – qullar əldə ediləndən, cəmiyyətin sayı artandan sonra *təkbaşçı* institunun əhəmiyyəti və rolu artdı. Zorakı, hiyləgər qüvvələr təkbaşına idarə edən qəbilə, tayfa başçısı vəzifələrini əlinə keçirdi və vəzifədən sui - istifadə etməyə başladı, məhsul istehsalı və torpaqdan gəlir bölgüsündə daha çox almağa, daha yaxşı həyat şəraitinə malik olmağa başladı və bunu qanuniləşdirdi. Paralel olaraq dünyəvi idarə ilə bərabər dini hakimiyyət də formalaşırdı və biriniciyə oxşar olaraq ruhani rəhbər də öz işlərini, təlimini belə qurdu ki, o da qəbilə başçısı kimi *artığa* malik olsun, yəni cəmiyyətdən artıq xeyir alsın, yəni onları öz uydurduğu xidmətlər: sitaiş, rituallar, ianələr və istismar vasitəsilə yaşasın. Başqa sözlə, **dünyəvi başçılar cəmiyyətin fiziki qüvvəsini istismar etməklə, dini başçılar isə şüurunu istismar etməklə yaşayış yolu seçdilər.** Cəmiyyətin idarə etməyin birinci məqsədi ibtidai icmalarda müəyyən dərəcədə xarici hücumlardan qorunmaq, qaydalar yaratmaq, cəmiyyətə xidmət etmək üçün idi. Lakin sonrakı quldarlıq, feodalizm və kapitalizm dövrlərində əsas və birinci məqsəd yalnız və yalnız şəxsi hakimliyini, istismarı, varlanmağı uzatmaq, daha uzun ömürlü

etməkdir. Bunu bu fakt sübut edir ki, hazırda bütün dövlətlərdə rəhbərlər və parlamentlərin deputatları seçiciləri aldatmaqla, yalan vədlər verməklə, daha çox pul tələb edən seçgi prosesi tətbiq etməklə bu postları tuturlar, sonra isə varlı kapitalist siniflərə, yəni özlərinə xidmət edirlər. İbtidai icmada rəhbərlər şəxsən özünə xidmət etmirdilər, hamı ilə eyni şəraitdə yaşayır, eyni qidanı qəbul edirdilər.

Tanrı haqda ilkin yazılı konsept b.e.ə. 570-478 illərdə yaşamış Ksenofanın əsərlərində vardır. O yazırdı : "əgər atlar və öküzlərin əli olsaydı, onlar da tanrını özlərinə oxşar təsvir edərdilər. ...İlahilər və adamlar içərisində ən böyük bir ilahi vardır. ....Tanrı hər şeyi görür, hər şeyi idarə edir, o həmişə bir yerdə qalır, hərəkət etmir; o hər şeyi öz şüurunda olan fikri ilə hərəkətə gətirir, eşidir, düşünür, o intellegentdir və biz də beləyik "(5, s.15 ). lakin Ksenofan ona yaradıcı xassəsini verməmişdir. O deyirdi: "hər şey, kainat allahdır" (6, s.139) Habelə B.e.ə. 7-ci əsrdə yaşamış Zərdüşt peyğəmbər də tanrının ən böyük idarə edən, ədaləti qoruyan, habelə yaradan olmaqla 20 xassəsini təsvir etmişdir (15 mifı naşeqo vremeni) . Zərdüştün bir kəşvi xüsusilə böyük əhəmiyyətlidir – o deyirdi ki, tanrı qıvraq fikirdir, o ağıldır.
*Mənim şərhim:* Bu hər iki mütəfəkkirin eyni fikri – tanrının fikir, və ağıl olması, habelə - fikrin daşıyıcısı -*söz* olması daha çox əhəmiyyətli mülahizədir. Bu mülahizə onu nəzərdə tutur ki, o müəyyən qanunauyğunluğa, yəni məntiqlə qurulmuş struktura malikdir ki, biz onun bu xassələrini ağılla, fikirlə aşkar edə bilirik. Digər tərəfdən, ayrıca fikrin, sözün idarəedici xassəsini Zərdüşt aşkar etmişdi və onu da tanrının xassələrinə aid etmişdi. Lakin fikir və söz bilavasitə insana aiddir. Qismən heyvanlara da aiddir, belə ki onlar sözlə deyil, gördükləri təbiət və hadisələrini onların obrazları ilə yaxşı, pisə bölməklə fikirləşirlər, öncə görürlər və təhlükələrə qarşı tədbir görürlər. Tanrıya verilmiş digər xassələri - eşitmək, görmək, düşünmək, bağışlamaq, seçmək - isə sübutlar tapılmadığı üçün sadəcə uydurma saymaq olar; yaratmaq və idarə etmək funksiyasını isə biz fiziki mühitin (çoxluğun ) xassəsi olduğunu aşkar edirik- əgər mühiti, material dünyanı tanrı hesab etsək, bu funksiya təsdiqini tapır. O məlumatlıdır, lakin o bunu insan kimi eşitməklə, görməklə, hiss etməklə, fikirləşməklə əldə etmir. O hər bir şeyə eyni dərəcədə münasibət göstərir. Çünki hər şey onun tərkib hissəsi kimi yaşayır. Yəni o hər hansı bir varlığı, insanı, cismi xüsusilə seçib ona qayğı göstərmir, onun həyatını xüsusilə tənzimləmir, səhvlərinin qarşısını almır və cəzalandırmır, bağışlamaq yaxud xüsusi diqqət vermək onun (ruh kimi) funksiyası deyil. Hamı onun üçün bərabərdir.

Epikur yazırdı: " tanrılar vardır, .....çoxlu dünyalar vardır, tanrılar da atomlardan və boşluqdan ibarətdir, lakin onların real dünya və insanlar ilə heç bir əlaqəsi yoxdur (5, 204). O dövrdə və sonralar insanlar dünyanın nədən olması, şeyləri əmələ gətirən və yaşadan səbəbi, maddəni axtararaq onu tanrı anlayışında ifadə edirdilər. Epikurun bu fikrində belə həqiqət vardır ki, (1) o, tanrını - dünyanın əsasını fizki dünyaya oxşar olaraq fiziki elementlər çoxluğu formasında təsəvvür etmişdir ; (2) ilkin dünyanı yaradan həmin çoxluq sonra yaratdığının işlərinə qarışmır. Çox aydın deyilmiş və düzgün fikirdir. Belə bir məna tamamilə mənim bu kitabda irəli sürdüyüm 3 dünya və tanrı nəzəriyyəsini müdafiə edir. Bu nəzəriyyədə əlavə olaraq göstərirəm ki, yaranmış yeni obyektlərdə, dünyalarda yaradıcı - idarəedici funksiyanı icra edən komplektlər- yeni tanrılar meydana gəlir, hansı ki, bir - birindən əlaqəsi və asılılığı yxdur.

Aristotel hesab edirdi ki, tanrı hərəkət etməyən, bir yerdə duran ilk hərəkətverici qüvvədir, tanrı dünya ilə əlaqədə idealdır və dünyaya üstün gəlməyə çalışır. Tanrını hisslər ilə dərk etmək mümkün deyil (16, s. 209 ).

Maraqlıdır ki, qədim yunan mütəfəkkirləri Aristotel və Platon dünyanı evolyusiya etməyən daim eyni qalan hesab edirdilər. Oxşar baxışları allah əsaslı dinlər allaha da aid edirlər, onlar hesab edir ki, "allah əbədi mövcud olan, dəyşməyən varlıqdır" (17). Əbədi və dəyişməz nəyə deyirlər? Gəlin bunu axtaraq. Riyaziyyat əməlləri, həndəsi fiqurların Evklid müstəvisində xassələri dəyişməzdir, klassik mexanikanın müəyyən hədlərdə Nyuton qanunları dəyişməzdir, kosmosu idarə edən nisbi qravitasiya qanunu dəyişməzdir. Maddənin atomlardan və atomun da zərrəciklərdən ibarət olması dəyişməzdir. Istənilən qədər obyekt, qanun tapa bilərik. Din ruhanilərinin belə deməkdə məqsədləri nədir? Məqsəd qədim Şumerdə və Babildə, Misirdə çarların özlərini allahdan təyin edilmiş qələmə verməsinə oxşar olaraq, deməkdir ki, bəs həmin allah özünə vəkil, çar, hakim seçir, peyğəmbər təyin edir və hamı onlara tabe olmalıdır və göstərişlərini icra etməlidir. Bunun üçün ruhanilərə əvvəl özlərinə faydalı xassələri (allahın seçdiyi, ağalıq etmək, allahla danışmaq, göstəriş almaq) olan allah anlayışı və onun əsasında təlim uydurmaq lazım gəlir. Belə gülünc və utanmadan insanları xamlamaq ruhanilərdə insani əxlaqın olmamasını göstərir. Məsələn, müasir islam təlimi deyir: "Rəhbərlik və hakimiyyət üçün ən layiqli şəxs ümmətin idarə edilməsində daha bacarıqlı və rəhbərlik üçün allahın əmrlərindən daha çox xəbərdar adamdır"(17, səh.130). Bu tələb avtomatik olaraq ruhaninin rəhbər təyin edilməsini təmin edir. Belə gülünc tələbə qarşı

soruşmaq lazımdır ki, allah nə vaxt, hansı əmri vermişdir? O heç vaxt əmr vermir, əmr vermək onun xassəsi deyildir, belə olsaydı, bu onun mahiyyəti ilə ziddiyyət təşkil edərdi.

Stoiklər- onun əsasını yaradan Zenon deyirdi ki, tanrı dünya ilə birgədir. Hər şey tanrıdır, tanrı hər şeydir. Hər bir şeydə tanrının hissəsi var. Dünya struktur, ağıl prinsipilə - Loqosla qaydaya salınır (5, s. 209). Bu fikir də məntiqə uyğundur. Doğrudan da hər şeyin xassəsini onun strukturu, hissələrinin konkret kombinasiyası yaradır ki, bunu elə loqos hesab etmək olar. Heraklitin verdiyi mənaya görə loqos söz , mülahizə, fikir, ağıl, nümunə, struktura deməkdir.

3-cü əsrdə Mani təlimi hesab edirdi ki, bir ali xeyirxah qüvvə (İlahi) yoxdur, dünyada iki bir birinə əks iki qüvvə - xeyir və şər, isti – soyuq; pis - yaxşı vardır ki, onların mübarizəsi nəticəsində hər şey baş verir. Bizim hər birimizdə pis və yaxşı vardır ki, biz onların döyüş meydanıyıq. İnsan bir hissəsi ilahi - ruh, yaxşı; digəri şeytan - bədən, materiyadır. İlahi fiziki dünyanı yarada bilməz. (5, s. 232 ) Maninin də fikri daha dərindir və bizi həqiqətin tapılmasına yaxınlaşdırır. Lakin Maninin fikrinə belə bir əlavə edərdim ki, “ biz daim bu iki qüvvədən birinin, ya digərinin üstün təsiri altındayıq, və yaxud biz bəzən bu, bəzən digər qüvvəni (yaxşı ya pis , xeyir yaxud şər) əks etdiririk-xarici uyğun təsirə belə reaksiya veririk, rolunu oynayırıq, Bu belə də olmalıdır, bu həyatın qanunudur.

Müasir fizika da bütün material obyektlərin və mikrodünya varlıqlarının bir - birinə bərabər iki əks yüklü hissələrdən olmasını təsdiq edir. Habelə fiziki kəşvlər göstərir ki, atomlar da bölünür və onlar da hissəciklərdən ibarətdir. Maddə təbiətdə lazımı proseslərdən keçərək, siklik dövr edərək, nəhayət, ulduzlarda və qara deşiklərdə görünməyən hissəciklərə və dalğalara çevrilə bilir ki, onların da qarşılıqlı əlaqələri və mühitin iştirakı ilə yenidən materiya yarana bilir. Əgər dinlər material dünyanın ilk yaradıcısını və dünyanın əsasını soruşurlarsa, onlar tamamilə zərrəciklər çoxluğunu və mühitini istər ulduzlarda, istər səpələnmiş halda allah hesab edə bilərlər.

Türk xalqlarının da tanrılarının başında Göy- Tenqri durur. Sibir və mərkəzi Asiya dini mifologiyası bütün canlı varlıqların, tanrıların və ruhların yaşadığı yeri Yuxarı- göy, Orta yer və yeraltı dünyalara bölür (9, s.40 ).

Xristian katexisizmi tanrı nədir sualına belə cavab verir : “Tanrı öz varlığında, müdrikliyində, gücündə, bütovlüyündə, ədalətində, xeyirxahlığında və həqiqətində ruhdur, sonsuzdur, əbədidir, dəyişməzdir...O yaradır, tədbir görür, yaratdığını qoruyur, idarə edir” (18, s.1-3) Bu ifadə də analiz üçün maraqlıdır, lakin ziddiyyətlidir.

Burada onun hər bir xassəsini, görünür, bibliyanın uzun yazılması tarixində məhz tanrının dərk edilməsi prosesi -1500 il dövr - nəticəsində müxtəlif adamlar aşkar edir. Birdəfəlik bütün xassələr əvvəldən göstərilmir, hansı ki sübut edir ki, tanrının necə olmasını insanlar obyektiv olaraq araşdırmış və onun xassələrinin bir – bir zaman keçdikcə tapmışlar- öz ağıllarına və bilik səviyyələrinə uyğun. Belə fakt kitabın ilahidən deyil, insan düşüncəsi, yaradıcılığı nəticəsi olmasına dəlalət edir. Burada ziddiyyət odur ki, tanrını ruh (hələ tam dəqiq bilmirik - bu nədir) hesab etsək, ruhun yaratması, idarə etməsi faktına rast gəlmirik. Və ruhun hər kəsə həmişə xeyirxah olması faktı da yoxdur. Müasir mənasında ruh yalnız şüurlu varlıqlara: insana və ya daha ağıllı heyvanlara görsənə, məlumat verə, davranışa təsir edə bilər. **Teist dinlərin ali hesab etdikləri həmin ruh yalnız məlumat daşıyıcısıdır - buna istənilən qədər praktiki sübut var**. Lakin Bibliyada və Quranda tanrıya digər əlavə edilmiş xassələr: seçmək, xüsusi qayğı göstərmək, digər icmalara qarşı düşmən kimi baxmaq, onları öldürmək, bağışlamaq, cəzalandırmaq, məhkəmə qurmaq və s. spesifik göstərişlər əsassızdır. Bunun səbəbləri belə ola bilər: 1) məhz maraqlı şəxslərin özlərinin uydurması; 2) xeyirxah, ya zərərli ruhların insanla kontakta girməklə tapşırığı. 3) başqa planetlərdən gələnlərin təlqini. 4) xəsələnmiş şüurun məhsulu

İlk politeist dinlər daha sülhpərvər və insanlar arasında ayrıseçkilik qoymadığı və buna görə müharibələrə və konfliktlərə səbəb olmadığı halda, sonrakı yeni tək tanrıya əsaslanmış - monoteist dinlər, mahiyyətcə bəşər inkişafına yeni mahiyyət və məna gətirdilər. Din dövlət dininə çevriləndən sonra bu mahiyyət mənfi oldu, onlar (zərdüştlükdən və budizmdən başqa), bəşəriyyətin inkişafını 2 min il geri saldılar. Əvvəlki azad düşüncə və bir - birinin fikirlərinə, inanclarına təbii və dözümlü baxan insanlar yeni ruhanilərin səyi nəticəsidə düşmənlərə çevrildilər.. Onlar tarixin müəyyən uzun dövrlərində bəzisi həmişə, bəzisi isə bir dövrdə başqa dinə sitayiş edənləri düşmən, kafir, ölməyə, əzaba layiq elan etdilər, hansı ki çox ilahilikdə belə ideyalar yox idi. Sonrakı tarix ərzində bu ilkin baxışlara müxtəlif- əxlaq, yeni sitayiş ritualları, əvvəldən müəyyən edilmə, müqəddəslik - təlimlərləri əlavə etdilər. Din sitayiş, rituallar, dünyabaxışlar, insana xidmət elementlərindən təşkil olundu və siyasi oyunçuya və daha zirəklər, hakimiyyət sevərlər üçün karyera və varlanmaq üçün vasitəyə çevrildi.

İlahilər və onların içərisində ən böyüyünün olması fərziyyəsinin səbəbi mənim fikrimcə, 1)insanların gördükləri təbiət hadisələrinin səbəbini bilməmək və 2) öz ictimai quruluşlarını (ağa -qul ) fövqaladə

qüvvələr sisteminə proyeksiyalamaq idi. Onlar bu səbəbi hadisələrin, təbiətin öz içində olmasını anlaya bilməyərək onu *kənar qüvvələrdə* axtarırdılar. Xüsusilə möcüzəyə oxşar hadisələri, məsələn, insan surətlərinin gəlişini, yağışdan sonrakı parlaq rəngli qövsün səbəbini yalnız dünyadan kənar qüvvələrdə görürdülər. Onlara rahat yaşamaq üçün gördükləri hadisələrin səbəbinin bilmək lazım idi. Bunu onlar bilmədikləri üçün sadəcə allahın adına yazmaqla rahatlıq tapırdılar. Allah sözü əslində əsasən naməlumluğu, naməlum səbəbi bildirirdi. Lakin yaxşı həyatlarını təmin etmək üçün məhz onlar tanrını idarə etmək, yəni onu insanlara rəhm etməsi, qoruması, işlərini asanlaşdırması üçün ona sitayiş edir, dualar oxuyurdular, qurban verirdilər. Başqa sözlə qul ağasına yaltaqlandığı, baş əydiyi, yalvardığı, xahişlər etdiyi kimi insanlar da tanrıya eyni hərəkətləri edirdilər. Bütün mövcud sitayişlərin hamısı belə hərəkət və xahişlərdən ibarətdir. Elə indi də Tanrı anlayışındakı sitayiş, yalvarmaq texnikasına oxşar olaraq insanlar rüşvət vermək, yaltaqlanmaq, tərif deməklə rəsmi dövlət orqanlarını özlərinə faydalı istiqamətə yönəltmək üçün **idarə edirlər**.

Zərdüştün və Ksenofanın tanrıya verdiyi eyni xassəyə qayıdaq, bu tanrının *fikir, idrak* olmasıdır, Ksenofan demişdi ki, tanrı öz qəlbindəki fikirlə şeyləri hərəkətə gətirir. Zərdüşt isə onun sürətlə gəzən fikir- ağıl olmasını qeyd etmişdi. Belə fikirlərin səbəbi nə idi? Bunun cavabı çox asandır. Belə ki, insanlar söz və fikirlə hadisələrə təsir etməyi kəşv etmişdilər. Onlar ruhları çağıranda maraqlıdır ki, müəyyən insana bənzər surətlər gəlirdi. Sanki ruhlar eşidirdi və tez də hazır olurdu. Elə indi də telepatik fikirlə, sözlə müəyyən hallarda hadisələrə təsir etmək, ruhları görmək mükündür, hətta bəzi adamlar onları idarə edə bilir, və müəyyən faydalar alırlar. Beləliklə insanlar nəyi aşkar edirdilərsə hamısını allaha aid edirdilər. İnsanlar məhz fikirlə, düşüncə ilə dünyanı dərk edir, özlərinə təlqin edir, özlərinə rahatlıq gətirə bilirlər. Bu xassə -özünütəlqin, özünüinandırma- insana məxsus olsa da, onlar bunu tanrının bir xassəsi sayırdılar.

Müasir islam, xristianlıq və iudaizm ilahi qüvvəni iki müxtəlif bir - birinə zidd allah və şeytan formasında qəbul edir. Lakin şeytanı allahın nəzarəti altında işlədiyini deyir. Allah dünyanı yaradan və idarə edən ruh ; şeytan isə cəhənnəmi idarə edən mənfi, pis, bədxah ruh hesab edilir (12). Lakin müxtəlif mənbələr göstərir ki, insanlıq tarixində ilk dəfə şeytan (dev- demon, asur) ilahi anlayışı yaradılmışdır, məsələn, qədim İran və Hindistan xalqlarında (19, s.8). Sonra xeyirxah işlər allaha, pis işlər isə şeytana aid edilmişdir. Bunun səbəbi mənim fikrimcə, o olmuşdur ki, insanlar dünyanın hərəkətverici

qüvvəsini əvəllər mənfi işlərdə, dağıntı və fəlakətlərdə, çətinliklərdə, problemlərdə görmüşlər və bunu edəni də şeytan, iblis, satana, İranda zərdüştlüyə qədərki dində div adlandırmışlar. Onlar məhz o çətinlikləri dəf edəndən sonra daha yaxşı həyat şəraitinə nail olurdular. Təbiətdə yaxşı şərait, gözəl yaşayış imkanları – su, günəş, yaxşı torpaq tez qavranılıb qiymətləndirilməmiş, lakin mənfi hadisələr daha kəskin dərk edilib qiymətləndirilmişdir. İndi də belədir, insanlar pisi daha aydın aşkar edir, nəinki yaxşını görürlər; pisdən, təhlükədən – şeytandan daha çox qorxurlar, nəinki allahdan qorxurlar. Bilirlər ki, yaxşı elə yaxşıdır; allah elə xeyirxahdır, ondan pislik gəlməz. Bu onların psixoloji anlama qanunudur. Qədim insanlar onlara mane olan ruha-ilahiyə sitayiş edir, yalvarırdılar ki, onlara mane olmasın; onlara yaxşılıq gətirən müsbət ruha isə sitaiyşə - yalvarmağa ehtiyac görmürdülər. Yaxşı şərait onsuz da *pis* olmayanda həmişə yaxşı idi, onu pozan məhz mənfi "ruh – şeytan" idi ki, insanlar onu ali qüvvətli ruh sayırdılar və ona yalvarırdılar.

Təbiətdə "şeytan" adlanan pis ruh- *energetik informasiya* strukturu həqiqətən də vardır ki, o mənfi hərəkətləri icra edir, müəyyən rituallar onu və onun pis işlərini nümayiş etdirə bilir. Və bu "şeytan"dinlərin dediyi - allahın (xeyirxah ruhun) əksinə olan şeytan deyil. Ruhlar ümumiyyətlə bir - birilə rəqabət aparmırlar və bir - birinin işinə qarışmırlar, faktlar bunu sübut edir (bir insanla daim eyni növ ruh əlaqədə olur). Hindu mifologiyasında allahlar və asurların (şeytan ilahilərin) mübarizəsi təsvirləri əsassız və uydurmaır. Lakin burada bu məsələ geniş baxılmır.

Dinin qəbul etdiyi mənada allahın xeyirxah olması, şübhəlidir. Kim üçün ? Nə vaxt? Bir şəxs üçün xeyirxah olan başqa şəxs üçündəmi xeyirxahdır? Məgər düzə də, əyriyə, işğalçıya da, qəsb olunana da eyni xeyirxahlıq göstərilməsi yaxşıdır? Feyerbax yazırdı ki ,"harada ki, əxlaq teologiyada , hüquq isə allahın fərmanlarında təsdiq olunursa, orada istənilən əxlaqsız, ədalətsiz, biabırçı şeyləri əsaslandırmaq olar" ( 20, s.385). Əgər allahı mühit hesab etsək, yalnız mühit hər baş verən hadisəyə (pisliyə də, yaxşılığa da) imkan verir, yəni xeyirxahlıq edir. Lakin insanlıq hər baş verənlə (qətlərlə, qəsblərlə, böyük əksəriyyətin kasıblığı, cüzi azlığın varlılığı ilə, ekologyanın qəsdən dağıdılması ilə və s.) razılaşa bilməz. Demək, dinin allah adlandırdığı obyektin hamıya belə xeyirxahlğı bizə lazım deyildir. *Əgər oğru da, işğalçı da, düz də , əməksevər də, dələduz da ona açılan imkanlardan – xeyirxah mühitdən (allahdan) faydalanıb öz işini görəcəksə, bizim dünyamız daim ədalətsiz və qalmaqalda olacaq.* Demək, biz belə allahın bizə verdiyi yaxşılığı yaxşı sayıb onun bizə

diqtə etdiyini - bizim qarşımızda açdığı asan: oğurluğu, vəhşi istismarı, qarət və işğalı, rüşvəti və diktatotrluğu, xeyli miqdarda zərərli işləri etməli deyilik. Axı biz bizə faydalı nə baş verirsə, öz xeyirimiz üçün nə ediriksə onu əxlaqi, düzgün, qanuni hesab edirik. Budur, əxlaqın insanın şəxsi düşüncəsində kriteriyası. Biz belə allaha qarşı şüurumuzda inqilab edib ona qalib gəlməliyik. Biz kainatın, yerin, maddi, canlı və cansız dünyanın olmaq qanunu olan əks qüvvələrin, bəzən dinc əkslikdə qalmaqla-əməkdaşlıqda, bəzən kəskin mübarizədə olmaqla qarşılıqlı əlaqəsi nəticəsi olan güclünün üstünlüyü, qalib gəlməsi; zəifin tabe olması- uyğunlaşması qanununa qarşı çıxmalıyıq. Bu qanun bəşəriyyətin hər bir üzvünün xoşbəxtliyinə, yer planetinin qorunmasına gətirə bilməz. Bəşəriyyət üçün xüsusi ictimai qanun yaratmalı və onunla yaşamalıyıq. Çünki biz kainatda ən ağıllı varlıqlarıq; *biz daş – qaya, atom – molekul, qoyun kimi yol verə bilmərik ki, bizi sürsünlər, bizə necə quruluşda yaşamağı, hansı vəziyyətdə yaşamağı ətraf mühit (həmin olma qanunu) qüvvələrin mübarizəsi nəticəsi kimi diqtə etsin;* birimiz varlı, yaxşı yaşamağa, beşimiz kasıb, asılı, məzlum kimi yaşamağa məhkum olaq. Biz bu böyük qanunun özünü idarə etməli, onu elə yönəltməlyik, elə istifadə etməliyik ki, ona qarşı elə digər *ağıl, ədalət, təkmilləşmə* qanunu qoymalıyıq ki, insanlar hamısı xoşbəxt yaşaya bilsin. (bunun üçün hamı orta vəziyyətdə yaşamağa razı olmalı və onu yeganə optimal variant hesab etməlidir). Biz yalnız və yalnız ağıla qulaq asmalı, özümüzün və cəmiyyətimizin uğurlu inkişafı, hər kəsin yaxşı həyatını, yer kürəsinin yaxşı vəziyyətədə qalması strategiyalarını qəbul edib fəaliyyət göstərməliyik. Bu gün və keçmişdə baş verənləri allahla əsaslandırıb onu üzürlü, olmalı hadisə kimi qəbul edə bilmərik. Təbiətin və allahın (mistik ruhun) qulu olamamalıyıq –olsaq, yenə də pis qalmaqda davam edəcəyik. İnsanlıq məhz dini dokrinanın əksinə gedərək həmin həqiqi allahın özünü, yəni mühiti insanlığa sərfəli formada dəyişdirməlidir. Yəni ona dinin allaha yazdığı uydurma rolunu əlindən almalı, özü öz aləminin, mühitinin(ictimai iqtisadi siyasi), şəraitinin, olma qanununun yaradıcısı olmalıdır.

Deyərdim ki, şeytan da, allah da bir vahid şeydir - ruh rolunda, yaxud başqa rolda. Bir dəfə - bir mühitə reaksiya olaraq bir xarakteri (nəticəsi) görsənir, digər halda əks xarakteri (nəticəsi). Habelə şeytanla allahın; pislə yaxşının və ya digər əks amillərin **mübarizəsi,** lap elə fəlsəfi -əksliklərin mübarizəsi qanunu da həqiqətdə olan şey deyildir. Heç vaxt bu mübarizə yoxdur-əməkdaşlıq, birgə iş vardır.Allah da şeytan da, yaxşı da pis də, xeyir də şər də birlikdə olanda dünya və biz mövcud oluruq. Hidrogen atomunda, habelə bütün elementlərin atom

və molekulunda iki bərabər əks yük olduğu kimi, hər şeydə iki əks mahiyyət vardır ki, onlar bir- birinə bərabər olmalıdır və yalnız belə halda hər şey mövcud ola bilər. Yəni dini mənada desək, allah da şeytana bərabərdir və bir yerdədir, bir mahiyyətdədir-bir şeydir, artıq gücə malik deyil; allah yaradırsa, şeytan ona forma verir, ikisi bir yerdə olur, bir işləyir.

Avestanın analizi göstərir ki, o dövrdə şeytanı indiki qədər pis hərəkətlər, pis davranışlarla yükləməmişdilər, o doğrudan da ilahiyə layiq rol oynayırdı. Şeytan yenilik gətirən, həqiqəti tapmağa kömək edən, düşüncənin sərhədlərini dağıdan, ona azadlıq verən, təkamülə təkan verən bir rol oynayırdı. Pozan olmasa - müvazinətləşməyə, düzəlməyə, yaxşılaşdırmağa ehtiyac qalmaz. Pozulma – qaydalaşma(rahatlaşma-müvazinətləşmə) dünyanın və hər şeyin zəruri yaşama qanunudur. Gördüyümüz kimi bu rol çox vacib və faydalıdır, bu işləri görən olmasaydı, hər şeyin, hər fikrin əksi olmasaydı, hər hansı bir biliyə, fikrə, şübhə yaradan olmasaydı, insanlıq inkişaf edə bilməzdi. Yalan ayaq tutub yeriyərdi. Ruhanilər insanlara çox zülm edərdilər, necə ki xristianlıq 15-ci əsrə qədər etmişdi. Yəhudi miflogiyasında şeytan Həvvanı xeyir – şəri dərk etmək meyvəsini yeməyə inandırmasaydı, insanlıq vəhşi formada, anlamaz qalmışdı və öyrənə bilmədiyinə görə məhv olmuşdu. Biz görürük ki, bu mifləri yaradanlar məhz ağıl və məntiqə əsaslanmışlar. Məhz şeytanın işi xristian ruhaniliyinin ağalığına son qoydu, reformasiya və intibah, maarifçilik dövrünü gətirdi. Zərdüştlükdə bu mənada tədqiqatçıları, tənqidçiləri, alimləri şeytan hesab edirdilər.

## Müasir insanlar tanrını necə qavrayır

Bütöv gerçəkliyi və bütün ehtimallı fərziyyələri öyrənəndən sonra aşağıdakı ümumi nəticələrə gəlirik.

**1. İnsanlar** Tanrını 4 hadisə kimi qavrayır: **1) Fiziki tanrı; 2) Psixi tanrı- zehində yaşayan inam; 3) Ruhi tanrı - antropomorfik tanrı**, yəni şəxsiyyətə malik insana bənzər ali ruh; 4. **Məlumat, zəka dünyası - Ağıl və fikir,** hansı ki insan məlumatları kodlarla və sözlərlə əks etdirilmiş fikir vasitəsilə araşdırır, gerçəkliyin vəziyyətini müəyyən edir.

Bunların hər birini ayrıca tanrı saymaq, eynilə hamısını bir yerdə bir tanrı saymaq eyni ilə şüur üçün eynidir. Hər bir avtonom hissə digərləri ilə birlikdədir. Hər bir canlı və cansız obyektin strukturu kimi bu bütöv tanrını da tetraedr modeli kimi təsəvvür edə bilərik- onun hər bir təpəsində bir Tanrı hissəsi vardır ki, özü mürəkkəb əlaqələrlə digər

üçü ilə birliyi  və nəticəsidir. Yəni *fiziki dünya* – tanrı digər 3 hissənin birgə fəaliyyəti nəticəsidir. *Psixi dünya* –tanrı digər 3 hissənin birgə fəaliyyti nəticəsidir. Ruhi tanrı qalan 3 hissənin birgə fəaliyyəti nəticəsidir; *Məlumat-zəka* (ağıl-fikir) də digər 3 hissənin birgə fəaliyyət nəticəsidir. Biz bu kompleks sistemi dünyanın **tetraedr hüceyrəsi** və strukturu –ümumi allahı adlandıra bilərik. Hansı ki tetraedr fiquru hər 3 nöqtədən 4-cü nöqtənin əldə edilməsinin fiziki və həndəsi-riyazi formulasını da yazmağa, praktiki istifadə etməyə imkan verir. İzahat.

**1) fiziki tanrı -** kainat və bizim qalaktika ilə birlikdə günəş sistemi və yer planetini üstündəkilərlə birlikdə əhatə edir və fiziki qanunlarla yaranır və yaşayır. Fiziki Tanrı 3 hissədən ibarət hesab edilə bilər: 1) dünya material  çoxluğu və bu çoxluğun daim daşıdığı, malik olduğu 2) maddi dünyanın : şeylərin, mənzərənin, hadisələrin xəyali surəti, obrazı hansı ki məlumat kompleksi mahiyyətinə malikdir Burada habelə insan, bitki və heyvanların  ruhlarının 2-ci  dəyişməz hissəsi yerləşir.  3) maddəyə keçid dünyası. Buraya görünməz dünya adlandırdığımız canı, maddə əlamətləri omayan müxtəlif sahələri: kvant, elektromaqnit bio-elektromaqnit və naməlum sahələri, məlum 350 hissəciyi  aid edirik. Müəyyən edirik ki,  bu bütün görünən və görünməz dünyanı əhatə edən dünya tamlıq, müvazinətləşmə, dəyişmə, daimi bir –birinə çevrilmə halındadır, lakin dəyişməz ümumi miqdarı və digər sabit parametrləri  vardır.

Qısa ifadə edilsə, fiziki Tanrı bütün mühiti, mühiti formalaşdıran müxtəlif elementlər, onların qanun və qanunauyğunluqları, səbəb - nəticə asılılığı, olmaq, sonsuzluq, davamiyyətdir. Fiziki Tanrının formulu sadə formada  $\sum Ni = 0$  qəbul oluna bilər. Bu o deməkdir ki, dünya müvazinətdə olan və ya müvazintələşməyə doğru daim dəyişən çoxluqdur. Onun müvazinəti bu və ya digər yerdə avtonom proseslər nəticəsində pozulur və ona görə daim  müvazinətləşməyə doğru hərəkət  baş verir. Onun nəticəsi  abstrakt sıfırdır, gerçəklikdə isə 0 +1 və ya 0 -1 dir. Yəni dünya ya bir tərəf, ya digər tərəf istiqamətində və sonra işarələrini dəyişməklə çoxluqun fasiləsiz müvazinətləşmə prosesidir.  Material çoxluq daim fasiləsiz sinqulyar vəziyyətə düşmə prosesi və fasiləsiz partlayışlar vasitəsilə dünyanın müəyyən yerində yenidən material kombinasiyaların - göy cisimlərinin yaranması nəticəsində  müvazinətin pozulması və yeni müvazinətin formalaşması istiqamətində dəyişiliklərdədir. Eynilə aşağı sistemlərdə də ümumi müvazinət avtonom proseslərlə pozulur. Hər bir hərəkətin sonu kombinasiyaların parçalanması ilə qurtarır, (məsələn, spiral

qalaktikanın mərkəzində) və yenidən yeni kombinasiyaların yaranması başlayır.

1978-ci ildə *gələcəyi necə görmək olar* adlı məqaləni yazarkən bu məsələni araşdırdım. Və bir çox təcrübələrimə və real faktlara əsasən tapdım ki, şeylərin adları və mahiyyətlərinin iştirak etdiyi *məlumat sahəsində* ümumi qanunlara və prinsiplərə görə hadisədən əvvəl baş verən dəyişilkilər, yəni zərurət olan hadisələr, sonradan reallıqda baş verir. Bəs onda materialistlərin dediyi *materiyanın şüuru və ideyaları yaratması* hadisəsi də düzdürmü? Bəli, bu da düzdür.

Material sistemin hansı istiqamətə dəyişəcəyi, necə forma alacağı haqda məlumat daim hazırdır və hadisədən əvvəl onun surətində var. Yəni real dünyada baş verəcək hadisələr əvvəl onun surətində imkan, sahə dəyişiliyi zərurəti kimi meydana çıxır. Lakin burada maddi dünyaya əmr vermə, göstəriş vermə deyil, sadəcə dəyişiliklərin olacağı haqda məlumatın əvvəldən surətlər dünyasında meydana çıxması baş verir. Belə düşünməyə bir çox faktlar vardır, məsələn, tam sübut olunmuşdur ki, şeylərin quruluşu, xassəsi haqda məlumat digər qonşu şeydə (ağacda, suda, qənddə, divarda, insanda, paltarda, ev heyvanlarında və s.) əks olunur. Insanın səsində, üzündə, gözündə onun özünün və qohumları haqda keçmişi, indisi və gələcəyi üçün məlumat əks olunur.

**2) Psixi tanrı** – şüurlarda böyük yaradan, idarə edən, ədaləti qoruyan və hər yerdə olan mənasında, lakin formasız, naməlum, abstrakt qüvvə **zehində yaşayan allaha inam** kimi qəbul edilir. Bu tanrı insanın öz fikrində yaratdığı müəyyən xassələr- ədaləti qoruyan ona qayğı çəkən kimi qəbul etdiyi təsəvvür etdiyi obrazdır, fantaziyadır.

**3) Ruhi tanrı - antropomorfik tanrı (müqəddəs ruh)** - insan ruhuna oxşar formada təsəvvür edilərək hər şeyi yaradan, idarə edən, xüsusi qabiliyyətlər verən, hamıya qayğı göstərən, (insanla danışa bilən, seçən, bağışlayan funksiyaları sonra əlavə edilmişdir) qəbul edilir. Bu versiyada adətən insanlar tərəfindən tanrı naməlum deyil, konkret olaraq ali, insana bənzər şəxsiyyətə malik ruh hesab edilir. Gerçəklikdə insanlar ən çoxu bu 3-cü, insana bənzər ali ruhu tanrı qəbul edirlər və ona bəzən xristianlar kimi müqəddəs ruh deyirlər. Onlar düz edirlərmi? Bu tanrının özünü necə göstərməsi haqda çox az obyektiv faktlar vardır, məsələn, ( səh18) qadına işığın yaxınlaşması və toxunması ona istilik və güc gəlməsi faktını göstərmək olar. Başqa faktlar da var. Güman etmək olar ki, bu tanrının da mənbəyi insanın özündədir (telekinez, fikir, söz formulası, sözün, fikrin güclü emosional, bioloji, fiziki təsiri). Bu tanrının adına xeyli miqdarda funksiyalar yazırlar. Lakin bu nə dərəcədə düzdür? Onların qəbul

etdikləri belə tanrı ona verilən bu funksiyaların hər birini yerinə yetirməyə qabildirmi? Axı bunu ruhanilər onun haqqında özləri deyirlər və belə düşünürlər. Tanrı özü isə heç kəsə belə demir, ümumiyyətlə o danışmır. Onun adına yazılan insani xassələri ancaq fantaziya və həqiqəti gizlətmək cəhdi hesab etmək olar.

Bu tək hesab edilən ruhi tanrı özü də necə yaranır? Bu suallara xristianlıq və islam cavab verə bilmir. Onlar deyir- var vəssalam. Lakin buddizmdə maraqlı ideyalar vardır. Budda demişdir ki, insan ruhları, nəhayət, çoxlu dəfə keçidlərdən (perevoploşenie, pererojdenie) sonra göylərə qalxır və ruhların 16 və ya 32 qatında uyğun ierarxiyanı tuturlar, öz evolyusiyalarını davam etdirirlər, burada hər mərhələni keçdikcə yuxarı doğru bütün mənfi keyfiyyətlərdən -paxıllıq, xəyanət və eqoismdən -təmizlənir, təmiz ilahi vahid bir ruha çevrilirlər. Bu təsvir edilən ruh həmin ruhi tanrı ola bilərmi? Biz hər şeyi yalnız ehtimal edə bilərik, sübutlar tapılana qədər.

Faktiki olaraq **ruh** formasında təssəvvür edilən ruhi Tanrı ilə Fiziki tanrının - təbiətin eyni olması aşkar edilmir. Hərəsi ayrıca özünü göstərir. Ruhi tanrı təbiətə bilavasitə təsir və idarə etmir. Belə fakt yoxdur. Təbiətdə ağaclara, cisimlərə, insan və bitkilərə müəyən hədlərdə və zamanda təsir edən yalnız insan fikir- formaları, gözləri məlumdur, hansı ki ruh-tanrı ilə əlaqəsi yoxdur

**Ruhi tanrı** (və ya ruh - ən böyük ali ruh – müqəddəs ruh) yalnız insanların çətin vəziyyətində bəzən meydana çıxıb təsir edirsə (belə faktlar vardır) onun yaradıcı, idarəedici, bağışlayan, cəza verən funksiyaları aşkar olunmur, lakin bilən, xəbəri olan funksiyaları aşkar olunur. Qədim zamanlardan başlayaraq bu günə kimi insanlar bütün eşitdikləri səsləri, xəyali görüntüləri və onlarla reallıqda və yuxuda kontaktları onların məsləhət və göstərişlərini bu tanrıdan olduğunu güman edirlər. Bu insani formada görüntüləri isə tanrının mələkləri hesab edirlər. İnsanlar ruhi aləm varlıqlarından öz fikirlərində güman edilən bir ruha belə tanrı deyirlər. Görünür, səhv edirlər. Əslində ruhlardan heç birinə univesal Tanrı demək üçün əsaslar yoxdur, çünki onların formaları müxtəlif, verdikləri göstərişlər ziddiyyətli, ümumi bəşəri əxlaqi prinsiplərə deyil, şəxsin şəxsi probleminin həllini - özgələrin zərəri nəzərə alınmadan - güdür, ümumi xeyirxahlıq xassəsi ödənmir. Başqa sözlə, onları nə tanrı, nə şeytan kimi fərqləndirmək mümkün deyildir. Insan bunu – hansının olduğunu – hələlik bilməyə qabil deyildir. Bu haqda çoxlu misallar vardır. Təsadüf deyildir ki, belə kontaktların nəticəsində son teist dinlərinin prorokları bir - birinə zidd və düşmən fikirlər, özlərini düz, başqalarının isə kafir, yalançı olduqlarını demişlər; özlərinin düz din, digərlərini isə şeytan dini elan

etmişlər; bəziləri isə dediklərinin (öldürmə, qarət etmə, oğurlama ) əksinə hərəkət etmişlər - elə öldürməklə, qarətlə soğunçuluqla, ağır vergilərlə dini qurmuşlar. Qəsb etdikləri adamların paltarlarını geymiş, çörəyini yemiş, əmlakından istifadə etmiş, qızıllarını mənimsəmişlər, arvadlarını, qızlarınmı qul, kəniz, etmişlər. Bunlar hamısı insanlıq əleyhinə düşmənçilik və cinayət olmuşdur.

Gəlin bir anlığa qəbul edək ki, teologiyanın dediyi düzdür, yəni tanrı hamının qayğısını çəkir
xeirxahdır, nə baş verirsə hamısını tanrı edir. Bu o deməkdir ki, bütün qəsbləri, ədalətsizlikləri, istismarları, konfliktləri, müharibələri oğurluq və qətlləri, habelə yaxşı həyatı da tanrı edir. O hamıya kömək edir - düzə də, əyriyə də. Onda bizə belə tanrı lazımdır? Və ya belə tanrıya sitayiş etmək, yalvarmaq lazımdır? Deməli, buradan bir nəticə çıxır: bütün belə deyən və hərəkət edən dinləri- xristianlığı, islamı və iudaizmi - rədd etməliyik. Onların uydurma tanrı anlayışının yaratdığı ağılı məhdudlaşdırıcı sərhəddi yarıb keçməliyik- xilas olmaq və xoşbəxt gələcəyə getmək üçün. Belə dinlərin yalançı tanrı anlayışını qəbul etsək, onda biz daha çox vəhşiliklə istismar edəcək, qəsb edəcək, parşalanacaq, təbiəti daha sürətlə dağıdacayıq, başqalarına qarşı daha pis düşmənçilik edəcək, onları rəqib kimi görəcəyik, çünki düşünəcəyik ki, tanrı bizə kömək edir və ya biz yox, bunları tanrı edir. Bu hadisələr bu gün dünyada baş verir, ketdikcə çoxalır və daha dəhşətli formalar alır. Biz həqiqi tanrı anlayışıı qəbul etməli və onu dərk etməliyik, ağılla yaşamalıyıq. Biz dünyanın mövcud - *yaşamaq üçün qarşılıqlı əlaqələrdə güclülərin dominantlığı, zəiflərin məhvi yaxud güclü tərəfindən istifadə (istismar)edilməsi* - ümumi qanununu pozaraq insan ağlını bu sistemin yaşama qanununu dəyişdirməyə yönəltməliyik və ağılla hamıya xoşbəxtlik gətirəcək ictimai idarə sistemi və həyat tərzi, əxlaq normaları qəbul etməliyik. Biz dediyimiz kimi də olmalıyıq. Sözümüz və əməlimiz daim eyni olmalıdır. Ona görə ki, biz insanlar bütün canlılar içində yüksək şüura, daha çox yaradıcı ağıla malikik. Biz vəhşi təbiətin qanunu ilə yaşaya bilmərik- vəhşi qanuna əməl etsək, onda daim belə qalacaq və özümüzü də təbiəti də məhv edəcəyik, daim əzablar, müharibələr, vəhşi istismar, ədalətsizlik qalacaqdır; bəşəriyyəti 20 %- varlı - 80%-i isə kasıb, istismar olunan, əzab çəkən qalacaqdır.

Beləliklə **Ruhi tanrı** çətinliyə düşdükdə - bəzi hallarda aşkar olur və şəxsin spesifik probleminin həllinə kömək edir ki, bu da onu göstərir ki, o fiziki dünya ilə, habelə elə həmin şəxsin öz şüuru, ağlı ilə əlaqədardır və təkbaşına deyil, həmin şəxslə birgə meydana çıxır. Yəni həmin şəxsin özündən başqa, kim onun nə düşündüyünü, nə məqsəd

güddüyünü bilir? Yalnız həmin şəxs bilir. O adi insan ruhu deyil, insan formasında heç vaxt görsənmir, hansısa ruh xarakterli (çünki hiss etmə, kömək, qayğı, xəbəri olma, yaxında olma keyfiyyətləri reallıqda müşahidə olunur) lakin daha universal və xüsusi bir obyektdir. Bu fikirlər, faktlar olsa da, hələlik yalnız fərziyyədir. Insan formasında görünən surət-formalar da vardır ki, onlar kitabın digər yerində araşdırılır. Güman etmək olar ki, ruhi tanrı yalnız canlılara, insana aid xüsusi növ tanrıdır və yalnız canlılar yaranandan sonra yaranmışdır. Mümkündür bizim yer kürəsinin spiralda məhv olub yenidən yaranması prosesində bu sahə ölməmiş, qalmışdır, yeni yer və onun faunası yarandıqda iştirak etmişdir. Lakin buna sübutlar yoxdur. Ruhi tanrını aşkar etmək və seçmək qeyri - mümkündür, çünki ruhlar da eyni formada insanla kontakta girir. Hansının adi şər –şeytan, yaxud xeyirxah ruh, hansının daha böyük - tanrı olduğunu müəyyən etmək mümkün deyildir. Elə bu səbəbə də bəzi dinlərə inananlar, dini həyat yaşayanlar və peyğəmbərlər əslində çox hallarda tanrı ilə kontaktda deyil, elə şeytan (acıqlı-zərərli) ruhlarla kontaktda olmuş, lakin onu tanrı elan etmişlər və insanları bir - birinə düşmən etmişlər. Onların tanrı ilə kontaktı və ondan məlumat almaqları heç nə ilə sübut olunmur. Əksinə, məhz şeytan ruhlarla əlaqədə olmaqları aşkar olunur, çünki hamısı yalnız təkcə onların fikrinin doğru olduğunu, başqalarının fikrinin yanlış olduğunu elan etmişlər. Lakin belə bir baxış ağılsız baxışdır, real həyat, insanın dünyanı anlaması, başa düşməsi kontekstində sübut olunmur. Onlar bütün tarix üçün resept vermək istəmişlər - bu onların müdrik olmadıqlarını və məhz allahdan vəhy almamalarını sübut edir. Biz bütün savadlılar bilirik ki, hər bir baxış, habelə hərəkət yalnız müəyyən sərhədlərdə və müəyyən zaman və məkanda doğrudur və əsaslıdır. Digər sərhədlərdə doğru deyildir. Belə dinlər həqiqətin açılacağından qorxaraq buna görə hakimiyyəti əllərinə aldıqları ölkələrdə tanrının elmi araşdırılmasına icazə və imkan vermirlər, iddialarına sübutlar təqdim etmirlər. Ruhi tanrı ayrıca konkret obyekt deyildir, adətən maddi cisimlərin təsirinə və insanın arzusuna, dualarına adətən reaksiya verməyən, bəzən verən xarakterə malikdir. Niyə? Onun təbiəti göstərilən faktlarda və hadisələrin ardıcıllığında, zəruri olaraq müəyyən hadisələrin baş verməsində, bəxtin gətirməsində və gətirməməsində, mənzilin, biznesin, arvadın xeyirli olub –olmamasında, bu və ya digər vəziyyətin uzun müddət düzəlməməsində və ya çox asanlıqla yaxşılaşmasında özünü biruzə verir. Faktları necə ümumiləşdirək, nəticə çıxaraq? Hələ 35 il əvvəl müstəqil olaraq tapdığım nəticənin yenə də düz olduğunu görürəm. Yəni əgər kibernetiklərin və bioloqların sözü ilə varlıqları informasiya

çoxluğu hesab etsək, görünür, hadisələr və varlıqlar yaranmamışdan əvvəl onların informasiya, mahiyyət sahələrinin – surətlərinin balanslaşması gedir. Baxmayaraq ki, şeylər daim “ döyüş” və ya oyun meydanında (həyatı oyun meydanı, səhnə hesab edə bilərik) iki kənar hədləri arasında dəyişərək mövcud olurlar. Döyüşün və ya oyunun məqsədi “kim kimi?” prinsipilə, başqa sözlə, kimin bütün qalan mühitdən, insan və vasitələrdən istifadə edərək yaşamağa və yaxşı yaşamağa-olmağa müvəffəq olmasıdır. Məhz bu həyat dövrlərinin uzunluğu və hansının olması, görünür, məhz bu informasiyaların, mahiyyətlərin qarşılıqlı təsirləri və müvazinətləşməsi nəticəsində məhz əvvəlcədən müəyyənləşir - aşkarlanır. Sonra material reallıq baş verir. Bunu bu fakt sübut edir ki, gələcəyi demək məhz 3 dünya mahiyyətinin şəklinə, vəziyyətinə görə mümkündür Bu nəzəriyyə daha da işlənməlidir. Məhz bəxtlər, uğurlu - uğursuz yerlər, kartda əlin gətirməsi, həyatın çox asan və ya məşəqqətli olması, hadisələrin zərurətləri belə izah olunur.

Qeyd etmək lazımdır ki, tək allah anlayışı əsasən orta şərqdə yaradılmışdır və bu dinlər ruhanilərin sözünə görə: islam, iudaizm və xristianlıq allah tərəfindən verilmiş vəhylər əsasında yaradılmışdır. Maraqlıdır ki, çox allahlıqda allahlara sahib çıxan yox idi-yəni həmin allahların özünə seçdiyi “peyğəmbəri” yox idi. Nə əcəb? 100 min il allahların bir insanı seçmək ağlına gəlmirdi, yoxsa həmin insanların ağlına seçilmək gəlmirdi? Əlbəttə Şumer çarları və Misir fironları özlərini allahın oğlu yaxud yerdə vəkili elan etmişdilər, adi adamlar isə buna cürət etmirdilər. Cənubi Şərqi Asiyada isə bu gün dinlər allahın “göstəriş və əmrlərinə”, vəhylərinə əsaslanmır, **şəxsi təcrübəyə və müşahidələrə** əsaslanır: konfusianizm, buddizm, sintoizm, induizm, daosizm, jaynizm hamısı belədir. Onlarda teoloqların nəzərdə tutduğu mənada tanrı anlayışı yoxdur. Belə böyük fərqli düşüncə necə yaranmışdır? Hər halda bu onu göstərir ki, bu ərazidə yaşayan insanların ağlı xeyli dərin işləmişdir. Onlar dünyanın izahını onun özündə axtarmışlar. Belə baxış dünyanı tanrının – naməlum qüvvənin konstruksiyası hesab etməyə nisbətən daha obyektiv görsənir. Bu xalqlar dünyanı şəxsi eksperimentlə, faktlarla dərk edirlər və tanrı anlayışını uydurmağa lüzum görməmişlər. Nəticədə onlar daha yüksək mədəniyyətə, əxlaqa və davranışa nail olmuşlar.

**4. Məlumat zəka dünyası -ağıl və fikir,** daim insanla bir olur və hadisələrə insan öz ağlı ilə təsir edir; insan fikir və söz vasitəsilə düşünür, beləliklə fikir, söz vasitəsilə işləyən ağıl insanın həyatında vacib yer tutur. Ağıl və fikirlə insan özünü və mühiti idarə edir,

dəyişdirir, yaradır, qurur, bioloji vəziyyətini qaydaya salır, yaşamağa qüvvə tapır. Heyvanlar da ağılın aşağı səviyyələrindən istifadə edərək yaşayırlar. Deməк, ağıl və fikir idarəedici tanrı olmağa layiqdir və insanla və digər daha çox inkişaf etmiş heyvanlarla birlikdədir. Lakin ağıl və fikir insan və bəzi canlıların beynində-şüurunda olur, göydə material aləmdə, göy cisimlərində ağıl və fikir olmur. Onlarda, 4 təbii qüvvələrə uyğunluq və onların məntiqi nəticəsi olan ağıllılıq, məntiqə uyğunluq, formalar, hərəkətlər müşahidə edirik. Tanrının ağıl - fikir komponenti yalnız şüurlu canlılarda yerləşir. Fiziki komponenti kosmosun – təbiətin özüdür; psixi komponenti də insan və canlılarda yerləşir, Ümumi ruhi komponenti isə əbədi qalan ümumi canlıların cəmlənə bilən ümumi ruhudur.

Fikir vasitəsilə insan material və görünməz surətlər dünyasından məlumat alır. Yuxarıda qeyd etdiyim kimi görünməz dünya hər bir maddi olan cismin, mineralların, planetin, canlıların- bitki və heyvanların *məlumat daşıyan sahələrini, surətlərini, mahiyyətini* əhatə edir. Məhz bizdə olan **ikinci şəxsiyyət,** yəni gizli şüur vasitəsilə həmin dünyadan məlumat alırıq. Bu intuisiya vasitəsilə meditasiya zamanı, dərin psixi sakitlik vəziyyətinə düşdükdə, yəni adi şüuru bağlayıb, ikinci şüurla işlədikdə baş verir. Görünməz dünya məhz hər şeyin mahiyyətini, qanunlarını, prinsiplərini əks etdirir, hansı ki ikinci şüurumuz bəzən işə saldıqda və ya özü işə düşdükdə bizə məlum olmayan üsulla həmin dünyadan məlumat alır, əlaqəyə girir. Heyvanlarda da ağıl və fikir (söz olmadan) onları idarə edir, onunla ətraf mühiti anlayır, özünü qoruyur, yeni qidalanma, qorunma, yaxşı yaşama yerləri, üsulları kəşv edirlər.

***Ümumi nəticə***

Yalnız **Fiziki tanrıda** bütün bu yaradıcı, idarəedici, nizamlayıcı funksiyalar aşkar özünü göstərir, insan onun-təbiətin qanunlarını öyrənməklə həyatını qurur. Yerdə insan üçün fiziki tanrının yer komponenləri: fiziki, psixi, bioloji, iqtisadi, sosial, ağıl, idarə mühiti ilə birliyi tanrı rolunu oynayır. Burada heç bir kənar bir fövqəl qüvvə yoxdur. Burada qiymətli cəhət odur ki, insan bu mühitin ümumi mahiyyəti ilə harmoniya və razılıqda davrandıqda lazımı daha uzun müddətli və xoş əhvallı uğur əldə edə bilər. Bu mühitin ümumi həvəsləndirici və ya sıxıcı mahiyyətini məhz **tanrı** hesab etmək olar, yenə də o göydə deyil, yerdəki hadisələr üçün yerdəki proseslər içindədir. Tanrını fiziki və ondan yaranmış bioloji, sosial, psixoloji və s. qanunlar kimi anlamaq, onu mühit içərisində, gerçəklik içərisində,

şeylərin konstruksiyasında, əlaqələrində, olma və dəyişmə qaydalarında axtarmaq lazımdır. Məlumdur ki, tarixdə əvvəl yer tanrıları: əkinçilik, ovçuluq, təbiət, nəsil artırma-qadın tanrılar ixtira edilmiş, sonra onlar göy tanrıları ilə (günəş, ay, ulduz, zevs) əvəzlənmişdir. Lakin 1400 il bundan əvvələ qədər insan gözünə görsənən ruhi varlıqları da, eşidilən səsləri də tanrı və ya onun mələyi hesab etmişlər. Bu gün isə biz daha çox məlumata sahib olaraq və analiz edərək daha çox bilirik. Burada mistika üçün yer yoxdur. Ancaq fiziki tanrını: təbiət və qanunlarını, xassələrini, insanı və cəmiyyəti anlamaq və hərəkət etmək insanın problemini həll edər. Onu düzgün anlamaq sizə düzgün həyat yolunu göstərəcəkdir. Tanrı deyib ona sitayiş etdikdə, dualar oxuduqda biz özümüzü təlqinlə, özümüzü inandırmaqla – meditasiya ilə məşğul oluruq və nəticədə yalnız bizim özümüzün psixi rahatlığımızı, çətinliyə və haqsızlığa dözüm əldə edirik; bədənimizin müəyyən orqanlarının işini yaxşılaşdıra, qızdıra, soyuda bilirik. Maddi həyat hadisələrinə təsir etmək üçün yalnız fiziki tanrı köməyə gəlir. Həqiqətdə də, yalnız gerçək *fiziki Tanrı - mühit qanunlarını öyrənmə və elmi və ya intuitiv anlama*, məsləhət və çıxış yolu tapılmasına - insanın düzgün seçim etməsinə səbəb olur. Material dünya material hərəkətlərlə, material təsirlə dəyişilə bilər.

**Psixi tanrı** anlayışı, yəni şüurda güman edilən tanrı isə özünə inam və özünü təlqin formasında inanan insanın şəxsən öz şüuruna, psixi vəziyyətinə təsir edir, onun bədənindən kənar material hadisələrə təsir etmir. Sitayiş və dualar zamanı biz real tanrı ilə əlaqədə olmuruq, lakin özümüzü aldadırıq (lakin bunu bilmirik), bunu onunla ünsiyyətdə olmaq sayırıq. Bu zaman biz əslində psixi tanrı – inam ilə əlaqədə oluruq. Çünki həmin dini sözlər mane olur, bizi çaşdırır. Dini sitayiş əvəzinə eyni və hətta daha böyük nəticələri biz elmi meditasiya, özünü təlqin, elmi dualarla əldə edə bilərik, dini dualara ehtiyac yoxdur. Belə dini sitayiş zamanı biz psixi ekstaz vəziyyətinə düşə və qarabasmaya məruz qala bilərik. Elə bilərik ki, tanrı bizimlə danışır. İnsanların Tanrı hesab etdikləri istənilən obyektə sitayiş etmələri və ya etməmələri onların şəxsi mədəniyyət məsələsidir və bu ictimai idarə oluna bilməz. Yəni məçid, sinaqoq və kilsələrin, ruhanilərin bu işə qarışmağa haqqı yoxdur. Onlar nəçidirlər ki insanla tanrının arasında vasitəçilik etmək, qaydalar qoymaq istəyirlər, tanrının adından danşırlar. Hər kəs öz ağlı, şüuru ilə yalnız onu anlaya bilər. Tanrı heç kimi vəkil seçməmişdir və belə qabiliyyəti yoxdur. Kim özünü tanrının seçdiyi vəkil sayırsa o səhv edir, o sadəcə xəstədir.

**Bəzi faktlar və izahlar**

**Əvvəl qeyd edildiyi kimi cansız təbiəti, kosmosu yaradan, hərəkətə gətirən 4 təbii təsir qüvvəsi mövcuddur. Bu qüvvələrin əsasında isə hissəciklərin xassələri durur, yəni bu xassələrin nəticəsində bu 4 qüvvə formalaşır. Canlı təbiətdə isə əlavə olaraq 3 *bioloji (bitki, heyvan və insanlarda , psixi (heyvan və insanda), mental(insanda),* qüvvələr (və ya sahələr, təsirlər) meydana çıxır ki, bunların da əsasında böyümək, yaşamaq proqramına malik canlı hüceyrə və hüceyrə kombinasiyaları durur.**

Bu qüvvələr, hansı ki elə hər bir cisim, canlı heyvan və bitkilərdə, hissəcik, atom və molekullarda var, bütün kainatı yaradan, idarə edən, onu qaydaya salan, struktur verən, ağıllı, gözəl, məntiqi göstərən amillərdir. Filosoflar dünyada olan ilk hərəkətin səbəbini çox axtarırlar və nətiədə cürbəcir səbəblər uydururlar. Onlara cavab verib deyərdim ki, hərəkət və dəyişiliklərin səbəbi dünyada və şeylərdə olan xassələrdir, hansı ki elə ilk zərrəcikdə meydana çıxır və sonrakı yeni kombinasiyalarda çoxalır. Böyük miqdarda olan xassələrin əsasında məhz bu 4 fiziki təsir qüvvəsi –xassə durub. Məsələn, cəzb etmə, itələmə, molekulyar və elektrik maqnit xassələri, zəif parçalanma və güclü nüvə qüvvələrinin təsiri nəticəsində ilk kütlənin böyük sıxlıqda toplanması, sinqulyar vəziyyət alması və partlaması nəticəsndə real material dünya - maddə yarandı və bu partlayışdan impuls alan maddələr öz inersiya hərəkətləri ilə əyri xərlərlə və fırlanmaqla hərəkətlərini davam etdirdilər. Bu motor rolunu oynayaraq bütün maddi dünyanın hərəkətlərinə və dəyişilklərinə başlanğıc verdi. Yəni bu növbəti başlanğıc idi iki, ona qədər sonsuz sayda belə başlanğıclar baş vermişdi. Başlanğıc sözü burada nisbidir, çünki buddizmin düzgün göstərdiyinə görə həyat başlanğıcı və sonu olmayan pillələrin ardıcıl zənciri olan axındır, davamiyətdir. Öz - özünə hərəkət və evolyusiya edən kainat daim mövcudur. Fırlanma hərəkəti siklik hərəkət yaradaraq davamiyyət və böyük evolyusiyaya səbəb oldu. Yenə də davamiyyətin, yəni daim çevrilmələrin səbəbi material dünya elementlərinin xassələridir- qarşılıqlı təsirləridir ki onların nəticəsində hər şey doğulma- böyümə -kiçilmə -məhv olma –başqa növbəti formaya düşmə siklini yaşayır. Siklik hərəkət, hədsiz böyük çoxluq və proseslərin yaranma və dağılma proseslərinin müxtəlif zamanlılığı, müvazinətlərin daim pozulması və müvazinətləşməyə cəhd davamiyyətin , əbədiliyin, uzun dövrlü həyatın zəruri elementidir, yəni kainat əbədi özünü yaşadan mühərrikdir. *Material* dünyanın *keçid* dünyasına, sonra isə *surətlər və xəyallar, ruhlar, boşluq, xüsusi sahələr*

dünyasına və əksinə çevrilməsi daimi prosesdir. Bunlar daim müxtəlif zamanlı olduğu üçün eyni zamanda hər üç dünya daim mövcudur, ya müxtəlif avtonom məkanlarda yaxud bir- birinin arasında. Habl teleskopunun verdiyi məlumat (BBC radiosu 23 may 2010) dünyada habelə qara naməlum materiyanın da olması fərziyyəni sübut etmişdir. Lakin mən onu materiya deyil, keçid, yaxud xəyallar - surətlər dünyasına aid edərdim. Güman edirəm ki, forma və surətlər dünyası sükunət enerjisi olmayan dünyadır, hansı üsulla isə yaşayır, lakin müəyən zamanlarda və proseslərdə o enerji əldə edir və ondan keçid dünyasının hissəcikləri yaranır. Bu məsələ tədqiqat tələb edir.

Təkcə bitki və heyvanlar, insan meydana çıxandan sonra onlarda öz quruluşu nəticəsində uyğun olaraq yeni xassələr: yaşamaq üçün məqsədli davranışlar, yaşamağa çalışmaq, özünü qorumaq, yaratmaq, məqsədli hərəkət, özünü idarə etmək baş verdi. Cansız təbiətdə canlıdan fərqli olaraq özü - özünü yaşatmaq, çalışmaq, böyümək, yaradıcı reaksiya xassələri yoxdur. Burada yalnız ilkin 4 fiziki xassənin reallaşması və nəticədə strukturların, şeylərin formalaşması baş verir. Bu səbəbə görə fikrimizdə tutduğumuz ruhi tanrını (müqəddəs ruhu) bütün kainata- cisimlərə aid edə bilmərik, Yəni ona bütün dünyanı yaradan, idarə edən, ağıl xassələri vermək olmaz. Buna əsaslar yoxdur.

Göstərilən analizdən sonra qəti olaraq təsdiq edə bilərik ki, teist dinlərin tanrıya özlərinin sübut olmadan və anlamadan əlavə yazdıqları xassələr və keyfiyyətlər: *onun həmişə xeyirxah olması (həmişə deyil, bəzən bizə elə gəlir ki bu olur. lakin o2 əks - həm xeyirxah, həm mənfi təsiri edir), cəza verməsi, bağışlaması, yerdə özünə vəkil, menecer, şah, kral, təşkilat seçməsi, insanla danışması və ona göstəriş, məsləhət verməsi, əxlaq müəyyən etməsi, onun başa düşülməz, işinin dərk olunmaz olması* - hamısı qəsdən, yaxud bilmədən uydurma və yanılmadır. Onun yaradan, nizamlayan idarə edən, qoruyan funksiyaları yalnız onu tədqiqat nəticəsində aldığımız 4 böyük konkret keyfiyyətə(xassəyə) - onun fiziki və xəyali dünya çoxluğu, mühit hesab etdikdə və hər baxılan obyektin taleyinin (idarə edilməsi, qorunması və s.) həmin obyektlə mühit əlaqələri nəticəsi olduğunu qəbul etdikdə doğru olduğunu aşkar edirik. Dinlərin baxışlarının səhv olduğunu sadə bir eksperimentlə onlara sübut etmək olar. Məsələn, qoy bir ruhani özünü 100 metrdən yerə atsın ki, onun nəzərdə tutduğu xeyirxah allahı onu sağ salamat saxlayacaqdır. Qoy ruhani dua etsin və hər hansı bir ictimai problem həll olunsun. Nəticə mənfi olacaq.

Budur, bir şəxs olmuş gerçək hadisəni danışır (yerli TV 2009, Sentyabr): "bir gün ibadət etdim və dərindən allaha yalvardım ki, kömək etsin; gördüm bir ağ paltarlı insan səsi mənə bütün peyğəmbərlərin adını deyir və təsvir edir, sonra deyir ki, sizi böyük çətinliklər gözləyir, mən yaradanam, mən tanrıyam. Sən kimsən sualına o cavab verdi ki, məni siz bilə bilməzsiniz, bilsəniz gərək bu şəhərin yarısı məhv ola". Bu fakt sübut edir ki, insanlar beyinlərinə hansı fikri yerləşdirmişlərsə xüsusi trans halında - kəskin psixi emosional vəziyyətdə o fikirləri də eşidirlər. Bu səsin mənbəyi həmin insanın 2-ci şəxsiyyəti və ya bir kənar dindar insanın forma - ruhu ola bilər, hansı ki, dindar olduğu üçün həmin məlumatlara malikdir, yəni ancaq o sözləri deyə bilər. Bibliyada belə epizodlar çoxdur, məsələn , səs deyir: "mən tanrıyam, mənə tabe olmasanız cəzalandıracam, məni eşidin". Əgər tanrı hesab edilən səslər 2000 il əvvəl bir cürə fikirləri deyirdisə, indi düşünürəm ki, başqa yeni tipli məsləhətlər verəcəklər, həmin səsin mənbəyi elə eşidənin maddi həyatda özünün yeni eşitdiyi, bildiyi, öyrəndiyi, yaratdığı ideyalar olacaqdır.

Digər bir hadisədə, Unolar haqda verilişdə (11.10.09, yerli Bakı TV- Sehirli Azərbaycan verilişi ) Bir gənc danışır ki, "axşam qəfildən otaqda naməlum bir səs eşitdim, işıqlar söndü, o mənə tez - tez deyirdi: "çıx çölə" mən həyətə çıxdım və üstümə yuxarıdan güclü işıq düşdü, mən özümdən getdim, sonra hiss etdim ki, bərk bir stolun üzərində uzanmışam və sinəm üstündə dəmir alətlə nə isə edirlər. Sonra hiss etdim ki stoldan aralanıram. Ayılanda özümü həyətdə aşkar etdim, uzandığım yer dəhşətli dərəcədə isti idi". Sonra həmin gəncdə xüsusi hesablama qabiliyyəti yaranmışdır. Digər bir qız danışır ki (2010 il), "axşam qonaqlıqdan çıxıb qaranlıqda evimizə gedirdim, qəfildən bir işıq üstümə düşdü, özümdən getdim, ayılandan sonra məlum oldu ki , mən qız qalaraq hamilə olmuşam və sonra vaxt gəldi və bir oğlan doğuldu". Bu hadisəyə oxşar olaraq demək olar ki, Bibliyada Mariyanın qız qalaraq hamilə qalması və İsanı doğmasının bir səbəbi də başqa planetlərdən gələn adamlar ola bilərdi. Nəticədə İsada müxtəlif görücülük, müalicə edən, sözlə təsir edən qabiliyyətlər əmələ gəlmişdi.

Psixiatr levinin fikrincə, görüntülərin özü elə qarabasma olur, insanın öz bildiklərini öz daxili nitqi ona səs formasında deyir ( 11, s. 80-82). Əlavə edərdim ki, hamısı yox, bir çoxu. Olur ki insan özünün əvvəllər bildiyi və unutduğu dili, qabiliyyəti bərpa olunur və ya nəslində kiminsə və ya kənar adamın hansısa dili bilməsi qəfildən onda meydana gəlir. Bunlar öz özünə deyil, müəyyən trans zamanı, beyin zədələndikdə, zərbə aldıqda, şizofreniya və s. xəstəliklərdə, ildırım

vuranda olur. Habelə faktlar vardır ki, belə bir ruhun onunla əlaqəsi zamanı baş verir. Belə insanlar səsləri və ya fikirləri rənglər - mənzərə kimi, iy, dad kimi qəbul edirlər. Bunları psixi hadisələr kimi izah etmək olar. Psixiatrlar kifayət qədər sübutlar verirlər. Bəzən doğrudan da insan görünməz ruhları görür. Bəzən isə bu sadəcə hallyuniyasiyadır.

Qədim filosofların, Heraklitin *Loqos,* Platonin *Forma,* Anaksaqorun və Aristiotelin *Nous*, Leybniçin *Monada* anlayışlarına, görünür, yenidən qayıtmalıyıq. Real faktlar olmasaydı, onlar bu ideyaları haradan söyləyə bilərdilər?

Aristotel hesab edirdi ki, aktiv və passiv nus, yəni şüur, ağıl (mind) iki şüur –ağıldan ibarətdir. Passiv *nus* ayrıla biləndir. O yazır, "əgər Nus əbədi və ölməzdirsə, onda bu Platon və Sokratın *soul*-una (yəni ruha-cana) oxşar olmalıdır, yəni bizim doğulmağımızdan əvvəl o olmalıdır. Lakin bizim şüurumuz heç nəyi yada sala bilmir" (5, s.186-187). Yuxarıda mənim şəxsi verdiyim izahatla bu fikirlər müəyyən dərəcədə uyğun gəlir. Belə ki, dediyim kimi bizim ikinci şüurumuz (şüuraltı adlanan hissə) hansı ki Aristotel passiv şüur adlandırır, göstərdiyim faktlara görə müstəqil, bizim əsas aktiv ağlımızla əlaqəsi və ona tabe olmadan işləyir, müstəqil qərarlar verir; görünməz dünyadan müstəqil məlumat ala və bizdən ayrıla bilər (müşahidələr var). Bu ayrılmanı Aristotel təsdiq edir. Lakin Platonun və Sokratın verdiyi izahatla o, ona görə razılaşmır ki, *bizim şüurumuz keçmişi xatırlamır.* Lakin buna cavab olaraq deyim ki, bu xatırlama yolu sadəcə bağlıdır, keçmişlə (biz doğulmadan əvvəl) indi arasında bizim şüurumuzda - beynimizdə bağlayıcı "qapı" var. Bu qapı açılanda keçmiş çox yaxşı xatırlanır. Buna sübut bir çox şüuru açılmış insanların ekstarasens və cindarların və ya beyni zədələnmiş adamların: xüsusi qabiliyyətlər göstərməsi, telepatik hissiyyat, hansı ki insanın meymun dövründən yaranmışdı, məsələn, əlifba alması, həyatında əvvəllər danışmadığı və bilmədiyi başqa dildə danışması, bilmədiyi dildə yazı yazması və oxuması, öncə görmə və s. hadisələrdir. Hətta deyərdim ki daha əvvəl, canlılarin yaranmasi ilə paralel yaranırdı və genlərlə yeni nəsillərə ötürülmüşdür, və beyinin xüsusi zonasında bu "yatmış" qabiliyyətlər yerləşir. Bunları genlə-keçmişdən gələn yaddaş, yaxud şüur saymaq olar. Digər tərəfdən, hamıya keçmiş ruh daxil olmur-bu nadir hadisələrdir.

**Vacib məsələ.**

Sual vermək istərdim ki, səbəb nədir ki, insan, bütün heyvanlar və həşəratlar kimi ən pis və qəribə hərəkətlər etməyə, ən ağlagəlməz pis

davranış seçməyə, ən pis seksə, acgözlüyə, qarınquluğa, qəddarlığa, daha çox əldə etməyə, paxıllığa, xəyanətə qabildir, yaxud həvəslidir? Onun ağlı axı belə şeylərə yol vermir. Böyük ehtimalla güman etmək olar ki, insanla yaşayan 2-ci şüur, (şəxsiyyət, can, ruh) Buddizmin, Zərdüştün, Platonun dediyi kimi əbədidir və ölmür və bütün canlılarla, bitki, heyvan və s. yaşayır, ardıcıl onlarda yaşayıb keçir və nəhayət, insana gəlir. İnsan öləndən sonra isə ölmür, öz fəaliyyətini davam etdirir, xeyli faktlar bunu göstərir. Ən böyük səbəb isə bunu göstərmək olar ki, bütün canlı həyatın evolyusiya tarixində virus və mikroblardan, tək hüceyrəlilərdən tutumuş həşəratlar, balıqlar, sürünənlər, heyvanlar, nəhayət insana və insanlıq dövrü də daxil olmaqla canlıların bütün qazandıqları xassələr və ya instinktlər ötürülərək sonda insan (elə istənilən heyvanın da)genlərində yerləşir və onun beyninin uyğun sahələrində beyin maddəsi formasında yaşayır. Deməli, bütün göstərilən və deyilməyən çox xassələr elə bioloji genetik əsasa malikdir. Yəni şox yemək, çox əldə etmək,oğurlamaq, öldürmək, qəddarlıq və s. uzun heyvan - insan tarixində qida tapmaq, qorunmaq, yaşamaq uğrunda mübarizədən qalmış xasiyyətlərdir.
Sualın cavabından çox maraqlı məntiqi nəticələr və bizim ictimai quruluşumuza, həyat məqsədlərimizə, idarə məqsədlərimizə şübhələr meydana çıxır. Biz ictimai sistemimizi düz qurmuşuq? İnsanları cinayət və səhv davranışlar üstündə nə qədər tutub həbs etmək lazmdır? Bununla bu məsələ həll olunurmu? Bizə böyük bir polis, məhkəmə, prokuror, istintaq, həbsxana sistemi lazımdırmı? İnsanın təbii bioloji xassələrinə qarşı zorakılıqla, qeyri adekvat mübarizə aparmaq nə qədər ağıla uyğundur. Bu mənasız və Don Kixot kimi yeldəyirmanı ilə döyüşməyə oxşamır ki?
Bu məsələnin prinsipial həlli belə ola bilər ki,:
1. İnsanların təbii xassələri ilə mübarizə (həbslə, cərimə ilə, əzab verməklə) aparılmasın. Məsələn, dəmiri necə dəmir olmaqdan məhrum edə bilərsiniz. Hər şey təbii konstruksiyasına uyğun qalmaq istəyir. İnsanların, bu, hər kəs ola bilər, cəmiyyətə və onun yaratdığı əxlaqa zərərli təbii (bioloji evolyusiya-genetik) xassələri yeni *ictimai təşkil mexanizmi ilə onun şüurunun dərinliyinə, pasiv vəziyyətə keçirilsin-onu ləğv etmək olmaz*. Yəni elə bir şərait yaradılsın ki, hər bir insan hökmən işləsin və insana layiq şəraitdə yaşaya bilsin. Başqa sözlə elə bir ictimai iqtisadi quruluş və fərdi həyatı təmin etmə sistemi yaradılsın ki insanın vəhşi dövründən gələn və cəmiyyətə və özünə zərərli xassələri imkan tapıb oyana bilməsin, unudulsun. Yeni mühit yeni instinktlər, yeni optimal həyat, yeni əxlaq və davranış yaradacaqdır. Bu bütün dövlətlərin birinci vəzifəsi olmalıdır. Hər bir

insanın uçotu aparılmalı, onun normal yaşama şəraiti, işlə təminatı təmin olunmalıdır. Bu halda insanda mənfi meyllər passiv olacaq və o bu haqda düşünməyəcək.
2. Mənfi hərəkətlər edənlər- narkotik, oğurluq və s. - polis, məhkəmə olmadan dövlət tərəfindən yeni tərbiyə prosesinə cəlb edilməli və işi yoxsa təlim verilməsi və işlə təmin olunmalıdır.
3. İnsan problemlərinin həlli üzrə məsləhət xidməti yaratmaqla məcburi olaraq insanlara lazımı peşə, ixtisas, karyera, ailə, qanunlar, həyat haqda futuroloji, psixoloji məsləhətlər verilməlidir, düzgün yola salınmalıdır.
4. İctimai sistemdə diktatorluq şəraiti ləğv edilməli və xalis kollektiv idarə tətbiq olunmalıdır.
5. Yer kürəsində yaxşılığı və düzgün həyat tərzini işə salmaq üçün şüurları, mədəniyyəti, adətləri, düşüncə, qidalanma, yaşamanı ağıllı etmək üçün böyük təmizləyici, yeniləşdirici proqram yaradılmalı və onunla güman edilən keçmiş həyatdan və ya nəsilin öz keçmişindən gələcəyə ötürülən pis davranışlardan xilas olmaq lazımdır. Yəni həyat prosesinə filtr qoymaq, onu təmizləmək, yeniləşdirici, canlandırıcı vasitələrlə sağlamlaşdırmaq lazımdır.
6. Bunu yəqin ki daha sərfəli metodla genetik mühəndisliklə etmək olar. Sonra, genləri çıxarılmış eqoizm, vəzifəpərəstlik, millətçilik, aldatmaq, müharibə etmək, qatillik və s. davranışlar olmayacaq. Bəs əvəzində nə olmalıdır? Yenidən kompleks dayanıqlı ictimai sistem, insan xasiyyətləri kompleksi konstruksiya etmək zərurəti yaranacaqdır. Belə bir ideyanı Buddizm də verir, o insan şüurunun təmizlənməsi və kamilləşməsi üçün 7 yol təklif edir. Sufi nəzəriyyəsi də 7 mərhələ ilə insanın kamilləşməsi proqramını təklif edir ki, nəticədə insan sufilərin **haqq - həqiqət** adlandırdıqları allaha qovuşur, onu dərk edir - xoşbəxtlyə çatır. İkinci fərziyyəyə görə insan mineral, bitki və heyvanlar tarixinin növbəti mərhələsi olduğu üçün həmin dövrlərdə öyrəndiyi bütün yaşama üsulları, qabiliyyətlərini o dövrdə əldə etdiyi genlərlə gəlmişdir.

İndiydək filosoflar çox mənasız mübahisələr etmişlər. Materiya birincidir, yoxsa şüur, ideya, yaxud ruh? Bu mübahisələrə son qoymağın vaxtı çatmışdır. Burada daimi birinci yaxud ikinci yoxdur, bu ancaq nə vaxt gerçəkliyə - kainata və onun hansı yerinə baxmaqdan asılıdır. Platonun formaları, onun dediyi kimi materiyadan asılı olmadan, əvvəldən , öz - özünə mövcud deyil. Mənim fikrimcə, onlar məhz cisimlər və canlı varlıqlar yarananda, eyni zamanda yaranır, lakin yox olmur, müstəqil qalır. Bütün kainatın konkret obyektinin həyat siklindən sonra da güman ki qalır və yeni sikldə artıq yeni

yaranış meydana çıxmazdan əvvəl olmuş olur. Nə qədər müddətə? Bunu araşdırmaq lazımdır. Deməк, sonrakı nəsillərdə artıq yeni insan doğulduqda əvvəlki insanların surətləri də mövcud olur. Lakin surət formaların hər hansı bir materiya - insan ilə birləşməsi vasitəsilə bir şeyin yaranması müşahidə olmamışdır. Bunu eksperimentlə də yoxlamaq lazımdır. Bəs bu surətlərin rolu nədir? Nə üçün bəzən insanın gözünə tüklü quyruqlu meymuna və insana oxşar ayaq üstə gəzən bir az uzun qollu bədheybətlər görünür? Cavab : Bunlar məhz ilk yarım insanlardır ki, onların kopiyaları hələ qalır. Onlar hətta danışa da bilirlər. Bunun da səbəbi odur ki, bu formalar hansı yol iləsə (görünür onlar şüur, ağıl, emosiya kompleksi olduğu üçün indiki dili də kontaktda olduqları adamın şüuru ilə birləşərək qəbul edirlər) müasir danışıq dilinə malik olurlar. (Bu hadisəni öz başına gəlmiş adam söhbət etmişdir). Dini təlimlər bu bədheybətləri şeytan adlandırır. Lakin onlar şeytan deyildir- şeytan dinin uydurduğu personajdır; din habelə ölüm ayağında olan insana yaxınlaşmış forma - ruhu insanı öldürən əzrayıl adlandırır ki, bu da doğru deyil, onlar belə psixikası zəifləmiş və İİ şüuru (alt şüuru) akrivləşmiş insana onu öldürmək üçün deyil, onu görünməz dünyaya müşaiyət etmək üçün gəlirlər. Başqa sözlə onlar zəif enejili yaxud dayanıqsız, özləri kimi formalarla tez kontkta girirlər. Öldükdən sonra insanın 2-ci şüurunun başına nə gəlirsə, bu hələ ölməmiş insan üçün əsla əhəmiyyətli deyildir. Öləndən sonra ayrılan ruh heç bir maddi nemətə, ləzzətə malik deyil ki, onu itirsin. Belə bir ruh yalnız özündə qazandığı bilikləri, emosiyaları, yaddaşı (güman ki, müəyən bioloji, elektromaqnit, kvant sahəsi və ya bizə naməlum olmayan daşıyıcıda) daşıyır. İnsan ruhunun rahat davamiyyəti üçün lazımdır ki, insan öləndə psixikası rahatlansın, hamını bağışlasın, hamıdan razılıq alsın, borclarını ödəsin, incitdiklkərindən üzr istəsin, qorxmasın, ölüm anını sakit, təbii qarşılasın . Ona görə də teist dinlərinin ölümdən sonrakı həyata daha çox sitayiş etməklə hazırlaşmaq, cənnət, cəhənnəm anlayışları xalis uydurmadır, lakin insanın psixikasının rahatlanması üçün **ixtira** edilmişdir. Lakin bunu onlar ixtira etməmişlər. İnsan doğulanda onda öz aktiv və passiv şüuru – ağlı (İ və İİ şəxsiyyəti) formalaşır. Lakin bəzən keçmişdən gələn həm insani, həm heyvani forma –şüurlar və ya ruhlar insana daxil ola bilir ya onu ağıllı, xüsusi qabiliyyətli edir, ya dəli, xəstə. Bu məsələlər dərindən öyrənilməli , yeni elm sahəsi yaradılmalıdır və spiritual müalicə tədbirləri hazırlanmalıdır. İsa Xristosun etdiyi kimi bu zərərli ruhları insandan çıxarmaq lazımdır, onlar çıxmasa insan xəstəlikdən müalicə oluna

bilməz. Insanlara belə xəyali varlıqlarla lazımı davranış təlimi aparılmalıdır.

Deməliyəm ki, dünyanın 2-ci surəti haqda təklif eytdiyim nəzəriyyə absolyut olaraq dinlərin dediyi cənnət, cəhənnəmin və öləndən sonra məhkəmənin mümkünlüyünü tamamilə rədd edir və onları uydurma sayır, belə ki bunlar insanı qorxutmaq və ümid verməklə idarə etmək üçün uydurulmuşdur.

Dünyanın və şeylərin yaranışı və dəyişiliklərinin mənim təklif etdiyim **tetraedr hüceyrəsi** nəzəriyyəsi (bax hissə İ) hansı ki 4 elementli hüceyrəni təklif edir, dünyanı ehtimal ki, düz izah edir. Hətta daha böyük elementli və tetraedrlərdən düzəldilmiş müxtəlif formalı kompleks yaratmaq olar, lakin sadəlik prinsipi bu elementlərin bir hüceyrədə sayının maksimum 4 olmasını məqsədəuyğun sayır. Qeyd etmək istərdim ki, xristian trinitry - üçlük tanrısını onların izah etdiyi - **ata , oğul və ruh** kimi deyil, daha ağıllı izah etmək lazımdır. İlkin 2-ci əsrdə verilmiş bu izahatda, şübhəsiz, daha keçmiş anlayışlardan istifadə edilmişdir - o dövrdə allahın oğlu və qızı, arvadı da olması təsəvvür edilmişdir. Bu 3-lüyə yeni izahat təklif edirəm. Burada **Ata** - bütün olmuş keçmiş dünya ; **oğul** – indiki zaman, mövcud olan andakı dünya gerçəkliyi və **müqəddəs ruhu -** görünməz dünya məlumat bazası, qaydalar, xassələr (mühit) kimi izah etmək daha ağlabatandır ki, onların fəaliyyəti- yaradıcılıq məhsulu **varlıqlar və hadisələr** hesab edilə bilər.

Fövqaladə qüvvələrə inam çox asanlıqla savadsız, qoca və zəif psixikalı insanlarn şüurunu fəth edir, çünki insanda qorxu hissi var. Bu momentdən istifadə edərək teist dinlər özləri istədikləri kimi özlərinə faydalı tanrı konstruksiya edir və insanları ona inandırmağa çalışır və həqiqətin tapılmasına yol vermirlər. (Əslində tanrı burada təsvir etdiyim kimi başqa xarakterə malikdir). Həm də təbliq edirlər – “inanmasanız siz kafirsiniz” və lənətləyirlər, ölümə layiq elan edirlər. Bu momentdə onların əsil eqoist məqsədləri üzə çıxır. Onların nəyinə lazımdır ki, belə güc və cəhdlə hamını inandırmaq istəyirlər? Onlara nə dəxli var? Əlbəttə yalnız şəxsi maddi maraq mənafesi onların acgöz və nadan xarakterini aşkar edir.

Təsəvvür edin ki, Universitet professoru yuxuda görür ki, o ölmüşdür və onu dar bir yerlə aparırlar, mühakimə edirlər, cənnət və cəhənnəm yazılmış qapıya çatırlar. Ayılanda anlamadan elan edir ki, bəli allah var və cənnət, cəhənəm də var. Lakin o bu yuxuya düzgün izah almağa çalışmır, qorxu hissi ona güc gəlir və o tabe olur. İzah budur ki, hər bir hiss, emosiya beyində konkret atom molekulların, neyronların xüsusi kombinasiyasını -əlaqə bağlarını əks etdirir və

material obrazlarla əlaqədardır. Beyində insan öldüyünü yuxuda görürsə, məhz ölümlə əlaqədar eşitdiyi obrazlar maddi aləm, proses avtomaik canlanır, çünki orada belə məlumat və ya ayrıca fraqmentlər əvvəldən insanın adi həyatda eşitdiyinə görə var və onlar beyin tərəfindən avtomatik montaj edilir, məntiqi formaya salınır. Belə yuxular bəzən gələcək haqda siqnal olur, çünki bizim müstəqil 2-ci şürumuz avtomatik rejimdə ümumi dünyadan (dəyişilk prosesindən) məlumat alır və yuxunu da oxşar görür. Belə oxşar yuxunu, cəhənnəmin məftillə əhatə edilmiş zonasının İranlı dini paltarı geymiş və motosikletdə gəzən qadınlar tərəfindən qorunan qapısını mən də yuxuda kənardan görmüşəm, və sabahı avtomobil qəzasına düşmüşəm. Əgər mən yaxşı şeylər panorama - obraz görsəydim bu halda xoş hadisə olacaqdı.

İndiyədək qeyri xristianlar İsanın allahın oğlu olması məsələsini anlaya və qəbul edə bilmirlər. Onlar deyir: ”allah necə oğul yarada bilər”? Şübhəsiz, biz dəqiq bilmirik, bu ifadəni İsa özü demişdir, yoxsa onun apostolları yazmışlar. Lakin allah anlayışında allahın bütün dünya (material cisimlər və hissəciklər, sahələr və onların əlaqələri) olduğunu qəbul etsək asanlıqla İsanın da bu dünyanın yaratdığı məhsul olduğunu qəbul edə bilərik. (Biz olanlardan, hansı ki mühitin hissəsidir və mühitin iştirakı ilə yaranırıq. Mühit allahdır). Yəni onu da, özümüzü də allahın oğlu saya bilərik. Bu səhv deyil. O əgər demişsə “mən və allah birəm” tamamilə düzgündür, yəni hər bir cisim və canlı varlıq allahla eynidir, onun tərkib hissəsidir. Sufi dərvişləri də “Mən allaham” deməsi müəyyən qədər məntiqidir. Lakin insan və digər hər bir varlıq müəyyən hədlərdə, zaman və yerdə allahın qurmaq, yaratmaq, idarə etmək funksiyasını icra edir. Bu allah daim bizi əhatə edən mühit kimi özünü göstərir.Və hər bir tək, yəni hər birimiz, hər canlı və cansız varlıq bu mühitlə əlaqələr vasitəsilə yaşayırıq. Yəni daim bu allahla əlaqədə oluruq, o isə imkanlar və məhdudiyyətlərə malikdir. Bütün hərəkətlərimiz (yaxşı və ya pis) demək, onun razılığı ilə olur. Mükafatı da, cəzanı da məhz bu mühitdən – tanrıdan elə bu dünyada alırıq. Daha o dünyada bizi diriltməyə, mükafatlandırmağa və cəza verməyə ehtiyac yoxdur. (Məgər biz dirilmək istəyirik? Bu mümkün olsaydı, bu nə qədər bizim üçün əzablı və darıxdırıcı olardı) Çünki orada maddi şeylər yoxdur, ona görə onların verməli olduğu ləzzət və əzab hissləri də ola bilməz. Yəni cənnət və cəhənnəm, diriltmə, məhkəmə anlayışları tam uydurmadır.

Azərbaycanda bir fenomen adam vardır –Zirəddin. O deyir ki, daha çox ölülər aləmində olur, ruhları görür. Bunu xüsusi özünü trans

(gipnoz, relaksasiya) halına salandan sonra edir. Bu zaman insanın keçmişi və gələcəyi real həyat obrazları, nişanları, şəkilləri kimi onun beynində canlanır. O bəzən və çox zaman səslər eşidir-bu səslər onun bilmək istədiyi məsələni deyirlər, bu səslərin dediyi hökmən düz çıxır, bunların verdiyi məlumata şübhə ola bilməz. Bu adama hər gecə bir hərf aşkar olaraq o bir naməlum dilin əlifbasını almışdır. Bu əlifba ilə o istənilən cümlələri yazır və sonra oxuya bilir. Bu faktlar yerli TV – də 2009-cu ildə aşkar göstərilmişdir.

Nə üçün əsasən peyğəmbərlər tanri ilə danişirdilar? Ona görə ki onlar əsasən çobanlar idilər və sərbəst, boş vaxtlarda meditasiya edirdilər, sərbəst düşünürdülər, onların xəyala dalması üçün imkanları çox olurdu, bürclərin də rolu var idi. Bu zaman onları qarabasma, halluniyasiyalar və real ruhlar əhatə edirdi, habelə 3-cü (surətlər) dünyadan məlumat ala bilirdilər. Digər tərəfdən, onların beyin quruluşu xüsusi – daha uyğun - idi. Baxmayaraq ki onlardan ikisi guya demişdir ki, "mən axırıncıyam" - bu tam uydurmadır, ağlı olan və vicdanlı adam belə söz deməz. Belə qabiliyyətli adamlar yenə də olur və daim olacaqdır. Məsələn, aşağı psixi vəziyyətdə olan insana da çox görüntülər görsənir, lakin ciddi və gərgin işləyən alimə görüntülər olmur, ona görə ki, alim bir an da sakit qalmır, psixikası isə işlədikcə daha möhkəm inamlı olur. Onda intuisiya güclü olur.

Budur (2008-ci il), cavan oğlan ölmüşdür, lakin bir müddətdən sonra onun surəti işıq formasında həmişə oturduğu hasarın üstündə görünür, bu hadisəni əlində telefon olan qardaşı çəkir, diqqəti çəkdiyini görüncə, o havada göyə yüksəlir və əriyib yox olur. Hadisə sonrakı günlərdə bir neçə dəfə təkrar olur.

Psixiatriyanın təcrübələrini və müşahidələrini araşdırsaq biz asanlıqla çox şeyin mənasını aşkar edərik. Burada bir məsələ vardır ki, **qarabasma ilə real görüntüləri fərqləndirmək çətindir, onlar oxşardır**. Mən deyərdim ki, psixi xəstə hesab etdiyimiz insanları heç də xəstə saymaq düz deyildir. Bu hadisədə belə bir proses baş verir. Onlarda şüuraltı deyilən ikinci şəxsiyyəti müəyyən zədələr, psixi gərginliklər təsirilə, habelə öz –özünə güclənir, aktivləşir; adi şüuru-birinci şəxsiyyəti isə arxa plana keçir. Ona görə də onlar müxtəlif görüntülər, ölmüş adamları görür, səslər eşidir, özlərini iki görürlər. Normal 1-ci şüur, yəni material dünyanın dərk edilməsilə yaranan bizim adətən işlətdiyimiz şüur görünməz dünyanı görə, eşidə, anlaya bilmir. İntuisiyanı yalnız bizim 2-ci şüurumuz ala bilir. Onun işləməsi üçün bizə meditasiya, dərin sakitlik, trans vəziyyətinə düşmək lazımdır. Yəni biz avtomobildə olduğu kimi "şüurlar qutusunda" birinci və ikinci şüura nə vaxt keçməyi öyrənməliyik.

Tanışım Ələkbər hansı ki tanrı nədir sualını müstəqil araşdırır və islama sitayiş edir, deyir ki: “mən 7 dəfə klinik ölüm keçirmişəm. Bir gün ibadət vaxtı bir ağ paltarlı qoca kişi göründü və mənim günahlarımı saydı, sonra dedi ki, sənin qiblən buradır və həmişə ibadət elə”. Bu hadisəyə belə izahat verərdim ki, Ələkbər daim dindar olduğu üçün və 2-ci şüuru-təhtəlşüuru güclü olduğu üçün-o tez -tez görüntülər görür- bu hadisədə onun öz 2-ci şüuru ondan ayrılmış və ona onun bildiyi günahlarını saymışdır və ibadət etməyi məsləhət görmüşdür- hansı ki ibadət Ələkbərin adi məşğuliyyəti və inandığı ritualdır. Yəni bu Ələkbərin düşüncə tərzi və dini biliklərilə əlaqədardır. Onun 2-ci şüuru da məhz bu xassəyə malikdir. Ələkbər dindar deyil, elm adamı olsaydı, bu *forma – ruh* ona elmdən danışacaqdı. Digər izahat budur ki, bu ruhun qoca və ağ paltarlı olması onu göstərir ki, bu başqa adamın güman ki (həmin nəsildən) ruhudur ki, özünə oxşar, yaxın (fikircə, əxlaqca, genetikcə, qanca) adamı – Ələkbəri taparaq ona məsləhət vermək istəmişdir. Məsləhət verən insan da bilirik ki, özünə xoş, düz hesab etdiyi, özünün etdiyi davranışı məsləhət görər. İnsanı, hesab etmək olar ki, öz nəsil, qohum ruhları, şəxsi, habelə ümumi xeyirxah ruhlar himayə edir. Çoxlu faktlar vardır ki, məsələn, müxtəlif işıqlı, siluet formasında, yaxud real paltarlı insan formasında gözə görsənən, yuxuya girən ruhlar və ya oxşar varlıqlar insanlara müxtəlif göstərişlər verir: biri onun neçə il yaşayacağını deyir, biri gedib özünü öldürməyi tələb edir və məcbur edir, biri islama, biri xristianlığa, biri krişnaya sitayiş etməyi məsləhət görür, biri insanı düz yola çəkir, digəri əyri yola çəkir. Insanlar və onların ruhları da müxtəlif olduğu üçün onlar da müxtəlif xarakter və məqsədlidir. Bu da bir daha sübut edir ki, onlar allah və ya allahın mələkləri deyil, olsaydı onda hamısı hamı üçün ictimai əxlaqa əməl etməklə xeyirxah olardı.

Görünməz dünyanın sakinləri olan ruhlar hər şey barədə məlumatlıdırlar, yeni xəbərlər alır, görür, eşidir, xəbərdarlıq edir, məsləhət verir və s. Nə üçün, niyə? Bu suala cavab vermək çox vacibdir. Düşünürəm ki, material dünyada şüur dünyanı və bütün həyatı boyu gördüklərini dərk edərək, nəhayət, bədənsiz formada görünməz dünyaya düşür. Burada bütün tarix boyu toplanmış təcrübə, bilik müəyyən formada, daşıyıcıda (hansı ki bizə hamısı məlum deyil) yerləşir ki, bizdən ayrılmış 2 –ci şəxsiyyət, yaxud ruh asanlıqla həmin sahəyə daxil olur və ya onunla əlaqədə olur və ya onun tərkib hissəsi olur. Bu səbəbə görə onlar gələcəyi də dəqiq deyirlər. O dünya zəkası və ya ağlı adlanan sahədə ümumi prinsiplər, olma, dəyişmə qanunları məlumdur və məhz oradan baxan bir “şəxs” yerdə nə olacağını, hansı hadisə baş verə biləcəyini görə bilir və öz yaxınına və ya onun üçün

maraqlı olana xəbər verir. Burada teist dini ruhanilərinin adlandırdığı qeyri - müəyyən və hətta şəxsiyyətə malik allah yoxdur. Məhz məlum, **müəyyən** allah vardır. Lakin onun heç bir fövqaladə qüvvəsi, öz istəməsilə istənilən hərəkəti etmək qabiliyyəti yoxdur. Onun adını abstrakt mistik mənada qəbul edilən *allah* qoymaq olmaz. Bu sferanı *dünya ağlı* (antik yunan, hindistan, çin ifadələri), *göylər* ( çinlilərin ifadəsilə), *məlumat - mahiyyət sahəsi* ( yeni ifadələrlə) adlandırmaq daha düzgündür. Allah üzərində qurulmuş islam, yəhudi, xristian dinləri absolyut olaraq onun nə olduğunu və mahiyyətini başa düşmür və cəmiyyəti aldatmaqla məşğuldur. Ona şəxsiyyət, insani keyfiyyətlər yazaraq ondan sui - istifadə edir. Ruhanilər insanların gözünə görünən xəyalları, və ya ruhları yuxuda görülən qara, yaxud ağ paltarlı insana bənzər varlıqları, bitki və heyvanların insana münasibətdə müəyyən mehriban davranış əlamətlərini, qeybdən gələn səsləri allahın mələkləri hesab edir, məsləhətləri və s. hadisələri allahın əməli hesab edir. Lakin gerçəklikdə belə deyildir. Onların üzərində mələk sözü və ya allahın nümayəndəsi yarlığı sözü yoxdur. Onları allahın nümayəndəsi saymaq olmaz, buna heç bir sübut yoxdur. Bu məsələnin çox sadə izahı vardır. Yuxarıda qeyd etdiyim kimi həmin məlumat - bilik sferasında insan ruhları yerləşir ki, çox asan məlumat mübadiləsi edir, bunu onlar səslə, sözlə deyil, aura və rənglə, məlumat kodu ilə edirlər və yerdə beyni uyğun qurulmuş adama yaxınlaşaraq, görünür, məsləhət, xəbər verirlər. Onlar aydın bilirlər ki, yerdə kim neçə il yaşayacaq, nədən, harada öləcək və istənilən onlara maraqlı məlumatı onlar bilirlər. Oradan hər şey və onun dəyişmə istiqaməti də aydın görsənir. Belə məntiqlə biz yenidən buddizmin, hinduizmin, zərdüştlüyün, Türk və Çin mədəniyyətinin, sufizmin yaratdığı biliklərə qayıdırıq. Son qəti hökm verməyərək deyərdim ki, biz dünyanı dərk etmək üçün hökmən buddizmdən, zərdüştlükdən və digər antik biliklərdən başlamalıyıq. Onlar faktlar əsasında deyilmişdi. Bu mənada ehtimal ki, bütün canlıların (bitkilərin, heyvanların) ruhunun- ayrılan elektromaqnit və ya digər adlı sahəsi olduğunu və təkrar reallaşa bilməsini, bir- birinə keçməsini, əlaqələrini , simpatiya və antipatiyasını qəbul etməliyik. Bu paraqrafdan belə nəticə çıxır ki, Allah adlı varlıq hesab edilən obyekt heç də kimisə seçmir, onu peyğəmbər, yaxud allah oğlu etmir, onun qayğısını çəkmir, yalnız müəyyən ruhlar öz oxşarına, yaxınına yaxınlaşır və qayğısını çəkir. Səhvən Allah adlandırılan həmin obyekti insan özü dərk etməli və hiss etməlidir, onda o ondan intuisiya ilə biliklər, ideyalar alacaqdır, peyğəmbərə çevriləcəkdir, gələcəkdən xəbər verəcəkdir. İnsan özü də məhz həmin obyektin bir hissəsidir və onunla əlaqə (hiss etmə və anlama) orqanlarına - 5 duyğu üzvünə,

psixi his etmə-məlumatı naməlum hisslə alma qabiliyyətinə və beyinə, astral- mental cildə malikdir. Gələcəkdən xəbər almağın bir üsulu da ruhlar vasitəsilə olur ki, daim müəyyən ruh öz oxşarı-yaxını ilə kontakta girərək ona soruşulan cavabları verir. Mənim bütün fikirlərim yalnız faktlara əsaslanır.

Bir rəvayətdə Bibliya deyir ki, İakov naməlum bir varlıqla - allahla qarşılaşır və onunla xeyli güləşir, bu zaman onun belində hansısa damarı dartılır-zədələnir və sonda İakov bu varlığa qalib gəlir, onun üstünə çıxıb bərk tutub saxlayır, ondan zorla xeyir dua alır və həmin varlıq İakova İsrail adı verir, bundan sonra İakov həmin varlığı azadlığa buraxır (7, 32, 24-32 bibliya),. Yəhudilər buna görə heyvan əti bişirəndə həmin damarı yemirlər. Bu hadisəyə də müxtəlif izahlar vardır. Bir qisim insanlar onu allah hesab edir, digərləri isə allah deyil, onun mələyi hesab edir. Yeri gəlmişkən deyim ki, bizim evdə də 1998- ci ildə qonaq kişi bir gecə bərk xırıldayırdı, səhər durub dedi ki, "niyə köməyə gəlmirdiniz, burada bir ağ paltarlı adam məni boğmaq istəyirdi, onunla xeyli güləşdim, nəhayət gücümü toplayıb onu üstümdən kənara atdım, o çəkilib divarın güncünə girdi". Bu hadisədə bu varlıq heç bir sözlə danışmamışdır. Elə bu əsasa görə də demək olar ki, İakovla da o varlıq danışmamışdır. Lakin kitabı yazan ravvin güman ki, müxtəlif hadisələri montaj etmişdir - onun müəyyən sözlər deməsini özündən (başqa hadisədən) yazmışdır. Əslində belə bir faktda gözə paltarlı insan deyil, insan siluetinə oxşar ağ işıqlı bir forma görsənir. Lakin müxtəlif digər təbii paltar və görünüş formasında olan başqa bir varlığın danışması hadisəsi çox müşahidə edilmişdir və indi də edilir. Gördüyümüz kimi keçmişdə olan hadisələr indi də təkrar olur, hansı ki mistifikasiya etməyə ehtiyac yoxdur. Bu hadisədə də bir acıqlı ruh və ya digər bir naməlum oxşar varlıq qonağa zərər vermək istəyirmiş. Nə İakovun başına gələn hadisədə, nə bu müasir hadisədə hücum edən allah və ya mələk deyildi. Və heç vaxt olmamışdır. Hələ bizə allah, mələk, cin, şeytanın dəqiq elmi anlayışlarını müəyyən etmək lazımdır, hansı ki indiyədək bizə sırınan belə dini anlayışların hamısını hələ ki, uydurma, səhv, qeyri - dəqiq və fərziyyə hesab etmək lazımdır.

Göstərilən və digər misallarda müəyyən edilir ki, insanın psixi zəifliyi halında onun qəlbinə pis, acıqlı,yaxud xeyirxah insan, heyvan ruhlarının daxil olması baş verir. Bu fakt habelə göstərir ki, ruh indiyədək düşünülən şüurun özü deyil, məlumat, fikir xarakterlidir. İnsanlar daim yüksək psixi formada olmalıdır ki, onlara zərərli insan və heyvan ruhları daxil olmasın - bu olduqda onlar xəstələnə bilər və müalicəsi mümkün olmaya bilər. Bu halda lazımdır ki, həkim və

dərmandan əvvəl xüsusi spiritoloq bu ruhu çıxartmaq məsələsini həll etsin.

### *Əvvəldən müəyyən edilmə - determinizm, yaxud azadlıq?*

Nəyə görə İsa asılacağını bildiyi halda, habelə Sokrat edam ediləcəyini bildiyi halda qaçmadı, halbuki qaçmaq üçün imkanlar var idi? Mistifikasiyanı kənara qoysaq, bu suala cavabı irəli sürülən material, keçid və görünməz dünya nəzəriyyəsi verir. Hadisələr material və keçid dünyalarında tam fiziki (cisimlər üçün ); bioloji və fiziki (canlılar üçün); psixi, ruhi, fiziki və bioloji (insan və yüksək evolyusiya etmiş heyvanlar üçün) oxşar və eyni prinsiplərlə baş verir. Bütün baş verəcək hadisələr, yaranışlar *görünməz surətlər, xəyallar dünyasında* əvvəldən əks olunur. Deməк, insan və bəzi heyvanlar gələcəyi bu surətlər dünyasından əvvəldən məlumat almaqla bilə bilərlər. İsa da, Sokrat da görünməz dünya ilə məlumat alma prosesində idi və oradan onlara məlum oldu ki, bu qətl baş verməlidir. Bizim gündəlik həyatımızda da belə oxşar hadisələr baş verir. Bəzən biz etdiyimiz hərəkətin məntiqə və maraqlarımıza uyğun olmadığını bilərək biz o hərəkəti edirk. Niyə? Ona görə ki, bizim təhtəlşüurumuz (İİ şəxsiyyətimiz) görünməz dünyadan məlumat alır və bizim belə hərəkətimizi müdafiə edir (“bunu et” deyir), biz öz əlimizlə bilə - bilə səhvi edirik. Burada “şeytan”, “cin” səbəbləri yoxdur. Gəlin özümüzün könüllü etdiyimizi onların boynuna qoymayaq. Bəzən təhtəlşüurumuzun göstərdiyi işi etməyə aktiv ağlımız icazə vermir, biz reallıqdan, keçmiş düşüncə, adətdən qurtara bilmirik və nəticədə xeyli böyük səhv edirik. Açılan şansdan istifadə etmirik. Bizdən hərəkət tələb edildiyi vaxt ğözümüz bağlanır, dilimiz tutulur, qərar verə bilmirik. Bu hadisəni necə izah edək? Beləliklə insanlarda belə sual yaranır: biz özümüzü idarə edirik, yoxsa bizi idarə edirlər? Bəzən bizim ağlımız bizə mane olur, bizə uğursuzluq gətirir, bəzən İİ şüurumuz bizə xoşbəxtlik gətirir. Lakin biz heç vaxt bilmirik hansına qulaq asaq. Bir tərəfi dinlədikdə, o biri tərəf müqavimət göstərir. Bundan başqa psixiatriyanın müəyən etdiyinə görə beynimizdə real həyatın surəti kimi sanki bir birinə əks : zidd fikirləri, hissləri, əks davranışları qızışdıran və idarə edən ayrıca bölmələr formalaşmışdır, məsələn: “cənnət”- “cəhənnəm” bölmələri ( 11 ). Bu mərkəzlər sanki bizim davranışlarımızı müəyyən proporsiyada idarə edir, yaxşılıq ediriksə, sonra hökmən pislik edirik, əhvalımız çox yaxşıdırsa sonra onu kompensasiya edən pis əhval olur və s. Bundan başqa bizim davranışlarımız son nəticədə iki qərar sisteminin a) İİ şüurumuzun və

b) operativ ağlımızın müəyyən proporsional balansında verdiyi qərarın nəticəsidir. Düşünürəm ki, dünyadakı bütün bu əzablar, aclıq, aqressiyalar, hegemonizm, təbii fəlakətlər səbəbsiz deyildir - onların yerdəki aktiv ağlımızla aşkar etdiyimiz səbəblərindən başqa digər – bütün dünya hadisələr axınının ümumi tələbləri də vardır ki, bunlar hamısı zərurətlə olur. Hansı ki dediyim kimi əvvəl görünməz surətlər dünyasında aşkar olunur. Sonra material dünyada gözlənilən hadisələr başlayır. Bu heç də demək deyildir ki, görünməz dünya bizi idarə edir. Bu məsələdə insanlar iki baxışa ayrılır: idealizmə və materializmə . Lakin bu iki anlayış ikisi də bir bütöv prosesin hissələridir. İnsanların bu məsələdə düşmənçiliyinə əsas yoxdur. Görünür ki, material dünya və surətlər dünyası bir birilə bağlı, əlaqəli dünyalardır. Hansının hansını idarə etməsi sualına isə cavab vermək hələ çətindir, hətta belə sual yersizir. Bu məntiqdən belə nəticə çıxır ki, dünyanın ən böyük problemlərini həll etmək üçün onun ümumi axınının əks olunduğu biliklərə daxil olmaq və onlardan istifadə edib ümumi axını düzəltməliyik. Yəni xırda məsələləri həll etməyə çalışmaqla bəşəri dünya düzəlməyəcək. Hadisələrin qlobal axınına təsir etmək, onu yönəltmək lazımdır. Sufilər: Mənsur Həllac, Nəsimi, Nəimi düz deyirdi ki, insan allahdır, yəni yaradıcıdır, ağıllıdır. Bu gün isə daha düz olardı ki, deyək "***insanlar birliyi, kollektivi onun özünün yerləşdyi mühiti və özü üçün allahdır***", məhz o ümumi ağılla allahın funksiyasını yerdə daha yaxşı effektiv icra edə bilər, yəni allah kimi fəaliyyət göstərə bilər, ümumi bəşər inkişafını yönəldə bilər, ağılla cəmiyyət sistemini və idarəsini qura bilər, nəinki təbii allah (təbiət) bunu uzun dövrdə və böyük qurbanlar bahasına edir. Hər insan, hər xalq, hər cəmiyyət təkcə özünü güdsə, öz kaprizlərini icra etsə, "nə olar, olar" deyib hərəkət etsə, bəşəriyyət xoşbəxtliyə çıxmaq üçün çox uzun yol gedəcəkdir, böyük əzablardan, qırğınlardan sonra o nəhayət, daha yaxşı istədiyi vəziyyətə gəlib çıxacaqdır, lakin yenə də narazı qalacaqdır. Lakin insan cəmiyyəti bu prosesi ağılla, planla özü allahın əvəzinə idarə etsə, bu vəziyyəti daha tez əldə edə bilər. Lakin zəruri mümkün hamı üçün optimal rasional vəziyyət hədlərinin kafi olduğunu onlara başa salmaq, inandırmaq lazım olacaqdır ki, onlar kifayətlənsinlər. Əks təqdirdə kimsə, hansı siniflərsə yenə də artıq olmaqa, daha çox əldə etməyə çalışsalar, bəşəri dünya yenə də pozulacaqdır, ədalətsizlik, konfliktlər, müharibələr adi iş olacaqdır. Sovet Sosializm sistemi çox yaxşı təcrübə idi, onu öyrənmək və faydalı nəticələr çıxartmaq lazımdır. Futuroloq Ruben Nelson, Foresight Canada institutunun icraçı direktoru öz elekron məktubunda yazır (May 2010): "Bizim sivilizasiyanı idarə edən sinif və idarə

olunanların hər hansı bir ciddi və vacib ideyaya malik olmaqları haqda mən heç bir ciddi sübut görmürəm. Belə ki, bir sivilizasiya kimi biz bizə varis qalan ağıl xəritəsilə naməlum bir ölkəyə düşmüşük. Biz daha bilmirik nə etmək lazımdır. Öz yerimizi və gələcəyimizi tarixdə düzgün adekvat qiymətləndirə bilməməyimiz bizim özümüzü şəxsən qiymətləndirə bilməməyimizin digər bir sübutudur”. Ruben bəşəriyyətin sosializmdən imtina edərək kapitalizmə düşəndən sonra onun gəldiyi ümumi fikrini tamamilə düzgün ifadə edir. Doğrudan da insanlar tipik və ənənəvi davranışlardan yorulmuşlar, hansı ki, nə və necə baş verir, nə ilə qurtaracaqdır - suallarının cavabını əsasən bilirlər. Bütün siyasi manipulyasiyaların, hiylələrin, dominanlıq və istismarın, aqressiyanın, yalanların, yalançı demokratiya, seçki oyunlarının mexanizmini, məhəllə, qapı qonşuların, qonşu dövlətlərin maskalanmış hərəkələrinin əsil səbəbini hər insan, xalq artıq yaxşı bilir. Onlar yeni daha maraqlı və ağıllı həyat arzu edirlər; yeni baxışlar, fikirlər eşitməyi istəyirlər. Kapitalizm də xilas yolu deyildir, bəşəriyyət yeni xilas yolu axtarmalıdır. Belə bir xilas yolunu mən 4-cü hissədə təklif edirəm ki, bu yeni rasional cəmiyyət sistemidir.

Hər iki görünməz və material hesab etdiyimiz dünya anlayışından insan öz həyatında necə istifadə edə bilər? Düşünürəm ki, hər iki reallığı düzgün anlamaq və ikisinə də əsaslanıb həyatda, işdə, elmdə və s. fəaliyyətdə qərarlarımızı verməliyik. Daim görünməz dünya adlanan dünya ilə meditasiya ilə əlaqəyə girmək, oradan intuisiya ilə məlumat almaq, həyatda istifadə etməliyik. Nəticədə biz bütün reallıq ilə həm material, həm surətlər dünyası ilə harmoniyada olacaq, eyni taktda yaşayacağıq, psixi narahatçılıq keçirməyəcəyik. Başlıqda verilən suala isə belə cavab verərdim ki, *dünya sanki ağacdır, daim bitir*. Daim böyük budaqlar və kiçik budaqlar –trendlər, aparıcı hadisələr və ondan asılı daha kiçik hadisələr baş verir. Bir çox hadisələr milyard illər, bəziəri 1000, bəziəri 100, bəziləri 10 , bəziləri bir il, ya bir ay, bir gün əvvəldən müəyyən edilib. Demək olar ki, bütün hadisələr müəyyəndir, lakin zaman yaxınlaşdıqca böyük hadisələrin kiçik nüansları müəyyən edilməyə başlayır. Hər bir şey - canlı və cisim- daxil olduğu sistemin- mühitin ona təyin etdiyi rolu oynayır. Bizə elə gəlir ki, biz azad olaraq hərəkət edirik, lakin biz rol oynayırıq, sistemin bizə verdiyi yeri tutmalıyıq. Belə ki sistem dəqiq yerlər, statuslar, məsələn, kasıblıq – varlılıq , əxlaqi - qeyri əxlaqi yaşayanların proporsiyalarını əvvəldən təyin edib və dəyişməzdir. Biz yaşamağa çalışaraq həmin yerləri tuturuq. Demək, azadlıq yalnız hissdir, əslində biz azad deyilik, icraçıyıq, lakin özümüzü azad hiss edirik. Ya əzab çəkməyə, ya xoşbəxt olmağa məhkumuq. Həmişə

deyil, müəyyən dövrlərdə və ümumi proporsiyanı saxlamaqla və baxır - hansı yeri tutmuşuq. Bizim səhvlərimiz də, düz seçimlərimiz də demək olar ki, əvvəldən müəyyəndir, başqa sözlə iştirak etdiyimiz mühitin zərurətidir. Nə qədər çox bilsək də, çox öyrənsək də, mühit, habelə beynimizdəki müəyyən idarə sahələri tələb edirsə, biz səhvi edirik. Bu momenti geniş öyrənmək və insanlar üçün lazımı məsləhətlər hazırlamaq lazımdır. Platon deyirdi: "səhvlər, qeyri - əxlaqi hərəkət bilməməyin nəticəsidir". Mən deyədim ki, elə bilməyin də nəticəsidir. Əgər bir işi görməyin "X" optimal yolu varsa ondan cüzi kənara çıxsanız, artıq enerji, əsəb, maliyyə, zaman sərf edəcəksiniz. Məhz uğurun bir şərti də heç olmasa o *optimal, ağıllı, düz yolu* aşkar etmək və ona əməl etməkdir. Məhz *əməl etmək, uyğun davranmaq* insanın ən böyük problemidir.

**Politeizmdən monoteizmə**

Güman edirəm ki, elə tək yaşayan qəbilələr əvvəl tək ilahini qəbul edirmişlər, sonra bu qəbilələr birləşdikdə onların ilahilərinin də sayı çoxalır. Zaman keçir, yeni nəsillər artıq çox ilahinin olmasını qəbul edirlər. Daha sonra isə insanlar tərəfindən ilahilərin ierarxiyası qurulur, onların da insan ailəsinə oxşar baş allah, onun arvadı, qızı, oğlu olması təsəvvür olunur və xidmətçi mələkləri ixtira edilir. İlk Yəhudi qəbiləsi də başqa dilli qəbilələr kimi tək allahı qəbul etmişdir. Lakin başqalarından fərqli olaraq bu qəbilə daim bu allahı təbliğ etmiş başqalarının sitayiş etdiyi ilahini öz inanclarına daxil etməmişlər.Baxmayaraq ki digər yəhudi qəbilələrinin başqa fərqli ilahiləri də olmuşdur. Rəqabətə baxmayaraq, tək allah - *yəhova* üstün qalib inanca çevrilmişdir. B.e.ə. 1365 -134 8 dövr arasında Firon Exnaton tərəfindən Misirdə tək allaha - Atona sitayiş qəbul edilir (10). Tək allaha əsaslanan axırıncı dinlər məhz çox allahlar baxışı içərisində yaranmışdır. Bunun səbəbi nədir? Həmin dövrdə ilahinin tək, yaxud çox olması haqda onların heç bir məntiqi izahı yox idi. Tək ilahiyə keçidin səbəbi ilahinin tək olması səbəbilə deyil, siyasi məqsədlə və yeni mərhələdə müəyyən qədər qəbilələrin, icmaların böyüməsi, birləşməsi ilə, daha ağıllı həyat tərzi zərurəti ilə, habelə müəyyən qədər ilahiyə yeni məna vermək və insanları qorxutmaqla idarə etmək və bu ilahidən rəhbər vəzifəsi almaq üçün tələb olunurdu. Maraqlıdır ki, Hindistanda tək ilahisi olan dinə hamılıqla keçmədilər, çünki burada "zərər vurma, öldürmə" mədəniyyətin əsas prinsipidir və heç kəs başqalarını öz inamına zorla inandırmağa və başqalarını özgə, düşmən, kafir elan etməyə cəhd etmədi. Bu səbəbə görə Cənubi Şərqi Asiya

dinləri daha humanist və az zərərli dinlərdir. Burada habelə allahın peyğəmbəri, allahdan vəhy alma hadisələri də baş vermədi. Heç kəsdə belə yalan danışmaq ağlına gəlmədi.

Sonralar Azərbaycanda tək allahlı dinin yaradıcısını Urmiya vilayətində b.e.ə. 7-ci əsrdə doğulmuş Zərdüştü hesab edə bilərik. Mənbənin verdiyi məlumata görə o anadan gülə - gülə doğulmuş, kiçik yaşlarından qeyri - adi və heyrətləndirici hərəkətlər etdiyinə görə sehrbaz muğlar onu öldürmək istəyiblər (1, s 9). O, 30 yaşında Araz çayı kənarında və İranın daha 7 yerində ruh və ya Ahura mazdanın ona peyğəmbərlik verdiyini və təkallahlığı təbliq etməyi tapşırdığını bildirmişdir. O daha qədim din olan atəşpərəstliyi və digər diniləri reviziya etdi, ümumiləşdirdi və öz dini təlimini elan etdi. O hesab edirdi ki, "insan və maddi dünya vücuda gəlməzdən qabaq bütün yaranışların mənəvi siması yaranır". Bu fikir bu gün də çox əhəmiyyətli açar fikirdir. Avestada Zərdüşt "peyğəmbərliyinin yalanı aradan qaldırmaq və doğruluğu bərpa etmək üzərində qurulduğunu" deyir (1, 85). Bu fikir bütün digər peyğəmbərlərin məqsədindən daha əhəmiyyətli və qiymətli bir məqsəddir.

İudaizm yəhudi qəbilələrini birləşdirmək və yeni torpaq tutmağa onları yönəltmək üçün onları bir qaydaya salmaq, idarə etmək və vahid həyat tərzi yaratmaq, tərbiyə etmək üçün yarandı. Əvvəl onların dövləti yox idi. Xristianlıq yəhidi dinini təhriflərdən təmizləmək, dinin rolunu artırmaq, Romanın ağır işğalı şəraitində insanlara yaşamaq yolunu göstərmək, hamını sevmək şüuarı ilə insanlar arasında sülh yaratmaq və əməkdaşlığa yönəltmək üçün- yəni xilas etmək üçün yarandı. İslam Musanın etdiyi kimi, ərəbləri birləşdirmək, bütöv dövlət və onun qanunlarını yaratmaq və ictimai sistem qurmaq üçün yaradıldı. Din bunun üçün vasitə və alət seçildi. Məhəmməd ondan əvvəl olmuş islam dinini yeniləşdirdi və özünü də onun peyğəmbəri elan etdi, sonra isə özünə də da sitayiş etməyi tələb etdi və islam formulasına özü haqda beyt əlavə etdi. Əgər Məhəmməd özünü peyğəmbər elan etməsəydi və insanları ərəb büt allahının adı ilə qorxutmasaydı və qılıncdan istifadə etməsəydi, kim ona inanacaqdı və dediklərinə əməl edəcəkdi? İslam çox məsələni birdən həll etdi, o döyüşmək, qəsblər, başqalarını qarət və istismar üçün, ancaq ruhanilərin hakim vəzifə tutması üçün əsaslar: ideologiya, kafir, müşrik, yeni şeytan, zəkat anlayışlarını yaratdı, necə dini həyat yaşamaq qaydalarını irəli sürdü və ona nəzarət etdi, yeni və daha ciddi rituallar yaradaraq cəmiyyətin ağlını, şüurunu dinlə məşğul etdi ki, rəhbərə tabeçilyi artırsın, insanların azad deyil, ərəb bütpərəstlik ilahi panteonunun ən böyük ilahisi olan və ayı nəzərdə tutan İl-illah-allah

adlı ilahisinin, sonra isə Məhəmmədin tabesində olmasını və onun sözlərinə, qanunlarına əməl etməli olmasını onların beyninə dərin həkk etsin.

Birinci hissədən görürük ki, hər şey tək olmadığı, yalnız çoxluqdan ibarət olduğu kimi allahı tək ruh qəbul etmək olmaz, o da çoxluqdur; o insan üçün 4 böyük çoxluqda əks olunmuş bütövlükdür: *fiziki dünya, ümumi ruh, fikir- ağıl, psixi inam*. Onun yaradıcılıq prosesi isə ən azı (i) *iki varlığın* (ii)*mühitin* iştirakı ilə qarşılıqlı (iii) *əlaqəsi* vasitəsilə baş verir, nəticədə (iv)*yeni məhsul* meydana çıxır. Məqsəd qoyulmadan, hər şey məhz olmağa,"özü üçün" çalışaraq bu proses və nəticə-yaradılış baş verir. Bunu biz həyat hüceyrəsi adlandırmışdıq ki, keçmişi, indini və gələcəyi, eyni zamanda bütün dünya şeylərini bir -birilə bağlayır, hamısı birlikdə eyni bir ağac kimi - böyük və kiçik budaqları, yarpaqları ilə birlikdə daim bitir, yenilənir.

Fikir - ağıl və inam insanda mövcuddur və ilahinin bir hissəsidir ki, insan onunla görünməz dünyadan, gələcəkdən və yaxud keçmişdən məlumat alır, özünü yaşadır, idarə edir. Çin və obyektiv idealist baxışlarına görə ümumi ruh - bütün canlı dünyanın mahiyyətinin əks edildiyi incə materiyadır. O hissiyatlıdır, insan hisslərinə, çağırışlarına müəyyən hallarda cavab verir və kömək edir. Fiziki dünya isə material qanunlarla idarə olunur. Fiziki dünyanın görünməz surəti - sahəsi vardır ki, o da incə materiyada yerləşir, onunla ümumi ruh və insanın ağlı, şüuru əlaqədə ola bilir və inuisiya ilə məlumat ala bilir. Yaradılışda bunların hansısa biri, yaxud kombinasiyası, mümkündür ki, iştirak edir. Lakin real faktlar əsasında tərtib edilmiş bu dünyabaxış və ilahi anlayışı sitayiş, yalvarış tələb etmir. Absolyut olaraq həmin dinlərin dediyi qaydada-sitayişlə onunla kontakt və kömək almaq olmaz. Yalnız bu 4 reallığı anlamaq , necə qurulduğu və işlədiyini bilməklə və ondan istifadə etməklə yaxşı həyat qurmaq olar. Onun adından müxtəlif qanunların – "allah belə deyir"- elan edilməsi, və ona insani xassələr verilməsi tamamilə əsassızdır. Bunlar tanrı anlayışından təmizlənməli və elmin öhdəsinə buraxılmalıdır ki, elmi nəzəriyyələr, anlayışlar həqiqətlər formasında irəli sürülsün və təkmilləşdirilsin. Tanrının adından heç nəyi elan etmək, heç nəyi yazmaq olmaz.

Buddizmin və yoqa nəzəriyyəsinin meditasiya ritualı doğrudan da düzgün konstruksiya edilmişdir. Və hamıya onu təcrübə etmək məsləhət görürəm.

*Uğurun müəyyən edici səbəbi*.

Əgər gələcək bu günkü hadisələrdə, şeylərdə əks olunmasaydı, beyin onu heç bir hesablama, məntiq, uyğunluq, fərziyyə, ehtimal tətbiq etmədən necə əks etdirə, hiss edə bilərdi? Mən özüm də 30-40 il əvvəl qabiliyyətimin güclü olduğu dövrdə belə təcrübələr etmişəm və gələcək hadisələri dəqiq demişəm. Biz qəbul etməliyik ki, məhz elə hər şeyin özündə onun gələcəyi əks olunmuşdur. Bizim ağlımızın məqsədi məhz o gələcəyi oxumaq olmalıdır. Bu gələcək haqda bilik oboloçka kimi obyektin ətrafındadır, yoxsa daxilindədir? – bunu da bilmək lazımdır. Nə üçün oyunçu oyuna girərkən hökmən bilir ki, o udacaqdır? Bir dəfə gənclik illərində Moskvada təcrübə dövründə yataqxanada uşaqlar pul ilə poker oynayırdılar. Məni də dəvət etdilər, mən dərhal bildim ki (böyük, güclü uğur hissi yarandı), mən udacağam. Oyun zamanı onlar çox böyük fəndlər işlədir, bərk çalışırdılar, mən isə peşəkar deyildim qəlbimdə nə hiss edirdimsə, onu edirdim və tezliklə onları bir neçə dəfə uddum və daşlarımı kənarda durmuş bir uduzmuş adama verib dedim ki, gəl davam et, sən hökmən udacaqsan, belə ki mənim məqsədim onları udmaq deyildi, mən pul üçün yaşamırdım. Doğrudan da həmin adam da bütün oyunçuları bir gecəyə qaz kimi yoldu. Bu hadisənin səbəbi nədir? Burada heç bir təsadüf yoxdur. Həmin adam mən ona kartlarımı verməsydim, heç vaxt həmin oynayan qurdları uda bilməzdi. Bu fakt dünyanın vacib bir qanunundan xəbər verir ki, onu formulə etmək lazımdır. Düşünürəm ki, bu ümumi dünya və ya onun tərkibi olan lokal mühit strukturunda hadisələrin zəruri ardıcıllığının zərurətidir ki, mən onu intuisiya ilə hiss etmiş və əminliklə bu tələbi yerinə yetirmişəm. Axı mənim udmaqlarım məndən asılı deyildi, mən heç fikiləşmirdim də, hesablamırdım da, bu metodları, qaydaları, üsulları heç bilmirdim. Belə sual verərdim: biz həmişə uğurlu olmaq üçün şərtlər və şəraitdən əlavə nə isə edə bilərikmi? **Axı uğur təkcə bütün şəraitin, amillərin olmasından, ağıldan, düz tədbirlərdən asılı deyil**. Burada elə bir şey vardır ki, məhz o olduqda, hətta şərait pis olduqda, bəzi lazımı şərtlər olmadıqda da uğura gətirir. **Bu nədir?** (Məhz teist dinlər bu naməlum məsələnin üzərində qurulubdur). Biz bəzən ağlımızla deyil, qəlbimizlə hərəkət etdikdə məqsədə çatırıq. Qəlbimiz – daxili intuisiyamız nə üçün həmişə düzü göstərir? Halbuki ağlımız əsas tapmır, başqa təklif irəli sürür. Bu yəqin ki, o deməkdir ki, biz iki adamdan ibarətik, biri material insan- hansı ki ağlı ilə işləyir, digəri virtual- surət-İİ şəxsiyyət isə, - qəlbi, intuisiyaları, hissləri ilə ümumi dünya ilə bir taktda işləyir.Və bu şüurlar bir- birinə nəzarət edir, biri digərinin səhvini

aşkar edir, bəzən ikisi də eyni fikri deyir. Əlbəttə mən neorasionalistəm, hər şeyi ağılla qiymətləndirməyi və ağılla qərar qəbul etməyi düz hesab edirəm. Lakin naməlum qəlbin də əgər fərqli fikri varsa, eşitməyi lazım bilirəm. Lakin bu qaydaya həmişə əməl edə bilmirəm. Mən özüm məhz qəlbin dediyini bəzən etməməklə çox səhvlər etmişəm və hamıya da məsləhət görərdim ki, ağılla bərabər daxili səsə də qulaq assınlar, onu axtarsınlar və onun hansı fikri olduğunu müəyyən etsinlər. Əgər ağıl bizim öz həyatımız dövründə formalaşan, bizdən asılı subyektiv bir qabiliyyətdirsə, intuisiya - qəlbin daxili hissi bizdən asılı olmadan ətraf mühiti hiss etmə, oxuma nəticəsində avtomatik formalaşan obyektiv bir qabiliyyətdir-bu bizim şüuraltımızda (bəlkə də şüurüstündə) yaşayır. O "yaxşıdır", " pisdir", "yalandır", düzdür", " olar", "olmaz", "belə et","elə et" kimi hisslər ilə, bəzən konkret obrazlar, sxem, şəkil, beyində canlanan səs və fikir kimi bizə aşkar olur. Ona biz sevinməliyik ki, biz belə *obyektiv nəzarət, xəbərdarlıq mexanizminə* malikik.

Uğurun açarı olan o gizli amil və ya qanun nədir?- sualına qayıdaraq bir neçə fikir söyləmək istərdim.

**1.** Görünür ki, bizdən asılı olmadan dünyann və onun tərkib hissələrinin elə bir harmoniyası (proporsional balansı) vardır ki, o daim ödənilməlidir. Deyərdim ki, məhz ağıllı insan yaranandan sonra yer kürəsində **insanla təbiətin harmoniyası** müəyyən qədər pozulmuşdur, indi daha çox pozulur. Ağıl, məsələn, onun rasionallıq prinsipi kapitalist individualizmi ilə birləşdikdə daha çox məhv edici, qəddar davranışlara (məsələn, təbiətin viran qoyulması, meşələrin qırılması, ehtiyatların sonuna çatdırılması, hədsiz var dövlət, pul əldə edilməsi) gətirir. Lakin rasionallıq prinsipi humanizm, etik həyat, bərabərlik, gələcyi ğörməklə idarə ilə birləşdikdə xeyli yaxşı nəticələr verə bilər, insan və təbiət problemlərini effektiv həll edə bilər, hansı ki buna az dövlətlər əhəmiyyət verirlər. Harmoniya anlayışı haqda ilk fikirləri hələ qədim Yunan, Hindistan və Çin müdrikləri irəli sürmüşlər.**Harmoniya ifadəsini mühitdə şeylərin duruşu və dəyişmələrinin bir - birinə uyğunluğu, proporsionallığı kimi başa düşmək lazımdır ki, nəticədə davamlılıq, mövcud olma baş verir.** Hətta daha ümumi formada harmoniya iki və şox şey arasında - habelə şeyin özünün dayanıqlı müvazinətinin əmələ gətirən hissələrinin bir - birinə uyğun olan və bir -birini razı salan- proporsiyalarıdır. Bir hadisənin baş verməsi üçün mühit harmoniyası imkanlar açır, digər hadisənin olmaması üçün - hansı ki hissələrin harmoniyasına uyğun gəlmir - imkanlar açılmır. Bununla izah edilə bilər ki: niyə bir adam kazinoda udur, digəri uduzur, niyə bir adam əziyyət çəkmədən uğur

qazanır, digəri əziyyətlə qazanır. Niyə bir adamın əli uğurludur, digərinki uğursuzdur, niyə biri çox varlıdır, lakin bədbəxtdir, digəri kasıbdır, lakin xoşbəxtdir.

**2.** Görünür, hisslərin mühitlə razılıq balansı, özünə inam, çətinlik hisslərindən uzaqlaşmaq (buddizmin meditasiya aləti) vacibdir. Bu, insan psixikasının tarazlığını, aydınlığını və intuisiyasının yaxşı işləməsinə, yaxşını seçə bilməsinə səbəb olur. Nəticədə insan öz addımlarını qəlbin səsi ilə nizamlaya bilər. Uğuru, zərəri, pisi aydın müəyyən edə bilər, hansı ki müvəffəqiyyət üçün zəruridir. Yəqin ki məhz bu xassəsinə görə dinlər daha çox sitayiş etməyi tövsiyyə edirlər. Lakin sitayişdə səhv mahiyyət – mistika da vardır ki, elmi əsası yoxdur və xeyirə bərabər zərər verir. Əgər bu səhv mahiyyəti ləğv etsək, elmi dualar yaza bilərik və mən xeyli belə dualar yazmışam, elmi meditasiya edə bilərik, hansı ki mistikadan uzaq və mahiyyətcə, məqsədcə həqiqətə uyğun olar. Dini sitayişdən daha effektiv nəticə ala bilərik.

**3.** Bizim lokal dünyamız (biz ancaq lokal dünyanın elementiyik, başqa dünyaların bizə dəxli yoxdur) çoxluq olaraq, onun dəyişilkləri xaotik deyil, çox dəqiq xətlər formasıında baş verir. Fizikadan məlumdur ki, yalnız qaz atom və ya molekulları eyni ölçülü olduğu üçün xaotik hərəkət edir- hər biri eyni hərəkətləri edir, eyni məsafəni gedirlər. Eyni ölçülü olmayan və ya müxtəlif potensialı olan varlıqların münasibətlərinin vəziyyət dəyişiklərində, habelə quruluşunda isə hökmən müxəlif davranışlar, dəyişilik xətləri (cığırlar, trendlər, ierarxiyalar, strukturlar), yaranır : böyük və kiçik; aparıcı və törəmə. Bu xətlər müxtəlif xarakterlidir: *uğurlu xətt ardıcıllığı, bədbəxtliyə aparan xətt, ölüm xətti; əzablar xətti, xoş hadisələr xətti və s.*.Təbiətdə necə kristallaşma, yarpaqlama, yarpağın ana xətləri olursa, axan su bir cığırla axırsa, şüşə necə xətlər boyu çatlayıb sınırsa, su necə xətlər boyu donub buza çevrilirsə, şeylər arası münasibətlərdə və onların həyatlarında da dəyişilk xətləri oxşardır. Hökmən aparıcı – ana və kiçik budaq xətlər meydana çıxır. Bununla izah olunur ki, niyə bir adam təhlükədən xilas olur, digəri məhv olur; birinə uğur asan gəlir, digəri daim bədbəxtlik içindədir. Yəni insanlar ağıla gələn istənilən, lap məntiqi və məqsədlərinə uyğun görsənən hərəkətləri etməli deyil, əvvəlcə onlar uğurlu xətləri tapmalı, onlarla hərəkət etməlidirlər. Onda hər şey asan, təbii alınacaqdır. Əks halda nə qədər çalışsanız da boş olacaqdır. Onlar uğurlu xətlərin hökmən iştirakçıları (nöqtələri) olmalıdırlar. Bu uğurlu xətlər təbii qanunla formalaşır. Lakin bu xətləri yaratmaq da olar, onun yaranmasının təbii qanunlarını bilməklə. İnsan

varlığı nəhayət, bu ən böyük məqsədinə və arzusuna çatacaqdır – tanrının funksiyalarını öz sferasında icra etməyə başlayacaqdır.

Bilmək, məhz insan üçün ən böyük poblemdir – yarımçıq biliklə o həmişə səhv edir. Elə futuroloqların bir çoxu buna görə deyirlər ki, gələcəyi bilmək olmaz. Mən isə deyərdim ki, gələcəyi bilmək olar-lazımı ağıla sahib olsaq. Buradan belə nəticə çıxır ki, hadisə xətlərini aktiv olaraq intuitiv anlamaq lazımdır. Bu ancaq böyük meditasiya vasitəsilə, sakitlikdə düşüncəyə dalmaqla mümkündür. Hadisə xətlərini hiss etmək lazımdır, deməli, uğurlu olmayan xətləri tutub getmək lazım deyil - heç nə alınmayacaq, boş cəhd etməyin. Yalnız uğurlu hiss olunan işlərə başlamaq və davam etmək lazımdır. Insanların, cəmiyyətlərin, dövlətlərin fəaliyətində uğurlu xətlər- planlaşdırma, strategiya, ssenari qurma adlanır. Bəs uğurlu və uğursuz xətləri necə seçməli? Mən inanmıram ki, insan təbii xətləri poza, onun əksinə başqa xətlər uydura bilər-faktlar gösərir ki, belə strategiyalar uğursuzluğa düçar olur. O ancaq həmin təbii xətləri aşkar edə və onunla yaşaya bilər- bu da digər vacib qabiliyyədir. Mümkündür ki, bütün dəyişilik xətləri Hegelin dediyi kimi "dünya ruhunun" və ya müasir dillə desək, ümumi axının təzahürüdür. Qeyd etdiyim kimi böyük və ondan asılı kiçik axın xətləri vardır. Bu suala cavab vermək lazımdır. Biz bu "ruhu" idarə edə bilərikmi? Bu ruhu insan ruhu ilə qarışdırmayın. Hələ bu "ruhun" elmi adını müəyyən etmək lazımdır.

Gələcyimizi, elə bu günümüzü necə uğurlu qura bilərik? Kapitalizm və ölkələrdə olan 10 -20 faiz bədbəxt pul hərisləri bəşəriyyətə pul qazanmaq, varlanmaq ideologiyası gətirmişdir. Bütün elm və texnika, yaradıcı insanların ağlı onların yaratdığı parlament və hökumətlər tərəfindən yalnız bu məqsədə tabe edilmişdir. Bəzi xalqların ağılsız dövlət rəhbərləri öz axmaqlıq dərəcələrinə görə bu pulu əməklə, hamı üçün istehsal, elm, texnologiya müəsisələri açmaq və hamını işlə təmin etməklə deyil, müftə üsulla təbii sərvətləri - nefti və qazı çıxarıb satmaqla qazanmağı üstün tuturlar. Nəticədə cəmiyyəti həmin puldan uzaq saxlayırlar. Gələcək nəsli enerji ehtiyatlarından məhrum edirlər. Belə davranışlar bəşəriyyəti bütövlükdə və həmin xalqları məhvə sürükləyir. Hökumələr adi həqiqələri dərk edə bilmirlər ki, onlar xalqlar üçün məsuliyyət daşıyırlar, varlanmaq deyil, hamı üçün optimal həyat şəraitinə çalışmaq, hegemonluğa deyil, uzun müddətli sülhə, 20% zirəyin deyil, hamının, gələcək nəsillərin xoşbəxt yaşamasına, nefti , qazı zəruri tələbatdan artıq çıxartmamaq və gələcək nəsillərə saxlamağa çalışmaq lazımdır. Dünyanı və məsuliyyəti anlamamaq siyasətçilərin ağıllı deyil, gülünc qərarlar qəbul etməsinə səbəb olur. Budur, ABŞ 2003-2010 illər, Orta şərqdə, Əfqanıstan və

İraqda terrorçu ovlayır, müsəlman fundamentalistləri isə ABŞ hegemonluğuna, ədalətsizliyinə qarşı terror etməklə reaksiya verirlər. 2011 il yanvar-fevral ərəb dünyası ölkələri oyanmış və öz diktator rəhbərlərini taxtadan salırlar, yeni reformalar, insan kimi yaşamaq haqlarını bəyan edirlər. Başqa misalda varlı dövlətlər istehlakçılığı artırmaqla, varlıların varlanma strategiyasını qurmuşlar. Bunun üçün onlar ÜDM-un 60-90 % -nə qədər borc almağı, yəni istehsal etdikləri məhsuldan xeyli artıq istehlak etməyi həyata keçirirlər, nəticədə böyük böhranlar, inflyasiya, həyat şəraitinin pisləşməsinə səbəb olurlar; milyonlarla insanların əmək nəticələri heçə çevrilir. Hələ Conatan Sfift 1726 ildə belə axmaqlığı "Qulliverin səyahətində" ifşa etmişdi. Lakin siyasətçilər, varlılar ağıllanmırlar, onlar hər şeyi öz varlanmalarına qurban verməkdə davam edirlər. Başqa bir dövlət isə neft və qazı böyük miqdarda sataraq onun xeyrinin yalnız varlı dövlət məmur monopolistlərinə çatmasını təmin edir və görüntülər yaratmaqla guya idarə etməsi illuziyasını yaradır; seçkiləri, demokratiyanı manipulyasiya edir, öz xalqını aldadır, insanlar isə əzab, rüşvətxorluq və ehtiyac içində, gələcəyə ümidsiz yaşayır. Nə qədər gülünc və ağıldan uzaq, bədbəxtliyə gətirəcək hərəkətlərdir. Halbuki bu davranışlar deyil, digər ağıllı strategiyalar tələb olunur. Misal üçün müsəlman dünyası terrorla özünü qorumağı deyil, öz daxili avtonom strukturunu qaydaya salmalı, özünü dərk etməlidir, birlik əldə etməli və inkişaf strategiyası qurmalıdır, onları parçalayan amerikan imperializminin təsirlərini kəsməlidirlər, bu imperializmə xidmət etməməlidirlər. Öz xalqının başına bəla olmuş neft, qaz hesabına varlanan, cəmiyyəti ağır ehtiyaclar içində, işsiz, xəstə, müalicəyə əlinin çatmaması, korrupsiya mühitində saxlayan diktatorlar və onların əlaltıları hakimiyyətdən uzaqlaşdırılmalıdırlar. Onların faşist partiyaları boykot edilməlidir. Axı xalqı nə qədər yalanla aldatmaq olar? Onlar unutmasınlar ki, onları da Hüsnü Mübarəkin taleyi gözləyir. Bu gerçəkliyi başqalarında axtarmayın, elə əvvəl öz ölkənizdə axtarın.

İnsan ağlı tamamilə bəşəriyyətin yaxşı yaşaması və istənilən məsələsini həll etməyə qabildir. Lakin bu günkü qanun və idarə sistemi, hansı ki bir dəstə varlının və ya fırıldaqçının əlindədir, bunun qarşısını kəsmişdir. Hazırki idarə modeli bir qrupun digəri üzərində hakimiyyətinə və istismar etməsinə hesablanmışdır. Deməк, hər bir xalqın xilas olması üçün birinci növbədə orada ictimai - hamının iştirakına imkan verən qanunvericilik və idarə sistemi qurulmalıdır. 21-ci əsr məhz bunu kütləvi anlamaqla və belə hərəkatla xarakterizə olunacaqdır.

## Gələcək və ruhi varlıqlar

Görünməz ruhi varlıqların yerləşdiyi - material dünya varlıqlarından ayrılmış müəyyən, məsələn, kvant, elektromaqnit, bioelektrik, elektrostatik, maqnit və yaxud bizə məlum olmayan digər sahələrin gələcəklə bilavasitə əlaqəsi vardır. Məsələn, nəyə görə ruhlara gələcək daha çox məlumdur? Belə faktlar vardır ki, reallaşmış ruhlar gələcək haqda xəbərlər vermişlər və ya xəbərdarlıq etmişlər və nəticədə bunlar düz çıxmışdır. Lakin bir çox faktlar da vardır ki ölmüş adamın ruhu insana yuxuda hər şeyin yaxşı olacağını və digər səs başqa məlumatları demiş nəticə düz çıxmamışdır. Buradan belə nəticə çıxır ki yuxuda gördüklərimiz bizim öz beynimizin yaddaşında olan məlumatlardan, arzulardan elə beynimizin öz işi nəticəsidir və bunun konkret ruhla əlaqəsi yoxdur. Məsələn, budur müalicə üçün bal almışam, lakin yuxuda görürüəm ki, mənə balın faydası haqda uzun bir mühazirə oxuyurlar. Bu hadisənin də kənar obyektlə əlaqəsi yoxdur.

Burada kənar fövqaladə - transendental heç nə yoxdur; 1) material, 2) keçid və 3) virtual, mahiyyətlər, ideyalar, surətlər, informasiya dünyası bir yerdədir. Material obyektin daxilində, yaxud oboloçkasında bu transendental adlanan mahiyyət vardır. Lakin bu nə vaxtsa, (bəlkə də eyni vaxtda olur ) maddi obyektdən ayrıla bilir, sərbəst sahə kimi gəzir, küləklə gedə bilir, xəyallar, görüntülər, formasında reallaşa bilir və obyektin daşıdığı xassələri daşıyır.

Bu, 30 il bundan əvəl yazdığım məqalədəki fikrimə yenə qayıdıram və onu təsdiq edirəm. Görünür, hər bir varlıqda canlı və cansız olan bu xassə, ağıl, informasiya mahiyyəti ayrı da qala bilir, buddizmin dediyinə oxşar olaraq hətta ayrıca qalaraq təkmilləşir. Axı hamıdan əvvəl Buddizm bu fikri söyləmişdir ki, insandan ayrılan bu ruh göyün 32 (və ya 16) qatında təmizlənmə, müdrikləşmə prosesini keçir, eqoizm və mənfi xarakterini atır, təmiz halda təkmil ali ruha (dünya zəkasına) çevrilir. Və yaxud yerdə bitkiyə, heyvana, hətta *karmadan* asılı olaraq ən iyrənc varlıqlara keçir, yerdəki evolyusiyasını davam etdirir.

Keçmiş fikrimə qayıdaraq təkrar etmək istərdim ki, material hadisələrin baş verməsindən əvvəl onların ağıl, prinsip mahiyyətini əks etdirən ikinci görünməz hissəsi (yaxud sahəsi) ətraf mühitin eyni xarakterli sahəsi ilə müvazinətləşir, nəyin olacağı tələb olunur. Bu fikrə qayıdaraq bunları əlavə edirəm. Bu hadisə elektrik cərəyanının necə sürətlə getməsinə oxşayır, yəni xəttin başlanğıcındakı elektronlar heç vaxt gedib sona çatmırlar, yalnız yükü bir- birinə vermə yolu ilə cərəyan hadisəsi ani baş verir. Digər misal. Əgər yer kürəsinin

maqnit xassəsini ləğv edib qəfildən qoşsaq, ani halda bütün yüklü hissəciklər, qravitonlar (cəzbetmə sahəsinin daşıyıcıları) maqnit xətləri boyu düzülmüş olacaqdır. Bu iki misal çox aydın başa düşməyə kömək edir ki, demək, dünyada, elə yer üzündə istənilən onun regionunda, tarix ərzində ani olaraq fasiləsiz cisimlərin, canlı varlıqların, hadisələrin görünməz xarakteri- sahəsi **müvazinətləşir** və nəyin olacağı hələ min illər qabaq: bəzilərinin isə illər, aylar, günlər, saatlar qabaq olacağı **bu sistemdə əks olunmuşdur**. Lakin insana məlum deyil. İnsan isə yalnız öz ağlı- müşahidə, analiz, sintez, hesablama, müqayisə, analogiya ilə, inituasiyası, fallarla, astrologiya ilə ilə bunları tapmağa çalışır. Bunlar düz metodlardır. Bu müvazinətləşən müxtəlif sistemləri qruplara, səviyyələrə, növlərə ayırmaq lazımdır. Yəni "nə nə ilə müvazinətləşir və balans hansı elementlərdən əmələ gəlir" - prinsipi mövcuddur. Və hər bir iştirakçıya, elə insana nə qədər rol verilib? İnsan onun əlaqədə olduğu sistemlərdə nə qədər, nə dərəcədə bu gələcəyin müəyyən edilməsində, baş verməsində iştirak edir?- sualını da öyrənmək lazımdır. Qəti olaraq demək istərdim ki, hər şeyin yaranışı anından (habelə insan həyatında doğulma, məktəb, evlənmə, ilk görüş) onun gələcəyinin əsas skeleti (sxemi) müəyyəndir. Lakin digər "ət və qanı - skeletin daha aydın formasını"- həmin canlılar öz həyatı dövründə öz iştirakları - mühitlə qarşılıqlı fəaliyyəti nəticəsində əmələ gətirirlər. Müasir teleologiya nəzəriyyəsi belə fikri müdafiə edir ki, dünyada məqsədəuyğunluq prinsipi mövcuddur, yəni bizim yer kürəsi canlılar, su, bizim qidalar və s. böyük ilahinin məqsədilə yaradılmışdır ki, hamısı həyata xidmət etsin (12, s.407). Göründüyü kimi bu prinsipə uydurma dini məna verməyə çalışırlar. Məqsədəuyğunluğu kənar bir obyektin məqsədinə deyil, yalnız hər şeyin özünün olma məqsədinə, özü bəzən anlamasa da, öz xassəsini reallaşdırmaq fəaliyyətinə aid etmək olar. Obyektiv neorasionalist baxış göstərir ki, yer kürəsinin və burada həyatın yaranması ilahi (dünyadan kənar qüvvənin) məqsədilə olmamışdır. Yer və həyat yüzlərlə istiqamətlər içərisində bir istiqamətdir ki, o da real konkret mühitin və spesifik iştirakçı elementlərin qarşılıqlı əlaqəsindən yaranmışdır və sonrakı həyat daim yaranma, evolyusiya prosesi olmuşdur. Əgər kainatda yenə də belə amillər çoxluğu və lazımı iştirakçılar olarsa, yeni yer planetləri və canlı həyat yarana bilər. Məqsədəuyğunluq deyil, hər şeydə: a) ola bilmək, qalmaq, bütövlüyünü saxlamaq prinsipi; b) şeylərin xassələrindən doğan qanunuauyğunluqlar; c) rasionallıq, optimallıq, təkmilləşmə prinsipi mövcuddur. Hər şey, cansız və canlı təbiətdə yalnız öz xassəsində qalmaq istəyir, yalnız bu halda o mövcud ola

bilər, lakin buna qarşı itələmə və əks, dağıdıcı qüvvələr mövcuddur ki, şey bu xassəni həyata keçirmək üçün fəaliyyət göstərməlidir, yəni hərəkət etməlidir. Deməк, hərəkətin səbəbi konkret xassədir. Elektron nə üçün fırlanır və yaxud sınıq xətlər üzrə nüvənin başına dolanır? Ona görə ki, elektron özünə əks olan (müsbət, mənfi işarələri nisbidir və həqiqəti tam əks etdirmir, başqa anlayışlar yaratmaq lazımdır) nüvənin üstünə düşmək istəyir, onunla birləşmək istəyir. Lakin nüvənin itələmə qüvvəsi onu müəyyən həddən yaxına qoymur, onda da elektron hərəkətə başlayır –fırlanır. Bununla da maddə -atom alınır. Yer də, günəş də bütün spiral qalaktikanın qolları məhz mərkəzə çatmaq “istəyir”, oradakı yüksək vakuum sorur, ona görə də fırlanır. Fırlanma burada ən optimal hərəkətdir. Hər şey özünə əks qüvvəni, amili, hissəni tapır və onunla birləşməyə, müvazinətləşməyə çalışır. Əks qüvvə olmasa həmin şey, yəqin ki, ola bilməz. Ona görə də şeylərdə daim iki əks xassələr, və ya  əks xassəli cütlər vardır. lakin onlar birlikdə bu, ya digər obyektə qarşı və ya onlarla əlaqədə ya bir (yaxşı, gözəl, faydalı....) ya digər xassə (pis, çirkin, zərərli... ), mahiyyət göstərirlər. Lakin bunlar daim dəyişilən keçici görüntülərdir. İnsanlar isə bunu başa düşməyərək daim ona səhv qiymət verirlər (gördüklərini həqiqət, daimi kimi qəbul edirlər) və buna görə səhv davranışlar seçirlər.

Ruhi varlıqlar insan həyatında gələcəyi bilmək üçün, habelə müalicə üçün iştirak edir. Bolqarıstanda,  Petriçi şəhərində 1940-cı illərdə meydana çıxmış Vanqa fenomeni də məhz belə faktdır. Ən yeni faktı təsvir edirəm. 15 May 2010 il yerli Lider TV proqramı *Sirli Azərbaycan* verilişində Fazil adlı bilicini, psixoloq və həkimi  göstərir. O deyir: “mən qəribə yuxular görməyə başladım və sonra 40  gün daim yuxuda oldum, yuxuda xeyli mübarizə edirdim. Sonra ayıldım və özümü pis hiss etdim, yaddaşım pozulmuşdu, 3 ay ərzində mən tam bərpa olundum. Sonra insanların daxil aləmini, şüurunu hiss etməyə başladım”. TV göstərdi ki, o gələn xəstənin adını və anasının adını soruşur, xəstə qalın bir kitabın (ərəb, yaxud fars dilli) üstünə əlini çəkir, sonra salavat çevirir. Fazil bu kitabı istənilən təsadüfi yerini açaraq əli ilə yazıları üstünə sürtür və sonra şəxsin keçmişi və indisini deyir, probleminin həllini söyləyir. Həmin bilici izah etmişdir ki, o xəstəyə baxarkən naməlum ruhi varlıq, hansı ki yalnız o görür, “xəstənin ruhuna-bədəninə daxil olur, oradakı məlumatı oxuyur və sonra görsənərək mənə deyir və problemin həllini də həmin ruh deyir. Mən böyük miqdarda naməlum mənbədən vəhylər alıram”. Bu faktı daha geniş izah edərək əlavə edim ki, “əvvəl 40 gün ərzində həmin ruh (energetik informasiya strukturu) Fazillə qarşılıqlı anlaşma qurmaqla

məşğul olmuşdur. Vəhylərin alındığı mənbə məhz bizim daxil olduğumuz dünyadır – mühitdir (həm material, həm surətlər dünyası). Görünür ki, məlumatın yazı ilə, komputer proqramı ilə, habelə digər texniki üsullarla yazılışından başqa təbii elə bir sadə üsulu var ki, bu məlumat elə hər şeyin üstündədir və yaxud onun hansısa sahəsində və ya aurasındadır ki, insan beyni onu oxumağa qabildir. Deyərdim ki *quş dili bilən Süleyman* haqda mifoloji hekayə də həqiqətdir. Hesab edirəm ki, insan danışmağa başlayanadək (təqribən 100 min il əvvəl) ətraf dünyanı elə birbaşa oxuyaraq, ondan hisslə məlumat almışdır, hisslərlə ünsiyyət qurmuşdur və inkişaf etmişdir. Danışandan sonra isə bu qabiliyyətini itirmişdir. Mövcud heyvanlarda isə, hansı ki danışa bilmirlər, bu qabiliyyət qalmışdır. Gələcəyin necə baş verməsini daha geniş bilmək üçün IV hissəyə - gələcəyin nəzəriyyəsinə baxın.

**Nəticələr**:

1. Şeylər *mühit* daxilində azı iki bir-birilə *əlaqədə* olan *varlıqlar* tərəfindən yaranır. Onlar olmaq üçün öz təbii xassələrini saxlamağa çaışırlar, buna görə də müəyyən həyat tərzi seçirlər. Onları yaradan amillər onlar haqda heç bir qayğı çəkmir. Hər yaranan şey mühitə daxil olaraq mühiti zənginləşdirir və parametrlərini dəyişdirir və mühitlə əlaqələr vasitəsilə öz xasəsini, canını saxlayır.
2. Şeylər yarandıqda onların yarandığı kompleks amilər bu şeyləri yaratmaq haqda məqsəd qəbul etmir. İştirakçı -əlaqəyə girən tərəflər - elementlər mühit sərhədləri daxilində yalnız özlərinin yaşaması üçün (xassələrini saxlamaq üçün) çalışırlar. Onları heç də nə yaranacağı maraqlandırmır.
3. Şeylərin yaranması, habelə ümumi sistem tələblərini ödəmək üçün sistemin daxili tələbatına uyğun yalnız (xarici mühitin iştirakı ilə) zəruri olaraq baş verir. Bu tələbat isə müxtəlif əks mənalı elementlərin daxili balanslaşması üçündür. Məsələn, müəyyən insan qrupunda əgər bir axmaq (habelə, ağıllı, gözəl, pis, xəsis və s.) varsa, onu kənarlaşdırsaq yenidən orada belə biri yaranmalıdır. Bunu həmin insan kollektivi tələb edir və yetişdirir. Lakin bu axmaq kim olacaqdır? O yenə də *normal, yaxşı* adamlardan biri olub axmaq rolunu oynamağa məhkum olacaqdır. Hər kəs öz həyatında nə vaxtsa onun əvvəl xoşu gəlmədiyi və ya ağlına gəlmədiyi, əxlaqına uyğun olmadığı rolu oynamağa məcbur olacaqdır. Bu o deməkdir ki, insanlar necə olmasından asılı olmayaraq bir - birlərinə hörmət etməli, sevməlidirlər. Onlar sadəcə daxil olduqları müxtəlif sistemlərin rollarını oynamalıdırlar.

4. Şeylərin var olması və hərəkəti səbəbi onların özlərinin və tərkib hissələrinin xassələrə malik olmasıdır. Həyatın əsasını cəzb etmə - itələmə(qravitasiya) xassəsi, canlılarda məhəbbət və nifrət; sosial sistemlərdə əməkdaşlıq və rəqabət təşkil edir. Cəzb etmə, məhəbbət, əməkdaşlıq şeyləri yaxınlaşdırır; itələmə, nifrət, rəqabət onlar arasında münasibətlərə (birliyə) forma –struktur, qayda verir; həyata davamlılıq, uzun ömür, təkrarlar, sikllər verir. Bir qüvvəyə, əməkdaşlığa, birliyə, dostluğa qarşı əks qüvvə olmasaydı, material dünya və həyat bir an da qala bilməzdi. Bu qüvvələr yalnız bərabər ola bilər. Qravitasiya xassəsi olmasaydı digər 3 fiziki təsir qüvvəsi heç nə yarada bilməzdi.
5. Həyatın və kainatın cisim və hadisələrinin dəyişilikləri rasionallaşma prinsipi altında daim gözəlləşməyə, yaxşılaşmağa, optimallığa, insan cəmiyyətində isə əlavə olaraq ədalətə, bərabərliyə, biliklərin artmasına və həyatın biliklərə uyğunlaşdırılmasına istiqamətlənmişdir. Başqa sözlə hər şeyin siklik dəyişiliklər nəticəsində son vəziyyəti kamil, gözəl optimal, dayanıqlıdır, zəruri keyfiyyətlərə malik olmaqdır. Ona görə biz hər şeyi kamil formada, məqsəduyğun, ağıla uyğun görürük. Bunu hər şeyin özü mühitə reaksiya kimi edir. ” Allah hər şeyi edir”- deyəndə məhz mühiti nəzərdə tutmaq lazımdır, başqa heç bir digər ruhu, varlığı. Lakin bu mühi təkbaşına etmir, hər şey özü çalışmasa mühitin təsiri ilə yaxşılaşma, kamilləşmə baş verməz və şey məhv olar. Demək, iki qüvvə- mühit və şeyin birgə fəaliyyətilə (təsir - əks təsir cüt qüvvəsilə) şeylər olur və kamilləşir.

## Dinlərin evolyusiyası və gələcəyi

Dinlər: şamanlıq - kahinlik - tək allah - çox allah - tək allah – kahin. peyğəmbər xətti ilə evolyusiya etmiş və öz təlimlərini müəyyən qədər təbiətdən, cəmiyyətdən, elmdən götürülmüş izahlarla zənginləşdirmişlər. Müxtəlif təlimlər, rituallar əlavə etmişlər.

Dinlərin bəşəriyyətin həyatında müəyyən yaxşı və pis təsiri vardır. Lakin dinləri eyni bir alətlə ölçmək olmaz. Onlar həddən artıq müxtəlifliyə və bir-birinə əks baxışlara, təbiətə zidd, yanılma, bəzən düzgün baxışlara malikdirlər. Hər bir material cisim, canlı sistem, nəzəriyyə, baxış kimi onların da hansı istiqamətə evolyusiya etməsi, dəyişməsi və başqa formaya çevrilməsi (ölməsi) onların elə ilkin prinsiplərində, kompleks mahiyyətindədir, taleyinədir. Məsələ orasındadır ki, elmlə bir yerdə olarkən onlar elmə bəzən mane olur, onu məhdudlaşdırırdılar, elmdən, cəmiyyətdən qidalanırdılar, kiçik sürətlə təkmilləşirdilər. İslamda isə hələ ilkin ehkamlar ehkam formasına düşmədən 8-12-ci əsrlərdə elm olmayan Ərəbistan

səhrasında elmi öyrənmək, öz problemlərini həll etmək məcburiyyətində qalaraq islam ruhaniləri elmə azadlıq vermişdi. Sonra hər şeyin öyrənildiyi, kəşv olunduğunu düşünərək və daha elmin dini ifşa edəcəyini görərək reaksiyon ruhanilər tədricən 10-12 əsrlərdən sonra islamda dini hakimiyyəti əlinə alır və elmi sıxışdırmağa başlayır. Bu 19-cu əsrin sonuna qədər davam edir. Avropada isə 15 –ci əsrə qədər xristianlığın inkşafı dayandı, lakin bu dövrdən sonra renesans nəticəsində reviziya olunmuş yeni xristianlıq- protestantizm yrandı. 20-ci əsrdə ənənəvi katolik və pravoslav qolları da demokratiya nəticəsində müəyyən evolyusiya dövrünü keçirdi. Katolik rəhbərlik dünyaya yeni baxış elan etdi və keçmiş səhvlərini etiraf etdi. İslamda isə 12 –ci əsrdən sonra dinin inkişafı dayandı, sonrakı dövrdə keçmiş ehkamlar öz ehkamlığını artırdı və ruhanilər yeni bir şey deyə bilmədilər. İslamdan ayrlmış və təqib edilən sufizm xeyli ruhi və elmi biliklər yaratdı. Dini biliklər bu günkü səviyyəyə görə əsasən reallıqdan uzaq, primitiv qaldı, ciddi evolyusiya etmədi. Çünki din özünü elmə qarşı qoydu, onun kəşvlərinə şübhə ilə, paxıllıqla baxdı. Elm daim həqiqəti axtararaq azad müzakirə və sübutlar yolu ilə inkişaf etdi və dünyanın daha obyektiv mənzərəsini təsvir etdivə daim təkmilləşir. Din isə yarandıqda, 1400-4000-35000 il əvvəl öz dövrünün ictimai biliklərini, müşahidələrini, fərziyyələrini, yanılmalarını öz təliminə əlavə etdi və onları ehkam- dəyişməz elan etdi. Sonrakı elmi inkişaf nəticəsində həmin fərziyyə və biliklərin xeyli səhv olduğu, yanılma və eqoizm nəticəsi olduğu məlum oldu. Bunu kompensasiya etmək üçün dinlər artıq 20-ci əsrdən başlayaraq elmin əldə etdiklərini din maskası altında izah etməyə çalışaraq dinlərin bilik bazasına daxil etməyə cəhd edirlər. Əvvəllər də zaman - zaman öz sifətlərini saxlamaq üçün belə etmişlər. Məsələn, fəlsəfənin, psxologiyanın, sosiologiyanın, humanizm nəzəriyyəsinin müddəalarını hazır vəziyyətdə din yaradıcılarının fikirlərinə calaq etmişlər. Bununla onlar öz ömürlərini uzatmaq, avam, mövhumatçı mahiyyətlərini gizlətmək istəyirlər. Yalançı, öz elminə inanmayan və elmi anlamayan "elm" alimlərini, məsələn, Azərbaycanda olduğu kimi elmi- dini şuralar yaradaraq, buraya üzv qəbul edirlər. Lakin bütün bu hərəkətlərə həqiqi elm gülür, çünki dini ruhanilər fundamental fikirlərindən əl çəkə bilmir, əsil məqsədlərini gizlətməyə çalışır və dediklərini elmi üsullarla sübut edə bilmir.

Böyük mütəfəkkirlərin Anaksaqor: "allahlar insanları deyil, insan allahı yaratdı; Tomas Pein: " mənə elə gəlir ki, yəhudi, xristian yaxud islam dinləri ruhanilərin biznes uğrunda monopoliyasından başqa bir şey deyil", Kamal Atatürk, Seyid Əzim Şirvani : "dinlər hamısı puç

şeylərdir", Karl Marks " dinlər xalq üçün tiryəkdir" və bu günkü elm nümayəndələrinin dinlər haqqındakı dedikləri obyektiv mənfi fikirlər tamamilə öz təsdiqini tapır. Dinlər bəşəriyyətə tormozlayıcı, konfliktləri qızışdırıcı, bəzən yumşaldıcı, dövlətin diktatorluğuna, ədalətsizliyinə xeyir- dua verir, şüurlara kütləşdirici təsir edir və istismarın xüsusi alətidir. Onlar sadəcə ruhanilərin insanların şüuru, ağlı üzərində hakimiyyəti vasitəsilə pul qazanmaq üçün monopoliyasıdır. Əsas- iqtisadi və hakimiyyət mənafesidir- dini rituallar sistemi və əxlaq təbliğatı isə vasitə və maskadır.

Martin Lüter tamamilə düzgün olaraq göstərirdi ki, "insanın qurtuluşu, xeyirxah işlərin, dini mərasimlərin yerinə yetirilməsində deyil, hər bir insanın özünün etiqadının səmimiliyindədir". Əlavə edirdi ki, dini həqiqətin mənbəyi kilsə məclislərinin qərarı, keşişlərin mühakimələri deyil, bibliyanın özüdür (12, s. 255). Bəşəriyyətin inkişafına böyük fayda vermiş bu dahi reformator mütəfəkkirin fikrini davam edərək əlavə edərdim ki, həqiqətin mənbəyi nə Bibliya, nə Qurandır, nə Törədir. Orada həqiqət sayılan fikirlər daha qədim dövrün bu günlə müqayisədə qeyri -kamil primitiv və subyektiv fikridir. Həqiqətin mənbəyi bütün dünyadır, konkret olaraq bizi əhatə edən mühitdir. Hər kəs o həqiqəti özü tapmalı, dərk etməlidir. Bu insanın vəzifəsidir. Martin Lüterin və başqa mütəfəkkirlərin dediyi kimi kilsə, məçid, sinaqoqlar və ruhanilər allahla insan arasında vasitəçi deyillər. Özlərindən yalançı allah anlayışı uydurmuş bu adamlar özlərinə də onun xidmətçiləri adı vermişlər. Nə üçün? - avamlar hesabına yaşamaq və hakimiyyətə sahib olmaq üçün. Allahın əsil həqiqi anlayışını mən bu kitabda göstərdim - bu kainat, bu mühit, bu çoxluqdur. Yalnız kainatı, gerçəkliyi öyrənənlər- elm adamları, alimlər və onu anlayanlar onun xalq üçün vasitəçiləridir; həyatı yaxşılaşdıran, tərəqqini təmin edən vasitəçilərdir. Elmi tədqiqat, təlim, təhsil mərkəzləri allah evidir, kilsələr məçidlər sinaqoqlar deyildir. İnsanlar uydurma allaha sitayiş edib avam qalmaqdansa, dünyanı və öz mühitlərini elm vasitəsilə öyrənməklə həqiqi allahı dərk edə bilərlər. Və bundan sonra onların yaxşı həyatı başlayacaqdır.

Artıq dinlərin əksər silahları əlindən alınıb- gipnoz, özünü təlqin və inandırma, dua yazma, dualar və sitayişlər tamamilə elm tərəfindən izah edilmişdir. Elmi spiritoloq və psixoloqlar dinin istifadə etdiyi alətlərdən daha effektiv nümunələr yaratmışlar və daha böyük nəticələrə nail olurlar. Teoloji dinlərin əlində indi təkcə sirli fenomenlərin, xəyalların, ruhların görüntülərin, allahın, cinin, şeytanın izahı üzərində monopoliyası qalmışdır. Lakin bu da onların əlindən elmi maarifçilik və elmi sübutlarla çıxmaqdadır. Dinlərin gələcək

vəziyyəti onların indi əsaslandığı əsasların – fövqaladə qüvvələrin və varlıqların nə qədər elm tərəfindən tədqiq olunması və izah edilməsilə müəyyən ediləcəkdir. Yeni əsr məhz bu anlayışların elmi ifadəsi və izahı və primitiv dini izahların məğlubiyyəti olacaqdır. Daha dini ruhanilər və idarələr fövqaladə obrazlara, ruhlara, tanrıya əsaslanaraq özlərinə hakimiyyət, seçilmiş, müqəddəs rollarını verə bilməyəcəklər. Bunların əsassız və yanılma olması geniş kütlələrə də aşkar olacaqdır. Bu səbəbə görə dinlərin mistik rolları itəcək və yaxşı halda onlar keçmişə, bu günkü bəşəriyyətin ümumi dəyərlərinə zidd olan keçmiş biliklərə, göstərişlərə istinad etməyəcək. Onlar yalnız əxlaqi davranışları, bərabərliyi, insan hüquqlarını, ədaləti, qanunçuluğu, xeyriyyəçiliyi müdafiə etmək, dəfn mərasimində ruhi məsləhətlər vermək funksiyalarını mistikaya, fövqaladə qüvvələrə istinad etmədən yerinə yetirəcəklər. Onlar necə əvvəlki dinləri əvəz etdisə, eləcə də yeni elmi universal dünya baxış onları əvəz edəcək, yaddaşlardan son teist dinlər itəcəkdir. Sitayişlərin də mahiyyəti dəyişəcəkdir. Burada meditasiya ibadəti əvəz edəcəkdir. Peyğəmbərlərə və ruhanilərə fövqaladə insan kimi baxılmayacaq və onlara keçmiş elçi, vəkil, tanrı rolları verilməyəcəkdir, bu baxışların səhv olduğu qəbul ediləcəkdir.

Mənim böyük tədqiqat və təcrübələrim nəticəsində və şübhəsiz, digər mütəxəssislərin təcrübələri nəticəsində dünyanın yeni fiziki və spiritual modeli hazırlanır. Yəni neçə dünya var? hər biri nədən ibarətdir və necə işləyir? suallarına daha dərin və tam cavablar veriləcəkdir. Hazırda kvant sahə nəzəriyyələri aktiv yaradılır. Dünya fizikləri **hər şeyi izah edən nəzəriyyə** hazırlamaqdadır. Bu nəzəriyyə təbiətdə mövcud olan 4 növ qarşılıqlı əlaqəni birləşdirməklə yaradılır (21). Belə yeni baxışlara digər dünya nəzəriyyələri də gətirir, məsələn, Hinduist Tantra nəzəriyyəsi, buddist nəzəriyyəsi reallığın müxtəlif səviyyələrinin olduğunu hesab edir, Futurologiya elminin əsaslarını yazmış Wendel Bell *tənqidi realizm* nəzəriyyəsini daha əhəmiyyətli hesab edir. O qeyd edir ki, elm də nisbidir, müxtəlif reallıqlar mövcuddur. (8, 207-208 ).

Yeni elmi spiritoloq peşəsi yaranacaq və molla və keşişləri əvəz edəcəkdir.

4 hissədən ibarət bu kitabın İ hissəsində siz dünyaya yeni baxışı və dünya haqda izahatı oxuya bilərsiniz.

Monoteizmin yaranması dünyanı ağıl vasitəsilə dərk edilmə nəticəsi deyil, təbii siyasi ehtiyacdan doğmuşdur. Belə ki, qəbilələrin birləşməsi, bir böyük dövlətin yaranması bir inancın olmasını tələb edirdi. Düzdür, Yunan və Roma dövlətləri yaranmışdı və burada müxtəlif tayfalar eyni müxtəlif ilahiləri qəbul edir və sitayiş edirdilər.

Bu zaman məhz digər xalqlarda siyasi olmayan müəyyən şəxslər müəlliflik edərək birləşmək istəməyən tayfalarını birləşdirmək üçün tək ilahi və onun adından yeni mədəniyyət və birgəyaşyış təlimlərini irəli sürdülər. Əks halda onlara heç kim inanmazdı. Bu təlim qorxutmaqla onları birləşdirmək və yeni ağlabatan qaydalar təklif edərək inandırmaqla və sanksiyalarla yeni həyat tərzi və irəli sürülmüş ümumi milli məqsədləri- strategiyaları əhatə edirdi. Əvvəlki çox ilahili dinlərdə bunlar yox idi, onlar dağınıq qəbilələrə uyğun idi.

Bir tək allah anlayışı yaradıb onu əsas vasitə edən dinlər iudaizm, xristianlıq və islam çox ilahili dinlərə nisbətən daha çox zərər vermişlər. Bu zərər ondan ibarətdir ki, belə dinlər insanları düz və səhvlərə, mömin və kafirlərə bölmüşdür, subyektiv *səhv* və *düz*, *yaxşı* və *pis* anlayışlarını yaratmış, insanların fikirlərinə hakim olmağa çalışmışdır, özgə cür düşünənlərə qarşı cinayətlər törətmiş, qatil olmuşlar, alimləri yandırmış və ya edam etmişlər. Nəticədə insanlar, xalqlar arasına dözümsüzlük, bir- birinə nifrət, ayrılıq, müharibələr gətirmişlər. Çox ilahiyə inam dövründə isə dinlər müxtəlif fikirliyin, sabitliyin nümunəsi olmuşlar. Əvvəlki dövrdə çoxilahili dinlər insanın şəxsi həyatına və nə fikirləşməsinə qatışmırdı. **Çox ilahi dinlərdə heç kəs özünə peyğəmbər-xüsusi səlahiyyətli şəxs - allahın vəkili statusu vermirdi.** Yəhudilərdə peyğəmbər anlayışı məhz tək ilahiyə inamla yarandı və onlar adi adamlar idi, heç bir çar, ya keşiş statusları yox idi, təkcə Musa, Solomon və Daviddən başqa. Yalnız İslamda Məhəmməd özünü peyğəmbər elan etmişdi. "...Peyğəmbər beşətin 3 ilini *təkcə allah ilahidir* (la ilahə illah ) şüarını yaymağa sərf edib (17, səh.108). Sonrakı dövrdə o bu formulaya eyni qafiyəli ikinci sətri - özünü də həmin allahın vəkili olması haqda sətiri (Məhəmmedin resul illah) əlavə edərək həm allaha, həm də ona itaət edilməsinin zəruri olduğunu elan edirdi. 4-cü xəlifə Əli isə özünü də bu siyahıya qoşaraq, ona da sitayiş edilməsi qaydasını qoydu. Bu haqda islamın əsas simvol formulasına 3 -cü sətiri - "Əliyyən vəliyulla" əlavə etdi. Bu təqdimatda allah qeyri - müyyən və danışmayan olduğu üçün Məhəmməd real dövlət hakimiyyətini və dini ruhani liderliyini onun adından elan edərək əlinə aldı.

Bütün Asiya dinləri buddizm, induizm, sintoizm, konfusiyanizm bu gün bəşəriyyət üçün daha optimal, faydalı və daha az zərərli rol oynayırlar. Onlar fikir pluralizmi, zərər verməmək ideyaları ilə *mömin* və *kafir*; *şeytan* və *ilahi*; *pis* və *yaxşı* kimi bir-birinə zidd anlayışların olmaması səbəbilə daha dözümlü, bir - birinə xoş münasibət saxlayan insanlar yetişdirmişlər. Gələcəyin dini təliminə, düşünürəm ki, bu ərazilərdəki insanların baxışları daxil olacaqdır.

Tək ilahi yaradıcıları məhz öz şəxsi fikirlərini də onun əsasına qoydular. O zaman insanların inandığı inanclardan – insanların gözünə görsənən ruhlar, onların danışmaq, xəbər vermək qabiliyyətindən və ya səslərdən vasitə kimi istifadə edərək İlahi ilə danışdıqlarını və onlardan rəhbər təyinatını aldıqlarını keşişlər müqəddəs kitabda yazdılar.. Musa özü Törəni yazmamışdı. Belə hekayələrə də tezi - geci insanlar inandılar. Bəzən uzun təcrübə-həyat prosesi nəticəsində (yəhudilərdə), bəzən ancaq təbliğat nəticəsində (xristianlıq, buddizm və induism), bəzən qılınc, qorxutmaq, qəsblər gücünə (İslam) tabeçilik inamı yaradılırdı. İlk inananlar meydana çıxandan sonra onlar uşaqlarına artıq tərbiyə və təlimlə bu baxışları elə həqiqət kimi, adi həyat norması kimi öyrətdilər. Hər din yarandıqda – bu həmişə keçmiş təlimin reviziyası, tənqidi vasitəsilə omuşdur-özünün insanlar tərəfindən dərk edilməsi və qəbulu üçün təqribən 50-300 il zaman tələb etmişdir.

Dünyəvi təkbaşçı hakimiyyətinə anoloji olaraq ruhanilər də allahın yalnız tək peyğəmbərlərlə danışa bilməsini, yalnız onlara göstəriş verməsi iddiasını irəli sürdülər. Halbuki belə baxış səhv və uydurma idi, dini hakimiyyət qurmağa yönəlmidi. Peyğəmbər kimi eyni cürə, hər qəbilə və xalqda, millətdə başqa insanlar da allahla "danışırdılar". İnsan xəbisliyi və avamlıqdan sui- istifadəsi göz qabağında idi. Buna misal, yəhudilikdə peyğəmbərləri yalançı və doğruçu peyğəmbərlər qrupuna bölmüşdülər. Əslində heç birisi yalançı deyildi, hamısı eyni idi. Digər bəzi yeni dinlərdə isə özünü peyğəmbər etmiş şəxlər bəzi rəvaytələrə görə özünü axırıncı peyğəmbər elan etmişdi və ya onun tərəfdarları belə xəbəri onun adından yaymışdılar, yenə də vahid dini hakimiyyət və nüfuz üçün. Bu zaman "axırıncı olmaq" ideyası məhz vasitə kimi seçilmişdir. Maraqlıdır ki, nə Zərdüşt, nə Mani, nə Bəhayi belə deməmişdi. Ona görə də insanlar xəbislik və şəxsi mənafe güdən peyğəmbərlər və onların ruhani müdafiəçiləri ilə həqiqi, həqiqət danışan - daim yeni peyğəmbərin meydana gəlməsini qəbul edən peyğəmbərləri və ruhaniləri bir - birindən seçməlidirlər. Yalançı və onlar kimi düşünməyən, özgələrə ölüm hökmü verən və icra edən belə peyğəmbərləri və müqəddəsləri rədd etməlidirlər. Deməliyəm ki, hansısa peyğəmbərin axırıncı olmasını ciddi cəhdlə şüurlara yeridilməsi peyğəmbərlərin özündən çox onun hesabına ruhanilik edənlərə - deməli, hakimiyyətə malik olanlara lazım olmuşdur. Oxşar olaraq kommunizm ideyası kommunist fırıldaqçılara, Şərqdə mədəniyyət yaymaq ideyası İsgəndərə, Avropada bütpərəstliyə qarşı mübarizə adı ilə avropa xalqlarının işğal edilməsi katolik kilsəsinə, terrorla mübarizə və ya demokratiya yaymaq ABŞa, və s.

bütün bu “əsaslar” hamısı hakimiyət və varlanmaq üçün **vasitə** rolunu oynamışdır. Xalqlar bunu anlamalıdırlar.

Nə qədər gülünc tələbdir, insanlar hamısı eyni cürə düşünə, eyni baxışları, dəyərləri qəbul edə bilərmi? Təbii coğrafi mühit insanları, eynilə insan birliklərini, xalqları (onların mədəniyyətini, adətlərini, qidalanmağını, geyinməyini, üz quruluşunu) zəruri olaraq müxtəlif edir. Buna qarşı durmaq, təbiətin qanunlarını pozmaq yalnız nadanlıqdır. Kim onlara səlahiyyət verib ki, başqa cür düşünənlərə ölüm hökmü versinlər və ya özləri kimi düşünməyi və yaşamaq tərzi seçməyə məcbur etsinlər. Onların özlərinin anlamadığı allah belə göstəriş verə bilməz. Belə peyğəmbər və ruhanilərin belənçi hamını özləri kimi düşünməyə, özü kimi ibadət etməyə, onların dediyi kimi paltar geyməyə və ancaq müəyyən bitki və canlıları yeməyə çağırması və məcbur etməsi özlərinin yaratdığı allah anlayışı ilə ziddiyyət təşkil edir. Əgər allah müəyyən qidalar yaratmışsa və yer kürəsinin müxtəlif yerlərində yerli sakinlərə uyğun qida təqdim etmişsə, sən peyğəmbər nə haqla onları yeməməyi, elə geyinməməyi tələb edirsən. Yəni sən düşünürsən ki, allah səhv edib və səni göndərib ki, onun səhvlərini düzəldəsən? Ən böyk ağıl və idrak sahibinin, yaradan və idarə edənin nəyinə lazımdır vəkil tutsun?Adamları bu qədər axmaq yerinə qoymaq necə mümkündür? Məsələn, masaylar üçün ən yaxşı paltar çılpaq olmaqdır, fransız üçün ən yaxşı qida qurbağadır, taylar üçün də tarakan və cücələrdir, ərəb üçün başı və hər yeri bağlamaq yaxşıdırsa, yer kürəsinin digər yerində isə bağlamamaq yaxşıdır. Demək, ruhandən soruşmaq lazımdır ki,dünyanı və hər şeyi yaradan və idarə edəni axmaq, özünü ağıllı hesab edirsən? Allahın yerdə “vəkili” allahın yaratdığını ləğv edir, allahı kənara atıb onu əvəz etməyə cəhd edir, özü də deyir ki “bunu mənə allah deyib”. Bu qədər də insanlıq əleyhinə, xam və gülünc hərəkət təsəvvür etmək olarmı? Öz milli mədəniyyətini, baxışlarını, adətlərini digər millətlərə yaymaq və qəbul etdirmək kultural universalizm adlanır. Təkcə dinlər deyil, bir çox dövlətlər, dünyəvi liderlər də bu işlə məşğul olmuşlar. Böyük İsgəndər, Çingiz xan, Hitler, Napoleon, Böyük Pyotr, Atilla, Teymurləng. Müasir inkişaf etmiş dövlətlər də belə edirlər. Məqsəd nədir? Bəlkə onlar könüllü və ya zorla yaydıqları mədəniyyəti digər xalqlara yaxşılıq emək üçün yayırlar, onlara yazıqları gəlir? Xeyr. Həm dini ruhanilərin, həm dövlətlərin məqsədi, həmin ölkələrdə siyasi iqtisadi hakimiyyətə sahib olmaq, onları daim və etibarlı surətdə istismar etməkdir, varlanmaqdır, onlar üzərində filosof Morqentaunun dediyi kimi dominantlığa malik olmaqdır.

***Dinləri bu günə qədər yaşadan və şüurlara yayan səbəb nədir?***

İndiyədək, 21-əsrə qədər tək ilahili dinlərin ölməməsi səbəbi:
**a)** görünməz dünyanın tamaşalarının, ruhların, səslərin yaratdığı qorxu hissi və bəzi hadisələrin naməlumluğu, biliksizlikdir.
**b)** Gənc nəslin doğulmasından sonra valideynlərin uşaqların beyninə dini uydurmaları özləri də anlamadan yeritmələri, əzbərlətmələridir. Uşaq vaxtından insana sırınmış bu ideyalar onun yadında həqiqət kimi qalır və unudulmur.
**c)** özünü təlqin və özünü inandırma metodundan dinin aktiv istifadə etməklə dini kitabları və fikirləri, duaları allah sözü kimi qələmə verməsi. Budur, əvvəl dindən uzaq olmuş gənclər, orta yaşlı qadın və kişilər dinə sitayiş etməyə başlayır, gündə 5 dəfə ibadət edir, dini duaları, ritualları təkrar edir, məscidə gedir, lazımı təbliğat dozasını dini ruhanidən alır. Sonra deyir ki, əhvalım, sağlamlaığım çox yaxşıdır, mənə çox faydalı təsir edir. Bəli, bu belədir. Lakin səbəb dini duaların, ibadətin düzgün, ilahidən olması deyil. Bu hadisədə insanın özünü təlqin etməsi və inandırması psixoloji hadisəsi baş verir. Burada hansı ki duaların, ibadət ritualının həqiqət, allahdan gəlməsi, yaxud yalan olmasının əhəmiyyəti yoxdur. Bu hadisə vaxtı insanlar sadəcə özləri özlərini aldadırlar. Dini rituallar və dualar hansı ki, məhz insanları aldatmaq, onları allah sözü ilə qələmə verməyə hesablanaraq ruhanilər tərəfindən konstruksiya edilib ki, daim insanları bu buxovda saxlasınlar.
**d)** dinlər yarandığı dövrünün fəlsəfi, təbiətşünaslıq, cəmiyyətn yaratdığı, adət etdiyi və ya arzu etdiyi əxlaqi prinsiplər, psixoloji - qorxu və ümid, dualarla özünü təlqin və inandırma, gipnoz, uzun dövr mövcud olmaq üçün müxtəlif xidmətlər göstərilməsi, daimi təbliğatın aparılması və ilkin şamanlıq və totemimdən və təcrübədən gələn prinsiplər, biliklər əsasında ağılla konstruksiya edildiyi üçün onlar ölmür. Din maşın kimi elə konstruksiya edilib ki, insanlar təbii qorxu və savadsızlıq, ümid hisslərinə görə onun qarmağına keçir və müştəriyə çevrilir, onun xidmətlərindən istifadə etməyə məcbur olurlar. O daim müştəri istehsal edir, müştəri qurtaran kimi dinin ölümü gələcək. Ruhanilər onu yaşatmaq üçün daim yeni elmi biliklərlə əsalandırılmağa, yeni izahlar verməyə çalışırlar. Məqsəd yenə də xalqların xoşbəxtliyi və fayda alması deyil, ruhaniliyin din vasitəsilə hakimiyyət və varlanmaq, ilahi haqda dünyagörüş vasitəsilə müftə gəlir almağı öz monopoliyasında saxlamasıdır. Başqa sözlə, dövlət və kapitalistlər əgər insanların *fiziki-zehni* qüvvəsini istismar

edərək gəlir alırsa, ruhanilər insanların *şüurunu* istismar etməklə gəlir alırlar.
Dini ibadətləri icra etdikcə və ruhaninin təbliğatını eşitdikcə insanda bu *şüurları idarə və təsir üsulunun* daşıdığı digər xalqlara və dinlərə, təriqətlərə inananlara qarşı nifrətin gizli proqramı da işləyir. Sonda bu ya digər dini ibadətləri edənlərdə başqa cür düşünənlərə, elm adamlarına, həqiqət adamlarına və digər dini müdafiə edənlərə qarşı dəyişməz nifrət və düşmənçilik yaranır. Nəticədə şüurları çevrilmiş, gerçəkliyi, elmi həqiqətləri qəbul etməyən (Psixiatr Karl Yunq dini kütləvi nevroz adlandırmışdır) və gələcəyi görə biməyən **nevroz kütlə** yaranır.

Ruhanilər görünməz varlıqlardan, ruhlardan sui istifadə edərək onlara səhv uydurma izahatlar verərək insanları daim qorxu altında saxlayır. Həmin ruhlara allah, mələk, cin, şeytan adı verərək onların ierarxiyasını qururlar, belə şeylərin gerçəkliyini öz uydurma nəzəriyyələrinin sübutu kimi qələmə verirlər. Bəzi insanlar isə tez ölməmək üçün, cənnətə getmək üçün, problemlərinin həll olunması üçün yalandan ibadət edirlər. Lakin onların heç biri əxlaq nümunəsi ola bilmir. Onlar heç cür xeyriyyəçiliyə qoşulmur, xəbis və paxıllıqdan, eqoismdən, vəzifəpərəstlik və varlanmaq həvəslərindən xilas olmurlar. Yaxşı halda onlar yalnız məçidlərin, kilsələrin ianə qutularına pul salırlar ki, o da ruhanilərin yüksək səviyyədə yaşamasına, hakimiyyətə keçməsi üçün əhalini küt saxlamaq üçün sərf olunur. İndi keçmiş sovet respublikalarının hamısında dini təbliğat xeyli artmış və çox miqdarda insanlar yenidən dinə qoşulmuşlar. Nəticədə dinə sitayiş etmədikləri sovet dövrünə nisbətən daha mənəviyyatsız, əxlaqı pozan qəddar, asanlıqla insanı öldürən, malını oğurlayan, aldadan, fırıldaqçı dini nəsil yetişmişdir.

Dinin yeni ağıl erasında kökünü və onun insanlara, şüurlara zərərli təsirini kəsmək üçün insanlar yeni rasional həyat tərzini qəbul etməli (bax hissə 4) və rasionallıq, humanizm, harmoniya, rasional əxlaq kodeksi və hamıya qayğı və hörmət prinsipi ilə yaşamalıdırlar. Dindən tamamilə imtina etməlidirlər. Öz əhvallarını, sağlamlıqlarını isə rasional qidalanmaqla və dini dua və rituallar əvəzinə elmi dualar və meditasiya ilə yaxşılaşdırmalıdırlar. Yaşamaq üçün din heç də vacib deyildir, bunu sovet həyat dövrü sübut etdi. Elm hər bir yaxşı üsulu və məsləhəti hazırlamışdır və hamıya azad təqdim edir. O din ruhaniləri kimi xəbis məqsədlər güdmür.

Ruhanilər naməlum elan etdikləri lakin ona özləri üçün faydalı xasələr yazdıqları ilahi **obyekti** öz şəxsi izahları, əlavələri və uydurmaları ilə o qədər gizlətmişlər ki, onu anlamağı dindar üçün

çətinləşdirmişlər. İlahi ideyasını yaradaraq ona xeyli subyektiv fikirlərini, əxlaq normasını, müxtəlif idarə, davranış normalarını onun adından əlavə etmişlər və özlərinə ondan rollar: vəkil, menecer vəzifələri almışlar. İnsanları maraqlandıran bu obyekti dərk etməkdən xeyli uzaqlaşdırmışlar. Bunu onlar qəsdən, yaxud bilmədən edirlər. Məqsəd odur ki, bu obyekti şəxsi yaşamaq üçün vasitəyə çevirsinlər. Görünür, yeni renesans, yeni maarifçilik, yeni elmi inqilab dövrü lazımdır ki, əsil həqiqəti açsın və bəşəriyyət həqiqətləri bilərək xilas olsun.

Bu xilas nədədir? – bu xilas 1) material dünyanı daim öyrənmək, öyrənmək üçün isə əvvəl hər bir biliyə şübhə etmək, sonra müstəqil həqiqəti öyrənib qəbul etmək; 2) görünməz surətlər dünyası ilə daim əlaqə saxlamaq və onunla bir taktda, harmoniyada yaşamaq, verilən məsləhətləri eşitmək, öz həyatını özün qurmaq, bunun üçün əvvəl ictimai sistemi kollektiv yaratmaq, qruplar və tək diktator hakimiyyətlərini ləğv etmək, diktatorları müdafiə edən və əslidnə faşist partiyasına çevrilmiş partiyaları baykot etmək, onlara üzvlükdən çıxmaq lazımdır, ictimai idarə qurmaq , ağıllı həyat tərzi ilə dünya ilə uyğunluqda yaşamaq lazımdır.

Çox ilahili dinlərdən tək ilahili dinə keçid ilahinin çox olması, yoxsa tək olması məsələsini həll etməmişdir. Əslində heç bir nəzəri irəliləyiş olmamışdır, bəlkə də geriyə bir addım atılmışdır. Tək ilahili dində ilahinin tək bir şəxsiyyətə malik ruh olması qəbul edilmiş və ona da köməkçi ilahilərin yaradan, idarəedən, seçən, qayğı göstərən funksiyaları- heç bir sübutlara və faktlara əsaslanmadan - yazılmışdır. Yuxarıda gördük ki, bu tanrı hesab ediləcək obyekt tək deyil, o çoxluqdur, yəni praktikada sizin bir məsələnizi həmişə eyni bir amil həll etmir, bu müxtəlif amillərin –çoxluğun nəticəsidir. Lakin daim müxtəlif amillərin kombinasiyası hərəkətverici, aparıcı qüvvə olaraq onların içərisində hər dəfə yeni bir amil aparıcı ali hərəkətverici qüvvə kimi çıxış edir. Başqa sözlə, əvvəlki çox ilahilər məhz çoxluğu əks etdirirdi, ona görə çox ilahilik, yəni onların vahid birliyi tanrıdır, hansı ki bizə- a) *fiziki dünya, b)keçid dünyası; c)görünməz(surətlər, formalar, ruhlar) dünya; insan şüurunda isə c)psixi aləm, ruhi aləm, ağıl- fikir aləmi* vasitəsilə özünü göstərir.

Beləliklə nəticə olaraq demək lazımdır ki, tək ilahi əsasında qurulmuş dinlər ilahi haqda subyektiv və sübutsuz, real həqiqəti əks etdirməyən 1400-2500 il əvvəlki fərziyyələr, səhv izahlar, baxışlar məcmusudur. Hazırda onlar siyasi din hesab edilə bilərlər, yalnız ilk 325 illik tarixdə xristian kilsəsi siyasi məqsəd güdməmişdir. İslam isə siyasi din (indiki terminlərlə partiya) kimi meydana gəlmişdir. İnduizm

və Buddizm, Konfuçilik, müəyyən qədər İnduizm tanrı, dünya və varlıqlar haqqında başqa dinlərlə müqayisədə daha obyektiv biliklər kimi qəbul edilə bilər. Hamısının əxlaq təlimi isə insan sivilizasiyalarının özünün tarix ərzində yaratdığı tezislərdən düzəldilmiş və dini normalara əlavə edilmişdir.

***Nəticə.***

Son nəticə olaraq demək istərdim ki, qədim dünyanın yaratdığı allah anlayışından yeni ağıllı bəşəri dünyada imtina etmək lazımdır. İndi biz bilirik ki, allah deyəndə nəyi başa düşmək lazımdır. Belə halda yaxşı olmazmı real şeylərin, hadisələrin - istər material, istər xəyali, istər virtual -öz adları ilə danışaq. Allah sözündə gizlədilmiş subyektiv mənaları özü ilə bərabər tarixin arxivinə verək, yəni bu sözü işlətməyək, çünki bu söz yeni zamanın, elm əsrinin sözü deyil. Onun adı ilə möhtəkirlik edən insanları və dinləri rədd edək. Alman filosofu Nitşenin düzgün aşkar etdiyi kimi allah artıq ölmüşdür. Onun ancaq adı qalmışdır, onun həqiqətdə ifadə etdiyi reallıq öz həqiqi adını almışdır və dərk edilmişdir və edilməkdədir, ona aid edilmiş uydurmalar isə özünü doğrultmamışdır. Allah və onunla bağlı xurufatı, insanlar arasında ayrılığı, düşmənçiliyi yaşadan amillər: - elmszlik, biliksizlik, məlumatsızlıq; ruhi aləmin həqiqi izahını bilməmək və onların ruhanilər tərəfindən biznes məqsədilə uydurlmuş anlayışlarına inanmaq; ölməkdən, problemlərdən və uğursuzluqlardan qorxu hissi; gələcəyin ilk baxışda qeyri –müəyyənliyidir. Məntiqi olaraq belə nəticə etmək olar ki, bəşəriyyət yeni *ağılla inkişaf* yoluna çıxması üçün insanlara təbiətin, ruhi aləmin elmi izahının öyrədilməsi, elmin geniş öyrənilməsi və gündəlik təbliği, savadlılığı kütləvi etmək lazımdır. Bununla bəşəriyyət böyük miqdarda problemlərdən xilas olacaq, hər insanın həyat keyfiyyəti sürətlə inkişaf edəcəkdir. Onların savadlılığı artandan sonra öz ictimai quruluşlarının eyiblərini, səhv idarəetməni, rüşvərxorluğu, diktatorluğu və diktatorun ayrıseçkiliyini, ağılsız idarəsini anlayacaqlar və mübarizəyə başlayacaqlar.

Danışıqlarda Allah ifadəsinin yerinə tamamilə məntiqi olaraq *ərz, mövcudluq, ağıl mənbəyi, hami, bizi qoruyan, yaşadan*" işlətmək, dara düşdükdə *ey ağlım, şüurum, ey tale, ey ərz, ey dostum* deyib müraciət etmək, meditasiya etdikdə bütün dünyanı habelə sizi əhatə edən mühiti bütöv təsəvvür edib düşünmək, özünə və davranışlarına qiymət vermək lazımdır. Müraciətlərinizdə, söhbətlərinizdə ərəb allahını deyil, türk xalqlarının tanrı adını istifadə etmək daha məsləhətdir. Çünki ərəb allahının adı Ayın adıdır (İl –illah) - bütpərəslik ilahisidir, türk tanrısı isə tamamilə düzgün olaraq göyləri, yəni bütün kainatı əks etdirir,

hansı ki avtonom və ierarxik strukturlu çoxluqdur. Əvvəldə qeyd etdiyim kimi bu çoxluq 3 dünyadan: 1.fiziki, 2. keçid və 3. formalar, surətlər, ruhlar, sahələr, boşluq dünyalarından ibarətdir.Köməksiz qaldıqda *ey tanrı, ey ruhlar* (tanıdığınız yaxın xeyirxah adamları və ya ümid etdiyiniz ruhu təsəvvür edin) deyib kömək xahiş edin.

İndiyədək bəşəriyyət qorxu, zorakılıq və "kökə" alətləri ilə qoyun kimi idarə olunurdu, əslində otarılırdı, onun sözü, mövqeyi əsasən eşidilmirdi, sayılmırdı. Təsadüfi deyildir ki, İsa deyirdi "siz sürüsünüz, mən çobanam, gəlmişəm sizi otaram"( 7 ). Bu günədək *sürü-çoban* konstruksiyalı ictimai idarə sistemi qalmışdır. Bu sistemdən birdəfəlik qurtarmaq lazımdır. İndi ağıllı- rasional həyat, rasional cəmiyyət dövrü gəlir. İndi həmin "sürü"- ağıllı, bilikli, elmli insanlar kollektividir – onların çobana ehtiyacı yoxdur. Həm də ağıllı adamlardan ibarət kollektivi idarə etmək üçün onların ağlından üstün elə bir çoban tapmaq mümkün deyildir. Digər tərəfdən həmin çoban rolunu hiylə ilə əlinə keçirmiş şəxs də dəhşətli dərəcədə yeni alətlərdən: ümumi elmdən, politologiyadan, zorakılıq elmindən, manipulyasiya, saxtakarlıq, formal seçgilər və uydurma demokratiyadan istifadə edərək bəşəriyyət, təbiət, xalqlar və kollektiv üçün çox zərərli ünsürə çevrilmişdir. Elə bir çoban yoxdur ki, insanı qoyun yerinə qoyub ondan maksimum şəxsi xeyir almasın. Əgər qoyundan çox xeyir almaq üçün onu yaxşı saxlamaq, yedirtmək, sulamaq, qorumaq lazımdırsa, bu yeni insan çobanları insanı əzməklə, alçaltmaqla, şərait yaratmamaqla, doğulandan ölənə qədər rüşvət almaqla, istismar etməklə ondan xeyir alırlar. Onlar təqribən 5- 10 min ildir ki, insanları öz çombaqları altına salmağı yaxşı öyrənmişlər.

Bundan sonra bəşəriyyət həqiqətləri sübut olunmuş mənbələrdən bilməklə, özü ağılla anlayaraq, bilərək, məqsədli optimal davranışlar seçəcək, özü öz iştirakı ilə kollektiv formada qanunları hazırlayacaq və özü kollektiv formada idarə edəcəkdir, özü öz həyatını quracaqdır. İnsanların başqa yönəldiciyə, ağıl vericiyə, izah ediciyə, qanun vericiə, idarəediciyə - bütün ondan sui - istifadə edənlərə, onun hesabına yaşayanlara, hakimiyyət tutanlara, siyasətçilərə ehtiyacı qalmayacaq və onları bir mftəxor sinif kimi rədd edəcəkdir.

Lakin bilin, müasir çobanlar məhz bəşəriyyətin biliksiz, savadsız, "sürü" kimi qalmasına çalışır ki, onlar daim çobandan asılı və ona möhtac olsunlar. Buna imkan vermək olmaz. Bəşəriyyətin bütün vicdanlı adamları və ağıllı əxlaqlı varlıları öz maliyyələri ilə elmin dövlət tabeçiliyindən çıxarılmasını və kütləvi savadlılıq üçün və elmin təbliği üçün öz pullarını sərf etməlidirlər. Bu halda onlar bəşəriyyət və öz xalqı üçün ən faydalı işi görmüş olarlar və tarixə adlarını yazarlar.

**Istinad mənbələri**


1. Avesta. Redaktor Məlahət Əsədova. Azərnəşr. Bakı.1995. 103 səh.
2. Murquzov Mirzəli M. Atom Fizikası 2000. Kür nəşriyyatı. Bakı. 466 səh
3. Новиков И.Д. Эволюция вселенной. «Наука», Москва, 1983. 190 стр. http://zaoch.pomorsu.ru
4. Медведев О.А. Магия целительства.1996.ИКТ Комплект, 200с.
5. Norman Melchert. The great conversation. A historical introduction to Philosofy. Mayfield publising company. London. 1999
6. Şükürov Ağayar. Fəlsəfə. 2-ci nəşr. Çıraq nəşriyyatı. Bakı. 2008, 490 səh.
7. Библия. Российское библейское общество.Москва. 1994.
8. Bell Wendell. Foundations of Futures Studies v1. 2005. Transactions publishers. London
9. Məmmədov M.M. Azərbaycan mifoloji mətnləri. Azərbaycan Dövlət Universiteti. Dissertasiya. 1998. 161 səh.
10. Большая энциклопедия Кирилла и Мефодия 2002 (БЭКМ-2002) , Москва. www.km.ru
11. Levi Vladimir. Fikir ardınca. Gənclik , Bakı. 1972. 311 səh
12. Fəlsəfə. Ensiklopedik lüğət. Azərbaycan ensiklopediyası nəşriyyat birliyi. 513 s. Bakı. 1997
13. Quran
14. Mehdi Tofiq. Həqiqətə pəncərə. Səda . Bakı 2008. 630 səh
15. Мифы нашего времени. http://ml.volny.edu/index.html.
16. Charls Frankel. The pleasures of philosophy. Norton & company Inc. New-York 1972 341 pages.,
17. Hikmət, № 13. Elmi araşdırmalar toplusu. 2008. Bakı İslam İran respublikasının səfirliyinin mədəniyyət mərkəzi.
18. The shorter katechisizm with scripture proofs. AFC publications. Viktoria, Australia. 32 pages.
19. Авеста в русских переводах. Рак И.В. Журнал Нева. С-т Петербург.1998, 480с
20. Краткий очерк истории философии. Иовчук М.Т. Мысль. Москва1981, 927 səh.
21. www.wikipedia.com